AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN UNİVERSİTETİ

DÜNYAMALI VƏLİYEV
iqtisad üzrə elmlər doktoru

AQİL ƏSƏDOV
iqtisad üzrə fəlsəfə doktoru, dosent

# BEYNƏLXALQ İQTİSADIYYAT

DƏRSLİK

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
29.09.1997-ci il tarixli 686 saylı əmri ilə təsdiq edilmiş və
qrif verilmişdir.

TƏKMİLLƏŞDİRİLMİŞ VƏ GENİŞLƏNDİRİLMİŞ İKİNCİ NƏŞR

"Avropa" nəşriyyatı
BAKI- 2012

Az-2
V-49

RƏYÇİLƏR:

jqrisad elmləri doktoru, professor İsa Alıyev

İqtisad elmləri doktoru Rövşən Quliyev

VM9. Dünyamalı Vəliyev, Aqil Əsədov “Bejməlxalq iqtisadiyyat”. Ali məktəblər üçün dərslik. Bakı, ^‘Avropa” nəşriyyatı, 2012, 400 səh.

Kitabda beynəlxalq ticarət nəzəriyyələri, beynəlxalq ticarət siyasəti, valyuta bazarı və valyuta sistemləri, maliyyə, kapital və işçi qüvvəsinin beynəlxalq hərəkəti, tədiyyə balansı və beynəlxalq inteqrasiyaya dair müasir nəzəri baxışlar, onların praktikada tətbiqi məsələləri, *qlobaUaşnm dövrüucb heytıatxalq iqtisacüyycain xüsusıyyətbn* kompleks şəkildə xarakterizə edilmişdir Müasir qloballaşma şəraitində Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sistemində iştirakı, eləcə də beynəlxalq interasiya proseslərində iştirakın daha da səmərəlİləşdirilməsi istiqamətləri faktiki materiallar əsasında ətraflı təhlil edilmişdir.

Kitab ali təhsilin bakalavr və magistr pilləsində beynəlxalq münasibətlər, dünya iqtisadiyyatı, menecment, maliyyə-kredit, beynəlxalq ticarət və s. ixtisaslar üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur Kitab, həmçinin beynəlxalq iqtisadi fəaliyyətlə əlaqədar müvafiq dövlət qurumlarında çalışanlar, dünya bazalanna çıxan iş adamları, i.xtisasartırma kurslarının dinləyiciləri, eləcə də müvafiq istiqamətlərdə elmi araşdırmalar aparan tədqiqatçılar üçün əhəmiyyətlidir.

4702060106
8032.2012 qrifli nəşr

‘Avropa” nəşriyj'atı, 2012

MÜNDƏRİCAT

GİRİŞ.......................................................................................6

**I HİSSƏ: Beynəlxalq iqtisadiyyat: nəzəriyyə, siyasət və reallıqlar**.........................................................ıı

FƏSİL 1. BEYNƏLXALQ İQTİSADİYYATIN TƏKAMCLÜ.FƏNNIN PREDMETİ .......................................................................12

IJ .Beynəlxalq iqtisadiyyat müasir iqtisadi nəzəriyyələr sistemində ..................! 2

1.2.............................................................................................

Beynəlxalq iqtisadiyyatin strukturu ................................................................,15

1.3.............................................................................................

Beynəlxalq iqtisadiyyat fənninin predmeti ... 17

AMILLƏR.

2.1. Beynəlxalq tictırotin iqtisadi əsaslan.............................................23

2.2. Beynəlxalq iqtisadiy>'atda tələb və təklif. .....................................25

2.3. İstehsal amillərinin beynəlxalq bölgüsü.........................................29

2.4. Dünya bazan və əmtəələrin beynəlxalq hərəkəti............................34

2.5. Dünya təsərmfatı və istehsal amillərinin beynəlxalq hərəkəti ....................................................................................36

FƏSIL3. BEYNƏİAALQ TİCARƏT NƏZƏRİY^'ƏLƏRİ _________ 41

3.1 Merkantilİ23n doktrinası ..................................................................41

3.2. Klassik beynəlxalq ticarət nəzəriyyələri..........................................42

3.3. Beynəlxalq ticarətdən əldə edilən qazanc və ticarət şərtləri...........46

3.4. Hekşer-Ohlinin istehsal amillərinin nisbəti vəziyyəti və Leontyev təzadı.....................................................................................50

3.5. Klassik beynəlxalq ticarət nəzəriyyələrinin inkişafı.......................53

3.6. Beynəlxalq rəqabət qabiliyyəti haqqmda nəzəriyyələr...................64

3.7. iqtisadi inkişaf və beynəlxalq ticai'ət..............................................82

FƏSIL 4. BEYNƏLXALQ TİCARƏT SİYASƏTİ.. ................................88

4.1. Beynəlxalq iqtisadi siyasət haqqında ümumi anlayış......................88

4.2. Beynəbcalq ticarətin gömrük-tarif tənzimləmələri .........................91

4.3. Göımiik tariflərinin tətbiqinin iqtisadi nəticələri ............................94

4.4. Xarici ticarət siyasətinin digər istiqamətləri: qeyri-tarif məhdudaşdırmaları ..........................................................................104

4.5. Xarici ticarətin beynəlxalq miqyasda tənzimlənməsi....................108

4.6. İnkişaf etməkdə olan ölkələrdə beyməLxalq ticai'ət siyasəti .. 113

FƏSİL 5. KAPITAL VƏ MALİYYƏNİN BEYNƏLXALQ HƏRƏKƏTİ118
5.1. Kapital və maliyyənin beynəlxalq hərəkətinin maliiyyəti və iqtisadi nəticələri ....118
5.2. Beynəbialq kapital hərəkəti nəzəriyyələri .... 121
5.3. Kapitalın beynəlxalq hərəkətinin formalaıı .... 126
5.4. Birbaşa xmici investisiyalar .... 130
5.5. Transmilli şirkətlər .... 134
5.6. Beynəlxalq kredit və dünya borc böhranı .... 142
5.7. Xarici borc problemi və onun aradıuı qaldınlmasına dair tədbirlər....154
FƏSİL 6. İŞÇİ QÜVVƏSİNİN BEYNƏLXALQ HƏRƏKƏTİ.... 157
6.1. İşçi qüvvəsinin beynəlxalq axınıım tarixi .... 157
6.2. Beynəlxalq əmək bazarı .... 158
6.3. İşçi qüvvəsinə olan tələb .... 159
6.4. İşçi qüw'-əsi təklifi .... 160
6.5. İşçi qüvvəsi axmmın iqtisadi nəticələri .... 161
FƏSİL 7. BEYNƏLXAQ İQTİSADİ İNTEQRASİYA....165
7.1. Beynəlxalq iqtisadi inteqrasiya anlayışı ....165
7.2. İqtisadi bhiəşmələr nəzəriyyələri .... 166
7.3. Beynəlxalq iqtisadi inteqrasiyasının əsas formaları .... 172
7.4. Avropa İqisadi Birliyi .... 175
7.5. Dünyada digər iqtisadi birləşmələr .... 185
FƏSİL 8. BEYNƏLXALQ VAİ.YUTA SİSTEMİ VƏ VALYUTA MƏZƏNNƏSİ ....194
8.1. Beynəlxalq valyuta sistemləri ....194
8.2. Valyuta və valyuta bazarlan haqqmda ümumi anlayış .... 209
8.3. Valyuta məzəmıəsi .... 214
8.4. Valyuta məzənnəsinə təsir edən amillər .... 219
8.5. Valyuta siyasəti .... 222
8.6. Beynəlxalq nəqdiyyə (likvid) ehtiyatlan .... 223
FƏSİL 9. TƏDİYYƏ BALANSI ....226
9.1. Tədiyyə balansınm mahiyyəti ....226
9.2. Tədiyyə balansı üzrə uçot aparılmasmın prinsip və qaydalan.... 228
9.3. Tədiyyə balansında tarazlıq və kəsir anlayışı ....231
9.4. Tədiyyə balansının strukturu....232
9.5. Azərbaycan Respublikasmm tədiyyə balansının aktual problemləri 238
9.6. Tədiyyə balansının tənzimlənmə mexanizmi....251

Fasü 10. QIX>BALI^MA DÖVRÜNDƏ BFYNƏIAALQ İQ'IİSA-DİYYATIN XİISUSİYYƏrLƏRİ ________________________ 258
10.1 Qlobal iqtisadiyyatın əsaslan ........................................................258
10.2. Qlobal iqtisadi iıteqrasiy'a proseslərinin nəzəri əsaslan .............272
10.3 Qlobal maliyyə böhranm mahiyv'əti. səbəbləri və təzahür fornıa-lan..................................................^... ’ ......................................277
10.4. Qloballaşma və milli dövlətlərin mənafeləri ...........................288
10.5. Beynəlxalq iqtisadi>7ata inteqrasiya saliəsində xarici ölkələrin təcıübəsi .................................................................................................295

**IT HİSSƏ: Azərbaycan Respublikası beynəlxalq** əlaqələr sistemində.........................................................................305
FƏSIL 1. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİ .......................................................................................306
1.1. Azərbaycanın xarici ticarət əlaqələri sovet hakimiyyəti illərində. 306
1.2. Müstəqil Azərbaycanda xarici ticarət əlaqələrinin liberallasdınl-ması .......................................................................................................309
1.3. Azərbaycan Respublikasında xarici ticarətin inkişaf dinamikası...321
FƏSİL 2. AZƏRBAYCAN RESPUBLİKASININ KAPİTAL VƏ MALIYYƏNIN BEYNƏLXALQ HƏRƏKƏTINDƏ İŞTİRAKI ..........................................................................................330
2.1. Xarici investisiya .sahəsində dövlət siyasəti.................................330
2.2. Beynəlxalq kredit və Azərbaycanda xarici borc problemi ...........339
2.3. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətliliyi..344
FƏSIL 3. AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİ SİSTEMİNDƏ ....................................................................................353
3. l.TRACECA proqramı və regionda nəqliyyat sisteminin inkişafı..353
3.2. Şimal-Cənub nəqliyyat dəhlizi .....................................................363
3.3. Bakı-Tbilisi-Ccyhan neft kəməri ...................................................367
3.4. Azərbaycanda nəqliyyat sisteminin inkişafı .................................369
3.5. Rabitə və infoımasiya texnologiyalarının inkişafı ........................387
Tövsiyə edilən ədəbiyyatlar ................................................................393

# GİRİŞ

Beynəlxalq iqtisadiyyat və beynəlxalq iqtisadi münasibətlər, bu münasibətləri doğuran səbəblər və onların nəticələri daim diqqət tələb edən ciddi ictimai problemlərdəndir Bu və ya digər ölkənin sürətlə sənayeləşməsində, yüksək həyat səviyyəsinin təmin olunmasında beynəlxalq əmək bölgüsünün nə dərəcədə müsbət rol oynadığı iqtisadi tarixdən yaxşı məlumdur. Lakin, o da yaxşı məlumdur ki, beynəlxalq əmək bölgüsünün faydaları dünya dövlətləri arasında heç də ədalətlə bölünmür və bir sıra hallarda bəzi dövlətlər beynəlxalq əlaqələrdən fayda əldə etmək əvəzinə, ciddi problemlərlə qarşılaşırlar.

iMəlum olduğu kimi, mürəkkəb və çoxtərəfli sistemə malik olan dünya ba.zarı daim hərəkətdə, təkamüldə olan bir sistemdir Bu dinamikliyin hərəkətverici qüvvəsini dünyada yeni istehlak sahələrinin açılması, istehsal sferasında yeni texnoloji əlaqələrin və onun tənzimlənməsinin hüquqi əsaslarının yeniləşməsi təşkil edir. Dünya təsərrüfatı sistemində hər şey qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq vəziyyətindədir. Daim hərəkətdə olan bu sistemə yeni qoşulan hər bir ölkə bu sistemdə hazırki şəraitdə mövcud olan rəqabət vəziyyətinə uyğunlaşmaq məcburiyyətindədir.

Azərbaycanın müstəqillik yoluna qədəm qoyması ölkəmizdə dərin və mürəkkəb siyasi-iqtisadi islahatların başlanması üçün real şərait yaratdı. Bu islahatların ən mühüm və ən real nailiyyətlərindən biri sovet dövründə uzun illər mövcud olmuş “dəmir pərdələrin” aradan qaldırılması və respublikamızda açıq iqtisadiyyatın əsaslarının qoyulmasıdır. Açıq iqtisadiyyat prinsipləri əsasında beynəlxalq iqtisadi inteqrasiya prosesinin sürətlənməsi və dünya bazan ilə qarşılıqlı əlaqələrin genişlənməsi respublikanın ictimai həyatında, istehsal və istehlakda köklü dəyişikliklərə yol açır, müasir dünya haqqında əhalinin təsəvvürlərini ciddi surətdə dəyişdirir, dünya reallıqlarına uyğunlaşdınr, eyni zamanda, öz növbəsində, yeni problemlər yaradır.

Azərbaycan Cənubi Qafqaz regionunda ərazisinin böyüklüyünə və əhali-sinin sayına görə ən böyük ölkədir. Sahəsi 86,6 min.kv.km, əhalisi 9,0 milyon nəfərdən çoxdur. Çox əlverişli fiziki-coğrafi, iqtisadi-coğrafi, geosiyasi mövqeyə malikdir. Dünyanın 11 iqlim tipindən 9-u Azərbaycanda olmaqla, iqlimin 65 faizi subtropik, 33 faizi isə mülayim xarakterlidir.

Ötən dövrün statistik mənzərəsinə nəzər saldıqda aydın olur ki, yalnız 1995-2003-cü illər ərzində ÜDM-in orta illik artımı 9 % , adambaşına düşən ÜDM artımı 3 dəfə, özəl sektorun ÜDM-də payı 2 dəfədən çox artaraq 73% təşkil etmiş, dövlət büdcəsinin gəlirləri 3 dəfə, oıta aylıq real əmək haqqı 5,6 dəfə, xarici investisiya qoyuluşları 10, daxili investisiya qoyuluşları isə 5 dəfə artmış, Cənubi-Qafqaz iqtisadiyyatında müstəqil Azərbaycan Respublikasının payı 50 faizi ötüb keçmişdir.

2004-2011-ci ilbr orzindo iso həyata keçirilmiş uğurlu iqtisadi siyasət nəticəsində, ÜDM-in orta illik arlımı 14 % , o cümlədən qeyri-neft ÜDM-də 9% olmuşdur. Eyni zamanda, adambaşına düşən İJDM 2004-cü ilə nisbətən 5 dəfə artmış, özəl sektorun ÜDM-də payı 81,7 %-ə çatmış, xarici borcun ÜDM-ə nisbəti 18%-dən 7 %-o qədər aşağı düşmüşdür

Bu dövrdə ölkə iqtisadiyyatına cəmi investisiya qoyuluşları 2.4 dəfə, o cümlədən xarici investisiya qoyuluşları 1,5, daxili investisiya qoyuluşları isə 5,5 dəfəyə qədər artmış, ölkənin strateji valyuta ehtiyatlan 2003-cü ilə nisbətən 15,4 dəfədən artıq yüksələrək 2011-cl ilin sonuna 40 milyard ABŞ dollarını ötmüşdür. Xarici ticarət dövriyyəsi 2003-cü il ilə müqayisədə 2010-cu ildə 5 dəfədən çox, o cümlədən ixrac 8 dəfədən çox artmış, ticarət saldosu 2004-cü ildən başlayaraq müsbət olmuşdur Bu dövrdə xarici ticarət dövriyyəsinin 57,7%-i, **o** cümlədən ixracın 59,1%-i Avropa ölkələrinin payına düşmüşdür;

Azərbaycan Respublikası, qeyd edildiyi kimi, əlverişli coğrafi mövqeyə, zəngin və rəngarəng təbii şəraitə və təbii ehtiyatlara malik olduğundan çoxnövlü təsərrüfat sahələri ilə tanınır. Belə təsərrüfat sahələrindən yanacaq - energetika, metallurgiya, maşınqayırma və metal emal, kimya və neft-kimya, tikinti male- riallan istehsalı, meşə, xalq istehlakı mallan (yeyinti, yüngül), ASK komplekslərini nəqliyyat və rabitəni və s. göstərə bilərik.

Azərbaycanda 2003-2011-ci illərdə bütövlükdə iqtisadiyyatın dinamik inkişafı, beynəlxalq iqtisadi münasibətlərin qurulması, sahibkarlığın, qeyri-neft sektorunun, infrastaıktuRin, regionların intensiv inkişaf etdirilməsi, yoxsulluğun azaldılması, təhsilin, səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi və s. sahələrdə beynəlxalq iqtisadi, maliyyə institutları tərəfindən də birmənalı qəbul edilən böyük nailiyyətlər əldə edilmişdir. Digər tərəfdən isə qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı bank və kredit sistemi ilə bir o qədər də yüksək dərəcədə inteqrasiya olunmayıb. Ona görə də gözləmək olar ki, əgər fövqəladə hallar baş verməsə, Azərbaycan dünya ölkələrini əhatə edən maliyyə problemlərinin az təsirinə məruz qalacaq. Bu, birinci növbədə onunla bağlıdır ki, Azərbaycanın bir tərəfdən ehtiyatla idarə olunan iqtisadi sistem formalaşıb və digər tərəfdən qlobal yanacaq-enerji layihələrini təmin edəcək karbohidrogen sərvətlərinə malikdir.

Azərbaycan üçün ən böyük təhlükə böhranlı bazarların getdikcə daha çox genişlənməsi və real sektorun, bank, sığorta və s. sahələrin nisbətən aşağı rəqabət qabiliyyətli olmasıdır Azərbaycanda son illərdə dünya standartlanna uyğun yol infrastrukturunu yaratmaq və Böyük İpək Yolunun bərpası üçün alınan uzun müddətli və aşağı faizli kreditlər ölkənin manevr imkanlarını məhdudlaşdırsa da, elə də dağıdıcı nəticələr gözləmək düzgün olmazdı.

Beynəlxalq iqtisadiyyat geniş mənada qarşılıqlı əlaqədai' və asılı olan müasir dünya iqtisadiyyatını öyrənən elmdir. O, bazar iqtisadiyyatı nəzəriyyəsinə əsaslanır, onu inkişaf etdirir, makroiqtisadiyyat və mikroiqtisadiyyat, habelə digər tətbiqi iqtisadi>7at (beynəlxalq maliyə, beynəlxalq marketinq, uçot və s.) fənlərinin mühüm əlaqələndirici həlqəsidir. İqtisadi əlaqələrin artdığı bir şəraitdə

beynəlxalq iqtisadiyyat elminin əhəmiyyəti həmin fənlərin çərçivəsindən çox kənarlaşır.

Təqdim olunan dərslikdə müxtəlif ölkələrin beynəlxalq əmtəə mübadiləsi, istehsal amillərinin hərəkəti və dövlətin be>məlxalq iqtisadi siyasətinin əsasları bazar iqtisadiyyatı nəzəriyyəsinin tərkib hissəsi kimi öyrənilir.

Bütün postsosialist ölkələrində, o cümlədən Azərbaycanda getdikcə daha aydın dərk edilir ki, yalnız bazar iqtisadiyyatının bütün atributlarının ardıcıllıqla tətbiq olunmasından və beynəlxalq birliyə inteqrasiya prosesinin gedişindən asılıdır. Onların gedişi isə, bütün digər şərtlər daxilində, həlledici dərəcədə bazar iqtisadiyyatı və beynəlxalq iqtisadiyyat haqqında müasir biliklərin yayılması gedişindən, həmin bilikləri geniş əhali kütlələrinin mənimsəmə səviyyəsindən, bu sahədə yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasından asılıdır.

Son illərdə iqtisadi düşüncə sahəsində mövcud olan müasir ümumbəşəri dəyərlər Azərbaycana yol açmağa başlamışdır. Qərbdə mövcud olan zəngin iqtisadi ədəbiyyat həm ingilis, həm də Rus dilindən tərcümə olunaraq respublikamıza daxil olur. Lakin, bu orijinal kitablar məhdud miqdardadır və həmin kitablarda inkişaf etmiş bazar iqtisadiyyatının problemləri araşdırılır. Ona görə də Azərbaycan dilində və Azərbaycanını reallıqlarına uyğun olan, müasir iqtisadi düşüncələr əsasında dərsliklərin hazırlanması bu gün respublikamızda həyati əhəmiyyət kəsb edən məsələlərdəndir.

Getdikcə daha aydın başa düşülür ki, ümumi iqtisadi inkişaf qanunlarına malik və bir-birindən qarşılıqlı asılılıq şəraitində olan müasir dünya bir tam kimi öyrənilməlidir. Respublika iqtisadiyyatının ümumdünya təsərrüfatı ilə çoxşaxəli və intensiv inteqrasiyası müstəqil Azərbaycanın rəsmi dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Bu siyasət Azərbaycanda mövcud olan bütün siyasi qüvvələr tərəfindən fəal surətdə dəstəklənir və heç kəsdə şübhə doğurmur. Çünki hamıya yaxşı məlumdur ki, əsrlər bojoı beynəlxalq əmək bölgüsündə fəal iştirak edən xalqlar sosial-iqtisadi tərəqqiyə daha çox nail olmuş və özü ilə eyni təbii şəraitdə olan ölkələri ictimai inkişaf baxımından həmişə qabaqlamışdır. Cəmiyyətin sürətli inkişafında yalnız təbii ehtiyatların (neft, qaz və s.) deyil, intellektual və elmi-texniki potensialın həlledici amilə çevrildiyi müasir şəraitdə bu məsələ özünü daha aydınlığı ilə bi-ruzə verir. Dünyada mövcud olan elmi-texniki informasiyadan istifadə etmək imkanları və bu sahədə milli potensialın imkişaf etdirilməsi, yalmz beynəlxalq iqtsadi və elmi-texniki əlaqələrdə fəal və səriştəli iştirak etmək yolu ilə təmin oluna bilər. 70 il beynəlxalq aləmdən təcrid olunmuş Azərbaycanın müasir şəraitdə mürəkkəb dünya təsərrüfatı sistemi ilə necə inteqrasiya edəcəyi və ümumdünya iqtsadi əlaqələri sistemində respublikamızın bu gün tutduğu yer ictimayyətin ciddi diqqət mərkəzindədir. Müasir mərhələdə hər hansı bir dövlətin getdikcə genişlənən xarici iqtisadi əlaqələrinin bazar iqtisadiyyatının prinsipləri əsasında idarə olunması və bu yolla bəşəri ehtiyatlardan bütün dünyada iqtisadi və sosial tərəqqi üçün daha səmərəli istifadə edilməsi çox vacibdir. Tamamilə aydındır ki, ölkənin gələcəyi üçün həyati əhəmiyyət kəsb edən xarici iqtisadi siya.səiin

totalitar rejimdən qalmış ehkamlarla müəyyənləşdirilməsi yol verilməzdir. Ona görə də bu problemlər haqqında mövcud olan müasir biliklərinin dərindən öyrənilməsi, xarici iqtisadi əlaqələrin elmi əsaslarla müəyyənləşdirilərək həyata keçirilməsi olduqca böyük əhəmiyyətə malikdir.

XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələyə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qlobal proseslər inkişaf səviyyələrində, din və mədəni>7ətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmarayaq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artınr. Bu proseslər xaiqlann və bütövlükdə sivilizasiyanın taleyini həlledici dərəcədə müəyyən etməyə başlamışdır

İqtisadi, siyasi və mədəni-mənəvi proseslərdə özünü göstərən dərin qloballaşma təmayülü iqtisadi qloballaşmada daha böyük sıçrayışla gedir və digər prosesləri də öz arxasınca aparır. Təsadüfi deyildir ki, artıq siyasət getdikcə daha çox iqtisadiləşmişdir. İqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləlləşməsi demək deyildir, həmin prosesin yeni və yüksək mərhələsidir.

Keçid iqtisadiyyatı ölkələri müstəqillik uğrunda mübarizəni iki mühüm prosesin; iqtisadi transformasiya və qloballaşma proseslərinin təsiri altında aparırlar. İqtisadi transformasiya prosesləri artıq başa çatmaq üzrə olduğu halda, qloballaşma onların iqtisadiyyatına və iqtisadi siyasətinə getdikcə daha çox təsir göstərir.

Ona görə də ictimai inkişafın müasir təmayülləri ictimai-iqtisadi inkişaf problemlərinə getdikcə daha çox qlobal yanaşma tərzini tələb edir. Hər hansı bir ölkədə gedən daxili proseslər özünün məzmunu və forması baxımından çoxsaylı səciyyəvi cəhətlərinə baxmayaraq, təcrid olunmuş şəkildə cərəyan elmir. Qloballaşmamn planetar mahiyyət kəsb etdiyi və dönməz xarakter aldığı bir dövrdə həmin proseslər insan cəmiyyətinin müasir tarixi inkişafı gedişinin aparıcı istiqamətini təşkil edir. Ona görə də həyat bütün kəskinliyi ilə tələb edir ki, ölkənin spesifik xüsusiyyətləri qloballaşma-nm doğurduğu yeni şəraitlə sıx sürətdə əlaqələndirilsin. Müasir iqtisadi, sosial və siyasi problemlərə qlobal yanaşma tərzinin üstünlüyü onda deyil ki, belə yanaşma tərzi bütün qoyulan suallara dərhal düzgün cavab verməyə çalışır, həm də ondadır ki, bu sualları düzgün qoymağa imkan verir.

Beləliklə, hər hansı bir ölkədə konkret iqtisadi və sosial transformasi-yalann konkret bir ərazidə daxili sosial-iqtisadi qüvvələrin və proseslərin təsiri altında baş verdiyinə baxmayaraq, həmin transformasiyaları doğuran səbəblərə, onlann mahiyyəti və inkişaf perspektivlərinə, milli və dünya problem-lərinin çulğaşdığı müasir dövrdə, yalnız həmin ölkənin daxili prizmasından baxılması kifayət deyil və yanlış nəticələrə gətirib çıxara bilər.

İstehsal və mübadilənin müasir xarakteri, miqyası və onların nəticələrinin ölkələrarası bölgüsü tələb edir ki, ayrıca götürülmüş hər bir ölkədə geniş tək-rar istehsalının zəruri və ilkin şərtlərinin həmin ölkənin beynəlxalq maliyyə-iqtisad i mühitdə iştirakı, həmin mühitə uyğunlaşma mövqeyindən nəzərdən keçirilsin. Müasir ümumdünya təsəmifatı vahid istehsal sferası kimi, yalmz bu və ya digər

təsorrüfat sahi^sinin iqtisadi səmərəliliyi hesablanarkən nəzərə alınmır, həmçinin ümumbəşəri xarakter almış ərzaq, xammal, enerji, demo-qrafiya, ekologiya və s. kimi ciddi problemlərin həll edilməsi məqsədilə də daim diqqət mərkəzindədir.

Müstəqillik əldə etmiş ölkələrin siyasi, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf problemləri .xarici iqtisadi əlaqələri, onlann dünya bazanna inteqrasi-yası ilə iqtisadi inkişaf mexanizmi arasındakı qarşılıqlı əlaqə və asılılıq qloballaşma dövründə xüsusi aktuallıq kəsb etmişdir.

Bütün bunlar insanların dünya görimüşünün, ixtisas və biliklərinin yeniləşməsini tələb edir.

Beynəlxalq iqtsadi fəaliyyətin və beynəlxalq biznesin bütün incəliklərinin öyrənilməsi respublika təsərrüfatının bazar iqtisadiyyatı şəraitində mənfəətlə idarə olunması, tərəqqiyə qovuşdurulması üçün müstəsna əhəmiyyətə malikdir. Həmin biliklərin respublikanın təİısil ocaqlannda müvəffəqiyyətlə tədris edilməsi üçün müasir anlayışlara uyğun dərslik və dərs vəsaitlərinin hazırlanıb nəşr olunması olduqca vacibdir

Bu baxımdan “Beynəlxalq iqtisadiyyat” dərsliyi mühüm əhəmiyyət kəsb edir. Kitab müasir elmi ədəbiyyatlardan və araşdırma metodlarından istifadə edilərək hazırlanmışdır.

Oxuculara təqdim olunan kitab, bu gün Azərbaycanda təhsil alan bakalavrlar, xüsusilə iqtisadçılar, dünya iqtisadiyyatı, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq ticarət və s. ixtisaslar üçün çox vacibdir Şübhəsiz ki, kitab gələcək iqtisadçı kadrlara beynəlxalq iqtisadiyyatın incəliklərini öyrənmək üçün faydalı olacaqdır. Dərsliyin gələcəkdə, daha da təkmil variantda hazırlanması üçün, rəy və təkliflərini bildirən oxuculara, əvvəlcədən minnətdarlığımızı bildiririk.

Kraail; d.vaiiyev@rambler.ru

**Dünyamalı Vəliyev**
iqtisad üzrə elmlər doktoru
**Aqil Əsədov**
İqtisad elmləri namizədi, dosent

# Beynəlxalq iqtisadiyyat: nəzəriyyə, siyasət və reallıqlar

FƏSIL 1

# BEYNƏLXA1.Q İQTİSADİYYATIN TƏK AIVRİLÜ. FƏNNİN PREDMETİ

## 1.1. Beynəlxalq iqtisadiyyat müasir iqtisadi nəzəriyyələr sistemində

Müasir dünyada bütün növ əmtəələri istehsal etmək, eləcə də bütün növ istehsal amillərini yaratmaq və təkmilləşdirmək ən zəngin dövlətlərin belə qüvvəsi çərçivəsində deyildir. Beynəlxalq iqtisadiyyatın mövcud mexanizmləri isə bütün dövlətlərə bu məqsədə çatmaq üçün təminat vermək imkamna malikdir. Bu baxmıdan beynəlxalq iqtisadiyyatın inkişaf qanunauyğunluqlannın öyiənilməsi və qabaqcıl təcrübənin ayrı- ayrı dövlətlərdə tətbiq edilməsi sürətli intec)rasiya prosesləri ilə xarakterizə edilən qloballaşma dövrünün başlıca tələblərindən biridir.

Beynəlxalq iqtisadivvatm yaranması - 1930-cu illərin bütün dünyanı sarsıdan dərin böhranları və II Dünya müharibəsi zamanı baş verən dəyişikliklər nəticəsində dünya təsəiTüfatmda ciddi problemlər yarandı. Belə ki, ölkələr biri-biriylə ticarət mübarizələrinə qoşulmağa başlanuş, ticarət himayədarlığı baş qaldırmış, valyuta məhdudiyyətləri tətbiq olunmuşdur.

XX əsrin ortalarından etibarən dünya iqtisadçılan belə bir fikri müdafiə edirdilər ki, dünya təsərrüfatı bütün ölkələr üçün ümumi olan əlaqələndirmə və idarəetmə mexanizmi olmadan dayanıqlı halda fəaliyyət göstəmıək imkanında deyildir. Elə həmin dövrdən də başlayaraq ayn-ayn iri firmalar mikrosəviyyədə təkrar istehsal proseslərinin idarə olunması Üzrə şaquli idarəetmə sxemi yaratmağa başladılar. Onlar bir çox dünya ölkələrində özlərinə müştəri toplamaqla, tədıicən transmilli korporasiyalar (TMK) səviyyəsinə çatmağa nail oldular. Beləliklə də, onilliklər ərzində dünyanm iqtisadi inkişafını mikrosəviyyədə müşahidə etmək imkanı verən beynəlxalq iqtisadi və maliyyə birlikləri yarandı. Məhz bu təşkilatlar dünya ölkələrini ehtimal edilən qeyri-balansh hallar barədə xəbərdar etmək, lazım olduğu halda hərtərəfli dəstək vermək ünkanlaraıa malik idi. Bu təşkilatlaın siyahısma Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB), Dünya ticarət mərkəzi, Birləşmiş Millətlər Təşkilatı, eləcə də Avropada bir neçə birliklər və s. daxil idi.

Dövlətin iqtisadiyyata müdaxiləsinin zəruri olmadığı haqqında iqtisadi fikirlərin davam etdiyi bir dövrdə, ingilis alimi Con Meynard Keynisin

elmi təlimləri yeni bir istiqamətin - kcynsçiliyin yaranmasma gətirdi. Müasir makroiqtisadiyyatın, eləcə də dünya iqtisadiyyatının tonzim- lənməsimn əsasını qoyan C.Keyns, müasir döwümüzdə də dövlətin iqtisadi proseslərə müdaxiləsinin müəyyən edilməsi baxmımdan aktual sayılan bəzi məsələlər qoymuşdur. Məhz o, Bretton-Vuds institutlarının yaradılmasma dair razılaşmal arm (BVF və Dünya Bankmm) müəlliflərindən və idcoloqlanndan biri olmuşdur. Bu təşkilatlar müharibə illərində dövlətlərarası iqtisadi münasibətlərdə tənzimləməni həyala keçirmək məqsədilə yaradılmış və hal-hazırda da aparıcısı beynəlxalq təşkilatlar hesab olunur.

Nəhayət dünyada gedən siyasi proseslər nəticəsində 1988-90-cı illərdə yeni iqtisadi sistemə keçid bütün dünya ölkələri ilə yeni iqtisadi münasibətlərin yaranmasına səbəb oldu. Müasir dünya ölkələrinin çoxu öz iqtisadi siyasətini bu və ya digər formada açıq iqtisadiyyat prinsipləri əsasında qurmağa çalışırlar.

Bütün bunlai' belə bir nəticə çıxarmağa imkan verir ki, XX əsrin ll-ci yansında bazar iqtisadiy>'atı dünya təsərrüfatında yeni, daha yüksək mərhələyə keçmiş və özünün apancı beynəlxalq səviyyəsinə çatnuşdır. Beynəlxalq iqtisadiyyatın əsas xaıakterik xüsusiyyətləri bunlar he.sab olunur:

1) beynəlxalq ticarət əsasında əmtəələrin mübadilə proseslərinin inkişafı;

2) kapitalm, iş qüvvəsinin və texnologiyamn idxal-ixracı nəticəsində istehsal amillərinin beynəlxalq hərəkətliliyinin təmin edilməsi;

3) bir neçə ölkədə fəaliyyət göstərən müəssisələr, ilk növbədə transmilli korporasiyalar çərçivəsində istehsahn beynəlxalq formalarmm inkişafi;

4) əmtəə və istehsal amillərinin beynəlxalq hərokətliliyindən asılı olmayan, sərbəst beynəlxalq maliyyə sferasınm mövcudluğu;

5) iqtisadi inkişafm sabitliyi və tarazlığının təmin edihnəsi məqsədilə millətlərarası və daxili, dövlətlərarası və qeyri-dövlət tənzimləmə mexanizmlərinin yaranması;

6) açıq iqtisadiyyat prinsipindən çıxış edən dövlətlərin iqtisadi siyasəti və s.

Qeyd olunqduğu kimi beynəlxalq iqtisadi nəzəriyyənin əsas predmeti istehsal amilləri və əmtəələr üzrə tələb və təklifin formalaşmasının qanunauyğunluğu hesab olunur. Beynəlxalq iqtisadiyyat bu predmet çərçivəsində nəinki dünya bazarım səciyyələndirən ük 3 əlamət (1;2;3) ilə, eyni zamanda təkmilləşdirilmiş 3 yeni əlamətlə də (4-6) təsnif olunur.

Beləliklə də, əgər l əlamət dünya bazan üçün əsas xarakter sayılırsa, 1- 111 əlamətin məcmusu dünya təsərrüfatmı səciyyələndirir, I-VI əlamət isə bütövlükdə dünya iqtisadiyyatı üçün əsas xüsusi^'yət sayılır.

Beynəlxalq iqtisadiyyat (intemational economics) - beynəlxalq əmtəə mübadiləsi sahəsində istehsal amillərinin hərəkəthliyini, bc>ıiəlxalq iqtisadi siyasətin fomıalaşması sahəsində ayn-a>Ti dövlətlərə məxsus təsərrüfat subyektlərinin qarşılıqh əlaqəsinin qanunauyğunluqlarını öyrənən bazar iqtisadiyyatı nəzəriy>'əsinin bir hissəsidir.

Beynəlxalq iqtisadiyyat müasir iqtisadi nəzəriyyələr sistemində -Beynəlxalq iqtisadiyyat bazar iqtisadiyyatının aynhıaz tərkib hissəsi kimi, son onilliklər ərzində iqtisad elmlərinin keçdiyi nəzəri dəyişikliklərin və «hoyəcanlann» ağırlıqlarını özündə əks etdirü.

Çoxsaylı nəzəri fikrə malik məktəblər, mürəkkəb makıoiqtisadi proseslərin modelləşdirihuəsi yönüraündə apanhmş geniş həcmli tədqiqatlar, fundamental problemlərin analizi, tətbiqi, iqtisadi məsələlərin həlli üsullan bütün ölkələrin iqtisadi bölgüsü də nəzərə aluunaqla, iqtisadi saliələr, müəssisələr və fərdlər üçün faydalı olmuşdur. Mükəmməl əhatəliyə iddia etməyərək biz beynəlxalq iqtisadiyyat salıəsindəki fikirlərdə incəlikləri nəzərdən keçirəcəyiic. Çünki bunlar iqtisad elmi üçün bir növ «müqəddəs» hesab olunur.

Müasir makroiqtisadi məktəbləri ümumi şəıti səviyy'əyə görə 3 əsas qrupa bölmək olar,

« *Neoklassik məktəb* - müasir neoklassik iqtisadi nəzəriyyə makroiqtisadi faktlar və onlar arasındakı qarşılıqlı əlaqələri izah edən ümumi məcmu tələb və təklifin tarazlığma əsaslanan ilkin ideyalara əsaslanır. Onun modeli belə bir ehtimala əsaslamr ki, qiymətlər tələb və təklifin taıazlığma gətirib çıxanr və iqtisadi subyektlərin fəaliyyəti həmişə optimaldn-, rəqabət və bazar isə mükəmməldii-. Dövlətin iqtisadiyyata müdaxiləsi məqsədəuyğun hesab olunmur və bu addun tələb və təklif balansma yalmz yanlış təsir göstərir.

• *Neokeyns məktəbi* - müasir neoklassik iqtisadi nəzəriyyə belə bir ideyadan çıxış edir ki, tələb və təklif tarazlığı nöqtəsi ətrafında makroiqtisadi tərəddüdlərin baş verməsi qanunauyğunluqlannm və bu nöqtədən kənarlaşma səbəblərinin aydmlaşdmlması makroiqtisadiyyann əsas problemidir. Buna uyğun olaraq, iqtisadi tərəddüdlər iqtisadiyyatın zövq və texnologiyalaida baş verən də>'işikliklərə effektiv olmayan təsirini əks etdirir, daha doğrusu qeyri-təknıil və ya digər formada bazarın qeyri-mükənunəlliyini göstərir. Bazann ən başlıca nöqsanlan qi>mət və əmək haqqmm tələb və təklifin dəyişikliyinə dərhal reaksiya

göstərməməsi və onu tarazlaşdıra bilməməsidir. Buradan belə bir nəticə çıxır ki, dövlətin iqtisadiyyata müdaxiləsi, bu və ya digər fonnada iqtisadi məsələləri tənzimləməsi /.əmridir,

• *Rasional gözhmo məktəbi* - gənc rasional gözləmə məktəbi iqtisadi subyektlərin davranışım onunla izah edirlər ki, onlar digər subyektlərin (müəssisələrin, hökumətin, istehlakçılarm və s.) gələcək davranışını və makroiqtisadi göstəricilərin (inflyasiya valyuta kursu, artım tempi və s.) inkişafını necə qiymətləndirirlər. Dəyişən gözləmələr əsasmda dövlətin cari iqtisadi siyasəti təyin olunmahdır. Bu məktəbi, adətən monetar məktəb və Çikaqo iqtisadi məktəbinin digər cərəyanları ilə birlikdə yeni klasik raoktobə aid edirlər. Əslində isə onlar dalıa çox neokeyiıçilər və neoklassiklərin yanaşmalarına inteqrasiya edirlər və onlan gələcəyə yönəldirlər. İstənilən iqtisadi nəzəriyyə iqtisadçı-praktİklərə nə qədər faydalı olması baxımından qiymətləndiniməlidir. Yəni bu nəzəriyyələr dövlətin və öz üzvlərinin iqtisadi siyasətini tənzimləyən beynəlxalq təşkilatlara, ayn-a>Ti şirkətlər və fərdlərə qərar qəbul edilməsində nə dərəcədə faydalıdır. Müasir beynəlxalq iqtisadiyyat müxtəlif iqtisadi məktəblərə aid yuxanda göstərilən nəzəriyyə və modeli özündə birləşdirir. Məhz buna görə beynəlxalq ticarətdə əmtəələrin tələb və təklif nəzəriyyəsinin ətraflı şərhi be>məlxalq iqtisadiyyatı neoklassik nəzəriyyə etmir. Eyni ilə xarici ticarətin tənzimlənməsi üsulları onu neokeynisçi. onun pul tərəflərinin müfəssəl şərhi isə onu mouetarizm nəzəriyyəsi ilə eyniləşdirmir.

Beynəlxalq iqtisadiyyata, apancı iqtisadi fikir məktəblərinin yüksək nailiyyətlərinə əsaslanan praqmatik yanaşma xasdır. Beynəlxalq iqtisadiyyatm öyrəndiyi əsas nəzəriyyələr, modellər və iqtisadi siyasətin vasitələri mürəkkəb beynəlxalq iqtisadi münasibətlərdə yaranan pai'ktiki məsələlərə dalıa sürətli, dəqiq və dolğun şəkildə tara cavab verməyi imkan yaıadır.

## 1.2. Beynəlxalq iqtisadiyyatın strukturu

Beynəlxalq iqtisadiyyat öz mövcudluğunu inkişaf qanunauyğunluqları, mexanizmləri və meyllərinin konkret formasında təzahür edir. Bu mənada, şərti olaraq beynəlxalq iqtisadiyyatın strukturunu aşağıdakı şəkildə təsvir etmək olar:

• bcvnəixaİQ iqtisadiyyatın əsas anlavıs və konsepsiyaları - bunlar beynəlxalq iqtisadiyyat konsepsiyasına uyğun olaraq beynəlxalq əmək bölgüsü və digər istehsal amillərinin dünya bazarı və dünya təsərrüfatı

vasitəsilə hərəkətindən formalaşır. Bu səviyyə bir çox hallarda mücorəddir və əsas etiban ilə ardıcıl nəzəri təhlillərin anlayış və konseptual mexanizmini müəyyən edir;

• dövlətin iqtisaQdi siyasəti. İQtisadivs'atm dövlət tənzimlənməsi və bütövlükdə onun xarici aspektləri - Beynəlxalq iqtisadiyyatın tənzimlənmə-sinin əsas foımalan aşağıdakılaidır: milli mikrosəviyyədə - xarici ticarətin dövlət tənzimlənməsi (tarif və qeyri-tarif metodlan), istehsal amillərinin hərəkətinin dövlət tənzimlənməsi (kapital, işçi qüvvəsi və texnologiya idxal-ixracı); milli makrosəviyyədə - açıq iqtisadiyyatın makroiqtisadi proqramlaşdırılması da daxil olmaqla, dövlətin valyuta və maliyyə tənzimləmələri;

• beynəlxalq iqtisadi əlaqələrin konkret foımalan “beynəlxalq ticarət (əmtəə və xidmət), istehsal amillərinin beynəlxalq hərəkəti (kapital, işçi qüvvəsi, texnologiya), maliyyə vəsaitlərinin (valyuta, qiymətli kağızlar, törəmə və kıedit qiymətli kağızlar və s.) beynəlxalq ticarəti, beynəlxalq hesablaşma da daxil olmaqla özünü beynəlxalq iqtisadiyyat kimi göstərir.

• beynəlxalq iqtisadi və maliyyə təşkilatlarmın fəaliyyətinə beynəlxalq tənzimləmə və nəzarət daxildir, hansı ki, beynəlxalq iqtisadi>7atın və onun ayn-a>oı elementlərinin tənzimlənməsi və monitorinqi üçün xüsusi əhəmiyyət təşkil edilir.

Beynəlxalq iqtisadiyyat fiınksional olaraq beynəlxalq mikroiqtisadiy- yata və makroiqtisadiyyata bölünür.

• Beynəlxalq mikroiqtisadiyyat (intemational microeconomics) beynəlxalq iqtisadiyyatın bir hissəsi olub, konkret əmtəələrin, istehsal amillərinin, eləcə də tələb, təklif, qiymət və s. kinü bazar amillərinin ölkələrarası hərəkət qanunauyğıuiluqlaimı öyrənir;

• Beynəlxalq makroiqtisadiyyal (intemational macroeconomics) - beynəlxalq iqtisadiyyatın bir hissəsi olub, qloballaşma şəraitində dünya təsərrüfatının beynəlxalq maliyyə bazanm və açıq milli iqtisadiyyatın fəaliyyət qanunauyğunluqlanm öyrənir;

Bu struktur çərçivəsində qarşılıqlı əlaqələr çox mürəkkəbdir. Belə ki, beynəlxalq iqtisadi münasibətlərin ayn-ayrı foımalan müxtəlif istiqamətlərdə kəsişir. Bu zaman mikroiqtisadi siyasət özündə valyuta münasibəüərinin tənzımləmnəsini, maliy>'ə vasitələri ilə beynəlxalq ticarəti (beynəlxalq hesablaşmalar) kapitalın hərəkət fonnası kimi əhatə edir və s.

Bu sü-uktur çərçivəsində qarşılıqlı iqtisadi əlaqələr olduqca mürəkkəbdir və əksər hallarda beynəlxalq iqtisadi münasibətlərin ayrı- ayrı fonnalan kəsişir. Bu da onunla izah olunur ki, kapitalın sürətli

hərəkəti, işçi qüvvəsinin miqrasiyası və texnologiyanın ötürülməsinə spesifik beynəlxalq ticarət kimi baxılır. Eyni zamanda mikroiqtisadi siyasətə val>oıta münasibətlərinin tənzimlənməsi də daxil edilir, bəzi formalan isə (beynəlxalq hesablamalar) faktiki olaraq beynəlxalq iqtisadi münasibətlərin digər istiqamətlərinə xidmət edir. Belə ki, maliyyə vasitələri ilə b^əlxalq ticarətə kapitalm dövriyyə forması kimi baxıla bilər. Ümumilikdə isə, beynəlxalq iqtisadiyyatın strukturu, şərti olaraq. makroiqtisadi və maliyyə Iıissələrinə bölünür.

### 1.3. Beynəlxalq iqtisadiyyat fənninin predmeti

Artıq hamıya aydmdır ki, çoxsaylı müstəqil dövlətlərin təmsil etdikləri milli təsənüfatlar ümumdünya təsərrüfat sisteminin tərkib hissəsidir və müasir mərhələdə heç bir ölkə öz inkişafını xarici dünyadan təcrid olunmuş şəkildə təmin edə bilməz. Milli iqtisadi sistemlərin dünya təsərrüfatma getdikçə artan bir .xətt üzrə qoşulması zərurəti XX əsrin sonunda özünü aydın hiss etdirən qanunauyqunluğa çevrilmişdir. Biri- biri ilə getdikcə daha sıx iqtisadi əlaqə yaradan və qarşıhqlı asılı olan, bir-birinə qarşılıqlı təsir göstərən və daim hərəkətdə olan milli təsərrüfatlann məanusu ümumdünya təsərrüfat sistemini formalaşdınr. Ümumdünya təsərrüfat sisteminin vəhdəti və onun tərkib hissələrinin biri-birini tamamladığı dünyanın keçmişdə banşmaz qütblərə bölünməsi dəf edildikdən sonra özünü daha aydın şəkildə büruzə verir.

Dünya təsərrüfatı sistemində müstəqil dövlətlər arasında baş verən çoxtərəfli iqtisadi əlaqələr və proseslər hər hansı bir ölkə daxilində özünü göstərən iqtisadi əlaqələrdən və iqtisadi proseslərdən, ümumi cəhətlərə baxmayaraq, çox fərqlidir. Dünya xəritəsini təşkil edən dövlətlər daxildə istehsal edilməyən bir sıra əmtəə, xidmət və istehsal amillərini idxal edir, digərlərini isə ixrac edirlər. Xarici iqtisadi əlaqələrin bu və ya digər əməliyyatlarım həyata keçirən firmalar xaricdə daxili iqtisadi problemlərdən başqa məsələləri də həll etmək məcburiyyətində qalırlar. Məsələn, Səudiyyə Ərəbistanmda neft avadanhğı satmaq istəyən Azərbaycan şirkəti həmin ölkədə mövcud olan gömrük tarifləri, miqdar kvotalan və qüvvədə olan xairici ticarət qanunlanndakı fərqlərlə qarşılaşır. Razılaşma baş tutduğu halda isə əldə edilən valyutanın Azərbaycan şirkətinə lazım olan valyutaya çevrilməsi problemi qarşıya çıxır. Ona görə də istər valyuta, istərsə də standartlaşdırma və dil məsələləri ilə

Qərbdə fəaliyyət göstər^ və Azərbaychhä k^ital qoymaq istəyən hər hansı bir firmanı da tamämilə fərqli bir 4qtisadi iqlim gözləyir. Həmin

firma burada müvəffəqiyyətlə fəaliyyət göstərmək üçün bütün iqtisadi (vergi, valyuta tənzimlənməsi, gömrük və s.) qanunları dəıindən öyrənməli, xarici kapitalın qorunması haqqmda mövcud olan iqtisadi və siyasi şərtləri, onlardan doğan riskləri nəzərə almalı, hətta mövcud düşüncə tərzim və adət-ənənələri diqqətlə öyrənməli və biznes sahəsində müvəffəqiyyət qazaıunaq üçün onlardan məhai’ətlə istifadə etaıəlidiı*lər.

Təbii ki, hər bir ölkə qaışısmda dui'an makroiqtisadi problemlər daxili problemlərdən fərqlidir. Xarici iqtisadi müvazinətm təmin edihnəsi davamlı olaraq dövlət qayğısı tələb edir. Təsadüfi deyildir ki, ölkələr arasında iqtisadi əlaqələrin, eləcə də ümumilikdə dünya təsərrüfatı sisteminin öyrənilməsi iqtisad elminin nisbətən qeyri-adi sahəsini təşkil edir və burada fərqli yanaşma tərzi tələb olunur. Ona görə də dünya təsəiTüfati iqtisadiyyatım öyrənməyə başlamazdan əw^əl adi iqtisadi təhlil alətlərinin ümumdünya təsərrüfat sistenıiım xüsusiyyətlərinə uyğunlaşdınıması labüd və zəruridir.

Məlum olduğu kimi bazai’ iqtisadiyyatınm düşünçə tərzində iqtisad elmi məhdud ehtiyatlarla insanların nəyi, necə və kimin üçün istehsal etdiklərini öyrənir, onlann öz sonsuz ehtiyaclanm bu məhdud ehtiyatlarla necə təmin etməsini izalı edir. Onu da qeyd etmək laznndır ki, artıq ehtiyatlann məhdud olması anlayışını qəbul etməyən cərəyanlar da meydana gəlmişdir. Eyni zamanda məlumdur İd, bazar iqtisadiyyatı şəraitində inzibati-amirlik sistemindən fərqli olaraq ehtiyatlann bölgüsü haqqında qərar dövlət tərəfindən deyil, bazarla qarşıhqlı əlaqədə olan iqtisadi subyektlər tərəfindən qəbul edilir. Azad bazar şəraitində fərdlər dövlətdən firavanlıq gözləmədən öz vəziyyətləıini özləri yaxşılaşdırmağa çalışn, iqtisadi hərəkətlərində öz maraqlarım əsas götmürlər. İlk baxışda kommunist ideologiyasımn iddia etdiyi kimi, guya bu, iqtisadi həyatda xaos yarada bilər.

Lakin, bazar iqtisadiyyatı şəraitində cəmiyyətdə həyat tərzini tənzimləyən və istiqamətləndimn bir sistem, qanunauyğunluq mövcuddur. Tanınmış ingilis iqtisadçısı Adam Smit hələ XVIII əsrdə ''Xalqlann sərvəti” adlı əsərində əsaslandırmışdır ki, kainat və dünya necə təbii sistemlə ahəngli və müvazinəti ı şəkildə idarə olunursa, insan cəmiyyəti də elə bir təbii sistemlə öz mövçudluğunu mühafizə edir. Lakin, o təbii sistemi, fövqəltəbii güclərlə deyil, insanlarm iqtisadiyyatda daviamş tərzi ilə izah edirdi. O, göstərirdi ki, insan öz mənfəətini ən yüksək səviyyəyə çatdırmağa çalışır: O, iqtisadi insandu* (homo esomonimicus). İqtisadi insan rasionaldır, çünki qarşıya çıxan alternativlərdən ən çox mənfəət təmin edənini seçir. A.Smit bu təbii sistemi "görünməz əl" adlandmıdı.

Fərdlərin alternativlərdən istədiyini seçə bilməsinə isə o, liberalizm d^irdi. Liberal şəkildə fəaliyyət göstərən sistemin məntiqi nəticəsi odur ki, mənfəətlərini maksimuma çatdırmağa çalışan fərdlər öz hərəkətləri ilə cəmiyyətin də mənfəətini maksimuma çatdınrlar. Bazar iqtisadiyyatı sistemi özünün məntiqi nəticəsinə özəl mülkiyyət, mənfəət, azad sahib- karhq və qiymət mexanizmi vasitəsilə çatır. Müasir iqtisadçılann əksəriyyəti A.Smitin həmin müddəalarım əsas götürürlər.

Adam Smit və ondan sonra gələn iqtisadçılar bu məntiqi müddəalann beynəlxalq iqtisadi əlaqələr sistemində də özünəməxsus şəkildə mövçud olduğunu sübut etmişlər.

Onlar göstərmişlər ki, iqtisadi düşünçədə və iqtisadi həyatda fərdi millətin (dövlətin) əvəz etməsi ilə bazar iqtisadiyyatının postulatlan dəyişmir. Yuxanda göstərilən təbii sistemdə fərdin yerini millət tutur. Millət (dövlət) iqtisadi və rasionaldır, azad xarici ticarətlə öz mənfəətini maksimuma çatdırmağa çalışır. Bazaı* iqtisadiyyatı şəraitində azad ticarət aparan bütün millətlər üçün bu mümkündür. Tam rəqabətin mövcud olduğu bir iqtisadiyyatda fərdlər öz aıalannda əmək bölgüsü apararaq istehsalı artırdıqlan kimi, millətlər də beynəlxalq aləmdə üstünlüyə malik olduqlan sahələrdə ixtisaslaşaraq əmək bölgüsünü dərinləşdirir və bu yolla dünya istehsalını artırırlar. "Görünməyən əl" bir ölkə daxilində olduğu kimi, bütün dünya miqyasında da öz rolunu oynayır. Rasional iqtisadi əmək- daşhq nətiçəsində bütün miilətlərin pa>ına daha çox əmtəə və xidmət düşür.

Beynəlxalq miqyasda iqtisadi əlaqələrin inkişafı iki əsas şərtə əsaslamr: 1. Beynəlxalq iqtisadi əlaqələrin obyektiv zəruriliyinə; 2. Bu əlaqələrin qarşılıqlı faydah olmasına. Bu zaman dəyər qanunu, tələb və təklifin uyğunluğu qanunu (U.Petti, A.Smit və D.Rikaıdo tərəfindən əsaslandırılmışdır), vaxta qənaət qanunu və əmək bölgüsünün dərinləşməsi qanunu universal iqtisadi alət kimi müvafiq şəkildə fəaliyyət göstərir. Müasir mərhələdə təsərrüfat həyatının beynəlmiləlləşməsi son illərdə özünü getdikcə daha çox hiss etdirən texnoloji sıçrayışlar nəticəsində olduqca sürətlənmişdir.

Təsərrüfat həyatımn beynəlmiləlləşməsi dünya təsərrüfatı və onun standartlanmn milli iqtisadi həyatın aynlmaz tərkib hissəsinə çevrilməsinə səbəb olmuşdur. Hər bir ölkə daxili iqtisadiyyatla yanaşı, xaricdə istehsal amillərini yerləşdirməklə və xarici tiçarəti genişləndirməklə xarici iqtisadiyyatdan da mənfəət əldə edir. Həm də bu proses ikitərəfli əlaqələr şəklində baş verir. Dünya təsərrüfatı əlaqələri iki formada özünü göstərir: makroiqtisadi və mikroiqtisadi səvi>^ədə. Bu səviyyələ

rin hər biri digərindən aynimaz vəhdət təşkil edir və onlan birlikdə nəzərdən keçilmək lazımdır.

Hər bir milli iqtisadiyyatda sənayeləşmənin sürəti, kənd təsərrüfatı və xidmət sahələrinin inkişafı, məşğulluq və gəlir səviyyəsi, ümumiyyətlə həyat standartı onun xarici iqtsadi əlaqələrinin vəziyyətindən çox asılıdır. Bütün dövlətlər milli sosial-iqtisadi tərəqqini təmin etmək üçün ümumdünya təsənlifat sisteminin qanunauyğunlııqlarmı, dünyada gedən mühüm iqtisadi, siyasi və ümumiyyətlə qlobal prosesləri nəzərə almalı- dırlai'.

Dünya iqtisadi imkanlarmın və dünya əhalisinin ümumi rifah səviyyəsinin artınimasmda mülıüm rol oynayan beynəlxalq təsərrüfat əlaqələri iqtisad elminin müstəqil bir saliəsi olan "beynəlxalq iqtasadiyyat" fənni tərəfindən öyrənilir. Bunu bir sıra amillər şərtləndirir;

1. Milli iqtisadi sistemlərinin müxtəlifliyi - müxtəlif dövlətlərdə qəbul edilmiş iqtisadi sistemlər bir-birindən bu və ya digər dərəcədə fərqlənir. Məsələn, liberal, iqtisadi həyata daha çox müdaxilə edən dövlətlər və sosialist sistemləri. Hətta bu və ya digər ölkə eyni sistemi qəbul etmiş olsa da iqtisadi, hüquqi və idarəçilik tənzimləmələri ciddi fərqlənə bilər. Məsələn, bir ölkənin vergi, pul-kıedit, nəqliyyat və sosial siyasəti digər ölkənin siyasəti ilə eyni ola bilməz. İqtisadi sistemlər müxtəlif olduqda isə bu fərqlər dalıa da çox olur. Halbuki, hər hansı bir ölkə daxilində belə fərqlər mövcud deyildir. Belə bir cəhət beynəlxalq iqtasadi əlaqalər- do bir sna problemlər yaradır və onların ayrıca bir elm saliəsinin pred- meti olmasmı şərtlən diıir;

2. Əmtəə və xidmət axmlanna fərqli müdaxilə - bütün dövlətlər ictimai faydanı əsas tutaraq əmtəə və xidmətlərin beynəlxalq miqyasda hərəkətinə bu və ya digər şəkildə müdaxilə edirlər. Məsələn, xarici ticarəti məhdudlaşdırmaq üçün gömrük taıifləri, kvotalar, idxalm qadağan olunması və valyuta nəznrəti kimi tədbirlərdən istifadə olunur. Dövlətlərin hamısı xarici ticarətə az və ya cox dərəcədə məhdudiyyətiər qoyurlar. Əmtəə və xidmətlərin ölkə daxilində hərəkət etməsinə isə heç bir məhdudiyyət qoyulmur;

3. Milli valvutalann fərqli olması - dövlət müstəqilliyinin mühüm atributlanndan biri də, hər bir ölkənin özünə məxsus pul sisteminə malik olmasıdn. Beynəlxalq iqtisadi əlaqələr fərqli pul vahidlərinə malik ölkələr aıasmda aparıldığı üçün bu əlaqələr nəticəsində əldə olunan pulların biri digərinə çevrilməlidir. Bu ehtiyac valymta bazarmın yaıanmasını şərtləndirir. Ona görə ki, hər bir ölkənin sərhədləri daxilində yalnız milli valyu

tanın dövriyyəsinə icazə verildiyi üçün ayrı-ayrı dövlətlərin milli valyutalarının bir-birinə çevrilinəsi problemi yaranmışdır.

Lakin, onu da göstənnək lazımdır ki, milli valyutaların fərqli olması beynəlxalq ticarəti daxili iqtisadi əməliy>'atlardan fərqləndirən yeganə amil deyildir. Burada, müxtəlif milli pul vahidləri aı asmda qi>mət nisbətinin (məzənnənin) dəyişkən olması amili özünü dana çox hiss etdirir. Əgər ABŞ dollaı ilə alman markası arasmdakı qiymət nisbəti, məsələn, 100 il ərzində dəyişməz qalmış olsa idi, bu salıodə iş adamlarınuı riski azalardı. 1971-ci ildən "üzən" və ya sərbəst dəyişən valyuta məzəmıəsi sisteminə keçilməsi iİə əlaqədar olaraq bu risk daha da artnuşdu'. Lakin, valyutalar dönərli valyuta olduqda onlann bir-birinə çevriməsi imkanları daha da yaxşılaşır

4. İstehsal amillərinin fərqli hərəkəti - istehsal amillərinin hərəkət xüsusiyyətləri daxili və xarici ticarət arasındakı fərqi müə>'yən edən əsas amillrdən biri hesab edilir. Klassik iqtisadçılar göstərirdilər ki, əmək və kapital ölkə daxilində sərbəst hərəkət edə bildiyi halda, onlar ölkələr arasında belə sərbəstliyə maliki deyillər. Əcnəbi işçilərin işləməsinin bu və ya digər dərəcədə məhdudlaşdınıması haqqında qanunlar deməık olai' ki, bütün ölkələrdə vaidır. Belə qammlar ohnasa da, təbii amillər işçi qüvvəsinin beynəlxalq hərəkətini müə>^’ən qədər məhdudlaşdınr. Coğrafi uzaqlıq, dil və adət-ənənə kimi amillər buna misaldu. K^italm beynəlxalq hərəkəti də onun Ölkədaxili hərəkətinə nisbətən çox məhduddur. Dövlətlərin çoxunun ölkədən çıxanlan kapitala məhdudiyyət qoymalan və valyuta məzənnələrinin dəyişməsi ilə əlaqədai' risklər kapitalın beynəlxalq hərəkətini məhdudlaşdıran mühüm amillərdir.

İstehsal amillərinin ölkə daxili və beynəlxalq hərəkəti ai'asında mövcud olan fərq bu amillərin qiymətləındə öz əksini aydm şəkildə tapır. Belə ki, istehsal amillərinin ölkə daxilində nisbətən sərbəst hərəkəti nəticəsində hər hansı bir ölkənin müxtəlif daxili regionlan arasında qiymətlərin, faiz dərəcələrinin və raaaşlann bərabərləşməsinə təsir göstərir. Halbuki, belə bir təsir beynəlxalq miq>'asda yoxdur. Beləliklə, istehsal amilləri qiymətləri ölkə daxilində eyni və ya bir-birinə yaxın olduğu halda, ölkələr arasında biri-digəındən ciddi fərqlənir. Bu cəhət beynəlxalq ticarətin daxili ticarətə nisbətən müxtəlif şərtlər altında baş verdiyini göstərən mühüm amildir.

Siyasi iqtisad klassikləri A.Smit və D.Rikardo öz mülahizələrində işçi qüvvəsinin ölkə daxilində tam sərbəst hərəkət etdiyini, ölkələr arasında isə, əksinə tam hərəkətsiz olduğunu fərz etmiş, eləcə də xarici ticarətin həyata keçirilməsində də bunu əsas amil hesab etmişdilər. Lakin, real

həyat göstərdi ki, işçi qüwəsinin ölkə daxilində və beynəlxalq miqyas- dakı hərəkəti biri-birindən yalnız öz dərəcəsinə görə fərqlənir. Çünki, işçi qü\'\'əsinin beynəlxalq hərəkəti aşağıda görəcəyimiz kimi tarixin heç bir mərhələsində tam şəkildə yox olmamışdır. Kapital da ölkə daxilində beynəlxalq aləmdə olduğuna nisbətən daha sərbəst hərəkət edə bilir. Nəzərə almaq lazımdır ki, hətta ölkə daxilində də kapital mütləq dərəcədə sərbəst hərəkət edə bilmir. Çünki, iqtisadi şərait (faiz dərəcəsi və s.) regionlar arasında da fərqli ola bilər;

5. Fərqli milli bazarlar - hər bir ölkə özünün milli bazanna malikdir ki, bu milli bazarlar da öz sərbəstliyi və nəzarət dərəcəsinə görə fərqlənir. Daxili bazarlarda eyni dil, adət-ənənə, istehlak alışqanlığı, zövq və stan- daıtlar hakimdir (müxtəlif milli bazarlarda isə bunlar müxtəlifdir). Məsələn, müsəlman ölkələrində donuz əti və ondan haznlanan məhsullar yeyilmir və alıcısı yoxdur. Rusiya və Avropa ölkələrində isə vəziyyət əksinədir. Avtomobilin sükam bəzi ölkələrdə sağdan, digərlərində isə soldandır. Standartlaşdırma sistemində də fərqlər mövcuddur.

Bu və ya digər milli bazara əmtəə satmaq istəyən xarici firmalar bu ba- zarlann xüsusiyyətlərini nəzərə almalıdırlar.

Beləliklə, beynəlxalq iqtisadi əlaqələrin daxili iqtisadi proseslərə nisbətən fərqli iqtisadi şərtlər altmda cərəyan etməsi onlann öyrənilməsində müxtəlif təhlil vasitələrindən istifadə olunmasım şərtləndirir.

Beynəlxalq iqtisadiyyat fənni dünyamn müstəqil dövlətləri arasında hərtərəfli iqtisadi əlaqələri bütün aspektləri ilə öyrənən bir elmdir. Bu elm sahəsi insanın sonsuz ehtiyaclarım təmin etmək məqsədilə məhdud ehtiyyatlardan ümuradünya təsərrüfatı sistemində daha səmərəli istifadə olunması prosesini və ayn-ayn milli iqtisaliyyatlann bir-birinə necə təsir göstərdiyini müəyyən etməyə çalışır, təsəiTüfat həyatmm beynəlxalq miqyasda bazar sistemi çərçivəsində fəaliyyəti və inkişaf qanunauyğun- luqlarmı öyrənir.

Rusiya-Avropa iqtisadi siyasət mərkəzinin eksperti f'ransua Benoyza M.Porterin kitabmdan 25 il sonra 2006-cı ildə çap olunmuş məqaləsində rəqabət qabili>7əti anlayışım özünəməxsus şəkildə izah etmişdir. O göstərir ki, adətən rəqabətqabili>7əti dünya bazaıiarmda müvəffəqiyyətli fəaliyyətin əhalinin rifah səviyyəsinin yüksəldilməsi ilə əlaqələndirilməsi kimi başa düşülür. Onun fikrinə görə hər hansı bir ölkədə əhalinin rifah səviyyəsinin ^liksəldilmosi strategiyası rəqabət qabiliyyətinin aşağıdakı tərkib hissələrinin əlaqələudiıihnəsini tələb edir; məhsuldarlıq - onun yüksəldilməsi əhalinin gəlirlərinin davamlı olaraq artmasının vacib şərtləridir; qiymət üzrə rəqabət qabili>7Əti (real mübadilə məzənnəsi ilə)

- ölkənin dünya bazarmda rəqabət mübarizəsi apanna qabiliyyəti və ölkədə yeni iş yerləri açıhnasma təsir göstərən amillərdən biridir; innovasiya fəaliyyəti və texnoloji ixtisaslaşma - dünya miqyasmda ixtisaslaşmaya və əhali rifalunm yüksəldilməsinə təsir göstərən yeni ideya və texnologiyanı formalaşdırır; investisiya cazibədaibğı, onun əsası
- məhsuldarlığa və innovasiya fəaliy>'ətinə həlledici təsir göstərən əlverişli investisiya mühitidir.

Rəqabət qabiliy>'əti - ölkənin hökumət və sənaye dairələrini narahat edən ən mühüm məsələdir. Firmalar rəqabətdə müvəffəqiyyət əldə etmək üçün ya aşağı istehsal məsrəflərinə, yaxud yüksək keyfiy7ətlə baha qiymətə məhsul satmaq imkanına malik olmalıdırlar. Həmin üstünlüyü əldə saxlaya bilmək üçün firmalar başqa istiqamətlərdə məhsulun keyfiyyətinin və əmək raəhsuldarlığımn daha da yüksəldilməsi sahəsində q^ağa çıxmalıdırlar.

Tanımmş alman iqtisadçısı Y.Şumpeterin göstərdiyi kimi "rəqabət qabiliyyəti” anlayışı həddən artıq dinamik kateqoriyadır və onun dinamikası, hər şeydən əvvəl, xarici amillərlə əlaqədardn. Rəqabət tarazlıq deyil, daim dəyişəndir. Sahənin təkmilləşməsi və yeniləşməsi birdəfəlik hadisə deyil, fasiləsiz prosesdir və onun arxasmda uzunmüddətli sabitlik dayamı-. Bu günkü üstünlük, sabah əldən alına bilər və yaxud heçə endirilər. Bitmiş davranış valiidi olan fıımalar rəqiblərə nisbətən yaxın və uzaq perspektivdə üstünlük əldə etmək üçün

istifadə olunan texnologiyaya daim alternativ axtarırlar. Bu baxmıdan rəqabət qabili>'yəti rəqabət üstünlüyünə nail olunması üçün həyata keçirilən məqsədyönlü dinamik prosesdir. Fıımalar bazarm siqnallarma müxtəlif şəkildə reaksiya verdikləri üçün real şəraitdə firmaların müxtəlif davranış tərzinə rast gəlmək mümkündür. Bu dawanış tərzi uzunmüddətli perspektivdə düzgün seçim edən firmaların çiçəklənməsinə, müntəzəm səhv buraxan finnalann isə iflasa uğramasma səbəb olur. Beləliklə, bazar sistemi təşkilatlann iqtisadi davranışlan üzrə eksperimentlər və onlann nəticələrinin dəyərləndirihnəsi üçün bir növ smaq meydanıdır. Firmaların edə biləcəkləri seçim gələcəkdə baş verə biləcək dəyişiklikləri və hansı vaıiantm daha yaxşı ola biləcəyini görə bilməyin qeyri-mümkünlüyü rəqabət üstünlüyünün yaranması prosesini ehtimal olunan və risqIi edir. Həmin prosesin əsas məzmununu yeni kombinasiyalar və ya yeniliklər tətbiq edüməsi nəticəsində yeni maddi nemət hazırlanması, yeni istehsal üsulu tətbiq edilməsi, yeni satış bazarlanmn mənimsənilməsi, yeni xammal mənbəyi və ya yarımfabrikat ahnması və s. təşkil edir.

Beləliklə, rəqabət qabiliyyəti - məhsul istehsalı və bölgüsü prosesində inhisar mövqeji ilə əlaqədar yaranan və müvafiq mənfəətin əldə edihnəsinə imkan verən, hər hansı bir istehsalçmm başqa istehsalçılar üzərində hökmranlığını əks etdirən bazar münasibətləridii*.

<u>Beynəlxalq rəqabət qabiliyyətinin parametrləri</u> - Amerika iqtisadçısı M.Poner yuxanda adı çəkilən əsərində “millətlərin beynəlxalq rəqabət qabi-liyyətliliyi” atllı nəzəriy'və hazjrlamışdır. Alim həmin nəzəriyyədə dünya bazarlannda ölkələrin rəqabət qabiliyyətini müəyyən edən və qarşılıqlı əlaqədar olan 4 əsas parametri göstərmişdir. Bu parametrlər: istehsal amilləri şərtləri; tələb şərtləri; qohum və xidmət sahələri; firraamn strategiyası və rəqabətdən ibarətdir.

M.Porter nəzəriyyəsində də istehsal amillərinin əhəmiyyəti qəbul edilir, lakin, onlann sayı yeniləri ilə artınlır. O, neoklassik məktəbdən fərqli olaraq hesab edir ki, bu amillər millətə hazır şəkildə miras qalmır, geniş təkrar istehsal prosesində yaradılır. Məsələn, torpaq kimi vacib amilin çalışmaması Yaponiyada yığcam texnoloji prosesin yaradılmasma səbəb oldu, buna isə dünya bazarmda tələb yarandı.

ikinci parametr - tələb şərtləri - firmamn inkişafim müəyyən edən daxili bazarm tələbidir. Bu tələb şirkətin fəaliyyətinə mühüm təsir göstəril*. Məsələn, nisbətən kiçİk otaqlarda yaşayan yaponlar eneıjiyə qənaət edən kiçik kondisionerlərə meyl göstərirlər. Bunun nəticəsində Yapon sənayesi onu istehsal etməyə başladı. Sonralar bütün dünya belə kondisionerlərə maraq göstərdi ki, bu da onu dünya bazanna çıxarmağa

imkan verdi. Yeməyi tez hazırlayan amerika sistemi də bütün dünyada eyni qayda ilə şöhrət qazanmışdır.

Üçüncü parametr - qohum və .xidmət sahələrinin mövcudluğu - əlverişli istehsal mühütinin olduğunu göstərir və firmaların fəaliyyətinə bilavasitə təsir göstərir. Məsələn, İtaliyada zərgərlik sənayesi ona görə yaxşı inkişaf etmişdir ki, bu ölkə qiymətli metal və daşları emal edən maşınların istehsalı üzrə dünya lideridir.

Sonuncu parameo - firmanın strategiyası və rəqabət - firma strategiyası və onun təşkilati struktunıdur. Şübhəsiz, firmalarda idarə sistemi eyni deyildir. Mebel, işıq texnikası qurğulan. qablayıcı maşınlar istehsal edən İtaliya sənaye sahələrinə sərt idarəçilik forması deyil, tez dəyişə bilən dinamizm xasdır. Əksinə, optika, dəqiq maşmqa>nrma ilə məşğul olan Alman sənayesində isə sərt mərkəzləşdirilmiş idarəetmə sistemi mövcuddur. Firmanm dünya bazarında rəqabət qabiliyyəliliyinin yüksək olması üçün daxili rəqabətin mövcudlğu şərtdir.

Milli rəqabət qabiliyyəti anlayışınm müasir tərifi M.Porter nəzəriyyəsinə uyğım gəlir və rəqabət üstünlüyü anlayışınm təkamülündə yeni mərhələni əks etdirir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OGSR) rəqabət qabiliyyətinə belə bir tərif vermişdir: rəqabətqabiliyyəti - şirkətlərin, sahələrin, regioniann və millətlərin beynəlxalq rəqabət üçün açıq qalmaqla nisbətən yüksək səviyyədə gəlir və əmək haqqı yaratmaq qabiliyyətidir. Amerikan alimləri D.Dollai' və E.Vulf da təxminən eyni fikirdədirlər. Onlar qeyd edirlər ki, o ölkə rəqabətqabiliyyətli hesab edilir ki, həmin ölkə yüksək texnologiya və məhsuldarlıq əsasında beynəlxalq ticarətdə uğur qazanır və bu uğuru yüksək gəlir və əmək haqqı ilə uzlaşdırır.

Milli iqtisadiyyatın və milli sənayenin də rəqabət qabiliyyətinin mühüm cəhəti onun dinamik olması və zaman keçdikcə dəyişməsidir. Rəqabət qabiliyyəti dedikdə amerikan iqtisadçısı M.Dall milli iqtisadiyyatın gözlənilən struktur dəyişiklərini girə bilməsində və ona uyğunlaşa bilməsində göstərdiyi çevikliyi nəzərdə tutur.

Göründüyü kimi bütün nəzəri baxışlarda milli iqtisadiyyatm və onun apancı saliəsi olan milli sənayenin rəqabət qabiliyyətinin ən mühüm səci>yəvi cəhəti mövcud istehsal amillərindən səmərəli istifadə etməklə yüksək həyat səviyyəsi və məhsuldarlığın təmin olunmasıdır.

M.Porter qeyd edirdi ki, “ölkə səviyyəsində rəqabət qabiliyyətlilik konsepsiyası yalnız resuıslardan istifadənin səmərəliliyinə əsaslana bilər. Ölkədə həyat səviyyəsinin artmlması firmalann mövcud resıuslardan səmərəli istifadə etmək, xüsusilə səmərəlilik səviyyəsinin

yüksəldilməsinə nail olmaq qabiliyyətindən birbaşa asılıdu"". Lakin İsveçrə iqtisadçısı S.Qarelli bu anlayışı daha da genişləndirərək qeyd edirdi ki, "ölkənin rəqabət qabiliyyəti gəlirlərin səviyyəsi, həyat səvi>7əsi və həyatın keyfiyyətinin cəmi kimi müəyyən oluna bilər.

Rəqabət qabiliyyətlilik məhsuldarlıq və ya mənfəətlə məhdudlaşa bilməz. İntiutiv olaraq hər bir adam bilir ki, ölkə yaradılmış gəlirləri bölüşdürmürsə, əhalinin sağlamlığımmn sığortalanmasını və ya təhsil infrastrukturunu lazuni səviyyədə inkişaf etdirmirsə və ya siyasi və sosial sabitliyi təmin etmirsə, həmin ölkə uzunmüddətli dövrdə inkişaf etmir". S.Qarellinin qeyd etdiyi fikirlər ölkə miqyasında iqtisadi səmərəliliyin təmin olunmasının şərtlərindəndir. Bu baxımdan, M.Porter düzgün olaraq qeyd edirdi ki, məhsuldarlıq ölkəyə yüksək əmək haqqım, sabit valyutanı, kapitalın əlverişli şəkildə ödəmnəsini və bununla da yüksək həyat səviyyəsini təmin etməyə imkan verir. Beləliklə, ölkə sənayesinin rəqabət qabiliyyəti mövcud resurslardan və yeniliklərdən istifadənin səmərəliliyindən asılıdır.

Beləliklə, rəqabət qabiliyyəti anlayışı ölkə, region, sahə və müəssisə səviyyəsində müəyyənləşdirilir. Bu səviyyələrdən əhəmiyyətlisi ölkənin rəqabət qabiliyyətidir. Belə ki, region, sahə və firma səviyyəsində rəqabət qabiliyyətlilik son nəticədə ölkənin rəqabət qabiliyyətini formalaşdmr. Ölkənin rəqabət qabilijyəti onuıı bcynəkalq əmək bölgüsündə səmərəli iştirakmı, əhalinin maddi rifahmı təmin etmək səviyyəsini əks etdirir. Xüsusilə, kiçik ölkələrin rəqabət qabiliyyətli obnalan onların iqtisadi inkişafina əhəmiyyətli təsir göstərir. Çünki, kiçik ölkələrin iqtisadi inkişafinda xaıici amillər böyük rol oynayır və onlarda istehsalın strukturu ilə istehlakın strukturu kəskin şəkildə fərqlənir. Belə şəraitdə, kiçik ölkənin iqtisadi inkişafi xarici iqtisadi əlaqələrdən asılı olur. Beynəlxalq əmək bölgüsündə səmərəli iştirak isə kiçik ölkənin ixtisaslaşdığı ayn-ayoı sahələrin rəqabət qabiliyyətindən asılıdır.

**Bəzi ölkələrdə ictimai istehsalın rəqabət qabiliyyətinin səviyyəsi üzrə reytinqi (2008-ci il)** * *

| Reytinq | Ölkə | Reytinq | Ölkə |
|---|---|---|---|
| 1 | AB§ | 22 | Estoniya |
| 2 | Sinqapur | 23 | İspaniya |
| j | Finiyandiya | 24 | Çili |
| 4 | Lüksemburq | 25 | Fransa |
| 5 | Niderland | 26 | Yaponiya |
| 6 | Qonhonq | 27 | Macarıstan |
| 7 | İrlandiya | | |
| 8 | İsveç | 30 | Yunanıstan |
| 9 | Kanada | | |
| 10 | İsveçrə | 32 | İtaliya |
| 11 I İslandiya | | | |
| 12 i Almaniya | | 40 | Türkiyə |
| [ | | | ; |
| 15 | Danimarka | 45 | Rusiya 1 |
| L I_____________ _ _________________ | | 46 | Kolumbiya i |
| 17 | Belçika | .47 | Polşa j |
| r ^ ;; | .. | 48 | Venesuela 1 T 1 «i |

Cədvəl

* Mənbə http://w\vw/ımido.orq/

Müxtəlif ölkələrdə sənaye istehsalmm rəqabət qabiliyyətinin səviyyəsini xarakterizə edən reytinq cədvəlinin təhlili göstərir ki, reytinqdə qabaqcıl yer, heç də bu və ya digər ölkənin ərazisinin böyüklüyündən, təbii sərvətlərin çoxluğundan və onun hansı ölkə qruplarına daxil olmasından asılı deyildir. Belə ki, ərazisinin həcminə, təbii ehtiyatlanmn miqdarına görə fərqlənməyən və yaxın keçmişdə həddən artıq geri qahmş olan yeni sənaye ölkələri reytinqdə 3-cü (Sinqapur) və **6**-cı (Qonkonq) yerləri tuturlai’. Halbuki böyük yeddiliyə daxil olan ölkələrdən (ABŞ-dan başqa) Kanada 9-cu, İtaliya isə 32-ci yeri (49 Ölkədən) tutmuşlar.

Rəqabot qabiliyyətinin ümumiləşdirilmiş göstəricisi ölkənin yalmz təsərrüfat sisteminin deyil, eyni zamanda onun hüquqi, siyasi, sosial və digər sistemləıinin ümumi fəaliyyətinin səmərəlilik dərəcəsini əks etdirir. Onu da qeyd etmək lazımdır ki, Üraumdünya İqtisadi Forumunun həyata keçirdiyi mili rəqabət qabiliyyəti problemləri layihəsi ayrı-ayn ölkələrin rəqabətqabiliyyətini xarakterizə edən təxminən **200** göstəricini nəzərdən keçirir. Xüsusilə vurğulamaq lazımdır ki, yalnız o ölkələrin rəqabət qabiliyyətinin yüksəldilməsindən söz gedə bilər ki, onlarm iqtisadiyyatı dayanıqb inkişaq edn, sosial və siyasi qüvvələrin daxili müvazinatı qorunub saxlamlır.

Daxili və xarici qeyri-sabitlik şəraitində olan ölkələr rəqabət qabiliyyəti obnayan ölkələr sırasına daxil edüir, çünki qeyri-sabitlik dövlət və maliyyə institutlarma inamı sarsıdır. Bu isə, istər istəməz, investorlar üçün onlamı cəzbediciliyini azaldır, onun bütün səvi^^yələrində iqtisadi əlaqələrinə, valyuta məzənnəsinin sabitliyinə mənfi təsir göstəril', milli rəqabət qabiliyyətinin səviyyəsində, onun milli inkişafimn xai'akterində öz əksini tapır.

Beynəlxalq rəoabət qabiliwətlilik amilləri - M.Porterə görə milli iqtisadiy>'atın rəqabət qabiliyyəti dörd amillə müəyyən edilii" istehsal amilləri, investisiyalar, yeniliklər və sərvət. Milli iqtisadiyyatın rəqabət qabiliyyəti də müvafiq olaıaq 4 inkişaf mərhələsindən keçıı*. Birinci 3 mərhələdə milli iqtisadi>yatm rəqabət qabiliyyətinin inkişafı baş verir və onların hər biıi əhalinin rifalı səviyyəsinini artması ilə müşaiət olunur. Dördüncü mərhələdə artımın tədricən azalması vo son mərhələdə isə tənəzzül baş verir. (Bax: şəkil 2)




**Şəki] 4. MiUi iqtisadiyyatın rəqabət qabiliyyətinin inkişaf mərhələləri.**

Rəqabət qabiliyyətinin inkişaf mərhələlərinə bölünməsi ən ümumi şəkildə iqtisadiyyatm necə inkişaf etdiyüıi, milli iqtisadi>yat və finnalar qarşısında hansı spesifik problemləıin qoyulduğunu göstərməyə imkan verir.

İstehsal amilləri əsasında rəqabət qabiliyyətinin inkişafının və rəqabət üstünlüyünün əldə edilməsinin əsasında ölkənin resurslaıa (təbii işçi

qüvvosi və s.) malik olma və onlardan səmərəli istifadə olunma dərəcəsindən (istehsal məsrəfləri; qiymətlər, valyuta məzənnələri) asılıdır.

Beynəlxalq təcrübə göstərir ki, rəqabət qabiliy>'Ətinin yeganə resursu kimi yalnız istehsal amillərinin əsas götürülməsi beynəlxalq rəqabət şərtlərinə cavab verən iqtisadiyyat sahələrini kəskin şəkildə məhdudlaşdım. Məmin mərhələdə iqtisadiyyat tələbin və qiymətlərin kəskin dəyişməsinə səbəb olan dünya iqtisadi böhranlarına olduqca həssas olur. Mövcud olan istehsal amilləri tükəndikdə isə vəziyyət fövqəladə dərəcədə kəskinləşir.

İqtisadiyyata əsaslanan rəqabət qabiliyyəti mərhələsini texnoloji inkişaf mərhələsi də adlandırılır. Bu məsələdə iqtisadiyyatın texnoloji üstünlüyü milli fmnalann müasir, səmərəli avadanlığa və texnologiyaya intensiv kapital qo>nıluşlannın həyata keçirmələrinə əsaslanır. Onlaıı dünya bazanndan əldə etmək olar. Bu zaman investisiyalar eyni zamanda lisenziyaların satm alınmasma, müştərək müəssisələrin yaradılmasına və rəqabotqabiliyyətinin yüksəldihnəsinin digər vasitələrinə yönəldilir. Onu da nəzərə almac] lazımdır ki, satın alınan texnika və te.xnologiya dünyada mövcud olan ən yaxşı texnologiya nümunələrindən, bir qayda olaraq, bir nəsil geridə qalır. Çünki dünyada rəqabət qabiliy>ətinin liderləri, bir qayda olaraq, gənc nəsil texnologiyalnnı sammiar. Lakin, bu mərhələdə xarici texnika və te.xnologiya yalnız tətbiq edilmir, eyni z.amanda onlai’ dünya miqyasında yaxşılaşdmlır. Milli sənayenin xarici texnologiyam mənimsəmək və yaxşılaşdınnaq imkanı rəqabət qabiliyyətinə nail olunmasmm mühüm və həlledici şərtidir. Xarici texnika və texnologiyam mənimsəyərək, yerli fırmalai' onlarm təkmiliəşdirirlməsi üçün öz üsullarım yaradırlar. Bu isə məhsulun dalıa yaxşı növünün buraxıiraasma imkan verir. “Açar altmda” təhvil verilən tikilən zavodlara passiv kapital qoyuluşlan artıq sərfəli deyildir.

İnvestisiyamn həcminin artması yeni, qabaqcıl amillərin yai’adıhnasına və müasir infrastmkturamn inkişafma səbəb olur. Həmin mərhələyə nail olmağın mühüm şərti milli fıraıalann risqi ilə əlaqədar hərəkətlləri asanlıqla həyata keçirirlər. Autsayderləiin saymın artması bir çox sahələrdə daxili rəqabəti gücləndirir.

fexnolojı üstünlük - bilik ehtiyatı, texnoloji ehtiyat, investisiya və s. ehtiyatlann məcmusudur. Onlai' bti və ya bir neçə sahədə texnoloji irəliləmədən tutmuş, ölkənin liderliyinə qədər təmin edən müasir rəqabət üstünlüyünün bütün spektrlərini əhatə edir. Ölkə iqtisadiyyatı sanəyesinin stıuktumnun üstünlüyü ehni-texniki tərəqqinin tələblərinə cavab verən

mütərəqqi strukturun mövcudluğu ilə əlaqədardır. Nəhayət, uğurlu iqtisadi inkişaf iqtisadiyyatın innovasiya yolu ilə inkişafına, yeni texnika vo texnologiyanın monimsənilmosino şərait yaradan əlverişli iqtisadi, müvafiq olaraq sosial-siyasi mühitin olmasına əsaslanır.

XX əsrin 90-ci illərindən başlayaraq inkişaf etmiş və zəif ölkələr arasında olan fərq əsas etibarı ilə texnoloji xarakter daşıyır. Müasir texnologiyalar həddən artıq mürəkkəb vo bahalıdır, ona görə də zəif inkişaf etmiş ölkələr onu nəinki yarada bilmirlər, hətta satın almaqda da çətinlik çəkirlər. Texnoloji rəqabət bazis şəklin "rəqəmsal qeyri- bərabərlikdə" özünü göstərir. Bunun nəticəsində innovasiya məhsullan bazaıları əslində artmır. Bu isə inkişaf etmiş ölkələrin texjıoloji proqramlarının inkişafmı ləngidir.

**Rəqabət qabiliyyətinin resursları**




M.E. Porter. 'fhe Competitive Advantage of Nations. p. 595.

Şəkil 5. Yeniliklər mərhələsində milli iqtisadiyyat.

informasiya tcxnologiyalarmm səmərəliliyinin artması XX əsrin axırlarında informasiya xidmətləri salıəsində ifrat istehsal böhranınm yaranmasına səbəb oldu, inkişaf etmiş ölkələr həmin böhrandan çıxmağın yolunu hərbi istehsalm artmasında göriirlər.

Müasir texnoloji rəqabətqabiliyyətinin əsas amiDəri aşağıdakılardır:

- yeni texnologiya və insan kapitalına investisiya qoyuJuşIan;
- yenihklərin yaranması və şirkətlərin texnoloji inkişafi üçün əlverişli iqtisadi mühütün mövcudluğu;
- milli maraqların qorunması şərtilə beynəlxalq ticarətin açıq sisteminin yaradılması.

Yeniliklər əsasında iqtisadiyyatın, o cümlədən sənayenin rəqabət üstünlüyünün əldə edilməsi rəqabətin tərkib ünsürlərinin (Bax: şəkil 3.) geniş miqyasda mövcudluğuna əsaslanır.

Göründüyü kimi, rəqabət qabiliyyətini müəyyən edən ünsürlər hərəkətdədir və onlar arasında sıx əlaqə vardır.

Milli sənaye firmalanmn müvəffəqiyyətlə rəqabət apara bildikləri sahələrin məcmusu xeyli genişlənir. Baxmayaraq ki, ayrı-ayn sahələrin və klasterlərin vəziyyəti ölkənin təbii şəraitnin və inkişal' tarixinin xüsusiyyətləri ilə müəyyən edilir. Əhali gətirlərinin çoxalması istehlak tələbini artmr, onun strukturunu geıüşləndirir. Milli firmaların rəqabət mövqeyinin möhkəmlənməsi ölkədə geniş istehsal tələbinin aıtraasına da yol açır. Firmalann sayının durmadan artması daxili rəqabəti canlandırır. Bütün iri klasterlərə dünya səviyyəsində xidmət sahələri yaranır. Belə bir şəraitdə amillər hcsabma rəqabət üstünlü>amü təmin etmək çətin olur. Bu isə yeni texnika və texnologiyamn tətbiqini stimullaşdını*.

Bu mərhələdə milli sənaye finnalan xarici texnika və texnologiyam, yalnız satm alıb, onu daha da təkmilləşdirmir, özləri yenilərini yaradırlar. Məhsul nomenklaturası, istehsal prosesi, satışm təşkili sistemi ~ rəqabətin bütün aspektləri yaradıcılıq şəraitindədir. Bu mərhələdə fırmalai’ qlobal strategiya hazulayır, beynəlxalq satış və xidmət üzrə özlərinin beynəlxalq şəbəkəsini yaradır, öz markalai'inm reputasiyasım xaricdə artırırlar.

Yeniliklər əsasmda rəqabət qabiliyyəti müxtəlif inkişaf səviyyəsində olan ölkələrdə baş verə bilər. Əvs'əlcə bir sıra sahələr innovasiyam tətbiq etməklə, rəqabət üstünlüyü əldə etməyə çalışular. Sonra təkmilləşdirmə prosesi digər sahələrə də yayılır. Daha dinamik və qabaqcıl iqtisadiyyat rəqabətqabiliyyətli sahələrin dairəsinin üfiqi və şaquli istiqamətdə genişlənməsinə və yeni xarakterlərin yaranmasına şərait yaradır. Həmin

prosesin sürəti həm yeni, həm də mövcud firmalarda işgüzar fəallığın canlanması dərəcəsindən asılıdır.

Ölkənin xidmətlər sahəsində güclü beynəlxalq mövqeymin formalaşması - yeniliklər mərhələsində rəqabət qabiliyyətli sənaye artımını əks etdirən xarakterik cəhətdir. Həmin mərhələyə daxil olmuş bütün ölkələr digər ölkələrə nisbətən daha çox inkişaf etmiş xidmət sahəsinə malik olur.

Yeniliklər mərhələsi makroiqtisadi dalğalamnalara və ekzogen hadisələrə daha yaxşı müqavimət göstərmək imkanına malik olur. Həmin mərhələdə dövlətin rolu digər mərhələlərdən xeyli fərqlənir. İqtisadiy>'ata dövlət müdaxiləsinin xarakteri və belə müdaxilənin fəlsəfəsi dəyişir. Rəqabət yeniliklər əsasmda apanidıqda kapitalın bölgüsü, proteksionizm, lisenziya nəzarəti, ixraca subsidiyalar verilməsi və birbaşa müdaxilənin digər formalan öz əhəmiyyətini itiıir.

Sərvət əsasında rəqabət mərhələsi, əvvəlki üç mərhələdən fərqli olaraq son nəticədə tənəzzülə apanr. İqtisadiyyatın hərəkətverici qüw'əsi artıq əldə edümiş bolluqdur. Əsas problem ondan ibarətdir ki, əvvəllər yaradılmış səı*vət əsasmda hərəkət edən iqtisadiyyat öz sərvətini daha artıra bilmir. Bu mərhələdə bir çox səbəblər nəticəsində firmalar beynəlxalq rəqabətdə öz mövqelərini itiraıəyə başlayırlar. Rəqabətin zəifləməsi fınnalann yeniliklərə kapital qoymaq üçün marağım azaldır.

Rəqabət üstünlüyünün yeni mərhələlərinə doğru ölkə sənayesinin hərəkətlərini təmin edən şərtlər aşağıdakılardır:

- istehsal amillərinin formalaşması mexanizmi - amilləri yaradan və təkmilləşdirən mexanizmin mövcud olması yeni mərhələdə rəqabət üstünlüyünün əsasım təşkil edir;
- motivasiya - işçilərin, mütəxəssislərin, sahə rəhbərlərinin innovasiya yaradılmasmda marağınm artınlması üçün yüksək ideallarm mövcudluğu və onların etibarlı şəkildə mükafatlandırılması çox vacibdir.
- daxili rəqabət - rəqabət qabiliyyətinin artırılması və iımovasiyalarm stimullaşdınıması üçün zəruridir.
- tələbin təkmilləşdirilməsi - tələbin keyfiyyətinin yüksəldilməsi qabaqcıl sahələrin və ixtisalaşmış seqmentlərin müvəffəqiyyətli inkişafi üçün potensial yaradu-. Yüksək rəqabət qabiliyyətinə nail olmuş hər bü sahə digər sahələrin məhsullanmn alıcısı olduğu üçün tələb genişlənir.
- yeni biznes yaradılmasmda qabiliyyətin mövcudluğu. Hər bir növbəti mərhələyə keçilməsi yeni biznes yaradılmasmda səmərəli mexanizmin mövcudluğunu tələb edir. Sağlam rəqabətin aynlmaz mühüm cəhəti

məhz budur. Yalnız bu halda qohum sahələrdə və klasterlərdə strukturlann inkişafı mümkündür.

Texniki cəhətdən yüksək inkişaf etmiş müasir ölkələrdə rəqabət qabiliyyəti əsas etiban ilə texnoloji üstünlüyə, bii' çox inkişaf etməkdə olan ölkələrdə isə - istehsal amillərinə əsaslanır. Ba.şqa sözlə şimal və cənub ötkələrində rəqabət qabiliy>'ətinin təbiəti fərqlidir. Milli rəqabət qabiliyyətinin mənbəyi onun iqtisadi inkişaf mərhələlərini dəqiq səciyyələndirir.

Beynəlxalq ticarətdən səmərəli istifadə etməklə sənayenin inkişafı salıə-sində müvəffəqiyyət qazanmağuı yollan haqqında bir sıra nəzəri>7ələr mövcuddur. Bu sahədə klassik görüşlər öz ifadəsini müqayisəli üstünlüklər nəzəriyyəsində tapmjşdu-.

Müqayisəli üstünlüklər nəzəriyyəsi istehsal amilləri əsasında iqtisadiyyatın bir çox sahələrində ixrac və idxalın stnıkturunun formalaşmasmda müəyyən rol oynamış, eləcə də dövlətlər rəqabət qabiliy>^əti siyasətinin həyata keçirilməsində ondan istifadə emtişlər. Lakin, elmi araşdırmalar və praktiki təcrübə göstərir ki, həmin nəzəriyyə ixrac və idxalın strukturunu tam mənası ilə aça bilmir. Həmin ideyalar XVIII və XIX əsrlərdə aktual idi.

XX əsrdə texnoloji dəyişikliklər geniş miqyas almış və rəqabət üstünlüyünün əldə edilməsində apancı amilə çevrilmişdir. Qloballaşma bir çox sahələrdə rəqabətin beynəlmiləlləşməsini daha da sürətləndirir. Rəqib fınnalai' qlobal stıategiya hazırlayıb həyata keçirirlər; öz məhsullarını bütün dünyada satırlar; xammal və materialı da bütün dünyada axtarırlar; istehsalı başqa ölkələrdə yerləşdirirlər.

Sənaye sahələrinin qloballaşması nəticəsində firmaların ölkədə istehsal amillərindən asılılığı azalır. Oıılan dünyanın istənilən nöqtəsindən əldə etmək mümkündür. Nəqliyyatın inkişafı onların gətirilmə xərclərini də azaldıbdır.

Beləliklə, beynəlxalq rəqabətdə müvəffəqiyyət amillərin ölkədə mövcudluğundan çox, onlardan daha məhsuldar istifadədən asılıdn.

Müasir dövrdə əmək bölgüsünün dərinləşdiyi şəraitdə istənilən məhsulun istehsalını müxtəlif sahələrin iştirakı ilə təmin etmək mümkündür. Müəyyən sahədə mövcud fımaların öz aralannda rəqabət aparnıaları ilə yanaşı, onların fəaliyyətinə ıstelılakçılann dəyərləri və təchizatçı müəssisələrin məhsul və xidmətlərinin keyfiyyəti və qiyməti də təsir göstərir. Rəqabət qabiliwətli məhsul istehsalı müəssisənin İazuni həcmdə yüksək keyfiyyətli xammal, material və dəstləşdiıici

momulatlarla təmin olunmasından, ixtisaslı kadrlarından, inkşaf elmiş satış şəbəkəsinə malik olmasından asılıdır

Sənaye müəssisələrinin fəaliyyətinin son nəticəsi məhsul və xidmətlərin istehsalıdır. Məhsul və xidmətlərin rəqabət qabiliyyətliliyi onlanıı nonnal mənfəətlə satılması imkanını ifadə etməklə, həmin məhsul və xidmətlərin istehlak və iqtisadi parametrlərinin istehlakçılann tələblərinə uyğunluğunu göstərir və bazardakı pa>'mı müəyyən edir.

Məhsulun keyfiyyəti onun öz təyinatına müvafiq müəyyən tələbatı ödəməyə yararlı olmasmı şərtləndirən daşıyıcısı olduğu özünəməxsus istelılak xassələrinin məcmusunu əks etdirir. Keyfiyyətdən fərqü olaraq məhsulun rəqabət qabiliyyəti alıcılann müəyyən qrupu üçün maraq kəsb edən və onlann müə>7ən tələbatlanmn ödənilməsini təmin edən xassələrin məcmusu ilə müəyyən edilir.

Beynəlxalq rəqabətin subyektləri - müasir dövrdə beynəlxalq rəqabətin əsas subyeküəri e\aıi zamanda bir çox salıə əmtəə bazarlaruıda eyni zamanda rəqabət ^aran, nəhəng çoxsahəli komplekslərə çevrilmiş transmilli şirkətlərdir (TMŞ).

Rəqabətin iqtisadi əsasmı istehsal sferasmda yaranan münasibətlər təşkil edü. Burada rəqiblərin əsas səyləri beynəlxalq rəqabət qabiliyyətinin aşağıdakı istiqamətlərinə yönəldilir.

- əmək məhsuldarlığım yüksəltmək hesabına dünya bazannm ehtiyaclarma və son istehiakçılarm tələblərinə cavab verən rəqabətqabiliyyətli məhsul istehsal edilməsi;
- yeni məhsul hazırlanması və yaxud buraxılan məhsullann təkmilləşdiıilməsi zamam elmi-texniki tərəqqinin son nailiyyətlərindən istifadə edilməsi və pıinsip etibarilə yeni məhsul buraxılması;
- texnoloji proseslərin bütün həlqələrində və bütün mərhələlərində istehsal xərclərinin daim aşağı salınması;
- məhsul buraxıhşma qədər istehlakçılarla (iri həcmli satışlar üçün) qiymətlərin razılaşdmlması və hər bir konkret bazarda satış şərtləri nəzərə alınmaqla yeni məhsullann qiymətinin müəyyən edilməsi;
- xammal mənbələri uğnmda mübaıizədə - xammal və yamnfabrikatlardan tutmuş kompleksləşdirici komponentlərə qədər əmtəə istehsalının bütün üfiqi mərhələlərində özünə tabe etmək əlavə olunur;
- buraxılan məhsullann rəqabət qabiliyyətinin yüksəldilməsi üçün firmadaxili əlaqələrdən istifadə edilməsi və rəqabət mübarizəsində üstünlük qazanılması. Bu lisenziya və qabaqcıl texnologiyamn qız müəssisələrinə verilməsi, qiymətlərlə manipulyasiya edilməsi; xarici

müəssisələrdə yeni məhsul buraxlışı və onlann keyfiyyətinin artınıması; xaricdə istehsal təchizatçısı müəssisəsinin yaradılması.

Firmaların qlobal sahələrdə rəqabət üstünlüyü yaratması və qonı^oıb saxlaması üsulları onun yerləşdiyi ölkənin rəqabətdə rolunun başa düşülməsi üçün çox mülıümdür. Bu rol isə mühüm olduğu qədər də mürəkkəbdir. Ölkələr yeni rəqabət üstünlüyünü axtaimağa bir sıra şərtlər altında başlamalıdırlar:

1. Müxtəlif sahələrdə və hətta, eyni sahələrin müxtəlif seqmentlərində rəqabətin xarakteri və mənbələri müxtəlifdir. Firmaların konkret sahələrdə və onlann ayn-ayn seqmentlərində müəyyən strategiyadan istifadə etməklə rəqabət aparma qabiliyyətinə ölkənin təsirini müəyyən etmək lazımdır.

2. Qlobal rəqabət aparan fırmalarm, bəzən müxtəlif fəaliyyət növləri, onun yerləşdiyi ölkədən kənardakı dəyərlər həlqəsinə daxil olur. Rəqabətin qloballaşması rəqabət üstünlüyünün yaradılmasında fırmamn yerləşdiyi ölkənin əhəmiyyətini azaltmır, ancaq onuıı xarakterim dəyişir. Ona görə də vəzifə, yalnız öz ölkəsinin sərhədləri daxilində fəaliyyət göstərən fımıanm nə üçün müvəffəqi>7ət qazanmasmm səbəblərini deyil, bu və ya digər ölkənin bu və ya digər sahədə rəqabət üçün daha sərfəli olduğunu aydınlaşdırmaq lazımdır. Firmanın yerləşdiyi ölkə, həmin Ölkədə əldə edilmiş üstünlüyü, dünyada geniş və möhkəm mövqe qazanmaq imkanı ilə əlaqələndirmək məqsədilə qlobal strategiya üçün platformadır.

3. Firmalar beynəlxalq rəqabətdə üstünlüyü hərtərəfli yenilənmə və yaxşılaşdırma yolu ilə qazanırlar və qorunub saxlayırlar. Yenilənmə isə, məlum olduğu kimi həm texnologiyam, həm firmanm hərəkət formalarım, o cümlədən yeni məhsul hazırlanmasım, onlann istehsalı üçün yeni texnologiyanm əldə edilməsini, marketinqin yeni üsullannı, yeni alıcı qruplannın axtan şmı və s. əhatə edir.

Beləliklə beynəlxalq rəqabətdə iki təmayül, iki əsas iqtisadi münasibətlər növü qarşılıqlı çəkildə özünü göstərir: 1). oliqopoliya çərçivəsində qiymət uğrunda rəqabət və qarşılıqh təsir, razılaşma və bazarda hərəkətlərin əlaqələndirilməsinə çalışmaq; 2) autsayderlər əleyhinə onlan məhv etməyə qədər rəqabət mübarizəsi aparmaq.

Qiymət xətti və qiymət olmayan amillər üzrə rəqabət ETT-nin stimullaşdınlmasında həlledici rol o>'nayır, şirkətdə istehsalın səmərəliliyinin yüksəldilməsinə müsbət təsir göstərir. Bu amil müəssisəni yeni məhsul buraxılması risqinə getməyə təşviq edir.

Transmilli oliqopoliyalar çərçivəsində rəqabət spesifik əlamətlərə malikdir. Nəhəng firmalarm əlində istehsal və kapitalın yüksək təmərküzləşmə səvi>'}'osi beynəlxalq bazar münasibətlərinin bütün struktuınna keyfiyyətcə tamamilə yeni məqamlar gətirmişdir: bir tərəfdən, dünya bazarında istər nəhəng fiımalar və autsayderlər arasında, istərsə do nəhəng firmalann özləri arasında ziddiyyətlər və rəqabət kəskinləşir. A.\mncılann bir-biri ilə razılığa gəlməsi asandır.

Kapitalın transmilliləşraəsinin xarakterik cəhəti tərəfdaşların yüksək səviyyədə həmrəyliyini əks etdirən TMŞ-in oliqopoliyalannm yaranmasıdır. Oliqapoliyada TMŞ-in sayı çox olmur və onlann üzvləri arasında spesifik xüsusiyyətlərə malik olan uzunmüddətli inhisarçı rəqabət münasibətləri mövcuddur. Ən mühüm sahələrdə fəali>^'ət göstərən şirkətlər arasındakı sahədaxili əlaqələrin yeni formalanmn yaranmasım məhz oliqopoliya strukturlan şərtləndirir. Çevik, qeyri- formal koordinasiya üsullarından istifadə edilməsi əsasuıda ayn-ayrı dövlətlərdə TMŞ-lər öz fəaliyyətlərini əlaqələndirirlər. Qarşılıqlı güzəşt siyasəti ən çox yayılmışdır, bu siyasətə görə şirkətlər açıq rəqabətə getmirlər. Rəqabət aparan TMŞ-lər arasında iqtisadi münasibətlər konkıet əmtəə bazarlaruıda oliqopoliya çərçivəsində yaranmış qüvvələr nisbətinin dəyaşməsinə deyil, qorunub saxlamimasma yönəldilir.

Oliqapoliyalamı nisbətən yaxm dövrlərdə yarandığı sahələrdə və firma kifayət qədər qarşıhqlı anlayışa nail ola bihnədikdə, o yamsılamaq və liderin arxasınca getmək texnikasım yeridir. Onun mahiyyəti belədir: oliqopoliya qruplaşmasımn üzvlərindən biri qiymətləri qaldınrsa və yaxud istehsal güclərinin genişlənməsinə əl atırsa, digərləri həmin addımlan dərhal təkrar edirlər; biri yeni istehsalı mənimsəyirsə və yaxud yeni sahəyə daxil olursa, digərləri də belə edir. Əgər lider rəqabət müharibəsinə başlasa, onlar kritik vəziyyətə düşə bilərlər; oliqopoliyamn bir üzvü xaricdə öz filiallanmn sayım artırırsa, digərləri də eyni cür hərəkət edirlər.

Qiymətlərdə liderlik taktikası, yəni sanyedə inhisarçı - tənzimləyici qüvvələr qarşılıqlı əlaqə və qiymət siyasətini birbaşa tənzimləmə üsulunu tətbiq etməyə 70-ci illərdə başlamışlar. Bu preyskurant qiymətləri sistemi (qiymətlərin sinxron dəyişməsi) yaradılmaq yolu ilə həyata keçirilirdi. 80-90-cı illərdə radiotexnika, yeyinti, toxuculuq sahələrində qiymətdə lidCTİik praktikası öz əhəmiyyətini itirdi, çünki həmin sahələrdə çoxlu yeni rəqabət meydana çıxdılar. Avtomobil sənayesində də eyni vəziyyət mövcud idi. əgər əvvəllər qiymət rəqabəti kiçik rəqiblərin aradan qaldınimasma yönəldilirdisə, indi bu rəqabət iıi şirkətlər arasında gedir.

Qiymət müharibəsi ən çox polad, avtomobil, kimya mohsullan, elektronika əmtəələri, bütün növ nəqliyyatda və rabitədə Ö23ünün göstərir. Müasir döwdə azsaylı nəhəng firmaların inhisarçı vəziyyəti onlara imkan verir ki, məqsədyönlü, “plana uyğun” şəkildə mahyyə baxımından az gücə malik, lakin məhsulların texnüd-iqtisadi parametrlərinə görə kifayət qədər rəqabət qabiliyyətli lırraalan boğmağa imkan verir. Kapitalın bir sahədən başqasına keçməsi üçün çətin iqtisadi sədd qoymaq yolu ilə inhisarlarm autsayderlərlə rəqbət mübarizəsi güclənmişdir. Belə iqtisadi səddlərin əsas forraalan aşağıdakılardan ibarətdir:

- optimal (rentabelli) istehsal üçün kompleksin həcmi ilə müəyyən edilən səddlər. Robotlann, çevik istehsal sisteminin tətbiqi, yalnız küllü miqdarda maliyyə ehtiyatlanna nəzarət edən nəhəng firmalann nail olduqları istehsalın optimal səviv^yəsini əhəmiyyətli dərəcədə artım;
- elektron maşınqayuma kimi bir sıra sahələrdə eimtutumlu məhsullarla əlaqədai' olan sədlər. Burada elmi-tədqiqat işlərinə, yalmz irihəcmli xərclər deyil, eyni zamanda müvafiq informasiya və təcrübənin toplanması tələb olunur;
- patent inlıisaıı. Bununla əlaqədar olaraq 15-20 il üçün, yəni patentin qüvvədə olduğu müddətə bütün növ texnologiy^amn texniki və kommersiya baxımından istismanna icazə verən müstəsna hüquqdan istifadə edirlər;
- fırmadaxili mübadilə. Bu da kəskin rəqabət şəraitində konkret bazarlarda onlann nəzarətində olan firmalara xüsusi imkanlar yaradır. Çünki onlar rəqiblərin kapitalınm buraya axmasına mane olur, öz müəssisələrinin kapital qoyuluşlarına şərait yaradır.

İri firmaların kiçik və orta şirkətlərlə qarşılıqh əlaqələrində iqtisadi üsullar əhəmiyyətli dərəcədə dəyişmişdii*. İnhisarlaşma prosesi inhisailaşmamış sahəllərin azalmasına və aradan qalxmasına səbəb olmur. Orta və kiçik firmalar yalnız müxtəlif ənənəvi istehsal və xidmət sahələrim öz əllərində stabil olaraq saxlamağa nail olmurlar, eyni zamanda mühüm məsələ odur ki, onlar elmi-texniki tərəqqi ilə əlaqədar olan yeni sahələri də ələ keçirə bilirlər. Tətbiqi elmi-texniki laynhələrin hazırlanması və onlann istehsalda tətbiqi üçün yaradılmış bir çox vençur şirkətlərinin çoxu müstəqil firma kimi fəaliyyət göstərirlər.

Müasir dövrdə rəqabət mübarizəsinin iqtisadi əsası TMŞ çərçivəsində birləşmiş iri mülkiyyətdir. Dünya təsərrüfatmm bh çox sahələrində məhsullann əksəriyyətinin istehsalı və satışı azsaylı nəhəng şirkətlərin əllrində cəmlənmişdir ki, onlar əmtəələrin istehsalı və satışı üzərində nəzarəti həyata keçilir, dünya bazannda qiymətləri diqtə edir və onları

yüksək səviyyədə saxlayırlar. TMŞ-lər bu məqsədlə iqtisadi üsulla yanaşı birbaşa zorakılıq, baykot, məcburi birləşmə və rəqibə başqa ləz>'iq vasitələrdən istifadə edirlər.

İstər dünya, istərsə do milli bazarlarda, xüsusən qiymət sahəsində rəqabətin rolu son illərdə durmadan artır. İri şirkətlər məhsulun və bazann xarakterini, habelə digər apancı istehsalçılann hərəkətlərini nəzərə almaqla qiymət siyasətinin müxtəlif variantlanndan istifadə etmək imkanına malikdirlər. TMŞ-lərin təxminən eyni potensiala malik olan və e>aıi zamanda yenilikləri tətbiq etmək istəməyən iştirakçılan rəqabətin əsas aləti olan qiymət rəqabətindən imtina edirlər. Mübarizənin qiymət üsullarmdan istifadə oluımıası rəqib şükətlərin maliyyə-texniki potensialı eyni olduqda çox baha başa gəlir, ən başlıcası isə qələbəyə gətirib çıxarmır.

Qiymətlərin aşağı salmması yolu ilə TMŞ daxili qiymətlərin aşağı salınması əsasında əsaslı hücumu oliqopoliyalar yalmz qüvvələr nisbətində köklü dəyişikliklər baş verdikdə təşkil edirlər.

Rəqabət üstünlüyü yerli şərait nəzərə alınmaqla yaıadıln və qorunub saxlanılır. Milli iqtisadiyyatm stnıkturunda, dəyərlər kompleksində, milli mədəniyyətlərdə, dövlət qumluşunda və ölkələrin tarixində olan fərqlər rəqabət sahəsində müvəffəqiyyətə ciddi təsir edir. Firmanın ycrləşdiri ölkənin rolu azalmır, əksinə arür. İlk baxışdan elə görünə bilər ki, qloballaşma ölkələrin rolımu azaldır. Amma, bu belə deyildir, və əksinədir. Rəqabət mövqeyinin möhkəmlənməsində milli dövlətlər getdikcə daha böyük rol oynayır.

Ölkənin rəqbət üstünlüyünün əsasında həmin ölkənin innovasiyaları və təkmilləşdinnələri nə dərəcədə stimullaşdnması dayamr. Aydınlaşdırmaq lazımdır ki, nə üçün bu ölkədə firmalaıu təkmilləşmək və yeniləmnək üçün başqa ölkələrə nisbətən daha yaxşı şərait vardu'.

Beynəlxalq rəqabət aabiliwəti haaamda ümumi müddəalar - beləliklə, beynəlxalq rəqabət qabiliyyəti haqqmda nəzəri baxışları ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar:

1. Rəqabət qabiliyyəti - bazar iqtisadiyyatı sisteminə xas olan elə bir hadisədir ki, bu zaman bir sıra istehsalçılar digər istehsalçılara nisbətən müəyyən həlledici rəqabət üstünlüyünü əldə edir və bunun sayəsində bazann tələbatını on yaxşı ödəmək qabiliyyətinə malik olur. Bununla əlaqədar olaraq o, həmin bazarda hakim mövqe qazann.

2. Rəqabət qabiliyyəti yalmz ayn-aym istehsalçılarm imkanlannm müqayisəsi ilə müəyyən edilə bildiyi üçün nisbidir və həmin müqayisənin hansı istehsalçı ilə hansı bazarda apanlmasından asılıdır. Bununla yanaşı,

istehsalçı vo ya omtəə hansı bazarda olrnasmda asılı olmayaraq, şəksiz rəqabət üstünlüyünə malik ola bilər. Ona görə də, mütləq və nisbi rəqabət qabiliy3/əti anlayışı elmi ədəbiyyata daxil edilibdir. Həqiqətən də, dünya bazarmda rəqabət qabili>'yətli olmayan əmtəə, daxili bazarda rəqabət qabibyyətli ola bilər.

3. Rəqabət qabiliyyəti daxili ieraıxiyaya malikdir, yəni müxtəlif səviyyədə lokallaşmanın qarşılıqlı təsiri vasitəsilə özünü göstərir. Lokallaşma hər hansı bir məhsul (xidmət) yaxud istehsal prosesi səviyyəsindən milü iqtisadiyyat və dünya təsərrüfatı səviyyəsinə qədər ola bilər. Bu zaman ietaıxiya sə\dyyələri arasındakı qarşılıqlı əlaqə dialektik mahiyj'ətə malikdir. Belə ki, milli rəqabət qabiliyyəti, əsas etibarilə ölkə daxilində ayrı-ayn şirkətlərin rəqabət qabiliyyəti ilə müə>'yən edilir. Rəqabət qabiliyyətli iqtisadiyyat isə beynəlxalq prestij, səmərəli dövlət siyasəti və daim genişlənən daxili bazar şəklində ayrı-ayn şirkətlərə əlavə üstünlük verir. Lakin, milli rəqabət qabili>yəti və şirkətlərin rəqabət qabiliyyəti həm qarşılıqlı əlaqə şəklində inkişaf edir, həm də bazaı* davranışından asılı olaraq uyğun gəhnəyə də bilər.

4. Rəqabət qabiliyyətinin bu vo ya digər səviyyəsini təmin edən həlledici şərtlər arasmda istchsalçılarm istehsal amillərinə malik olmasım, habelə keyfiyyət, qiymət və onlardan istifadə səviyyəsini göstərmək olar. Bu zaman istehsal amillərinin özləri əhəmiyyətinə görə iki müxtəlif qrupa bölünürlər: əsas və ya təbiətin verdiyi (toıpaq, iqlim, mineral ehtiyatlar, əhali və s.) və insan fəaliyyəti nəticəsində inkişaf edən formalaşan (kapital texnologiya, ixtisash işçi qüvvəsi və s.) amillər. Uzun tarixi dövr ərzində iqtisadi inkişafda ən mühüm rolu əsas istehsal amilləri oynamışlar. Sonralar ETT-nin inkişafı və elmin bilavasitə məhsuldai' qüvvəyə çevrilməsi nəticəsində texnologiya, innovasiyalai' və yiücsək ixtisaslı kadrlann mövcudluğu ilə əlaqədar olan amillər daha böyük əhəmiyyət kəsb etməyə başladı.

5. Rəqabət üstünlüyünün əhəmiyyəti vaxt məhdudiyyətinə malikdir. Qabaqcıl təcrübə yayıldıqca həmin üstünlüyün gətirdiyi əlavə gəlirin səviyyəsi azalır. Əldə edilmiş rəqabət qabiliyyəti səviyyəsinin saxlamiması üçün üstünlüyün yaradılması prosesi fasiləsiz olmalıdır. Beləliklə, rəqabət qabiliy>'əti yalnız iqtisadi hadisə deyildir, o eyni zamanda məhsulun özünü, onun istehsalı və bölgüsünü təkmilləşdirən innovasiyalann fasiləsiz axtaıışı prosesidir.

6. Rəqabət qabiliyyəti müəssisənin fəaliyyətinin səmərəliliyinin ümumiləşdirilmiş meyandır, çünki onım yaşaya bilməsi və inkişafı imkanlan rəqabət qabiliyyətinin əldə edilmiş səviyyəsindən asılıdır.

BımunJa yanaşı, o, müəssisəni təşkil edən iqtisadi sistemin ünsürləri, proseslər və qarşıbqlı əlaqələrin kəmiyyətindən, keyfiyyətindən və inkişaf sürətindən birbaşa asılıdır. Beləliklə, rəqabət qabili>7Əti iqtisadi sistemin formalaşması və təkmilləşdirilməsində mühüm istiqamətverici və sistemyaradıcı amildir.

## 3.7. İqtisadi inkişaf və beynəlxalq ticarət

Klassik və neoklassik iqtisadçılar xarici ticarət nəzəriyyəsini statik baxımdan nəzərdən keçirmişlər və ümumi iqtisadi inkişaf problemlərinə ayrıca diqqət yetirməmişlər. Lakin həyat daim dinamizm göstərir, istehsal amilləri, texnoloji struktur və ictimai zövqlərdə, tələb və təklifin quruluşunda dəyişikliklər baş verir. Günümüzdə iqtisadi artım və iqtisadi inkişaf iqtisad elmində ən cox diqqət çəkən problemlərə cevıilmişdir. Ona görə də, iqtisadi inkişaf və beynəlxalq ticarət arasmda mövcud olan qaışıhqlı əlaqələr diqqətlə öyrənilməbdir.

*İstehlak və xarici ticarət* - iqtisadi inkişaf cəmiyyətin zövqündə və mallara üstünlük veıilməsində dəyişikliklər yaradır. Xaıici ticarətə açılan ölkələıin əhalisi əvvəllər ölkədə mövcud olmayan mallar ilə qarşı-qarşıya CLxır və onlan istehlak etməyə başlayırlar. Başqa sözlə, xarici ticarət yeni ehtiyatlar yaradır və onlann təmin olunması zərurətini doğurur. Beynəlxalq ticaıət müasir istehlak standartının zəif inkişaf etmiş ölkələrdə yayılmasma yol açır. Bütün bunlai' isə ölkə istehsalmm daxili strukturunda da dəyişikliklərə meydan verir, idxala əsaslanan istehlakın artması xarici ticarət həcminin artmasma, əksinə, ixraca yüklü inkişaf modeli isə xarici ticarət həcminin azalmasına səbəb olur.

Məlumdur ki, adambaşı hesabı ilə gəlirin artma prosesi əhalinin fərdi istehlakmın quınluşunda dəyişikliyə səbəb olur və bu zaman adətən tələbin xarakterində iki qanunauyğunluq özünü göstərir. Hər şeydən əvvəl, fərdi gəlirlər artdıqca əhalinin müxtəlif növ mal və xidmətlərə olan tələbi qeyri-bərabər artır. Gəlirlər artdıqca tələbin ümumi həcmində şərti olaraq ilkin tələbat mallaıı adlanan mal qıupunun payı azalır, lyüks mallai' adlanan digər qrupun payı isə artır.

Alman iqtisadçısı Engelin adı ilə adlanan bu qanunauyğunluqda ilkin tələbat mallarına ərzaq, lyüks mallara isə uzun müddətli istifadə olunan mallar (soyuducu, televizor və s.) aid edilmişdir. Bu qanuna görə qiymətlər və demoqrafik dəyişikliklər (ailənin tərkibi və sayı) sabit qaldığı halda gəlirlərin artımı ərzağa olan istehlak xərclərinin payımn azalmasına gətirib çıxarır. Bu zaman ərzağa olan tələb artır, lakin bu

artım gəlirlərin artımından geri qalır. Ailə büdcəsinin tədqiqi nəticəsində yaranımş həmin qanun istər ayn-ayn ailə, istərsə də bütöv bir ölkə üzrə real həyatda özünü doğruldur. Yəni, gerçək həyatda iqtisadi inkişafın nəticəsi olaraq adambaşına gəlirin aıtması tələbin strukturunda dəyişiklik yaradır. Bu dəyişiklik isə gəlirləri az elastikliyə malik olan ərzaq məhsulları, hər şeydən əv\'əl taxıl isteksalcılannm əleyhinə olur

Engel qanunu belə bir nəticəyə gəlməyə imkan verir ki, göstərilən qanunauyğunluq lyüks mallarm və ilkin tələbat mallannm qiymətlərinin dəyişməsinə səbəb olur. Gəlirin artması lyüks mallara olan tələbin və raüvallq olaraq onların qiymətlərinin nisbi artmasına gətirib çıxarır. Bu isə həmin mallann ixracı üzrə ixtisaslaşmış ölkələrin sürətli inkişafına yol acır. İlkin tələbat malları istehsal edən mülkiyyətçiləri və ölkələri isə həmin mallara olan tələbin və müvafiq surətdə qiymətlərin nisbi olfuaq azalması prosesi gözləyir.

*İstehsal amilhrinin dinamikası və xarici ticarət* - həyat dinamizmi istehsal amillərinə də aiddir. Zaman keçdikcə onlar kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalırlar. Hər hansı bir ölkədə, məlum olduğu kiıni, iqtisadi artım: istehsal amillərinin miqdarca artımı və ya istehsal texnologiyasında tətbiq olunan yeniliklər nəticəsində baş verir. İstehsal amilləri içərisində kapital və kadıfaım ixtisasları sürətlə artu. Əmək ehtiyatlan nisbətən yavaş, lakin sabit olaraq artır. Hətta kənd təsənıifatı üçün yararlı torpaqlann sahəsi və istifadə olunan faydah qazıntılann miqdannda da artma meyli müşahidə edilir. Bəs bunlar beynəlxalq ticaıətə necə təsir göstərir?

Hər bir ölkədə müxtəlif istehsal amillərinin artum müxtəlif proporsiyalarda özünü gösətərə bilər. Bu fərqin xarici ticarətə təsirini aydınlaşdırmaq üçün əvvəlcə, həqiqətdə mümkün olmayan, belə bir fəıziyyə qəbul edək ki, guya bütün ölkələrdə istehsal amilləri tamamilə eyni sürətlə artir. Bu fərziyyəni təhlil edən S.B.Linder belə nəticəyə gəlir ki, bu halda ölkələrarası ticarət axınımn şərtləri və dünya qiymətlərinin nisbəti dəyişməz qalardı. Yalnız istehsalm və xarici ticarətin mütləq həcmi dəyişərdi. Xarici ticarətə istehsal amilləri baxımmdan təsir göstərən əsas cəhət istər bu amillərin müxtəlif növləri və istərsə də onlann ölkələr arasındakı artım sürəti arasmdakı fərqdir.

Bu fərqli artım vaxt kecdikcə ölkənin malik olduğu müqayisəli üstünlüyün dəyişməsinə səbəb olur. Məsələn, keçən əsrin ikinci yansmda ABŞ daha çox dağ-mədən sənayesi məhsullan ixrac edən bir ölkə idi. Hal-hazırda isə bu ölkə həmin məhsullarm hanusmı xaricdən gətiıir. Başqa sözlə, ölkə keçən əsrdə daha çox toıpaq tutumlu mal ixıac edən

ölkədən, əmək-kapital tutumlu mal ixrac edən ölkəyə çevrilmişdir. Bu proses ona görə baş vermişdir ki, bu ölkədə torpaq amilinin artımı çox yavaş, əmək-kapital amilinin artmu isə çox sürətli olmuşdur. İstehsal amillərinin artım surəti arasmdakı fərqin xarici ticarətə göstərdiyi təsirin kanalları çoxsaylıdır. Bu təsir özünü həm tələb, həm də təklif vasitəsilə büruzə verir. Bu zaman müəyyənedici məsələ istehsal amillərini hansı sahələrdə daha sürətlə artmasıdır: idxal ilə rəqabət vəziyyətində olan sahələrdə; yoxsa ixracat sahələrində. Həmin fərqli artmu amerikan alimi P.X.Lindert "Dünya təsərrüfat əlaqələrinin iqtisadiy>’atı" kitabında aydın izah edir.

*İdmiı əv^zedən sahədə artım* - bu prosesi izah etmək ücün hər şeydən əvvəl fərz edək ki, məsələn, ABŞ-da kapital amili sürədə inkişaf edir və idxal ilə rəqabət vəziyyətində olan (>'əni həmin mal həm xaricdən idxal edilir, həm də ölkədə istehsal edilir) mahud istehsalında bu amildən intensiv istifadə edilir. Eyni zamanda fərz edək ki, ixrac üçün nəzərdə tutulan buğda istehsalında əkilən torpaq və digər amillərin miqdan dəyişmir. Bu zaman idxal (mahud) sahəsində intensiv istifadə olunan kapitalın artum, bu kapitahn gəlMiliyini azaldır. K^ital ucuz olduğu ücün təbiidir ki, istehsalçılar istehsalm həcmini genişləndiiməyə çahşırlar. Lakin istehsalm artım sthəti müxtəlif sahələrdə (yəni mahud və bu da istehsalmda) eyni dərəcədə olmayacaqdn. İstehsal xərcləıinin tərkibində kapital amilinin xüsusi çəkisi mahud istehsalmda buğda istehsahna nisbətən çox olduğu üçün kapitalın ucuzlaşması mahud istchsalcılan ücün daha əhəmiyyətli olacaqdır. Bunun nəticəsində isə, ölkədə mahud istehsalı buğda istehsalına nisbətən daha sürətlə aıtacaqdır. Mahud istehsalıun artum isə həmin mahn idxalım azaldacaq, daha doğrusu idxalı əvəz edəcəkdiı*. Bununla da ölkənin dünya bazaıın- dan bu məhsul üzrə asılılığı azalacaqdır. Bu proses əgər geniş miqyasda həyata keçüilmiş olarsa, dünya ticarətinə (müvafiq olaraq qiymətlərin, habelə ticarətinin azalmasına) da təsir göstərəcəkdir.

Dünya iqtisadi konyuktunma təsir edə bilməyən kiçik iqtisadi potensiala malik olan ölkələrdə, idxalı əvəzetmə siyasətinin elmi əsaslarla apanıması bu ölkədə beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəh istifadə edilməsi və iqtisadi inkişafın sürətləndirilməsi üçün əlverişli şərait yaradn. Azərbaycan kimi beynəlxalq əmək bölgüsünün üstünlüklərindən keçmişdə səmərəli şəkildə istifadə olunmamış ölkələrdə idxalı əvəzetmə siyasətinə daha böyük ehtiyac vardır. Məsələn, zəngin təbii sərvətlərə və əlverişli iqlim şəraitinə malik olan respublikamızda əhalinin istehlak mallarına olan ehtiyacımn

qiymətli valyuta ilə xaricdən alınmasını azaltmaq lazımdır. Bu vəziyyət, yalnız məqsədyönlü və elmi əsaslara dayanan idxalı əvəzetmə siyasəti vasitəsilə aradan qaldırıla bilər.

*İxracın genışhndirilməsi sahəsində artım* - indi fərz edək ki, ixracat sahəsində, yəni buğda istehsalında istifadə olunan yaxşı torpaq sahəsində aıtım mövcuddur. Bu zaman tutaq ki, kapital və digər amillorin təklifi dəyişməz qalmışdır. Aydındır ki, əlavə toıpaq sahələri icarə haqquuı azalmasına səbəb olacaqdır ki, bu da femıerləri buğda sahələrini genişləndirməyə sövq edəcəkdir. Belə vəziyyətdə ölkədə buğda istehsalının artımı malmd istehsalına nisbətən sürətli olacaqdır. Əlavə i.stehsal olunan buğdanın müəyyən hissəsi ixraca yönələcəkdir. Bu vəziyyət buğdanın istehsal xərcləri dünya qiymətləri səviyyəsinə qədər yüksələnədək davam edəcəkdir. İxrac olunan buğda istehsalının .ABŞ-da artması (əgər bu böyük miqyasda olarsa) dünya ticarətinin həcmini genişləndirəcək və buğdanın dünya qiymətlərinin aşağı düşməsinə səbəb olacaqdır. Az iqtisadi potensiala malik olan ölkələrdə də ixracı genişləndirmə siyasəti dünya miq>'asmda müqayisəli üstünlüklərdən səmərəli şəkildə istifadə olunması nəticəsində bu ölkələrin iqtisadi inkişafının (digər amillərin sabit qalması şəıtilə) sürətləndirilməsinə gətirib çıxaracaqdır.

Bu zaman belə bir cəhəti nəzərə almaq lazımdn; dünya təsərrüfat sistemində getdikcə daha layiqli yer tutan yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, ixracat potensialının genişləndirilməsi siyasəti yeridilərkən o dövlətlər daha cox iqtisadi nəticə əldə edir ki, onlar bütün qüv'vələri yalmz hər hansı bir mal növünün ixracat potensialının genişləndirməsinə yönəltmirlər. Daha cox mal qrupunun ixracının genişləndirilməsi ölkənin daha zəmanətli inkişafi üçün əlverişli şərait yaradır. Bu baxımdan Azərbaycanda da ixracat potensialının genişləndirilməsi işində bütün ümidləri yalnız neftə bağlamaq nə elmi, nə də praktik cəhətdən düzgün olmazdı. Həyat çoxtərəfli ixracat siyasətin yürüdülməsini tələb edir. Müasir mərhələdə idxah əvəzetmə və ixracat potensialın genişləndirilməsi siyasəti əhəmiyyətli təsərrüfat nailiy>'ətləri əldə etmiş ölkələrdə hökumətin yeritdiyi iqtisadi siyasətin mühüm tərkib hissələridir. Uzun əsrlər boyu bazar iqtisadiyyatı şəraitində yaşaimş ölkələrin zəngin təcrübəsi göstərir ki, idxalı əvəzetmə və ya ixracatm genişləndirilməsi zamanı bu və ya digər sahələrin sürətli inkişafını təmin etmək üçün maliyyə-kredit mexanizmindən geniş istifadə edilməli, bu sahələrə əlavə kapital qoyuluşu cəlb edilməli, vergi dərəcələri aşağı salmmahdır.

*Rıhçinski nəzəriyyəsi "Hollandiya xəstəliyi"* - *"Kasıblardırıcı artım "* - istehsal amillərinin qeyri-bərabər aıtırm bir sıra digər iqtisadi nəticələr də doğurur. Hər hansı bir istehsal amilinin sürətli artımı, onun intensiv istifadə olunduğu iqtisadiyyat saliəsində xüsusi çəkisinin çoxalmasına səbəb olur. Bu bütün digər şərtlər daxilində başqa istehsal sahələrinin nisbi azalmasuıa gətirib çıxarır. Çünki, ucuzlaşnuş istehsal amili daha çox istifadə olunan sahə həm də istehsal amillərini digər sahələrdən özünə daha çox cəlb edir. Ribçinski nəzəriyyəsinin mahiy>'əti ondan ibarətdir ki, qiymətlərin sabit qalması və iqtisadiyyatda yalnış iki salıənin mövcud olduğu şərti daxilində hər hansı bir istehsal amilinhı artımı mallaıdan birinin istehsalının azalmasına səbəb olui'.

Beynəlxalq ticarətin liberallaşdmhnasında əlverişli şərait rejimində (ƏŞR) öz ifadəsini tapan qaışıbqlı ticarət güzəştləri böyük rol oynayır. Bu rejimə uyğun olaraq, öz aralarında müqavilə bağlamış ölkələr bir- birinə (üçüncü ölkəyə də tətbiq edilən) qarşılıqb güzəşt edirlər. Bu güzəşt və üstünlüklər gömrük müdafiəsindən, yəni gömrük rüsumu dərəcələrində əks olunuı*. Bu halda danışıqlar apanlaraq saziş imzalanan kimi, həmin güzəştlər dərhal bütün digər ölkələrə də ayn-seçkilik salınmadan tətbiq edilir.

ƏŞR-nin mahiyyəti ondan ibarətdk ki, gömrük tariflərinin ləğvi və ya azaldılması bütün iştirakçı tərəflərə aid edilir (əgər bu halda qərar birtərəfli qaydada qəbul edilmiş olsa da).

Beynəlxalq ticarətin inkişafmda da QATT tərəfindən qəbul olunmuş birtərəfli qərarlara yol verilməməsi prinsipi də çox müıiümdür. Milli bazarın himayə olunması haqqmda qərar yalnız çoxtərəfli məsləhətləşmələr apanldıqdan sonra qəbul oluna bilər.

Təcıübədə QATT-m əsas prinsiplərini həyata keçirmək üçün üzv ölkələrin ümumi razılığı əsasında təşkilat mexanizmi (katiblik) yaradılmışdır. QATT katibliyi Cenevrə şəhərində yerləşmişdir. Bu orqanm fəaliyyəti konfi'ans və sessiyalar çərçivəsində həyata keçirilir.

Adətən, sessiyalar yüksək vəzifəli məmurlarm görüşləri ilə başlayır, sonra isə raundlar adlanan danışıqlar başlayır. Belə raundlai’ 1949, 1951, 1956, 1960, 1961-ci illərdə olmuşdur. Bunlar arasında uzun müddət davam etmiş Tokio və Uruqvay raımdlannı (1983-dən 1994-çü ilə qədər davam etmişlər) xüsusi olaraq göstərmək lazımdır. Bu son iki raundda müzakirə olunan məsələlərin sayı artmlraış və qeyri-tarif ticarət sədləri haqqmda məsələ də gündəliyə daxil edilmişdir. QATT-ın fəaliyyətində gömrük rüsumlarımn ixtisan və ya ləğvi üzrə görülən işlər xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 1945-ci ildə inkişaf etmiş ölkələrdə gömrük rüsumlarmın orta səviyyəsi 40-60 % təşkil etdiyi halda (bəzi mal növləri üzrə 70-90%) 90-cı illərin əwələrində 3-5%-ə qədər aşağı salınmışdır.

1993-cü ilin dekabr ayında Unıqvay raundunda yekun sənədi hazırlandı ki, həmin sənəddə bütün əvvəlki danışıqlarm nəticələri nəzərə alındı. Bu sənədə əsasən QATT Ümumdünya Ticarət Təşkilatına (ÜTT) çevrilmişdir. ÜTT-mn ali idarəedici orqanı nazirlərin konfransıdır. Bu təşkilat QATT çərçivəsində bağlanmış bütün sazişlərin, o cümlədən Umqvay raundu razılaşmalaıım yerinə yetbilməsinə nəzarət edir. ÜTT- yə üzv olmaq hər bir iştirakçı ölkə üçün artıq bağlanmış bütün razılaşmalanı tam həcmdə yerinə yetirəcəyinin öz üzərinə götürülməsi deməkdnr. QAİT, daha doği'usu ÜTT öz səlahiyyət dairəsini genişləndirərək dünya iqtisadi əlaqələrinin tənzimlənməsində çox mühüm beynəlxalq orqana çevrilmişdir.

QATT - ÜTT. QATT, indild ÜTT qlobal tənzimləmə sisteminin üçüncü mühüm təşkilatdır. Onun öz fəaliyyətində rəhbər tutduğu əsas prinsiplər açıq iqtisadiyyat və sərbəst ticarətdir. İstehsalçıİaı*a qarşı ayn-seçkiliyi qadağan etmiş, ixracatçıların təcavüzkar (dempinq) siyasətinə mane oluı; gömrük və qeyri-tarif məndudlaşmalannm aradan qaldırılmasına çalışn. Belə ki, ticarətin liberallaşdınıması dünyanın iqtisadi potensiahndan daha səmərəli istifadə olunması üçün şərait yaradır.

QATT-ın yaradılması tarixi dünya müstəmləkəçilik sisteminin dağılması və inkişaf etməkdə olan müstəqil dövlətlərin meydana gəlməsi tarixi ilə eyni vaxta düşür. Dünya iqtisadiyyatnın liberallaşdml-ması prosesi bu ölkələrdə sürətli və davamlı sosial-iqtisadi inkişafm təmin edilməsi tələblərinə cavab verir. Ona görə üçüncü dünya Ölkələri də sərbəst ticarəti müdafiə edirlər. Çünki sərbəst ticarət sənayeləşməni başlıca məqsədlərindən biri hesab edən bu ölkələrə imkan veıir ki, onlar texnologiya və yeni texnika idxal etmək üçün Şimal bazarlarma asanlıqla daxil ola bilsinlər. Xammal ixrac edən ölkələr də bu baxımdan

alternalivsizdirlər.

Bununla yanaşı dünya dövlətlərinin təcrübəsi göstərir ki, həmin mərhələdə bazar qədər dövlətin rolu da olduqca əhənıiy>'ətiidir. Bu isə həmin ölkələrin problemlərinə xüsusi münasibət göstərilməsini tələb edir. Bu baxımdan hələ 1957-ci ildə həmin ölkələr üçün məhdudiyyətlər qoyulması işində müə>'>'ən istisnalar verilmişdir. Dövlətin iqtisadiyyata müdaxiləsinin inkişafı prosesinə Ül^l -nm nizamnaməsi ınəhdudlaşdıncı təsir göstərir. Mütəxəssislərin rəyinə görə həmin nizamnamə bütün bazar subyektlərinin hüquqlarım, onlarm kamilliyi dərəcəsindən asılı olmayaraq qlobal rəqabətdə eyni dərəcədə müdafiə etmir. Adaptasiya üçün verilən 8 illik güzəştli müddət isə kifayət deyildir.

ÜTT çərçivəsində qlobal danışıqlar və “oyun qaydalarmın” müəyyən edilməsində adətən kasıb ölkələr iştirak etmirlər. Onun fəaliyyəti isə yarandığı gündən investisiya və xidmətlər bazarlannm liberallaşmasına yönəldilmişdir.

İnkişaf etmiş sənaye ölkələri QATT tərəfindən icazə verilmiş idxalın miqdai' məhdudlaşdırmalanm öz nəzarətinə tabe etməyə çalışırlai'. Bu məqsədə çatmaq üçün Qərb dövlətləri miqdar məhdudlaşdırmalanm fiskal xarakter daşıyan valyuta problemləri ilə əlaqələndirməyə çalışırlar. Təsadüfi deyildir ki, miqdar məhdudlaşdırmalanmn tətbiqi məsələləri müvafiq dövlətlər tərəfindən deyil, BVF ekspertlərinin “texniki tövsiyələri” əsasında həll edilir.

İnkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrinin maıaqlı olduqlan kənd təsərrüfatı, toxuculuq və digər mallar bazaında tarif və qeyri-tarif maneələri yüksək səviyyədə və geniş qalmaqda davam edir.

Dünya iqtisadiyyatmm qloballaşmasının mühüm aspektlərindən biri kənd təsənüfatı məhsullan ticarəti üzrə dövlətlərai'ası strategiyanın fonnalaşmasıdır. Bu foımalaşma prosesində mü.xtəlif qrup ölkələrin mənafeləri toqquşur. Aqrar sektor inkişaf etmiş sənaye ölkələrində tarif sistemi, qeyri-tarif məhdudlaşdırmaları, idxalın miqdar məhdudlaşdırılması, ixracm könüllü məhdudlaşdırmaları və s. vasitələrindən istifadə edilməklə mürəkkəb və səmərəli dövlət tədbirləri sistemi ilə himayə edilir. Həmin himayəçilik tədbirlərinə milh kənd təsərrüfatı istehsalçılanna külli miqdarda subsidiyalan da əlavə etmək lazımdır. Bəzi hesablamalara görə inkişaf etmiş ölkələrdə aqrar istehsalçılara verilən subsidiyalar hər il 140 mlrd, dollara çatır.

Kənd təsərrüfatı subsidiyalan kasıb ölkələr üçün diskriminasiya mahiyyəti almağa başlamışdır. Çünki inkişaf etmiş ölkələrdə aqrai’ bölməyə hər il verilən subsidiyalar həmin bölmədə istehsal edilən məhsullann

dəyərinin yansma qədərini təşkil edir. Bu isə kənd təsərrüfatı məhsullan üzrə qeyri-bərabər rəqabət mülııiti yaradır və həmin məhsuJlann inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrindən ixracı üçün ciddi maneçilik törədir.

Tədqiqat göstərir ki, inkişaf etməkdə olan ölkələrin ənənəvi olaraq ən çox maraqlı olduqlan mallar toxuculuq, paltar, kənd təsərrüfatı məhsullan üzrə ticarət sahəsində ÜTT-mn şərtləri yerinə yetirilməkdən uzaqdır. ÜTT-mn səylərinə baxmayaraq, inkişaf etmiş sənaye ölkələri tərəfindən həmin məhsullara qoyulmuş yüksək tariflərin aşağı salınması mümkün olmamışdır. Bu isə üçüncü dünya ölkələrindən həmin mallann ixracınm artmasma mane olmuşdur. Qeyri-tarif məhdudlaşdırmaları da əvvəllər olduğu kimi yüksək səviyyədə qalmaqda davara edir.

L.akin inkişaf etmiş sənaye ölkələrinin bazara buraxılma probleminə münasibəti belə iqtisadi mexanizmin yaradılması məntiqinə ziddir. ÜTT- nın nizamnaməsinə görə bu təşkilatın qoyduğu şərtlər güclü dövlətlərin birtərəfli qərarlan ilə deyil, beynəlxalq hüquq normalarına əsaslanan çoxtərəfli razılaşmalar əsasında qoyulmalıdır. Lakin ÜTT-nm təcrübəsi göstərir ki, bu heç də belə deyildir və həmin qərar çox vaxt kağız üzərində qalır.

Dünya bazarma çıxış üçün geniş imkanlaı* verən ÜTT-na üzvdük məsələsinin həll edilməsi prosesində Azərbaycanm bu təşkilata daxil olması ilə konkret hansı məsələlərin həll ediləcəyi, ölkənin dünya ticarətində hansı rol oynayacağı və bu zaman hansı güzəştlərə gediləcəyi qəti şəkildə aydınlaşdınlır. Özümüz üçın müəyyənləşdirməliyik ki, gömrük siyasəti necə apanlacaqdır.

Azərba>'can Rcspublikasımn iqtisadi inkişaf nazirliyinin məlumatlarına əsasən; ölkəmizin Ümumdünya Ticarət Təşkilatma (ÜTf) üzv olmaq üçün müraciət etdiyi vaxtdan keçən dövr ərzində üzvlük prosesi üçün zəruri olan bir çox işlər görülmüşdür, İlk növbədə Azərbaycamn ÜTT-yə üzv olma prosesini sürətləndirmək üçün ölkə qanunvericiliyinin ÜTI’-nin tələblərinə uyğunlaşdınıması məqsədilə bir sıra qanunverici sənədlərə əlavə və dəyişikliklər olunmuş, Azərbaycamn ÜTT-yə üzv olmasına hazırhq işləri üzrə Komissiyamn 8 iclası keçirilmiş, quruma üzv olan ölkələrin suallan cavablandınimışdu. Komissiyanın 2007-ci ilin iyun ayında keçirilmiş sonuncu iclasında ölkə qanımveıiciliyinin təkmilləş- diıilməsi planımn icra vəziyyəti və bu işin sürətləndirilməsi yollan hərtərəfli müzakirə edUmiş, aidiyyaü dövlət qm-umlan arasmda əlaqələndirmənin gücləndirilməsi və institutsional potensialın artmlması məqsədilə Komissiyanm tərkibi təkmilləşdirilmişdir. Azərbaycamn ÜTT-

yə üzvlüyü ilə bağlı danışıqlar həlledici mərhələyə qədəm qoymuşdur. Artıq Azərbaycan Türkiyə ilə tHT-yə üzv olmağa dair 2007-ci ildə və xidmətlər üzi'ə ikitərəfli Protokol imzalamışdır. Türkiyə ilə yanaşı, Gürcüstan, Moldova, Oman və Birləşmiş Ərəb Əmirliyi ilə İkitərəfli danışıqlar tamamlanmış və protokollarm imzalanması razılaşdınimışdır. Hazırda isə Azərbaycan bir sıra ölkələrlə, o cümlədən Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı, Yaponiya, Kanada, Cənubi Koreya, Çinin 'Fay- van əyaləti ilə əmtəə və xidmətlərə dair ikitərəfli danışıqlar apaıır. Hesab edirik ki, Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı görülən işlər qısa vaxt ərzində ölkəmizin bu quruma üzv olmasuu təmin edəcəkdii'.

## 4.6. İnkişaf etməkdə olan ölkələrdə beynəlxalq ticarət siyasəti

Son vaxtlar belə bir fikir tez-tez söylənir ki, dünya təsərrüfatı sistemində xüsusi qrup təşkil edən və 2,5 mlrd, nəfər əhalisi olan inkişaf etməkdə olan ölkələrdə fərqli beynəlxalq ticarət siyasəti yeridil- məlidü*. Həmin qrup ölkələrin dünya istehsahnda payı 1960-cı ildə 11,9%-dən 1990-c) ildə 19%-ə yük,səlmişdir, ixiacm ümumi həcmi isə 1950-1960-cı illərdə 27 mlrd, dollaıdan 475 mlrd, dollara yüksəlmişdir. Həmin qrup ölkələrdə ümumi xarici ticaıət dövıiyyəsi 1995-2007-ci illər ərzində 3.435 mlrd. ABŞ doUanndan 10.319 mlrd, ABŞ doUarma qədər yüksəhnişdir. Başqa sözlə desək, xarici ticaıət dövriyyəsi 3 dəfə, o cümlədən, həmnin dövrdə, ixrac isə 3.5 dəfədən şox artmışdu-. Bu ölkələrin xarici ticarətinin həcminin sürətlə artması və dünya birliyinə daha çox inteqrasiya etməsi baxımından kasıbhq səviyyəsi də azalır. Yaimz onu göstərmək kifayətdir ki, inkişaf etməkdə olan ölkələrdə adam başma məcmu daxili məhsulun orta ümumi həcmini 1 vahid hesab etsək həmin göstərici inkişaf etmiş ölkələrdə 1950-ci ildə 9,6 vahiddən 1985-ci ildə 11,3 vahidə yüksəlmişdir. Eyni zamanda bu göstərici inkişaf etməkdə olan ölkələrdə 1950-cı ildə 9,6 vahiddən 1985-cı ildə 11,3 vahidə jdiksəlmişdir.

**Regionlanı adambaşma ÜDM-i (ABŞ-m səviyyəsinə görə faizlə)**

Cədvəl 4.2.

| | 1900 j | 1950 | 2000 |
|---|---|---|---|
| Bütün dünya | 27,8 1 | 21, 2 | 22,2 |
| Qərbin inkişaf etmiş ölkələr | 70,6 i | 57,3 | 80, 5 |
| Qərbi Avropa | 67,9 1 | 45, 5 | 69,0 |

| | | | |
|---|---|---|---|
| İEOÖ | 11,3 | 7,2 | 10,7 |
| Cənubi Amerika | 5,3 | 21,6 | 19,3 |
| Yaxın və Orta Asiya (yaxın və Orta Şərq daxil deyil) | 10,3 | 4,8 | 9,9 |
| Şimal Afrika, Yaxın və Orta Şərq | 13,4 | 12,3 | 19,5 |
| Afrikanın cənubu | 12,0 | 7, 9 | 2, 6 |
| vSSRİ (2000-ci ildə MDB və BaltUcyam ölkələr | 26, 8 | 28, 8 | 19, 1 |




*Şəkil 8. Dünya regionları üzrə adambaşına ÜDM (ABŞ səviyyəsinə görə faizlə)*

Bununla yanaşı real həyat göstərir ki, qloballaşmanın bəhrələrinin ilk olaraq güclü dövlətlər tərəfindən mənimsənilməsi nəticəsində inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında fərq azalmır, əksinə daha da amr. Bu haqda iqtisadi ədəbiyyatda kifayət qədər dəlillər və faktlar mövcuddur. Biz burada yahnz bir fakt üzərində dayanmağı məqsədə uyğun hesab edirik: adam başma düşən ÜDM inkişaf etməkdə olan ölkələrdə 1900-cü üdə ABŞ səviyyəsində 11.3% təşkil etdiyi halda 2000-ci ildə 10. 7%-ə enmişdir.

İnkişaf etməkdə olan Ölkələrin beynəlxalq ticarətdə ənənəvi olaıaq xammal istehsalı və satışı ilə əlaqədar olan müqayisəli üstünlüyü dünya təsərrüfatı sisteminin konyuktura dalğalanmalarına daha çox məruz qalır və qeyri-sabitdir. Ona görə də, bəzən "üçüncü dünya" ölkələri adlanan bu ölkələrin beynəlxalq ticarət siyasətində mal satışı qiymətlərinin sabitləşdir!İməsi və yüksəldilməsi, bu Ölkələrin sənaye məhsulları

ixracına qoyulan ticarət sədlərinin qaldınbnası və yeni iqtisadi qaydalar yaradılması uğrunda mübarizə genişlənir. Onlai' sənaye ölkələrindən idxal olunan bir çox mailann istehsalmı ölkə daxilində təşkil edərək əvəzetmə siyasəti yeridiilər, ixracın inkişafım geniş təşviq edirlər.

*İdxalı əvəzetmə* siyasəti (İƏS) - məliundur ki, inkişaf etməkdə olan ölkələrdə iqtisadi müstəqilliyin əsası ölkədə milli sənayenin hər vasitəsilə inkişaf etdirilməsidir. Bu ölkələrdə milli iqtisadiyyatm inkişafmm və sənayeləşmənin mühüm istiqamətlərindən biri qiymətləri qeyri-sabit olan xam mal ixracının azaldılması, aqrar bölmə və dağ- mədən sənayesi hesabma emaledici sənayenin sürətli inkişafinm təmin edilməsi üzıə uzunmüddətli dövlət siyasətinin həyata keçirilməsidir.

Hələ 30-cu illərin böyük iqtisadi böhram zamanı xammal qiymətlərinin sürətlə aşağı düşdüyü zaman bir çox ölkələr (məs., Argentina və Avstraliya) sənaye ra ail an idxalımn azaldılması hesabma sənayeləşməni inkişaf etdirməyə başladılar. Müstəqillik əldə etmiş ölkələrdə İƏS 50-60-cı illərdə daha geniş yayılmışıdı. 70-80-cı illərdə bir çox inkişaf etməkdə olan ölkələr xarici ticaıəti və xüsusən ixracı genişləndirmək kursunu əsas götüımüş olsalar da lƏS yenə də geniş yayılmışdır.

İƏS-nin zəruriliyini sübut etmək üçün adətən aşağıdakı arqumentlər gətirilii':

1. İƏS-i vasitəsilə sənayeləşmənin sürətləndirilməsi iqtisadi inkişaf və kəskin sosial problemlərin həlli üçün əlavə səmərə verir;
2. Apanimış çoxlu tədqiqatlar göstərir ki, idxahn daxili istehsal ilə əvəz olunması, xüsusən geniş iqtisadi potensiala malik olan ölkələrdə, ixracatın genişləndirilməsinə nisbətən daha faydalıdır və ölkənin ticarət şərtlərini öz xeyrinə dəyişdirir. Böyük iqtisadi potensiala malik olan "üçüncü dünya" ölkələri bu və ya digər əmtəə və əmtəə qrupu ixracını sürətlə genişləndirdikdə həmin malları idxal edən ölkələr tərəfindən himayoçilik tədbirləri qəbul edilməsi ehtimalı vardır, halbuki birinci ölkələr daxili istehsalı təşkil etməklə məhsulu xarici bazara çıxartmadan ölkə miqy^asmda xeyli qənaət əldə edə bilərlər;
3. İdxal yerli istehsal ilə əvəz olunduqda adətən ucuz və asan əldə olunan informasiyadan istifadə olunur. Belə ki, inkişaf etməkdə olan ölkələr bu və ya digər əmtəə üzrə dünya konyukturunu əsaslı öyrəmnək və minlərlə növ maldan hansınm xarici bazarda yaxşı satıldığmı bihnək işində adətən çətinlik çəkirlər. Halbuki həmin ölkələr hansı mallara daxili tələbatın yüksək olduğunu yaxşı bilirlər. Onu da bilmək lazmıdır ki, İƏS yalnız inkişaf etməkdə olan ölkələrdə deyil, inkişaf etmiş sənaye

ölkələrində də (məs. ABŞ və Yaponiyada) bu və ya digər dərəcədə istifadə olunmuşdur.

Lakin, bir çox tədqiqatlarda lƏS-nin bir çox nöqsanlan da göstərilir. Məsələn, qeyd olunur ki, bir çox ölkələrin (məs., Argentina, Çili, Kolumbiya, Misir, Cənubi Koreya, Türkiyə və s.) iqtisadi təcrübəsində yerli sənayenin inkişafı üçün idxalata yüksək ticarət sədlərinin qoyulması müəyyən iqtisadi itkilərə səbəb olmuşdur. İƏS siyasəti uzun müddət və birtərəfli qaydada həyata keçirildikdə bu itkilər daha çox özünü göstərmişdir. Çünki, yüksək himayəçilik səddləri ilə izafi qorunan yerli fimıalarm istehsalın məhsuldaılığının aıtınlmasmda marağı olmur.

*İxracın təşviq olunması siyasəti* - ölkənin başlıca valyuta gəlir mənbəyi olan ixracm təşviq olunması siyasəti müasir dünyada dövlətlərin xarici iqtisadi siyasətinin apancı istiqamətlərindəııdii'. İnkişaf etməkdə olan ölkələrdə bu siyasət xüsusən böyük əhəmiyyətə malikdir və ixrac yönlü (exlifil-dias) xaıici ticarət siyasəti adlanır. İxrac yönlü xarici ticarət siyasəti ixrac üçün məhsul istehsal edilməsi və hazır məhsulların ixracına şərait yaradılması məqsədilə dövlətlərin həyata keçirdiyi təşviqedici tədbirlər sisteminin məcmusuna deyilir.

İnkişaf etməkdə olan ölkələrdə yeridilən iqtisadi siyasətin əsas məqsədi iqtisadi inkişafı sürətləndiıınək və sürətli inkişafı təmin etməkdir. Bunım üçün həmin ölkələrdə, bir qayda olai'aq tərəflər və miqdar məhdudlaşdırmalan ilə gənc sənaye sahələri xarici rəqabətdən qorumaqla inkişaf etdirilir, növbəti mərhələdə isə "xaricə açıq" (outward looking) siyasət yeridilir və əsas diqqət ixracm inkişafina yönəldilir. Lakin, daxildə yüksək istehsal xərcləri ilə hazırlanan məhsullann dünya bazaıiannda satılması zamam bu ölkələr ciddi çətinliklərlə üzləşhlər. Ona görə də onlar ixracla məşğul olan firmalara ciddi yai'dım etməli olurlai'.

*İxracın təşviq tədbirlərinin növləri* - ayn-ayn ölkələrdə müxtəlif şəkildə özünü göstərən bu tədbirləri dörd əsas qrupa böhnək olar:

1. İxraca mükafat sistemi - Bu sistemin əsasım ixrac malı istehsal edən finnalara və ixracatçılara dövlət tərəfindən birbaşa maüyyə yardımları verilməsi təşkil edir. Bu siyasət adətən, idxal gömrük tarifləri və digər vasitələrlə məhdudlaşdmldığa haJlai'da tətbiq ediln.

2. İxracatda vergi güzəştləri - İxracat üçün istehsal olunan malların bəzilərinin istehsalmda istehsal amili kimi idxalat malı istifadə olunm-. Ölkədə tətbiq olunan gömrük vergisi həmin istehsal malımn qiymətini yüksəldil-. Eyni vəziyyət daxili vergilər ağn olduqda da özünü göstərir. Ona görə də ixracatçılar, qiymət baxımmdan dünya bazarında rəqabət apara bilmələri üçün, bu ağır təsii'lərdən azad olunmalıdırlar, Bunun

üçün isə dövlətlər ixracatçılar üçün vergidən tatn azad olunma, verginin aşağı faiz dərəçəsi ilə ödənilməsi, istehsal prosesində ödənilmiş daxili v'ergilərin mal ixrac olunarkən geri qa>'tanlması kimi tədbirlər həyata keçirirlər.

3. *istehsal amilləri sahəsində təşviqedici tədbirlər* - Bu növ tədbirləri 3 əsas qrupa bölmək mümkündür. Birinci qrupa kapital qoyluşlan, müəssisələrin kapitalı və ixracat üçün verilən kreditlərlə əlaqədar olan tədbirlər daxildir. Burada məqsəd, hər hansı bir saliədə ixracatçı maliyyə çətinliyinə məruz qaldığı halda ona yardım etməkdir. İxracatçı üçün ucuz kreditin böyük əhəmiyyəti vardır. Bu krediti o, kapital qoyluşu, müəssisə kapitahmn artmlması və .satış xərçlərinin maliyyələşdirihnəsi məqsədinə yönəldir. İkinci qrup tədbirlər ixracatın sığorta olunması ilə əlaqədardır. Bu zaman ixracatçı üçün verilən kreditin zəmanət və ya sığortalanması məsələsi ortaya çıxır ki, bu məqsədlə də dövlət ixracatçılara yardım edir, Üçüncü qrup təşviq tədbirlərinə isə ucuz qiymətlə xammal təmini, nəqliy>'at xərclərində güzəştlər və kadr hazırlığı sahəsində edilən yardımlar daxildir.

4. *Xarici bazarda mal satışına dövlət yardımı* - Bu tədbirlərə xarici bazarlar haqqında məlumat toplanması, xaricdə sərgilərin təşkil olunması, ixracatçı kadrlarm hazmlanması, məhsulun qablaşdıniması tədbirlərinin dövlət təşkilatları tərəfindən ucuz qiymətlərlə təşkil olunması daxildir.

FƏSİL V
# KAPİTAL VƏ MALİYYƏNİN BEYNƏLXALQ HƏRƏKƏTİ

## 5.1. Kapital və maliyyənm beynəlxalq hərəkətinin mahiyyəti və iqtisadi nəticələri

Kapital vo maliyyənin beynəlxalq hərəkəti dedikdə - hər hansı bir öJJkədə kapitalın və maliyyə ehtiyatlarının bir hissəsinin müxtəlif formalaida milli təkrar istehsal prosesindən çıxarılaraq, başqa bii' ölkədə dövriyyəyə buraxıhıiası başa düşülür.

Dünya təsərrüfatı sisteminin beynəlmiləl xarakteri artdıqca beynəlxalq kapital hərəkəti sürətlə artır. Azad rəqabət dövTündə ölkələr arasmda əmtəə hərəkəti ənənəvi olduğu halda, XIX əsrin sonlan və XX əsrdə kapital hərəkəti beynəlxalq əlaqələrin daha tipik cəhətinə çewilmişdir. 1914-cü ildən ikinci dünya müharibəsinin sonlarına qədər xarici kapital qoyuluşları təxminən 1/3 qədər artmışdır, ikinci dünya müliaribəsindən soma xaıici kapital qoyuluşları hər on ildə, birbaşa investisiyalar isə hər 6-7 ildə iki dəfə artmışdır. Yalmz 1945-1985-ci illərdə sənaye ölkələrinin kapital ixracı 40 dəfədən çox artmışdır. 1983-1989-cu illərdə isə BVF-nə üzv olan ölkələrdə bütün formalarda kapital ixracı 3,5 dəfədən çox artmışdır (299 mlrd, dollardan 1103 mlrd, dollara yüksəlmişdii). iqtisadi Əməkdaşlıq və inkişaf Təşkilaluun (OZSR) məlu- matlanna görə, 1983-cü ildən sonra birbaşa xaıici investisiyaların orta illik artım sürəti 34% olmuş və dünya ticarətinin artıra sürətindən 5 dəfə yüksək olmuşdur. Xaricdə külli miqdarda əcnəbi kapitalı fəaliyyət göstəiir. BMT-nin məlumatma görə, xaricdə toplanmış yalmz birbaşa investisiyalar 1993-çü ildə 2,0 tıillion dollar təşkil etmişdir. 1992-ci ildə xarici kapital iştirak edən müəssisələrdə 5,5 trillion dollarlıq məhsul və xidmət istehsal edilmişdir. Kapital ixracımn artım sürəti həm məcmuu milli məhsulun, həm də əmtəə ixracımn aıtımmdan yüksəkdir. 2000-ci illər ərzində qlobal valyuta bazarlannda gündəlik əməliyyatlarm həcmi iki dəfə, istiqraz bazarlannda 5 dəfə, səhm bazarlannda isə 20 dəfə artmışdır. Valyuta mübadiləsinin gündəlik həcmi dünya maliyyə bazarlannda 2005-ci ildə 2.910 mlrd, dollardan 2008-ci ilin sonunda 4.357 mlrd, dollara qədər yüksəlmişdir. Beynəlxalq kapital hərəkəti dünya təsərrüfat əlaqələrinin muhüra amilinə çevrihnişdir. Xaıici investisiyaların artması və borc kapitalının beynəlmiləlləşməsi nəticəsində dövlətlərarası kredit təşkilatlan sistemi yaradılmış, nəhəng beynəlxalq pul bazan fomıalaşımşdn.

Kapitalın və maliyyənin beynəlxalq hərəkəti hər şeydən əvvəl ölkələr arasmda istehsal xərclərinin, xüsusən əmək haqqının səviyyəsində mövcud olan fərqlə əlaqədardır. Məsələn, ikinçi dünya müharibəsindən sonra əmək tutumlu istehsal kütləvi surətdə sənaye ölkələrindən əmək haqqı çox aşağı (bəzən on dəfə) səviyyədə olan inkişaf etməkdə olan ölkələrə köçürühnəyə başlamışdır. Kapital hərəkətini şərtləndirən on mühüm amillərdən biri ölkələr aıasında təbii sərvətlərin qeyri-bərabər bölgüsüdür. İVansmilli şirkətlər yüksək mənfəət əldə etmək üçün ucuz xammal mənbələrini ələ keçirməyə çalışırlar. Kapital və maliyyə hərəkəti ənənəvi olaraq əmtəə hərəkətinə də yol açır və bazailarm təmin olunmasma şərait yaradır.

Beynəlxalq kapital hərəkətinin iqtisadi nətiçələri:

Kapital qoyulan ölkə öçün - Xarici kapital onu qəbul edən ölkədə kapital yığımı və istehsal güclərinə bilavasitə təsir edti. Kapital yığımı problemi inkişaf etməkdə olan ölkələr üçün xüsusən böyük əhəmiyyət daşıyır. Xarici kapital qoyulduğu ölkədə həm fəaliyyətə başlarkən gətirdiyi kapital ilə, həm də mənfəətdən yığmıa ayumalarla istehsal güclərini artırır. Xarici kapital özü ilə birlikdə texnologiya və müasir idarəçilik təcrübəsim də gətirir, elmi-tədqiqat işlərini təşkil edir, yerli kadrlamı ha- zırlanmasma yardım edir.

Xarici kapitalm gətirdiyi valyuta, idxal olunan mallann istehsalım daxildə təşkil etməsi (idxalm əvəz olımraası) və ixrac potensialmm artırılması üzrə gördüyü işlər onu qəbul edən ölkənin tədiyyə balansı müvazinatımn nizamlanması üçün böyük əhəmiyyətə malikdir. Lakin, sonralar əldə olunan mənfəətin bir hissəsinin xaricə köçürühnəsi tədiyyə balansı müvazinatma mənfi təsh edir. Ona görə də, kapitalı qəbul edən ölkələr çox vaxt mənfəətin xaricə köçürülməsini məhdudlaşdırırlar.

inkişaf etməkdə olan ölkələr xarici kqjital üzrə yeritdikləri siyasətdə bu kapitalların ixracat yönlü istehsala qoyulmasını geniş təşviq edirlər. Çünki, TMŞ-in xarici bazarlarda bütün dünya miqyasında böyük şəbəkə və təcrübələri vardu'.

Xarici kapital iqtisadiyyata dinamik xarakter verir və daxili rəqabəti artırır. Əgər ölkə daxilində hər hansı bir saliədə inhisar vai'sa, xarici kapitalın daxil olması onu aradan qaldırır, istehsalın artmasma və qiymətlərin aşağı düşməsinə səbəb olur. Eyni zamanda xarici kapital qoyuluşları yaratdığı yeni iş yerləri ilə işsizlik probleminin həll olunmasma yardım edir.

Xarici kapital sahəsində dünya dövlətləri müxtəlif siyasət yeridirlər. Onların əksəriyyəti liberal siyasət yeritdiyi halda, bəziləri onların

fəaliyyətini məhdudlaşdırmağa çalışırlar. Bu məhdudiyyətlər kapitalın qoyulma sahəsi (məsələn, dağ-mədən sənayesi, bank işi, qəzet buraxılması, sərinləşdinci içkilər istehsalında xarici kapital bəzən məhdudlaşdmiır və ya qadağan edilir), gətirilən texnologiyanın növü, xarici kapitalm yerli iştiraklarda payı, mənfəəti köçürmə payı, fəaliy>^ət kimi tələblər aiddir.

Bir çox iqtisadçılar birbaşa xaıici kapital qoyan 'HvlŞ -in yaıatdıqlan müəssisələrin idarə olunmasını öz əllərində saxladıqları üçün ehtiyat edirlər ki, onlar apancı iqtisadi sahələri ələ keçirərək bütün iqtisadiyyatı öz nəzarəti altına ala bilərlər. Bunun nəticəsində isə ölkə müstəqil maliyyə, kredit və xarici ticarət siyasəti yeridə bilmək imkanını itirər, siyasi təşkilatlar da xaricilərin təsiri altma düşə bilər.

Ölkə iqtisadiyyatının inkişafında inkaredilməz əhəmiyyətə malik olduğu halda, Kanada, Yaponiya və Qərbi Avropa kimi bir sna inkişaf etmiş ölkələr milli iqtisadi mexanizm üzərində nəzarət sükanım itirməkdən qorxaraq öz ərazisində xarici investisiyaları məhdudlaşdırmağa çalışırlaı*. İnkişaf etməkdə olan ölkələrin mövqeyi ikilidir: Onlar ölkəyə xarici kapital qoyluşlannm həm artmasından, həm də azalmasından narahatdırlai'. Onlar, bir tərəfdən xarici istismarın artmasmdan qorxurlar, digər tərəfdən isə xarici kapital və texnologiyamn məhdudlaşa biləcəyindən ehtiyat ediılər. .Ancaq, ümumiyyətlə götürüldükdə dünya təsərrüfat olaqalərində birbaşa xarici investisiyalar sahəsində liberallaşdıma meyli, məhdıdlaşduma meylindən qat-qat >Tiksəkdir. Yalnız onu göstərmək kifayətdir ki, 1991-1994-ci illər ərzində milli investisiya qanunlaıma edihniş 373 düzəlişdən 368-i liberallaşma istiqamətində edilmişdir. Həmin illər ərzində xarici investisiyanın qorunması haqqmda 900-dən çox ikitərəfli sazişlər bağlanmışdu*. Dünya dövlətlərinin əksəriyyətində birbaşa xarici investisiyalarm təşviq olmunası üçün geniş miqyaslı əmtəəiyyə və digər tədbirlər sistemi həyata keçirilir (5O-dən çox təşviq tədbiri mövcuddur).

Kapital **qoyan** ölkə **üçün -** Kapital və mali>'yə ixracı onu ixrac edən ölkə üçün də müsbət və mənfi nəticələr doğurur. Mənfi nəticə öz əksini kapital qoyan ölkənin milli geniş təkrar istehsah prosesindən kapitalm bir hissəsinin çıxanimasmda və onun artıra sürətinin zəifləməsində tapır. Kapital ixracı həmçinin bu ölkənin tədiyyə balansmın müvazinətinə də mənfi təsir göstəıir.

Xarici kapital qoyuluşu investor baxmundaiı daim qeyri-müəyyənlik mənbəyidir. KqDİtal qoyulan ölkədə iqtisadi və siyasi qeyri-sabitlik artdıqca bu qeyri-müəyyənlik artır. Xaıici kapitalın xaricdə milli

ləşdirilməsi təhlükəsi investor və kapital ixrac edən ölkə üçün daim narahatlıq doğurur. Kapital ixi'acı kapital ixrac edən ölkədə gəlirlərin, dövlət vergilərinin və işsizliyin səviyyəsinə də mənfi təsir göstərərək ölkəıün iqtisadi problemlərinin həllində müəyyən çətinlik yaradır.

Lakin, xarici kapitaldan ölkəyə köçürülən mənfəətlə müqayisədə bu mənfi nəticələr o qədər böyük əhəmiyyətə malik deyildir. Bundan başqa kapital qoyan ölkə kapital qoyulan ölkəni öz siyasi təsiri altına da sala bilər. Başqa sözlə kapital qoyan ölkə xaıici kapital siyasətini xarici siyasətin tərkib hissəsi kimi istifadə edə bilir.

## 5.2. Beynəlxalq kapital hərəkəti nəzəriyyələri

Neoklassik beynəlxalq kapital hərəkəti nəzəriyyəsi klassik beynəlxalq ticarət nəzəriyj'əsinə əsaslanır. Onun əsaslarından birini D.Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi təşkil edir. Həmin nəzəriyyəyə əsaslanaraq C.S. MiU XIX əsrdə dünyada ilk dəfə olaıaq ölkələr arasında kapital hərəkətinin nəzəri əsaslannı araşdırdı. D. Rikardodan sonra o göstərirdi ki, kapital ölkələr aıasında mənfəət normasında olan fərqlə əlaqədar olaıaq hərəkət edir. O, eyni zamanda göstərirdi ki, fərq o qədər yüksək olmalıdır ki, investomn əcnəbi ölkədəki riskini ödəmiş olsun, xıx əsrin sonlan XX əsrin əw'ələrində ingilis iqtisadçılan C.A.Qobson və C.Keyns və M.B.Seyin istehsal amilləri arasındakı nisbət konsepsi- yasuıı beynəlxalq kapital hərəkətinə şamil etdilər. Məsələn, C.Keyns beynəlxalq ticarət və beynəlxalq kapital hərəkətinin alternativ olması haqqmda mühüm bir müddəanı ortaya atdı. O, göstərdi ki, istehsal amillərinüı hərəkəti müəyyən şərtlər daxilində beynəlxalq ticarəti əvəz edə bilər. Kapitalın beynəlxalq hərəkətinin neoklassil< nəzəriyyəsi, qəti şəkildə,

XX əsrin ilk onilliyində E.Hekşer, B.Ohlin, R.Nurse və K.İverson tərəfindən fonnalaşdınıdı.

E.IIekşei' öz konsepsiyası daxilində və son faydalılıq nəzəriyyəsinə əsaslanaraq istehsal amilləri qiymətlərində beynəlxalq tarazlığa doğru meyl haqqmda tezisi irəli sürdü. Bu meyl həm beynəlxalq ticarət, həm də qiymət və miqdar nisbəti müxtəlif ölkələrdə müxtəlif olan istehsal amillərinin beynəlxalq hərəkəti vasitəsilə özünə yol açır.

B.Ohlin özünün beynəlxalq ticarət nəzəriyyəsində göstərirdi ki, istehsal amillərinin beynəlxalq hərəkəti müxtəlif ölkələrdə onlara müxtəlif tələb olması ilə əlaqədardır; onlar məhsuldaıdıq həddi aşağı olan ölkələrdən gedir, yüksək olan ölkələrə gəlir. O, hesab edir ki, kapital üçün məhsuldarlıq həddi hər şeydən əvvəl faiz dərəcəsi ilə müəyyən edilir.

Ohlin həmçinin beynəlxalq k^ital hərəkətinə təsir edən aşağıdakı əlavə amilləri də qeyd edirdi: gömrük maneləri (əmtəə hərəkətinə mane olur və buna görə də xarici investorları bazara girmək üçün kapital ixrac etməyə məcbur edir), firmalann öz kapital qoyul uşlannm coğrafi diversifıkasiyasını artırmağa çalışması, ölkələr arasında siyasi fikir aynhqlan, xarici investisiyalarda böyük riskin mövcudluğu və s.

R.Nıuse beynəlxalq kapital hərəkətinin müxtəlif modellərini yaratdı və belə bir nəticəyə gəldi ki, əmtəə ixiacınm sürətlə artması ilə yanaşı kapitala tələb də artır və o idxal olunur (və ya əksinə).

K.lversen beynəlxalq kapital hərəkətinin real və tarazlayıcı (yəni todiyyə balansını tənzimlə}'ən) olmaqla iki VCTƏ bölündüyü tezisini həli sürdü. O, həmçinin göstərdi ki, kapitalm müxtəlif növləri müxtəlif beynəlxalq hərəkət sürəti qabiliyyətinə malikdir ( köçürmələrin geçik- dirilınəsi ilə əlaqədar). O, belə bir tezisi də əsaslandırdı ki, kapitalın məhsuldarlıq həddi aşağı olan ölkədən, yüksək olan ölkəyə apardması hər iki ölkədə istehsal amillərinin daha səmərəli istifadə olunduğunu göstəril'.

Beynəlxalq kapital hərəkəti nəzəriyyəsi KevTis və onun davamçılan tərəfindən dalıa da inkişaf etdirildi. Keyns və neokeyns nəzəriyyələri k.apital hərəkəti və tədiyyə balansmm vəziyyəti arasmda olan əlaqəyə xüsusi diqqət yetirirlər. Keyns özü hesab edirdi ki, kapital hərəkəti ümumiyyətlə müxtəlif ölkələrin tədiyyə balansında tarazhğm pozulması ilə əlaqədar meydana gəlir.

Keynsin görüşlərini inkişaf etdirərək F.Maxlun onlara üç mühüm nəticə əlavə etdi:

1) Əgər ölkədə tədiyyə balansı müsbət qalığa malikdirsə, o zaman kapital ixracı ixracın idxaldan artıqlığım balanslaşdınr və bununla da bu ölkənin mallanmn ahcılarma həmin əmtəəlaım alınmasım artumağa imkan verir. Nəticədə, kapital ixıac edən ölkələrin milli gəliri artır;

2) Əgər ölkədə milli investisiya az, yığım meyli isə yüksəkdirsə, bu zaman kapital ixracmm bu səbəblə artması işgüzar aktivliyi yaxşılaşdırır və müvafiq olaraq milli gəliri çoxaldu"

3) K^ital idxalını idxal edən Ölkədə daxili iqtisadi vəziyyətə təsiri kapitalm hansı formada idxal olmımasından asıhdn: birbaşa investisiyalar maşın və texnika gətirilməsi ilə əlaqədai' olduğu üçün dalıa əlverişli olsa da, portfel investisiyalai' da qiymətli kağızlar bazannda aktivliyi artınr.

R.F.Xarrod özünün "iqtisadi dinamika" modelində göstərdi ki, kapital bol olan ölkədə iqtisadi artım sürəti nə qədər aşağıdırsa bu ölkədən

kapital ixracı meyli bir o qədər yüksəkdir. E.Dollar tiçarəl balaıısı və məşğulluq problemlərini araşdırarkən göstərirdi ki, kapital ixracı həmin ölkənin xariçdəki kapitalmdan gələn gəliıin arüm sürəti ilə yerli investisiyalarm artıra sürəti arasındakı nisbətdən asılıdu-. Əgər ölkədə investisiyalar investisiya gəlirlərinə nisbətən sürətlə artırsa, bu zaman tiçarot balansı müsbət qalığa malikdir; əgər yerli vəsait qoyuluşlan investisiya gəlirlərindən aşaqı sürətlə artusa, bu zaman ticarət balansı passiv olacaqdn.

Neokeyns nəzəriyyələri inkişaf etmiş ölkələr tərəfindən Afrika, Asiya və Latın /Vmerikası ölkələıinə edilən yaidımların da nəzəri əsasını təşkil edir. Bu nəzəriyyəyə görə üçüncü dünya ölkələrinə kapital ixracı işgüzar fəallığı həm kapital ixrac, həm də idxal edən ölkələrdə artınr. Lakin, belə kapital ixracına yüksək risk dərəcəsi və bu ölkələrdəki siyasi meyllər mane olduğu üçün Qərb dövlətlən' bu növ kapital ixracmı təşviq etməyə (hər şeydən əwəl dövlətin payım artırmaqla) məcburdurlar.

Birbaşa investisiyalar haqqında nəzəri>yə S.Haymer, C. P.Kindieberq, R.E..Keyvz, Stefan P. Maqi, Q.C.Conson, R. Lakrua tərəfindən yaradılıb inkişaf etdirihnişdh'.

Birbaşa investisiya nəzəriyyələri bu investisiyalann yüksək rentabelli olması səbəblərini araşdırmaq baxımından maraqlıdır. Həqiqətən belə bir sual meydana çıxır: ədalətli rəqabət şəraitində öz risklərini minimuma endirməyə çalışan fumalar xarici müəssisələrə geniş miqyasda kapital qoyaıaq, onu özünün tam nəzarətinə tabe edir və bütün riski öz boynuna götürür. Məlum olduğu kimi rəqabət edən firmalarda təsadüfi amillər kompleksi müxtəlif ölkələrdə müxtəlifdir. Riski minimuma endirməyə çalışan investor öz aktivlərini mümkün qədər çox diversifikasiya (çoxşaxəli) edəçəkdir ki, onlan ayn-ayrı təhlükələrdən qorusun. Kapitalın böyük bir hissəsinin hər hansı investisiya səbəbinə bağlamaq isə təhlükəli hesab edilir. Beləliklə, investorun riskini minimuma endirməyin bir yolu da kapitalın di versifikasiyasmm təmin oluımıasıdu'.

Birbaşa xarici investisiyalann mənfəətlilik dərəçəsinə təsir edən amillər araşdmlarkən sadə rəqabət mexanizminin ruhuna zidd olan fiımanm üstünlüyü (fırm-specific advantages) anlayışını nəzərə almaq lazundır. Belə bir təbii sual meydana çıxır: xarici investor nə üçün yerli sakibkarlar ilə onların öz bazarında rəqabətə girir? Çünki, bütün məlum şərtlər daxilində yerli şirkətlər milli bazaida xarici mvestorlaıa nisbətən "yerli oyun şərtlərini" yaxşı bilirlər. Bundan əlavə "uzaqdan idarə etmə "xarici investor üçün əlavə xərc tələb edir, yol və rabitə xərcləri artır, ən

başlıcası isə bir-birini başa düşməmək təhlükəsi bö>öikdür. Bir çox "genetik” üstünlüklərə malik olan yerli firmam ötüb keçmək üçün xarici fnmanjn yeıli rəqib üçün əlçatmaz olan hər hansı bir mühüm üstünlüyü olmalıdır. Adətən belə üstünlük texnologiya və patentə malik olma ilə əlaqədardır. Bir qayda olaraq buraya astronomik miqdarda kapital mənbələrinə azad çıxış yolu ohıiası da əlavə edilir (aydındır ki, yerli fimıalann belə inıkanlan yoxdur). Xarici firma özünün yüksək beynəlxalq statusuna uyğun olaraq bir çox xaıici ölkə bazarlanna asanlıqla girə bilir. Finıa kapitalın investisiyasım və istehsal əməhyyatlanm hər mərhələdə elə koordinasiya edə bilər ki, o sinxronlaşdınna hesabma istehsal xərclərinə küllü miqdarda qənaət etmiş olsun. Firma kamil idarəçilik sistemi tətbiq etməklə və reklamı fəal təşkil etməklə də böyük fayda əldə edə bilir. Bu üstünlüklərə malik olan firma xaricdə öz ölkəsində əldə etdiyinə nisbətən əhəmiyyətli dərəcədə çox mənfəət əldə etməlidir. Onların mənfəəti yerli firmalarm mənfəətindən də qat-qat çox olmahdır. Əks halda beynəbcalq kapital bazan adi kapitallann bir ölkədən başqasma hər hansı bir mənfəət üçün adi köçürmələrdən ibarət olardı.

Beləliklə deyilənlərdən beçə bir nətiçə çıxır ki, birbaşa xarici investisiyalarda rəqabət şərtləri deyil, fimıalann xüsusi üstünlükləri əsas rol oynayır. Bu isə tədqiqatçıları birbaşa investisiyalai' ilə bazar üzərində nəzarət arasında əlaqə olduğunu qəbul etməyə məçbur etmişdir. Bu sahədə iki görüş var:

1. S.Ilaymerin görüşü - S.Haymerin 1976-cı ildə yazmış olduğu tədqiqat işində fimıanm xüsusi üstünülükləri amilinə birbaşa xarici investisiyalar nəzəriyyəsini klassik qeyri-kamil rəqabət (ayn-ayrı bazarlarda) modeli ilə birləşdirmək üçün bir vasitə kimi baxılmışdır.

S.Haymer hesab edir ki, xarici investor hər hansı bir bazarda fəaliyyət göstərən inhisardır. Xarici investisiyalar rəqabəti boğmaq və bazar üzərində nəzarəti ələ keçirmək üçün qoyulur. Həqiqətən müxtəlif bazarlarda bu cür hallar özünü göstərir. Məsələn hər hansı bir firma öz rəqibindən qorxaraq xaricdə filialını açır. Çünki, ola bilsin ki, belə bir filialı rəqibi açsın. Belə investisiyalara “müdafiə investisiyası" deyilir.

2. Mənimsəmə nəzəriyyəsini Stefan P.Maqi 1984-cü ildə əsaslandırmışdır. S.Haymerin görüşünün əksinə olaraq finnam k^ital qoymağa məcbur edən əsas üstünlükləri bazarda onun məhsulu sahəsində azad rəqabət üçün o qədər də böyük təhlükə təşkil etmir. Əksinə, bu üstünlüklər firmaya, yalnız istehsal amilləri sahəsində inhisar hüququ verir. Söhbət şirkətdə menecmentin yüksək səviyyəsindən, istehsalçılann zövqü və tələbi haqqında kamil informasiya sistemindən,

kəşflor üzrə palcntlərdən, gizli reqistlərdən, ticarətin xüsusi qaydalarından kedir. Bu üstünlüklər isə heç də həmişə bazar üzərində nəzarəti ələ keçinnoyə imkan vermir.

Firmanın xüsusi üstünlükləri onu daxili bazarda necə yeni istehsal güclərini yaraünağa vadar edirsə, eləcə də xarici birbaşa investisiyalar qoymağa həvəsləndirir. Firmanın birbaşa xarici invcrisiyaların iqtisadi əsaslandırılması milli sərhədlərdən kənar qəıar qəbul edilmə sahəsinin genişləndiriUnəsi və mənfəətin artırılması ilə əlaqədardır. Firma öz üstünlükləıinin doğurduğu potensial faydaları mənimsəmək üçün çox vaxt çalışır ki, nəzarəti və mülkiyyəti öz əlində saxlasın. Əgər mülkiyyəti və nəzarəti kiminlə isə bölüşdtinnəli olursa, o öz üstünlüklərini itirə bilər. Məsələn, əgər istehsalatda fəhlələrin firmanın təcrübəsinə uyğun olaraq dəqiq təşkil və idarə edilməsi tələb olunduğu halda, nəzarətin başqa şirkətlə bölüşdürühnəsi məhsulun keyfiyyətini və istehsalın səmərəliliyini aşağı sala bilər. Firma əgər öz sirrinə xarici partnyor üçün azad yol açırsa bu sirlər rəqabət mübarizəsində onun özünün əleyhinə məharətlə istifadə edilə bilər.

Mənimsəmə nəzəriyyəsi S. Ha>meıin göıüşündən fərqli olaraq birbaşa investisiyaların perspektivini müəyyən etməyə yardım edir. Fıımalann işi mıırəkkəb və qiymətli biliklərdən asılı olduğu yüksək texnologiyaya tətbiq olunan şairələrdə birbaşa xarici investisiyalann üstünlüyü daha aydın göıünür. Lakin, söhbət burada ondan gedir ki, xarici ölkələrdə əməliyyatlar genişləndiyi zaman texnoloji üstünlüyün bəhıələrinin fiımanm özü tərəfindən mənimsəniləcəyinə çətin zəmanət vennək olar.

Mənimsəmə nəzəriyyəsi və S.llayıner göıüşünün biıbaşa investisiyalar üzrə dövlət siyasəti yeridihnəsinə verdiyi tövsiyyələr də ziddiyət təşkil edir. S.Haymer görüşünə görə dövlətlər inhisai' yaranmasından qorxaraq xarici investisiyalan məhdudlaşdumalıdırlar. Mənimsəmə nəzəriyyəsində isə tamamilə əksinə birbaşa xaıici investisiyalaı- hərtərəfli təşviq olunmalıdır.

İqtisadi nəzəriyyə xüsusən XX əsrin ikinci yansmda sürətlə artan transmilli şirkətlərə böyük diqqət ayini’.

TMŞ-in beynəlxalq fəaliyyətə başlamaları çox vaxt müqayisəli üstünlüklər nəzəriyyəsi ilə izah edilir. Bu şirkətlər öz sərəncamında olan istehsal amillərindən, yeni texnologiyadan, yeni məhsul növlərindən və idarəçilik sahəsində topladıqlan təçrübədən daha səmərəli istifadə etmək üçün beynəlxalq miqyasda öz fəaliyyətini geiişləndiriılər. TMŞ-in fəaliyyəti istər beynəbcalq ticarət nəzəriyyəsi, istərsə də nansmilli şirkətlər haqqındakı nəzəriyy'ə baxmımdan nəzərdən keçirilərkən aydm

olur ki, beynəlxalq miqyasda işin genişləndirilməsində məqsəd məlum bir malın istehsalının maya dəyəri a?, olan ölkədə təşkil olunmasıdır. 'lYansmiUi şirkət haqqında iqtisadi gömşlor ilə bejməlxalq ticarət nəzəriyyəsi arasındakı əsas fərq ondan ibarətdir ki, birinci istehsal amillərinin, ikinci isə əmtəə və xidmətlərin beynəlxalq hərəkətini təhlil edir.

Beynəlxalq ticarət nəzəriyyəsi TMŞ-in birbaşa investisiya qoyma zərurətini həm mənbə, həm də bu şirkətlərin kapital qoyduqları ölkələrin faydalan baxımından araşdırır, TıMŞ özündən asılı olan şirkətlər vasitəsilə çox qazanırlarsa bütün tərəflər iqtisadi fayda əldə edirlər. Bu yol ilə dünya miq>'a.smda iqtisadi mənbələr az məhsuldai' yerlərdən çox məhsuldar yerlərə axır və dalıa səmərəli istifadə olunur. Bu baxımdan nəzərdən keçmidikdə transmilli şirkətlər və beynəlxalq ticarət nəzəriyyəsi eyni təhlil metoduna malikdir. 1/akin, bu oxşarlığa baxmayaraq hər iki iqtisadi nəzəriyyə arasmda fərqlər də mövçuddur. Beynəlxalq tiçarət nəzəriyyəsində mallann qiymətləri rəqabət bazarında müəyyən edilən qiymətlərdir. Lakin, TMŞ-in çoxu vertikal şəkildə yayılır və öz fəaliyyətini ara mallardan hazır məhsul istehsaluıa doğru təşkil edirlər. Ona görə də mallar ölkələr arasında yalnız fuma daxilində satılırlar. Belə vəziyyətdə mallarm qiymətləri rəqabət bazarlarında deyil, firmanm siyasəti əsasında formalaşır. TMŞ öz mənfəətlərini maksimuma yüksəltməyə çalışdıqlan üçün vergilər ydiksək olan ölkələrdə mənfəəti azaltmaq məqsədilə qiymətləri aşağı səviyyədə müəyyən edir.

## 5.3. Kapitalın beynəlxalq hərəkətinin formaları

Kapital və maliyyə hərəkəti beynəlxalq miqyasda çoxtərəfli (lıirtərəfli deyil) və çoxşaxəli (müxtəlif forma və üsullarla) şəkildə həyata keçirilir.

Kapitalm və maliyyənin beynəlxalq hərəkəti ölkələr arasmda sənaye texnikası, maşın və qurğulann mübadiləsi anlayışı ilə eyni deyildir. Dünya iqtisadi ədəbiyyatmda "kapital və maliyyənin beynəlxalq hərəkəti" termini əsas etibarilə beynəlxalq kredit və investisiya qoyuluşlan üzrə maliyyə axmlannı əks etdirir. Əgər şirkətlər xaıicdə texnika və istehsal təyinatlı əmtəələr satm alırsa, bu beynəlxalq ticarət anlayışma daxildir.

Kapital və maliyyənin beynəlxalq axınlan adətən özəl və ya dövlət bölmələrinə məxsus olmaqla uzunmüddətli və ya qısamüddətli, birbaşa və ya portfel formalannda həyata keçirilir:

A. Özəl kreditləşdirmə (yaxud mülkiyyət hüququnun satın alınması);

1. Uzunmüddətli investisiya qoyuluşları (istiqrazlar, səhmlər, patent və ya müəlliflik hüququndan istifadə);

a) birbaşa qoyuluşlar - əsas etibarilə investorun mülkiyyətində və yaxud nəzarətində olan xaricdəki müəssisələrin kıeditləşdirilməsi yaxud səhmlərinin satın alınması;

b) portfel investisiyaları - investorun mülkiyyətində və ya nəzarətində olmayan xarici müəssisənin kreditiəşdirüməsi və yaxud səlimlərinin satın aimması.

2. Qısamüddətli qoyuluşlar - bir ilə qədər müddətlə veksellərin və s. kreditləşdirilməsi. Bu əsas etibarilə portfel investisiyaları ilə əlaqədardır.

B. Dövlət (rəsmi) kreditləşdirilməsi (əsas etibarilə portfel investisiyaları üzrə mülkiyyət hüququnun satın alınması yaxud uzun və qısamüddətli kreditləşdinnə);

Beynəlxalq kapital hərəkətinin təsnifatında onun salıibkarlıq (məhsuldar) və ya borc formasuıda apanlmasına xüsusi diqqət verilir. Ölkələr arasmda sahibkaıiıq və ya məhsuldar fomıada hərəkət edən kapital xaricdə istehsal (sənaye və kənd təsərrüfatmda), ticarət, mali>7ə (bank, sığorta şirkətləri və s.), kommunal və digər sahələrdə müxtəlif müəssisələrin inşasına və ya yaradılmasma yönəldilir. Yeni yaradılan müəssisələr adətən kapitalı ixrac edən müəssisənin xaricdə filialı, yaxud da törəmə müəssisəsi olur. Sahibkarlıq formasında xaricə qoyulan kapitaldan sahibkar dividend və yaxud mənfəət şəklində gəlir əldə edir. Gəlirin səviyyəsi kapitalın qoyulduğu sahədən, nəqliyyat xərcləıindon və digər amillərdən asılıdır. Sahibkarlıq formasında kapital qeyri- müəyyən müddətə hərəkət edir, investisiya şəraiti dəyişdikdə müəssisə və ya onun səhmlərinin satılması yolu ilə kapital geri qaytarıla bilər.

Kapital və maliyyənin borc formasında hərəkəti tarixən sahibkarlıq formasmdan əvvəl gəlir və uzun müddət ikinciyə nisbətən üstünlük təşkil etmişdir. Borc kapitalınm hərəkəti çox vaxt dövlətlərə və iqtisadi rayonlara istiqrazlar və kredit verilməsi şəklində özünü göstərir. İstiqraz və ya kredit verihnəsindən kapital sahibi razılaşdmimış səviyyədə faiz əldə edir.




**Şəldi 9. Sahibkarlıq və borc formasında kapital və maliyyənin beynəlxalq hərəkəti**

Sahibkarlıq və borc formasmda kapital və maliyyə hərəkəti arasındakı əsas fərq ondan ibarətdir ki, istiqraz alıcının sərəncamında müəyyən müddət qalır, həmin müddət qurtardıqdan sonra kapital faizlə birlikdə kreditora qaytanimahdır. Kapital sahibkarlıq fonnasmda ixrac edildikdə isə mülkiyyət hüququ ixracatçıda qalır. Bu isə sahibkara kapital üzərində nəzarəti təmin edir. Kapitalın iki forması arasındakı fərq həmçinin əldə edilən mənfəətin səviyyəsində də özünü göstərir. Borc kapitalının ixracı zamanı onun salıibi mənfəətin səviyyəsi haqqında narahat olmur, çünki, o əvvəlcədən razalaşdınlnıış faizi əldə edir. Sahibkarlıq və borc şəklində beynəlxalq kapital hərəkətinin əsas foımalan şəkil 7-də verilmişdir.

Birbaşa və portfeJ investisiyalar - Sahibkarlıq kapitalı birbaşa və portfel investisiyalanna bölünür. BVF-nun müəyyən etdiyi kimi, birbaşa investisiyaları portfel investisiyalarından fərqləndirən birinci xarakterik cəhət xaricə kapital qoyuluşunun idarə olunması ilə əlaqədardır. Birbaşa xarici investisiya qoyulduqda xaricdə yaradılan qız şirkəti (filial) ana şirkətin bilavasitə nəzarəti altında olur. Onun rəhbər işçiləri də çox vaxt ana şirkət tərəfindən təyin edilir. Bu sahədə üçüncü fərq isə investorun kimliyi ilə əlaqədaidır. Portfel investisiyasını fiziki şəxslər də qoya bilirlər. Birbaşa investisiyalar isə əsas etibarilə TMŞ- lər tərəfindən qoyulur. Nəhayət dördüncü fərq kapital qoyuluşları məbləğlərinin (əsas qoyuluş və faizlərinin) geri qaytarılması problemi ilə əlaqədardır. Portfel investisiyası zamam gəlir və aınortizasiyalarm geri qaylanlması şərtləri əvvəlcədən razılaşdırılır. Bu şərtlər borc alan ölkə baxımından sabit valyuta borcu olaraq iqtisadi konyükturamn təsirinə məruz qala bilmir. Birbaşa qoyuluşlardan isə hər hansı bir gəlir əvvəlcədən mənfəət dərəcəsindən və dövlətlərin bu sahədə qoyduğu məhdudiyyətlərdən asılıdu.

Birinci dünya müharibəsindən əv^'əl beynəlxalq kapital axınmda əsas yeri portfel qoyuluşlan təşkil ediidi. London dünyanın ən böyük maliyyə mərkəzi idi. Mühaıibədən sonra portfel qoyuluşlannm nisbi rolu azalmağa başladı. L.ondon isə öz mövqeyini itirdi.

Əslində mühüm bir hissəsi kapital qoyuluşu anlayışına uyğım gəhnəyən portfel investisiyaları şəxs və ya qunımlann digər ölkələrdəki kapital qoyuluşlarma aid sənədləri satm alması daxildir. Əksəriyyəti uzun və orta müddətli əməliyyatlardan ibarət olan bu əməliyyatlara bəzən ticarət sənədlərinin satın alınması və ya başqa banklann depozit qoyması kimi qısamüddətli əməliyyatlar da daxil edilir. Burada möhtəkirlik əməliyyatlan da istisna olunmur.

Poıtfel investisiyalanmn məqsədi faiz ya da pay gəliri əldə etməkdir. Belə kapital qoyuluşlan adətən faiz və mənfəət səviyyəsi aşağı olan ölkələrdən digər ölkələrə axır. Portfel investisiyalan biiinci dünya müharibəsinə qədər beynəlxalq kapital hərəkəti içində əhərai>7ətli yer tuturdu. Sonralaı* öz əhəmiyyətini tədricən itirdi. İkinci dünya müharibəsindən sonra bir çox ölkələrdə (xüsusən inkişaf etməkdə olan ölkələrdə) valyuta problemlərinin kəskinləşməsi ilə bu növ invcstisiyalarm rolu yenidən artmışdır.

## 5.4. Birbaşa xarici investisiyalar

Uzunmüddətli xarakter daşıyan birbaşa investisiyalar beynəlxalq iqtisadi əlaqələr sistemində getdikcə daha çox müəyyənedici rol oynayır. Dünya təsərrüfatında birbaşa xarici kapital qoyuluşlarının orta illik məbləği artıq 200 mlrd. dolları ötüb keçmişdi. Xaricdə yerləşdirilmiş birbaşa xarici investisiyaların ümumi miqdarı və əsas iştirakçıları haqqında aşağıdakı cədvəl müəyyən təsəvvür oyadır.

**Xaricdə yerləşdirilmiş birbaşa xarici investisiyaların əsas iştirakçıları (2010-cu il)**

Cədvəl 5.1.

| | Xaricdə yerləşdirilmiş mlrd. dol. | Xaricdən gətirilmiş, mlrd. dol. | Xaricə investisiya qoyuluşlarının ÜDM-də payı, %-lə | Birbaşa investisiyaların əsas kapitala qoyulan daxili investisiyalarda payı, %-lə (2006-2009-cu illər üzrə orta göstərici) |
|---|---|---|---|---|
| ABŞ | 2581 | 209 | 1 | 8 |
| Böyük Britaniya | 1348 | 116 | 4 | 32 |
| Almaniya | 1057 | 629, | 3 | 11 |
| Yaponiya | 199,4 | 132, | 1 | 6 |
| Türkiyə | 145,6 | 84,5 | 1 | 9 |
| Rusiya | 306,8 | 324, | 1 | 12 |
| Braziliya | 349,2 | 328, | 1 | 8 |
| Çin | 574,3 | 327, | 8 | 5 |
| Cənubi Koreya | 119,6 | 112, | 6 | 3 |
| Hindistan | 191,1 | 76,2 | 5 | 4 |

**Mənbə:** http://en.wikipedia.org/wiki/List_of_countries_by_received_FDI

Verilən məlumatlardan aydın olur ki, dünyada əsas investorlar artıq qəti şəkildə müəyyən edilmişdir. Yuxarıda qeyd edildiyi kimi, transmilli şirkətlərin və müvafiq olaraq birbaşa investisiyaların əksəriyyəti ABŞ-a məxsusdur. Avropa ölkələri portfel investisiyalarına üstünlük verirlər. ABŞ firmaları birbaşa investisiyalara daha çox əhəmiyyət verdikləri üçün onlar dünyanın əksər ölkələrində öz idarə strukturlarını yaratmışlar. Avropa firmaları isə portfel kapital qoyuluşları vasitəsilə ABŞ şirkətlərinin pay sənədlərini, istiqraz və digər maliyyə aktivlərini satın alırlar. Bunun nəticəsində ABŞ-dan xaricə birbaşa kapital qoyuluşlarını da, ABŞ-a qoyulan portfel investisiyalarını da ABŞ firmaları idarə

**edirlər.** Statistik **araşdırmalara** görə, XXI əsrin **ilk** illərində **birbaşa** investisiyalarm **illik ixracı, orta hesabla,** 800 nüid. **Bollara bərabərdir.**

Molumatlardaıı aydın olıu- ki, bü'başa xaıici investisiyaların 3/4-ü sona-yecə inkişaf etmiş ölkələrdə cəmlənmişdir. Lakin, yeni investisiyalar axınında nisbət müəyyən qədər dəyişmişdir: 3/5 və 2/5. ABŞ-a kapital qoyan firmalar yeni texnologiya və nou-xau, habelə marketinq sistemlərinə qoşulmağa can atırlar. Nəzərə almaq lazımdır ki, hal- hazırda ABŞ dünyada ən nəhəng kapital idxalatçısı, Yaponiya və Almaniya isə son bir neçə onillikdə əsas kapital ixracçılandır. Hal- hazırda ABŞ və Yaponiya arasmda qarşılıqlı kapital axmı (ildə təxminən 80 mlrd.doll.) dünya kapital hərəkətinin 1/3-ni təşkil edir.

Birbaşa investisiyalaı- vasitəsilə investorlar xaricdə yeni firma (müstəqil və ya yerli tərəfdaş ilə birlikdə) yaradırlar; xaıicdə artıq fəaliyyət göstərən firma səhmlərinin bir Iıissəsini və ya bütövlükdə firmanı satın alırlar. Xaricdəki belə fımıalai' adətən qohum firmalann xarici filialları (ingiliscə: foregn affiliates) adlanırlar.

Tədiyyə balansı baxımından ölkənin rezidentlərinin mülkiyyətində olan xarici müəssisələrin mülkiyyətinin satın alınması və ya onlara verilən hər hansı bir kreditlər birbaşa xarici investisiya hesab edilir.

Bu filiallar da öz növbəsində şöbələrə, qız və assosiasiya şirkətlərinə bölünürlər. Şöbələr (ink. branch) xaricdə qeydiy>^atdan keçsələr də aynca balansa malik müstəqil şirkət deyildir və bütünlüklə (100%) qohum firmaya məxsusdur və hüquqi şəxs deyildir. Qız şirkətləri (ink. subsidiary) xaricdə aynca balansa malik müstəqil şirkət (yəni hüquqi şəxs) kimi qeydiyyatdan keçirlər, lakin onun fəaliy>'əti üzərində nəzarəti qohum şirkəti həyata keçirir (malik olduğu səhm paketinin xüsusi çəkisinə uyğun olaraq tam və ya qismən). Assosiasiya şirkəti (ink. associated company) bəzən qanşıq şirkət (ink. Mixed company) adlanır və qız şirkətindən onımla fərqlənir ki, o qohum firmanm nəzarətində deyil, təsiri altında olur (səhmllərə malik olunma dərəcəsindən asılı olai'aq).

iki və ya bir neçə firmalann payı əsasında yaradılan bügə şirkətlər də assosiasiya şirkətlərinin bir növü hesab edilir.

İnvestor xaricdəki filialın fəaliyyətinə əhəmiyyətli dərəcədə nəzarət etdiyi üçün birbaşa investisiya qoyuluşlan portfel investiyalai'ina nisbətən bəzi çətinliklərlə qaışılaşır. Nəzarət altında olan filial çox vaxt qohum şirkətin idai'əçilik təcrübəsinə, ticarət sirlərinə, texnologiyasma birbaşa çıxışa malik olur, onun ticarət markasından istifadə etmək hüququna malik olur. Ona görə də, birbaşa kapital qoyuluşu heç də adi

kapital qoyuluşu deyildir. Hətta bəzən ana şükət öz ticarət markasından, idarəçilik strukturundan və s.-dən istifadə etməklə kapitalı qəbul edən öllcədə geniş maliyyə ehtiyatlarım ələ keçirir. Filial rentabelli olduqda o, öz mənfəətinin investisiyaya qoyubnası hesabına getdikcə qüvvətlənir və gəlirinin bir hissəsinə cüzi investisiya qoymuş qohıun şirkətinə köçürür.

İnvcstorlann öz kapitalı ilə birbaşa investisiyalarda iştirak etməsi çox vaxt milliləşdinnə və müsadirə təhlükəsi ilə əlaqədar olur. Bu təhlükənin əsası Rusiya tərəfindən “bolşevik inqilabından” sonra qoyulmuşdur.

Deyilənləri yekunlaşdıraraq göstənnək lazımdır ki, xarici kapital qoyuluşlan ilə əlaqadar be>məlxalq işgüzar münasibətlərin aşağıdakı formaları özünü göstərir:

1. Tam xarici kapitala məxsus müəssisə yaradılır (a wholly foreign- o\vned enterpirse) - bu zaman biznes tamamilə xarici müəssisəyə məxsus olur. Həmin müəssisə bütün kapitalı və texnologiyaiu təmin edir, riski tamamilə öz bo^muna götürür və gəlirin hamısını da özü aln (vergilər ödənildikdən sonra);

2. Birkə müəssisələr (a joint venture)- bu zaman xaıici və yerli müəssisələr har hansı konkret biznes aparmaq üçün öz güclərini birləşdirirlər. Nəzarət və qərar qəbul etmə səlahi>7əti və onlaıa uyğun olaraq risk və mənfəətin bölüşdürülməsi payda iştirak dərəçəsinə uyğun olaraq həyata keçirilir;

3. Xüsusi kontrakt razılaşması (special contracmal arrangements) ~ buraya məhsul bölgüsü, servds kontraktları haqqmda razılaşmalar daxildir. Bu zaman qərar qəbulu səlahiyyəti, risk və mənfəətin bölgüsü payda iştirak nisbətindən asılı olmui'. Adətən xarici kapital riskin əsas hissəsini və üzərinə götürür, mənfəətin, nəzarət və səlahiyyətin bölgüsü isə damşıqlai'la müəyyən edilir.

4. Texnoloji, idarəçilik və marketinq razılaşmalan (technology, manageraent and marketing agreements) - bu biznes yerli müəssisəyə məxsusdur ki, həmin müəssisə bütün riski öz boynuna götürür və gəliri də özü alır. Xarici müəssisə isə razışlaşdıımaya əsasən gəlir alır. Bu növ investisiyalara lisenziya, idarəçilik, maıketinq və daimi əsaslarla digər xidmət satışı haqqmda razılaşmalar daxildir.

5. ixtisaslaşma və birgə məhsul buraxılışı haqqmda subkontraktlai’ üzj’ə razılaşmalar (subcontact, co-production and specialization agreements) - xalis kontrakt münasibətləri əsasında xaıici və yerli firmalar istehsal və ya marketinq üzrə uzunmüddətli münasibətlər yaradırlar. Bu

kontraktlarda mülkiyyət, nəzarət, risk vo mənfəətin bölü.şdürülməsi haqqmda məsələlərə toxunulmur.

Birbaşa xarici investisiyalann hazırlanma və həyata keçirilmə mexa- nizjni - Birbaşa kapital qoyuluşlanmn hazırlanması və həyata keçirilməsi layihənin təhlilindən başlanır. Layihənin hazırlanması bir neçə mərhələdən keçir. Bu vacib iş xarici bazarla tanışhqdaıı, o cümlədən satış perspektivi olan yerli əmtəə və xidmətlər nomenklatunınun təhlilindən və nomenklatur üzrə xarici bazann tutumunun öyrənilməsindən başlayır. Bu yol ilə yaradılacaq fımıa vasitəsilə istehsal olunacaq və satılacaq məhsuUann həcmi proqnozlaşdırılır.

Sonra, xaricdən əmtəə və xidmətlərin ahnması və ya onların xariçdə satılması üsullan müəyyənləşdirilir, alıcılarla (onlar təsisçi olsalar da) müqavilələr bağlaıur. Bunların əsasında əsas və dövriyyə fondlarına (ofisin yaradılmasına, nəqliyyat və anbar xərcləri, əmək haqqı məsrəfləri, mallarm alınma və saxlanma xərcləri, gömrük təmizlənməsi, qablaşdıma sığorta və s. məqsədlərə) kapital qoyuluşunun həcmi raüəyyənləşdiıilir. Finnanm yaradılması və fəaliyyəti ilə əlaqədar olan yerli və xarici qanunvericilik öyrənilir. Kapital və mənfəətin idxalı və ixiacı, gömıük, rəqabət və dempinq, vergilər, immiqrasiya rejimi, qeyri- tarif məhdudlaşdınnalan, investisiya iqlimi və s. haqqında qanunvericiliyə xüsusi fikir verilii'. Firmanın hansı formada (səhmdar şirkət, birgə müəssisə və s.) yaradılacağı nıüəyyənləşdmlir, əgər ehtiyac vaı*sa xarici təsisçilər seçilir. Sonra yaıadılacaq firmamn iqtisadi səmərəliliyi qiymətləndirilir, Fiımamn yaradıhnasında (satuı alınmasmda) yekun mərhələ təsis sənədlərinin (müqavilə, nizanuıamə və s.) hazırlanması və qəbulu, xarici dövlətdəki səlahiyyətli orqanlai'dan icazə alınması, firmanm qeydiyyatdan keçirilməsidir.

Layihənin başlanması və həyata keçirilməsi üzrə qəraruı qəbul edilməsində firma investisiya iqliminə olduqca bö>1ik əhəmiyyət verir, investisiya (bəzən sahibkaıfıq) iqlimi dedikdə iqtisadiyyata kapital qoyan xarici iş adammm nöqteyi nəzərindən ölkədə mövcud olan situatsiya nəzərdə tutulur. Bu iqlim aşağıdakı qruplarda büləşdirilməsi mümkün olan çoxsaylı elementlərdən ibarətdir;

1. Ölkədə sosial-iqtisadi situasiya və onun perspektivi;
2. Daxili iqtisadi situasiya və onun inkişaf perspektivi;
3. Xarici iqtisadi fəaliyyət və onun perspektivi.

Hor bir risk amilinin özünün xüsusi çəkisi var və bal sistemi ilə qiymətləndirilir. Ona görə də istən ayn-a>Ti risk amilləri, istərsə də bütövlükdə investisiya iqlimi miqadarca qiymətləndirilə bilər.

Risklər başqa şəkillərdə təsnifləşdirilir. Məsələn, əksər dünya dövlətləri üzrə hər il ameıikan firması İntemational Bizness Companu USA (Publications) tərəfindən dərc olunan yeddi cüdük "Publitical Rick Yearbook adb kitabda aşağıdakı risklər qiymətləndirilir; siyasi, maliyə köçürmələri, ixracat, birbaşa investisiyalar. Burada risklər (risk qruplan) 12 bal sistemi ilə qiymətləndirilir. Amerikan firmalan "Business Environment Rick Intelligence", "İntemational Repopts" və Alman firaıası "Beri" riskləri 100 bal sistemi ilə qiymətləndirirlər.

investisiya qoyuluşunda istifadə olunan risk anlayışı - potensial investor tərəfindən qoyulmuş vəsaitin itiıilməsi ehtimalıdır. Praktikada "risk amili" termini sadəcə olai'aq "risk", ölkədə sosial-siyasi vəzi>7ət və onun peıspektivi isə sosial-siyasi (daxili iqtisadi və xarici iqtisadi) risk adlanır.

Sosial-siyasi risk ölkədə iqtisadi vəziyyətə təsir edə biləcək və xarici kapital itkisinə səbəb ola biləcək sosial-siyasi vəziyyətin dəyişə bilməsi baxunmdan nə dərəcədə sabit olduğu anlayışına əsaslanu'.

Hər bir investor, xüsusən tamimilə yeni mühitə düşən xarici investor üçün riskin qi>mətləndiıilməsi çox vacibdir. Ona görə də o riski qiymət- ləndinnə sisteminin bütün üstünlük və nöqsanlanıu yaxşı bilməlidir. Nəzərə almaq lazundu ki, risk amillərinin seçilməsi və onlarm xüsusi çəkisi hər hansı bu sistemdə tam obyektiv ola bilməz. Ona görə də, riskləri qiymətləndinnək üçün müxtəlif risk sistemlərindən istifadə etmək lazımdır.

Riski dəyərləndiiinə sistemi ona yönəldilmişdir ki, potensial investora investisiya layihəsinin yalnız başlanğıc mərhələsinə kömək etsin.

## 5.4. Transmilli şirkətlər

Çoxsaylı filial və digər stıaıkturlarmı məlum bir mərkəzdən idarə edən və eyni vaxtda müxtəlif dünya ölkələrində fəaliyyət göstərən nəliənk şirkətlər transmilli şirkətlər (TMŞ) adlamr. Xaricdə kapital qoyan əsas fımıaya "ana-şirkət" (patent company), xarici ölkədə satın alınan və ya yaradılan şirkətə isə "qız (uşaq) şirkət" (subsidiary) və ya sadəcə olaraq filial, şöbə deyilir. Bunların hamısına birlikdə isə qohum şirkət deyilir.

'nviŞ-in şəbəkələri bütün dünyaya yayılmış istehsalın beynəlmilləşməsində mühüm rol oynayu. Çox böyük kapitala və texnoloji gücə malik

olan bu şirkətlərdə müxtəlif millətlərə mənsub olan milyonlarla fəhlə, texniki heyət və məmurlai' çalışn.

TMŞ-in meydana gəlməsi və geniş yayılması XX əsrin ikinci yansmın mülıüm sosial-iqtisadi hadisəsidir.

Onlar ikinci dünya müharibəsindən sonra yaranmağa başlamışlar. Tarixi baxımdan belə şirkətlər əvəllcə ABŞ - da meydana gəlmiş və sonralar Avropa və Yaponiyaya yayılmışlar. Hal-hazırda isə TMŞ-lor dünya iqtisadiyyatmm inkişafında və eləcə də be>ııəlxalq iqtisadi münasibətlərin formalaşması və inkişafinda çox böyük əhəmiyyət kəsb edirlər. Ümumiyyətlə bu şirkətlər dünya iqtisadiyyatımn hərəkətverci qüvvəsi hesab edilir. Beynəlxalq iqtisadiyyatda iri şirkətlərin meydana gəlməsi təmərküzləşmə proseslərinin başlanması dövrünə təsadüf edti.

Məlumdur ki, kapitalın və istehsalm təmərküzləşməsi prosesi 1860-1870-ci illərdən başlamışdır ki, bu dövrdə də məhsuldaı- qüvvələrin inkişafı əsasən aşağdakı istiqamətləri əhatə edirdi:

1. İstehsal prosesinə yeni maşın tətbiqinin artması.
2. Energetika sahəsində daha köklü dəyişikliklərin baş verməsi.
3. İstehsalın texnologiyasında əsaslı dəyişikliklər edilməsi.
4. Sənayenin yeni sahələrinin inkişafı və quruluş dəyişikliyinin genişlənməsi.

İqtisadiyytatda baş verən dəyişikliklərin nəticəsi idi ki, 1870-1900-cu illərdə dünya üzi'ə sənaye məhsulunun həcmi 3 dəfə, polad əridilməsi isə 56 dəfə artmışdır. Bu proses, yəni sənayenin inkişafı XIX əsrin əwələrinə qədər davam etdi və yeni-yeni sənaye sahələri meydana gəldi.

Həmin dövrdə sənaye ilə yanaşı, həm də nəqliyyat və rabitə sahəsində əsaslı yeniliklər özünü göstərirdi. Tramvay, avtomobil, teplovoz, təyyarə, təkmilləşdirilmiş teleqraf aparatlan, telefon, və s. kimi yeni saliələr yaramrdı. Beləliklə də, kapitalm və istelosalm mərkəzləşməsi və təmərküzləşməsi getdikcə genişlənildi. Tezliklə təmərküzləşmədən yaranan böyük müəssisələr texniki üstünlüklər, ümumi xərclərə qənaət imkanlanm artması, istehsal prosesinin daha yaxşı təşkili, satış salıəsində üstünlüklər, kredit sistemindən istifadə edilməsi imkanlarmın artması və s. bir çox üstünlüklər əldə etdilər.

Beləliklə, nəticə etibarilə böyük müəssisələrin artması kiçik müəssisələrin sayıiun azalmasına səbəb olmuş, ayn-ayn sahələrdə səhmdar cəmiy-yətləriniıı yaranmasma təkan vermişdil’. Bütün bu prosesin nəzəri və əməli əhəmiyyətini görən K.Marks göstərmişdir ki, səhmdar cəmiyyətlərin yaıadıhııası yolu ilə kapitalm təmərküzləşməsi baş verməsə idi, indi dünya dəmiryolsuz qala bilərdi. Göründüyü kimi,

təmərküzləşmə, haradasa inhisarçılığa səbəb olurdusa da, bunun nəticəsində meydana gələn iri müəssisələr və səhmdar cəmiyyətləri inkişafa təkan verən səbəb kimi qiymətləndirilirdi.

Bütün qeyd etdiklərimizdən aydın olur ki, dünya iqtisadiyyatında inhisarlar təzə hadisə olmayıb uzun bir dövrün məhsuludur. Kapitalın və istehsalın təmərküzləşdirilməsinin nəticəsi kimi yaranan bu inlıisar birlikləri eyni zamanda dünya iqtisadiyyatının beynəlmiləl xarakterinin artmasma güclü təsir edirlər. Bununla yanaşı həmin biiliklər beynəlxalq iqtisadi münasibətlərin inkişafinın da əsas amilinə çevrilmişlər. Deməli iri inhisai-birlikləri ölkə daxilində fəaliyyət göstərməklə yanaşı dövlət çərçivəsindən kənaıda da öz fəaliyyətlərini genişləndirirlər. Beləliklə, beynəlxalq xaraktei' kəsb ediılər. Beynəlxalq kompaniyalar dedikdə öz təsəiTüfatçılıq fəaliyyətində milli çərçivədən kənara çıxan, istehsal, ticarət, elmi-texnoloji proseslər, xidmət və digər sahələrin beynəlxalq baxımdan kompleks inkişafinın formalaşmasını həyata keçirən iri birliklər nəzərdə tutulur.

Ümumiyyətlə, transmilli şirkətlər dedikdə, xarici ölkələrdə aktiv vəsaiti olan milli inliisarlar, çoxmilli şirkətlər dedikdə isə, müxtəlif ölkələrin milli şirkətlərini birləşdirən cəmiyyətlər nəzərdə tutulur. BMT-nin yanaşmasına görə, 1 mlrd, dollardan artıq illik dövriyyəsi olan və ən azı 6 ölkədə filiallan olan müəssisələri, transmilli şirkət hesab etmək olar. Təbii ki, bu tərif mütləq və dəyişməz de>ildi. Bu yanaşmaya görə, məcmu istehsahmn 98 %-ni kənara s^an İsveçrə firması Nestle dünya lideri hesab edilir. Digər tərəfdən, BMT-nin başqa bir metodologiyasına görə, aktiv vəsaitin quruluşu ilə də beynəlxalq şirkətiər müəyyən edilir. Bu mənada ən çox xarici aktivi olan transmilli şirkət İngilis-Holland transmilli bankı hesab olunur.

2004-cü ilin məlumatlarına görə, dünyada 70 mindən artıq TMŞ fəaliyyət göstərir. Bunlar ana cəmiyyət adlanırlar. Bu ana cəmiyyətlərin 900 mindən artıq filialı mövcuddur ki, onlann da əksəriyyəti xarici ölkələrdə fəaliyyət göstərir. Onlardan 270 min filial inkişaf etmiş ölkələrə, 490 min filial inkişaf etməkdə olan ölkələrə, 170 min filial isə keçid iqtisadiyyatı ölkələrinə məxsusdurlar.

TMŞ-rin fəaliyyət dairəsi yalnız onlann sayının çoxalması hesabma deyil, mövcud şirkətlərin iqtisadi gücünün artması hesabma da genişlənir. Əi'vəllər əsasən əmtəə və xidmətlərin mübadiləsi sahəsində fəaliyyət göstərən beynəbcalq TMŞ-lar müasir şəraitdə paralel olaraq beynəlxalq səviyyədə istehsal yarada bümişlər. Bu beynəlxalq istehsala müvafiq olan beynəlxalq xidmətlər və maliyyə dairəsi yaradılmışdu'. Buradan da

edirlər. Beynəlxalq miqyasda ayn-ayn müəssisələr arasındakı iqtisadi əlaqələrin genişləndirilməsi ilə istehsalın beynəlmiləlləşməsində həlledici rol oynayırlar. Çünki dünya üzrə sənaye məhsulunun 50 %-ə qədəri, xarici ticarətin isə 60 %-ə qədəri TMŞ-nn payına düşür. TMŞ-lar, eyni zamanda, yeni ixtiralara, yeni texnologiyalara, nau-xau ya olan patent və lisenziyalarm 80 %-ə qədərinə nəzarət edirlər. Bir çox məhsullarm beynəlxalq bazan əsasən TMŞ-nn nəzarəti altındadır. Belə ki, buğda, qəhvə, qarğıdalı, meşə materialları, tütün və dəmir filizi məhsullan üzrə dünya bazannm 90 %-i, miss və boksitlər bazannın 80%-i, çay və qalay baz.anmn 80 %-i, xam neftin, təbii kauçuk və banan bazannm 75 %-i TMŞ-nn nəzarəti altmdadır. Bu gün TMŞ-lərm müəssisələrində 70 mln. nəfərdən, artıq işçi çalışır və onlar ildə 1 trl. dollardan arüq məhsul yaradmlar. Bütünlükdə TMŞ-lərlə bağlı olaraq 150 mln. nəfər xarici işçi işlə təmin edilir ki, bu da üimuni işçilərin yansmdan da azdır. DÜÜM-də TMŞ-lənn xüsusi çəkisi son 30 ildə 17 %-dən 30 %-dək, onlann sayı isə son 25 ildə 5 dəfə çoxalımşdır. Hazırda 500 on böyük TMŞ cəmi elektronika və kimya sahəsi məhsulunun 80 %-ni, əczaçılığın 95 %-ni, maşmqayırma sahəsi məhsulumm 76 %-ni reallaşdınr. Eyni zamanda bütün xarici investisiyalann 70 %-i 85 ədəd TMŞ-in payma düşür. Qeyd olunanlann sübutu kimi, bir məsələni qeyd edək ki, araşdırmalardan aydm olur ki, 2000-ci ildə TMŞ-lərin xarici fıliallan tərəfindən həyata keçirilən əmtəə və xidmət satışmın həcmi 14,7 ul. dollara bərabər olmuşdur. 2005-ci ildə isə dünya üzrə xarici ticarətin həcmi 9,7 trl. dollar təşkil etmişdir ki, bu da TMŞ-lərin 2000-ci ildəki səviyyəsindən 5 trl. dollar azdn.

TMŞ-lərin dünya iqtisadiyyatındakı rolundan damşarkən, onlann həyata keçirdiyi kapital ixraa və onun yerləşdirilməsinin faydalılığı məsələləri ön plana çəkilir. Qeyd etməliyik ki, hazırda bütün TMŞ-lər tərəfindən həyata keçirilən xarici investisiya bütövlükdə və BİM sistemində ticarətə nisbətən daha çox əhəmiyyət kəsb edir və BİM formalaşmasında daha güclü təsirə malikdir.

Aydındır ki, xmici ölkələrdə TMŞ-lərin filiallanmn sürətlə artması bu şirkətlərin xarici bazarda mövqejanin daha da möhkəmlənməsi, istehsalın böyük bir qisminin xaricdə yaranması deməkdir. Təbii ki, bütün bunlar TMŞ-ləri maddi vəsaitlərinin böyük qismini həmin ölkələrə yönəltməyə həvəsləndirir. Buradan da belə bir nəticəyə gəlmək olar ki, birbaşa investisiyamn xarici ölkələrə daha çox axması dünya iqtisadiyyatının bütövlüyünü, vahidliyini təsdiq edən əsas cəhətlərdən biridir. Bu cəhət

bir cİaha onu göstərir ki, dünya iqtisadiyyatının fomıalaşması dünya bazarı mərhələsindən dünya istehsalı mər-ləsinə keçmişdir.

Araşdırmalardan aydın olur ki, dünyada birbaşa xai’ici investisiyalar da əsasən TMŞ-lər tərəfindən həyata keçirilir və demək olar ki, dünya üzrə cəmi birbaşa investisiyalann 90 %-nə TMŞ-lər nəzarət edirlər. E>mi zinanda, yuxanda qeyd olunduğu kimi, müasir şəraitdə dünya təsənüfatmda və beynəlxalq iqtisadi münasibətlərdə cərəyan edən obyektiv iqtisadi proseslərlə bağlı olaraq TMŞ-lar müəyyən cəhətlər kəsb edirlər. Belə ki, onlai' çox asanlıqla güclü mvestisiya və ixtisaslı əmək tələb edən yüksək texnoloji və eimtutumlu sahələrə nüfuz edə bilirlər. Bu isə həmin sahələrdə TMŞ-lann inhisariaşma meylini artınr. Son vaxtlar ■J'MŞ-lərin fəaliyyətindəki əsas cəhətlərdən biri də onların çoxsalıəli olmağa üstünlük vemıəsidir. Məsələn. İsveçin Volvo avtomobil konserni ancaq avtomobil buıaxmaqla kifayətləmnəyərək, öz ölkəsində onun 30- dan çox qız cəmiyyəti (müxtəlif sahələrdə) yaradaraq daha geniş miqyaslı fəaliyyət göstərir. Bununla yanaşı xarici ölkələrdə də onlarla filialı vardu. Onlar gəmi üçün motorlar, təyy'arə mühərrikləri, ərzaq məhsullan, hətta pivə istehsalı ilə də məşğul olurlar.

Müasir şəraitdə TMŞ-laıın fəab>^ətində müqavilə münasibətləri ilə əməli>'yatlar aparılması və nüfuz dairəsinin genişlənməsi də müşahidə cdilü. Bu genişlənmə ayrı-ayn istiqamətlərdə fərqli olmaqla və aşağıdakı kimidir:

- Lisenziya əsasında ticarətin aparılması - Xarici ticarətdə sərbəst idxal və ixrac üçün dövlət tərəfindən TMŞ-lara xüsusi icazə verilməsi genişləndirilmişdir ki, nəticədə də 1970-ci illərə nisbətən 1990-cı illərin axjulanna TMŞ-lann lisenziya əsasmda həyata keçirdikləri əməliyyatlar 10 dəfə artmışdır.
- Françayzinq müqaviləsi əsasında nisbətən kiçik firmalar böyük nüfuzlu TMŞ-lann adı altında alqı-satqı və digər əməliyyatlar həyata keçirilir.
- İdaıəçilik və xidmət edilməsi üzrə də xüsusi müqavilələr bağlamiması mövcuddur. Burada istehsala idarəçilik edilməsi, texniki və mühəndis işlərində məsuliyyət daşımaq, kadrlann idarə edilməsi, xaricilərin qəbul edilməsi işdən azad edilməsi, yerli işçilərin hazırlamnası, texnika və xaımnal aimması, marketinq və maliyyə sistemi üzrə idarəçilik və s. kimi problemlərdə TMŞ-lər hər hansı bir digər sahəyə köməklik edirlər.
- TMŞ-lər bir çox hallarda hər hansı bir obyektin inşa edilməsini öz üzərinə götürür və şərtləndirilmiş vaxtda hazır şəkildə qarşı tərəfə təhvil verü'lər.

- Beynəlxalq bazann ələ keçirilməsində həyata keçirilən ən yeni fonnalardan biri də xaricdə xüsusi investisiya kompaniyalan yaratmaqdan ibarətdir. TMŞ-Iar investisiya kompaniyalan vasitəsi ilə öz qız cəmiyyətlərini və tərəfdaşlannı maliyyələşdirir. Məhz bu cür yanaşma ilə beynəlxalq kompaniyalar Alrikada Pepsi-Kola və Koka-kola satışını həyata keçirirlər.

- rMŞ-lai' beynəlxalq əmək bölgüsü əsasında özlərinin fırmadaxili beynəlxalq istehsalını yaratmışlar ki, bu da onlara aşağıda göstərilən bü‘ çox üstünlük verir:

1. İstehsalın beynəlxalq ixtisaslaşması ilə ayn-ayn ölkələrin müəyyən güzəştlərindən istifadə edirlər.
2. Xarici investorlar üçün nəzərdə tutulan vergilər və investisiya qoyuluşu saliəsindəki güzəştlərdən səmərəli istifadə etmək imkanı artır.
3. Dünya bazarmm vəziyyətinə uyğun olaraq öz istehsal proqramım qunnaq və istehsal gücündən səmərəli istifadə etmək imkanı qazann lar.
4. İnkişaf etməkdə olan ölkələrdə öz nüfuz dairəsini artirmaq üçün qız cəmiyyətlərinin fəaliyyətindən istifadə edirlər. TMŞ-lar öz xarici filiallan vasitəsi ilə dünya ixracmı artırırlar.
5. TMŞ yerləşən ölkədə mənəvi cəhətdən köhnələn texnologiya və yaxud hər hansı bir məhsulun istifadə dövrünü artırmaq üçün xarici filiallarda həmin məhsullarm istehsalı davam etdirilir.

Dünya praktikasında TMŞ-lər öz fəaliyyətini vertikal, üfiqi və nizamsız (con-glomerate) şəkillərdə tə.şkil edir, bir xətt üzərində mərkəzi və digər ölkələrdə həyata keçirirlər. TMŞ-nin veıtikal yayılması onlaın xarici ölkələrdə istehsal təyinatlı və ara tələbat mallan istehsalını təşkil etməsi ilə əlaqədardır. Belə yayılmaya geriyə doğru yayılma deyilir. Buna misal neft və kimya istehsalım göstərmək olar. Vertikal yayılma irəliyə doğru da ola bilh. Bu halda xarici ölkələrdə hazu* mallaın istehsalı təşkil olunur. İstehsal və aralıq tələbat əmtəələri isə mərkəzi ölkədən təmin edilir. Buna misal olaraq avtomobil istehsalım göstəmıək olar. Lakin, TMŞ öz fəaliyyətini əsas e’tiban ilə “geriyə doğru” təşkil edirlər.

Üfiqi yayılma isə, mərkəzi (ana) ölkədə firmanın istehsal etdi>a malm istehsalmı eyni şəkildə xarici ölkədə də təşkil etməsidir. Xarici ölkələrdəki firmalai' məhsul istehsah və satışmda müstəqildirlər. Belə yayılmada əsas məqsəd xarici ölkələrin tətbiq etdiyi tarif və digər məhdudlaşdıncı tədbirlərdən yayınmaqdır. Ona görə də, istehsalın belə təşkilinə bəzən tarif fabrikləri (tarif factories) deyilir.

Konqlomerat (nizamsız) yayıhna zamanı TMŞ öz istehsallan ilə bilavasitə əlaqəsi ohnayan sahələrə yayılırlar. TMŞ-in bütün dünyada

getdikcə daha çox yayılmasına təsir edən ən başlıca amil mənfəət səviyyəsinə təsir edən amillərdir. Bu amillərə bazar-tələb şəıtləri, ticarət məhdudlaşdınnalan, kapital qoyuluşu iqlimi, ixracatı aıtırmaq zərurəti və məhsulun maya dəyəri və əmək məhsuldarlığı səvi>7əsinə təsir göstərən amillər daxildir. Tələb amili özünü onda göstərir ki, ana fınnalarm çoxunun öz ölkələrindəki istehsal gücləri ölkədaxili tələbdən artıqdır. Bu halda fınna böyümək üçün daxili tələbi aşaraq ixiacı aıtmnalı və qız şirkətlər yaradaraq istehsalı xaricdə təşkil etməlidirlər. Fimıalar bazarda öz mövqeylərini qorumağa çalışırlar. Bunun üçün istifadə edilən ənənəvi yollardan biri bazarda özlərinə rəqib vəziyyətində olan fumalara sahib olunmasıdır. Bu da TMŞ-lərin çoxalması üçün bir çox yolların istifadə olunur. Bunlann ən başlıcası TMŞ-in əsas xammal mövcud olan ölkələrə daxil olması və orada öz stmktuıiarını yaratmaJandır. Məhsulun maya dəyərini aşağı salmaq üçun TMŞ işçi qüvvəsi uçuz olan ölkələrdə də geniş yayılırlar. Bu son vaxtlar elektronika sənaye sahələrinin yayılmasında özünü daha aydm göstərir. Burada “ucuz işçi qüvvəsi” anlayışına xüsusi fikir vermək lazımdır. Belə ki, məhsuldarlığı aşağı olan və buna görə də əmək haqqı az olan işçi qüvvəsi ucuz işçi qüvvəsi hesab edilmii'. Yalnız, məhsuldarhğı yüksək, lakin əmək haqqı aşağı olan işçi qüvvəsi ucuz işçi qüw'əsi hesab edilir.

TMŞ-nin şəbəkələrinin genişlənməsi müəyyən mənada həmçinin iqtisadi həyatda vergilərin artmasına reaksiya kimi də qiymətləndirilir. Məlum bir həqiqətdir ki, vergi dərəcələri nə qədər yüksəkdirsə ondan yayınmağa leqal və qeyri-leqal yollarla dana çox cəhd göstərilir. Bu saliədə ən çox istifadə edilən üsullardan biıi kapitalın vergi ən aşağı olan ölkədə qoyulmasıdır. Birbaşa investisiyalar bu məsələnin ild yol ilə həll olunmasına imkan verir:

1) TMŞ vergilər aşağı olan ölkələrdə öz fımalanm yaradırlar;

2) TMŞ müxtəlif mühasibat kombinasiyalanndan istifadə edərək yüksək vergi dərəcəsi olan ölkədə əldə edilmiş mənfəəti vergilər az olan ölkədə əldə edilmiş kimi göstərərək vergidən yayınırlar.

Bir çox ölkələrdə hökmraət siyasəti məhsulun maya dəyərinin aşağı salıntnasmda müəyyən rol oynayaraq TMŞ-in ölkəyə daxil olması üçün şərait yaradır. Məsələn, bəzən ölkələrdə işsizliyin azaldılması və məşğulluğun artınlması üçün TMŞ-lərə vergi güzəştləri edilir, subsidiyalar, yaxud istehsalın təşkili üçün digər təşviqedici tədbirlər görülür.

## 5.5. Beynəlxalq kredit və dünya borc böhrani

Beynəlxalq kreditin mahiyyəti və funksiyaları - Beynəlxalq kre^lit qaytanimaq şərtilə valyuta və mal ehiyatlanmn verilməsi ilə əlaqədar beynəlxalq iqtisadi əlaqələr sahəsində borc kapitalının hərəkətidir.

Beynəlxalq kredit ilkin k^ital yığımı dövründə meydana gəlmiş və onun mühüm vasitələrindən biri olmuşdur. Onun meydana gəlməsi və inkişafimn obyektiv əsasmı istehsalm milli sərhədlərdən kənara çıxması, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, dünya təsərrüfat əlaqələrinin intensivləşməsi və beynəlmiləlləşməsi, istehsalm ixtisaslaşması və kooperasiyası təşkil edir.

Beynəlxalq kredit kapitalın dövriyyəsinin bütün mərhələlərində iştirak edir:

- xaıici avadanlıq, xammal və s. Aimmaqla pul kapitalmm məhsuldar kapitala çevrilməsində;

bitməmiş istehsal kreditləşdirilərkən istehsal prosesində;

- dünya bazarlannda mallann saühnasmda;

Beynəlxalq kredit aşağıdakı əsas funksiyaları yerinə yetirir:

1. Geniş təkrar istehsalı prosesinin tələbatını ödəmək üçün borc kapitalım ölkələr arasında yenidən bölüşdürür;

2. Həqiqi pulların (qızıl və gümüş) kredit pullan ilə dəyişdirilməsini təmin edir, habelə nəqdsiz ödəmələri inkişaf etdirməklə və nəqdi valyuta dövTİyyəsini beynəlxalq kredit əraəliyyatlan ilə əvəz etmək yolu ilə beynəlxalq hesablaşmalarda tədavül xərclərinə qənat edilməsinə kömək edir. Beynəlxalq kredit ə.sasmda beynəlxalq hesablaşmalar üçün kredit vasitələri - veksel, çek, habelə bank köçürmələri, depozit sertifikatlan və s. yarandı;

3) Beynəlxalq kıedit k^italm mərkəzləşməsi və təmərküzləşməsinə yardım edir. Müasir mərhələdə beynəlxalq kredit iqtisadiyyatın tənzimlənməsində müəyyən rol oynayır və onun özü də iqtisadi tənzimləmnə obyelrtdir.

İkinçi dünya müharibəsindən sonra Asiya, Afrika və Latin Amerikası ölkələri üçün iqtisadi inkişafın sürətləndirilməsi bu ölkələrin çox əsirlik geriliyinin aradan qaldmhnası üçün yeganə çıxış yolu hesab edilir. İnkişafın sürətləndirilməsi bütün digər şərtlər daxilində məcmu ictimai məhsulunun kapital qoyluşuna aynlan hissəsinin miqdanndan asılıdır. Bu nisbət nə qədər yüksək olsa inkişaf sürəti də bir o qədər yüksək olur. Bu ölkələr kapital qoyluşunu intensivləşdi rmək və onun iqtisadi səmərəliliyini artırmaq yolu ilə (aqrar bölmənin payı yüksək olan ) zəif

inkişaf etmiş iqtisadiyyatın strukturunu dəyişməyə və sənaye cəmiyyəti halına gəlməyə çalışırlar. Lakin, daxili yığmı səviyyəsinin aşağı olması və kapital ç-atışmazlığı bu ölkələrin qarşılaşdığı ən ciddi problemdir. Ona görə də, bu ölkələrdə kasıblıq zəncirini qumağın mühüm bii' yolu xaıici mənbələrin əldə olunmasıdır.

Klassik təhlilə görə xarici kreditlər inkişaf etməkdə olan ölkələrin kapital çatışmazlığını azaldır, onJanıı inkişaf sürətinə və öz-özünü təmin etmə mərhələsinə çatmasına yardım edh’. Xaıici borclar daxili mənbələrə əlavə olunaraq kapital qoyuluşu miqdan və səviyyəsinin artınimasına səbəb olur. Nəzəriyyəyə görə, yığım səviyyəsi müəy>^ən həddə qədər yüksəldikdən sonra xarici yai'dıma ehtiyac qalmadan ölkədə özü-özünü təminetmə mexanizmi işə düşür. Xarici kıedit və yarchmlar, >ağım səviyyəsini yüksəltməklə bu ölkələrin digər ən ciddi problemlərindən bilinin-valyuta çatışmazlığı probleminin də həll olımmasma yardım edir. Məlum olduğu kimi bu ölkələrdə inkişaf sürəti əhəmi>7ətli dərəçədə investisiya mallarının, xüsusən texnika və texnologiyamn idxalı imkanlarmdan asılıdır ki. bu da valyuta ehtiyacım kəskin olaraq artırır. Lakin nəzəıə almaq lazımdır ki, xarici kreditlər heç də həmişə kapital yığımma müsbət təsir göstənnir. Onlar əgər istelılak mallaıı, xüsusən dəbdəbəli mallar idxalma sərf olunarsa istehsal gücünün artınimasına səbəb ola bilməz. Bu borclann ödənilmə vaxtı çatdıqda isə ölkədə onsuz da gərgin olan valyuta - maliy>'ə problemlərini daha da gərginləşdirir.

Beynəlxalq kreditin formaları - Beynəlxalq kredit müxtəlif formalarda özünü göstərir və bii' neçə əsas əlamətləri üzrə təsnif edilir. Mənbəyinə görə - a) daxili, b) xarici və v) xarici ticarətin qanşıq maliyyələşməsi və kreditiəşdiiilməsi olmaqla üç yerə bölünür. Onlar bir-biri ilə sıx surətdə qarşılıqlı əlaqədardır və malların ixracatının idxalatçıtya qədər hərəkətinin bütün mərhələlərinə (istehsalı və ya tədarükündə, yolda və anbarda olduqda, idxalatçı tərəfindən istehsalda istifadə olunduqda və istehlakına) xidmət edir.

Borc alman vəsait hesabına hansı xarici iqtisadi sövdənin həyata keçirilməsindən asılı olaraq öz təyinatına görə aşağıdakı kredit növləri mövcuddur:

- xarici ticarət və xidmətlərlə bilavasitə əlaqədar olan kommersiya ki'editləri;
- birbaşa kapital qoyiuşlan, investisiya obyektlərinin tikintisi, qiymətli kağızlarm satın alınması, xarici borcların ödənilinəsi, val>mta müdaxiləsi (inteıvensiyası) daxil olmaqla bütün məqsədlərə istifadə edilən mali>7ə kreditləri;

- kapital, əmtoo və xidmət ixracının qanşıq fonnasma xidmət edən “ara” kreditləri.

Kreditlər öz növlərinə görə ixiacatçılarin alıcılara verdi>n əmtəə və banklarm pul formasında verdi>n valyuta kreditlərinə bölünür.

Beynəlxalq kreditlər verildiyi valyuta növünə görə borc alan və ya kıeditor ölkənin valyutası, üçüncü bir ölkənin valyutası, yaxud beynəlxalq hesab vahidi (SDR, Avro və s,) ilə verilən kreditlərə bölünür.

Beynəlxalq kreditlər müddətinə görə; qısamüddətli (1 ilə, bəzən isə 18 aya qədər); uzunmüddətli (5 ildən çox) kreditlərə, təmin olunması baxımından təminatlı və bank kreditlərinə bölünür.

Kreditlərin təminatı üçün adətən mallaı; mal bölüşdürücü və digər kommersiya sənədləri, qiymətli kağızlar, veksellər, daşınmayan əmlak və qiymətli şeylər istifadə olunur. Bank krediti borclunun borcu müəyyən müddət ərzində ödəməsi üzrə öhdəliyi əsasında verilir.

Kreditorun (kredit verənin) kim olmasından asılı olaraq beynəlxalq kıeditlər 4 qrupa bölımür:

**1)** fmna, bank, bəzən isə vasitəçilər (brokerlər) tərəfindən verilən özəl kıeditlər;

**2)** rəsmi (dövlət) kreditlər;

**3)** özəl təşkilatlarm və dövlətin iştirak etdiyi qarışıq kreditlər;

**4)** beynəbcalq və regional valyuta-kredit və maliyyə təşkilatlan tərəfindən verilən kreditlər.

Beynəlxalq kreditlər daim dəyişikliyə məruz qıüır. Əsas kreditor əvvəlcə ABŞ idi. Sonralar, 1973-cü ildən sonra isə neft ixrac edən ölkələr də ona qoşuldular. Əsas borc alan ölkələr inkişaf etməkdə olan ölkələrdir*.

80-ci illərin ortalaı*mdan etibarən ən iri kapital netto-idxalçısı da ABŞ oldu. Neft ixrac edən ölkələr isə hər il bejməlxalq borc kapitalı bazannda verdikləri qədər kredit alırlar. Yeni böyük kreditor Y^oniyadır. Kanada və Qərbi Avropa dövlətləri nisbətən kiçik rol oynayır.

1930-cu ilə qədər olduğu kimi beynəlxalq kreditin əsas forması özəl və dövlət borc alıcılarma verilən özəl kreditlərdir. Bu kreditlər 1950-1973- cü illərdə geniş yayılmış birbaşa investisiyaları nisbətən sıxışdırmışdır.

*Beynəlxalq özəl maliyyə kapital axım* - Beynəlxalq maliyyə kapitalı axını dedikdə birbaşa xarici kapital qoyluşları, özəl maliyyə kapital axını və inkişaf məqsədləri üçün rəsmi beynəlxalq kredit axınları nəzərdə tutulur.

Burada biz əvvəlcə beynəlxalq kreditlə əhəmiyyətli dərəcədə əlaqədar olan beynəlxalq özəl maliyyə kapital axınmı nəzərdən keçirəcəyik. Bey-

nəlxaJq özəl maliyyə axjmnın ən başlıca xüsusiyyətlərindən biri onlann kommersiya şərtləri üə beynəlxalq pul və kapital bazarlanndan əldə olunmasıdır. Onlar eyni zamanda xarici kapital sahibi torofındon bilavasitə istehsala qoşuJmadığı baxımından birbaşa kapital qoyuluşlarından fərqlənir.

Hər an istifadə oluna bilən və müəyyən bir gəlir əvəzində istifadə üçün başqasına verilə bilən fondlara maliyyə mənbələri deyilir. Maliyyə mənbələri iqtisadi ədəbiyyatda “borc verilə bilən fondlar” və ya “kapital fondu” anlayışlan ilə eyni mənada işlənir. Maliyyə mənbələrinin onlann sahiblərindən onlara eliiyaca olanlara verilməsi ilə əlaqodai' əməliyyatlara maliyyə əməliyyatlan deyilir. Bu əməliyyatlann həyata keçirilməsində üç tərəf: fond sahibləri, fonda ehtiyacı olanlar və bu fondların ehtiyacı olanlara verilməsini təmin edən maliyy^ə bazarlan iştirak edir. Maliyyə bazan da iki yerə bölimür: kredit bazan və kapital bazan.

Maliyyə fondlan ehtiyacı olanlara iki formada verilir: 1. Kredit; 2. Mülkiy>'ətə şərik ohnaq şərtilə.

Fond sahibləri, məlum olduğu kimi verdikləri vəsaitin əvəzində faiz gəliri alırlar. Mülkiyyətə şərik olduqda isə hər hansı pay sənədi (məs. səhm) satın almır və səhm sahibi müəssənin əldə etdiyi mənfəətindən pay (dividend) aln,

Kredit bazan əməliyyatları sərbəst fondlann depozitlər (əmanət) şəklində banklar vasitəsilə toplanaraq ehtiyacı olanlara verilməsində özünü göstərən əməliyyatlarda ifadə olunur.

Kapital bazarı əməliyyatlan qiymətli kağızlarla (istiqraz və pay sənədləri ilə) olan əməliyyatlardır. İstiqraz borc sənədidir və investora sabit faiz gəliri təmin edir. Əsasən orta və uzun-müddətlidir, ancaq qısa müddətii də ola bilər. Pay sənədləri ilə müəssisə mülkiyyətinə şəıik ohnaq məqsədi güdür və öz sahibmə müəssisə gəlirindən müəyyən gəlir (dividend) təmin edir.

Bir sözlə, müəssisə və ya təşkilatlar maliyyə bazanna pay sənədələri (səhm) buraxaraq vəsait cəlb ediilər. Sərbəst fonda malik olanlar da bu sənədləri satın alırlar. Nəticədə bu fondlar borc kapitah bazarmda alqı- satqı obyektinə çe\ailir və bir neçə dəfə dövr edə (almıb-satıla) bilirlər.

Borc kapitalı bazarmda göstərilən əməliyyatlarla məşğul olan çoxsayh maliyyə təşkil atları-kommersiya banklan, kapital qoyuluşu banklan, sığorta şirkətləri, yığıra və kredit kassalan və s. meydana gəlib fəaliyyət göstərirlər.

Təşkil olunmuş borc kapitalı bazarının və maneəsiz işləyən maliyyə müəssisələrinin mövcud olması iqtisadi inkişafin sürətlənməsinə olduqca ciddi təsir edir.

Maliyyə əməliyyatlan iki qmpa bölünür: daxili və beynəlxalq maliyyə əməliyyatlarına. Maliyyə əməliyyatmın hər iki iştirakçısı eyni ölkəyə məxsus olduqda belə əməliyyatlara daxili (milli) əməliyyatlar deyilir. Hər hansı bir ölkə sakininin digər ölkə sakininə maliyyə fondu verməsi isə beynəlxadq maliyyə əməliyyatı və ya beynəlxalq kredit və ya kapital əməliyyatı adlamr.

İstər beynəlxalq, istərsə də daxili maliyj'Ə əməliyyatlarını eyni səbəblər doğurur. Yəni hər iki halda sərbəst fond sahibləri müəyyən riskə gedərək bu fondlardan yüksək gəlir əldə etməyə çalışırlar. Bu zaman, tamamilə aydmdn ki, kapitalın beynəlxalq bazara çıxaniması daha çox risk tələb etdiyi üçün kapital salıibləri beynəlxalq bazardan daxili bazaıa nisbətən daha çox gəlir gözləyirlər. Bu gəliri əldə etmək üçün sərbəst kapital sahibləri öz kapitalı ilə xarici bir bankda müddətli depozit hesabı açmah və ya beynəlxalq borc kapitalı bazanndan istiqraz və ya pay sənədi satın ahnahdırlar. Belə bir əməliyyata onlan vadar edən digər bir səbəb riski minimuma endirmək üçün kapital qoyuluşu partfelini çox çeşidli etməkdir. Kapitalın xaıicə çıxanimasına səbəb olan amillərdən biri də bəzən ölkə daxilində qiymətli kağızlai’ üzərində yüksək vergi qoyulmasıdır. Bir çox ölkələr həmin ehtiyatlan cəlb etmək üçün qiymətli kağızlan veıgidən tamamilə azad edirlər və onlar üçün sığmacaq rolu oynayırlar (məsələn, İsveçrə, Lüksemburq, Bahama adalan və Kanada).

Ölkələr arasında maliyyə kapitalı axınmm təmin olunması üçün əsas şərt dövlət tərəfindən bu əməliyyatlarm məhdudlaşdınimamasıdır (valyuta nəzai’ətinin götürülməsi və s.)

Amma, hal-hazırda beynəlxalq kapital axınlan xarici ticarət əməliyyatlan kimi müxtəlif şəkildə məhdudlaşdırmalara məruz qalırlar. Bəzi ölkələr isə sərbəst milli valyuta bazarlarmın inkişafina şərait yaratdıqlan halda, ölkədən kapital ixracma məhdudiyyətlər qoyurlar. Bu məhdudlaşdınna tədbirlərinə rəsmi orqanlardan icazə alınması tələbləri, onlarm miqdarmın məhdudlaşdırılması, yaxud tamamilə qadağan edilməsi və ya xarici kapital gəlirlərindən yüksək vergi alınması kimi tədbirlər daxildii’.

Maliyyə əməliyyatlan fiziki şəxslər, kommersiya və sənaye müəssisələri, özəl maliyyə təşkilatlan, hökumədər və digər rəsmi qurumlar tərəfindən həyata keçirilir.

Maliyyə bazarının mühüm tərkib hissələrindən biri yerli qiymətli kağızlar bazandır. Şirkətlər öz fəaliyyətini xaricdə genişləndirmək uçün yerli istiqraz və səhm bazarlarının xüsusiy>'Otlorini diqqətlə ö)Tənirlər. Ayrı-ayn ölkə bazarlanmn və beynəlxalq bazarların getdikcə daha çox inteqrasiya etmələrinə və valıid dünya bazanna çevrilməsinə baxmayaraq yerli bazarlar öz xüsusiyyətlərini saxlayır və daxili və siyasi iqtisadi təzyiqlərə məruz qalırlar.

Şirkətlər yerli baz,arlan dəyərləndirərkən bir necə amib nəzərə almalıdırlar: 1. Maliyyələşmənin mümkünlüyünü; 2. Faiz dərəcələri və valyuta məzənnəsinin dəyişmə riski daxil olmaqla mümkün olan bütün məsrəfləri; 3.Yerli ənənələr və təşkilatçılıq şərtlərini.

Be>oıalxalq maliyyə bazanmn fəali>'yətində transmilli şirkətlər uçün mühüm kıedit mənbəyi olan avrovalyuta bazan (eurocurrency) olduqca əhəmiyyətli rol oynayır. Bu bazann 65-80%-i ABŞ-dan kənardakı banklarda saxlanılan avrodollarlar təşkil edir. Bu o deməkdir ki, ABŞ-m bank hesablarında xaricilərin saxladıqları dollarlar avrodollar deyillər. Lakin, amerikan və başqa banklann hesablarında ABŞ-dan kənarda saxlanılan dollarlar - aviodollardır (eurodollars). Eyni şəkildə avroien, avromarka və s. bazarlar da mövcuddur.

Avrovalyuta bazan bütün dünyada mövcuddur. Bu sahədə Asiya (Qonkonq və Sinqapıu*), Karib dənizi hövzəsi ölkələrində, Kanada və Avropa mərkəzlərində iri həcmli əməliyy atlar aparılır.

AvrodoUann ə.sas mənbəyi aşağıdakılardır:

1. Öz dollarını ABŞ-dan kənarda saxlamaq istəyən xarici dövlətlər və vətəndaşlar;
2. Cari ehtiyacından çox nəqdiyyəsi olan TMŞ-lər;
3. Cari ehtiyacından çox ehtiyatı olan Avropa banklan;
4. Yaponiya, Tayvan və Almaniya kimi xarici ticarət balansının müsbət qahğı olan ölkələr.

Avrovalyutaya ehtiyacı olanlar isə fiziki və hüquqi şəxslər, ayn-ayn dövlətlərdir. Avrovalyuta bazanmn aşağıdakı xarakterik cəhətləri vardır:

1. Bu bazar pərakəndə deyil, topdan ticarət bazandır.Çünki, burada çox böyük əməliyyatlar aparılır. Əsas borc alanlar hökumətlər, Mərkəzi banklar və dövlət bölməsinə aid korparasiyalardtr. Avrovalyuta bazanndakı əməliyyatllann 4/5 hissəsi banklararası əməliyyatlardan ibarətdir.

2. Bu bazar əslində tənzimləmnir;

3. Bazardakı əmanətlər əsasən qısamüddətlidirlər. Çünki, bu əmanətlərin çoxu qısamüddətli xarakter daşıyan banklararası

əraəli>7atl ardır;

4. Avrovalyuta bazan yığımlar və müddətli əmanətlər üçün fəaliyyət göstəıir. Burada tələb olunana qədər əmanətlər işləmir;

5. Avrovalyuta bazan əsasən avrodollar bazarıdır.

Avrovalyuta bazannın əsas cəlbedici cəhəti milli bazarlarla müqayisədə faiz dərəcələrinin aşağı olmasıdır. Əməliyyatlann bÖ3dik həcmi və məhdudiyyətlərin ohuaması nəticəsində avrovalyutalarda qoyulan depozitlər adətən öz ölkələrinə nisbətən daha çox gəlir gətirir.

Ənənəyə görə bu istiqrazlar London banklararası depozit bazarında satıcınm faiz dərəcəsindən yüksək O1UJ‘. Avrovalyuta istiqrazları üzrə banklann bir-birindən tələb etdikləri faiz -- LİBOR (London Jnter-Bank offered rate-LİBOR) adlanu. Lakin, bu faiz dərəcələrinin yüksək olmasma baxmayaraq avrovalyuta bazarmm nadir xüsusiyyətləri imkan verir ki, bu dərəcələr çox vaxt milli bazarlarda olan dərəcələrdən aşağı olsun.

LIBID (LİBİD- London Jnt<^-Bank offered rate) isə London banklaramsı depozit bazarında alıcıların tələb etdiyi faiz dərəcələridir.

Avrovalyutadakı depozitlərdən gəlir səviyyəsi adətən LIBlD-dən aşağıdır. Lakin çox, vaxt o milli bazarda əldə edilən gəlirdən yüksək olur.

Beynəlxalq maliyyə əməli>'yatlarmın mühüm tərkib hissəsi beynəlxalq banklann apardıqlan xidmətlərdir. Onlann iştirakı olmadan firmalar maliyyə vəsaitinə olan ehtiyaclarını təmin edə bilməzlər. Beynəlxalq banklar maliyyə əmaliyyatlannı astronomik rəqəmlərə çatdıraraq, öz müştərilərinə aşağıdakı xidmətləri göstərirlər:

1. İdxal və ixrac əməliyyatlarının maliyyələşməsi;
2. Xariçi valyuta ticarəti;
3. Daxili bazarda və avrobazarda kredit və səhm sahəsində maliyyələşmə;
4. Nəqdiyyətlərin beynəlxalq axınınm idarə olunması, o cümlədən pul məbləğlərinin milli sərhədlərdən elektron aparalar vasitəsilə keçirilməsi;
5. Müştəri-korporasiyalar üçün maliyyə sxemlərinin maliyyələşməsi;
6. Müştərilərə informasiya və məsləhət verilməsi.

*Beynəlxalq rəsmi kreditlər^* Beynəlxalq kapital axmınm mühüm tərkib hissəsini rəsmi kreditlər təşkil edir. Bu kreditlər ümumiyyətlə ölkələrin inkişafı ilə əlaqədar olduğu üçün onlara bəzən inkişaf kreditləri və ya xarici yardımlar deyirlər.

Belə kreditlər xarici dövlətlər, beynəlxalq kredit təşkilatları və ya bıtzarlardan əldə edilir. Kredit alıcısı isə çox vaxt inkişaf eünəkdə olan ölkənin hökuməti və ya o ölkənin dövlət təşkilatlan olur.

Kreditlər borc şəklində alınan ehtiyatlardır. Onlar razılaşdırılmış müddətdən sonra əsas borc və faiz şəklində kreditora qaytarılır. Kredit faizləri bevTiəlxalq bazardakı tələb və təklif arasında olan nisbətlə müəyyən edilir. Beynəlxalq özəl firma, şirkət və bazarlardan kreditlər kommersiya şərtləri ilə alınır.

İnkişaf etməkdə olan ölkələrin kreditləşdirilməsinin əsas xüsıısi>yətləri aşağıdakılardır:

4) Bu ölkələr xaı ici ehiyatlarm mühüm bir hissəsini güzəştli kreditlər və əvəzsiz subsidiyalai' şəklində alırlar Çox güşətli kreditləri adətən ən zəif ölkələr alırlar.

2) İnkişaf etməkdə olan müxtəlif ölkələrin kreditləşdirilməsində universal bir sistem mövcud deyildir. Hər bir ölkə üçün onun inkişaf səviyyəsindən, iqtisadi konyuknıradan (xüsusən ödəmə gücündən) əsas donor ölkələrlə, beynəlxalq val>oıta kredit təşkilatlan ilə münasibətlərin xarakterindən, dünya borc kapitalı bazanndakı etibar dərəcəsindən və s.- dən asılı olaraq ayrıca beynəlxalq kreditləşmə mexanizmi formalaşır:

3) Müasir beynəlxalq kredit sistemi inkişaf etməkdə olan ölkələrin spesifik şəraitinə uyğunlaşmışdır;

4) İnkişaf etməkdə olan ölkələr kredit və subsidiyalann əsas hissəsini bilavasitə sənayecə inkişaf etmiş ölkələrdən, beynəlxalq val)oıta-kredit təşkilat!anndan və dünya borc kapitalı bazanndan alırlar. Ona görə də inkişaf etməkdə olan ölkələin kreditləşraəsi əsasən dünya təsərrüfatımı! mərkəzi və periferiyası arasmdakı münasibətlərdən ibarətdiı*.

*İnkişaf etməkdə olan ölkələrin kreditləşməsinin əsas formaları* - İnkişaf etməkdə olan ölkələrin kreditləşdirilmə fonnalan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OZSR) daxil olan inkişafa Yardım Komitəsi (İYK) tərəfindən qəbul edilmiş sxem əsasmda müə>yən edilir. İYK inkişaf etməkdə olan ölkələr barəsində əsas donor ölkələrin və kreditorlann kredit siyasətini əlaqalənədiıir.

İYK-nin inkişaf etməkdə olan ölkələrə verdiyi kredit və subsidiylalann təsnifatı (sxemi):

1) İnkişafa rəsmi yardım, o cümlədən ikitərəfli və çoxtərəfli;

2) İnkişafın maliyyələşməsinin sair növləri, o cümlədən ikitərəfli və çoxtərəfli.

3) Qe>Tİ-hökumət təşkilatlarmm əvəzsiz subsidiyaları

4) İnkişafın rəsmi maliyyələşməsi

5) İxracat kreditbri.
6) Özəl kredit və subsidiyalar.
7) Beynəlxalq bank kreditləşməsi;
8) Qiymətli kağızlar emissiyası;

90-cı illərin əvvəllərində inkişaf etməkdə olan ölkələrə bu xəttlə daxil olan ehliyatlann 4/5-i rəsmi kreditləşmə və maliyyələşmə, 1/5-i isə özəl mənbələrə aiddir. Rəsmi maliyyələşmə formasında kreditləşmənin təxminən yarısı ikitərəfli kanallarla daxil olan kıeditlərdən, yansı isə subsidiyalardan ibarətdir.

## İnkişafın rəsmi maliyyələşdirilməsi

**İkitərəfli kanallarla** - 90-cı illərin əvvəllərində inkişaf etməkdə olan ölkələrə daxil olan kredit və subsidiyaların təxminən yansı bu xəttlə daxil olmuşdu*. Donor ölkələr tərəfindən inkişafin rəsmi maliyyələşməsinin 1/5 hissəsi inkişafa rəsmi yardım şəklində həyata keçirilir. Bu məqsədlə vəsait donor ölkələrin büdcələrindən ayrılır və parlamentin nəzarəti altmdadır. Belə kreditlər adətən başqa xai'akter daşıyır, və kredit verən ölkədən əwəlcədən müəyyən edilmiş əmtəələrin satın alınmasına sərf edilir. Bu kreditin istifadə saliələrini məhdudlaşduır. Bəzən satılan əmtəələrin qiymətləri də yüksək olur. Bu kreditlərin böyük bii' konkret obyektlərin maliyyələşməsinə yönəldilməsi əvvəlcədən razılaşdırılır. İnkişafın rəsmi maliyyələşməsi və xüsusən inkişafa rəsmi yardım proqramları hal-hazırda yalnız inkişaf etməkdə olan ölkələrə yönəldilmiş xüsusi maliyyy ə-kredit mexanizmidir. Bu mexanizm bəşəriyyətin qlobal problemlərindən birinin-geriliyin aıadan qaldmiması probleminin həllinə yönəldilmişdir. Güzəştli kıeditlər ayrılarkən inkişaf etməkdə olan ölkə ölkəsinin əsas ehtiyaclannm, yəni yeməyə, suya, tibbi xidmətə, təhsilə olan tələbatının ödənilməsi nəzərə almır. Adətən kreditlərin mühüm bir hissəsi inkişaf etməkdə olan ölkələr üçün mühüm əhəmiyyətə malik olan infi'astruktura (nəqliyyat, rabitə, energetika) obyelrtlərinin inşasına sərf edilir. Bununla yanaşı olduqca kəskin xarakter daşıyan sosial problemlərin həlli xüsusi diqqət mərkəzində olur. Eyni zamanda aqrar bölməyə ayrılan kreditlər də arür, sənaye isə inkişafa yardım proqramında təxminən 5% təşkil edir.

İnkişaf etməkdə olan ölkələrə ərzaq yaıümıı mülıüm əhəmiyyətə malikdir. Ərzaq yardımı haqqmda ilk proqram 1954-cü ildə ABŞ tərəfindən qəbul edibmişdir. Sonralar bu proqramm həyata keçirilməsində iştirak edən dövlətlərin sayı 25-ə çatdı.

İnkşiaf etməkdə olan ölkələrə yardmı əslində bütün inkişaf etmiş dövlətlər tərəfindən edilir. Lakin, ABŞ apancı donor kimi qalmaqda

davain edir (baxmayaraq ki, onun payı 50-ci illərdə 50%-dən 90-cı illərdə 209-^-ə enmişdir).

Əvvəlcə inkişafa rəsmi yardımlar Uzaq Şərq, Cənub-Şərqi vo Cənubi Asiya ölkələıinə edilirdi. Yardunm iqtisadi səmərəsi bəzi ölkələr üçün yüksək olmasa da digərləri, xüsusən Cənubi Koreya və Tayv’an yardımlardan düzgün istifadə edərək sosial-iqtisadi tərəqqiyə nail oldular. Müəyyən inkişaf mərhələsinə çatdıqdan sonra onlar bu yardımdan imtina etdilər və beynəlxalq borc kapitalı bazanndan borc almağa başladılar.

Çoxtərəfli kanallarla -- İnkişaf etməkdə olan ölkələrə daxil olan cəmi kredit və subsidiyalarm təxminən 1/4 -i bu kannalarm üzərinə düşür. Onlar Beynəlxalq İnkişaf və Bəıpa bankı (Dünya bankı), regional inkişaf bankları, BVF-u və müxtəlif çoxtərəfli fondlar (BMT, AB və s. xətti ilə) tərəfindən verilir.

Çoxtərəfli əsaslar üzrə İnkişafın rəsmi maliyyələşməsində Dünya bankı (rəsmi adı Beynəlxalq Bərpa və İnkişaf bankı) qrupu mühüm rol oynayır (1944-ciı ildə təşkil olunmuşdur). Bank əvvəlcə A\Topada bərpa işlərinə də kredit ayırdığı halda, 60-cı illərdən etibarən yalnız inkişaf etməkdə olan ölkələri kreditləşdirir, onlaıia dünya borc kapitalı bazarı arasında vasitəçi kimi çıxış edh. Dünya bankı böjük etibara malikdir və öz qiymətli kağızlarını ildə 7% ilə dünya maliyyə bazannda yerləşdirir və verdiyi kreditlər üzrə ildə 7,5-8,5% (yəni özəl beynəlxalq banklardan az) aln. Lakin, bu faiz kasıb ölkələr üçün yüksək olduğuna görə, onlar Dünya bankından kredit almırlar.

Dünya bankının əsas vəzifəsi diqqətlə seçilmiş (əsasən infrastruktura) konkret obyektlərin kreditləşdirilməsidir. Nəzərə almaq lazımdır ki. Dünya bankı yalnız dönərli valyuta ilə ödənən məsrəfləri öz üzərinə götürül', yerli valyuta xərclərini isə kredit alan Ölkə ödəyir. Dünya bankı 1980-cı ildən başlayaraq bazar münasibətlərinin inkişaf etdirilməsi, özəl sahibkarlığm təşviqi, dünya təsənüfatuıa uyğunlaşmaq üçün həyata keçirilən iqtisadi islahat proqramlanna da kredit aymr. İnkişaf etməkdə olan ölkələr həmçinin aşağıdakı regional inkişaf banklanndan kredit alırlar; Avropa k^ital qoyuluşu bankı, Avropa Bərpa və İnkişaf bankı, İslam inkişaf bankı, Asiya İnkişaf bankı, Afrika İnkişaf Bankı və Ame- rikalılararası İnkişaf' Bankı. Bu banklar ilk növbədə regional obyektləri kreditiəşdirərək regional əməkdaşlığm inkişafına əsas diqqət verirlər.

Be>Tiəlxalq Valyuta Fondu tədiyyə balansı kəsirlərinin ödənilməsi üçün 3-5 il müddətli kreditlər aymr. Fond əv\'əlcə əsas etiban ilə Qərb ölkələrinə kredit verirdi. 80-cı illərdən başlayaraq o, ancaq inkişaf

clməkdD olan ölkələrə kredit verir. Kıedit verilərkən kredit alan ölkə müvafiq makroiqtisadi tənzimləmə üzrə öhdəçilik götürür. Kreditin istiqamətinin inkişaf etməkdə olan ölkələrə doğru dəjdşməsi də bununla əlaqədardır. Çünki, Qərb ölkələri tədiyyə balansı kəsirini ödəmək üçün borc kapitalı bazarmdan kredit almağa üstünlük verirlər. BVF-u qədər digər heç bir beynəlxalq təşkilat inkişaf etməkdə olan ölkələr tərəfindən tənqid olunmıw. Fond bu ölkələrdəki so si al-iqtisad proseslərə olduqca ciddi təsir göstərir. Lcikin, Fondun müdaxiləsi olmazsa dünya borc böhramm dalıa da dərinləşib ciddi xarakter ala bilərdi *Dünya horc böhranı* - Müşaliidələr göstərir ki, son illər qlobal iqtisadi məkanda cərəyan edən hadisələr inkişaf etməkdə olan ölkələrin xarici borclarının sürətlə artmasına səbəb olmuşdur. Türkiyə Dövlət Planlama təşkilatımn Dünya Bankma əsasən yaydığı məlumatlara görə, ümumilikdə dünya ölkələrini xarici borc səviyyələrinə görə aşağıdalcı kimi sıralamaq olaı\

**Dünya ölkələrinin 2010-cu il üçün xarici borc göstəriciləri,**
min dollar

| JVü | Ölkələr | Borc | JVo | Ölkələr | Borc |
|---|---|---|---|---|---|
| I 1 | Amerika | 11<S6.'1,0 | 21 | İsveçrə | 192.33 |
| 2 | Yaponiya | 9313,84 | r"22 | Pouıqaliya | 174.92 |
| | Almaniya | 2448.17 | 2.3 | İsveç | 169.12 |
| 4 | İtaliya | 2446.16 | 24 | İndoneziya | 1.53,13 |
| > | Fran.sa | 2068.64 | 25 | İsrail | 150.1 ! |
| 6 | İngiltərə | 1481.85 | 26 | Tayvan | 146.:: |
| 7 | Kanada | 1104.34 | 27 | İrlandiya | 145.41 |
| 8 | Braziliya | 986.99 | 28 | Çin | 133,45 |
| 9 | İspaniya | 777.50 | 29 | Danimarka | 128.67 |
| 10 | Hindistan | 722.06 | 30 | Finlandiya | 104.50 |
| 11 | Hollandiya | 482.10 | 31 | Malaziya | 102.95 |
| 12 | Belçika | 453,74 | 32 | Macarıstan | 100.93 |
| Jl. | Yunanıstan | 379.83 | 33 | Rusiya | 94.29 |
| 14 | 'l'ärkiyə | 285.38 | 34 | Filippin | 92,29 |
| 15 | C. Koreya | 280..52 | 35 | Sinqapur | 85.05 |
| 16 | Avstriya | 25.5,77 | 36 | Kolumbiya | 80,38 |
| 17 | Norveç | 252.62 | 37 | Tay 1 and | i 76.57 |
| 18 | Meksika | 227,69 | 38 | C. Afrika | 73,99 |
| 19 | Polşa | 219.35 | 39 | Çexiya | 67.56 |
| 20 | Argentina | 207.05 | 40 | Venesucla | - m ______ 1 |

Ümumi>'y3tlə» tarixi faktlardan aydın olur ki, 1990-2010-cu illər ərzində inkişaf etməkdə olan ölkələrin xaıici bordan 32 dəfə, bu borclar üzrə həmin ölkələrin illik ödəmələri isə 22 dəfə artmışdır.
Beynəlxalq aləmdə əmtəə axımna paralel, lakin əks istiqamətdə pul axuu mövçuddur. Bu axın qismən pul hərəkəti, qismən də qısa və uzunmüddətli borclarm meydana gəlməsi şəklində özünü göstərir. Pul axınmm yekunu ölkənin Ödəniş balansmda əks olunur. Be>məlxalq iqtisadi əməliyyatlann mahiyyətini dərindən başa düşmək uçün bütün iqtisadi pul münasibətlərini bir tam şəkildə nəzərdən keçirmək lazımdır.

Valyuta münasibətləri tarixində üç əsas valyuta məzəmıəsi sistemi mövçud olmuşdur:

L 1879-1934-cü illərdə (birinci dünya müharibəsi illərindən başqa) qızıl standartı və yaxud sabit valyuta məzənnəsi sistemi;

2. 1944-197I-Cİ illərdə fəaliyyətdə olan Bretton-Vuds və yaxud tənzimlənə bilən valyuta məzənnəsi sistemi adlanan sistemdir. Hər iki sistem

təsbit olunmuş sabit valyuta məzənnəsi sistemi idi. Ancaq ikinci sistem valyuta məzəmıələrinin vaxtaşın olaraq dəqiqləşdijilməsinə yol verirdi.

3, 1971-ci ildən etibarən dəyişkən, sərbəst dalğalanan (fluctuationg), çevik (flexble) və yaxud üzən (floating) valyuta məzənnəsi sistemi. Bu sistem əslində idarə olunaraq dəyişkən (üzən, dalğalanan) valyuta məzənnəsi sistemi adlamr. Cünki, dövlətlər öz valyutalanmn dəyərinə təsir göstoraıək üçün valyuta bazanıun fəaliyyətinə tez-tez müdaxilə edirlər.

*Qızıl standartı (sabit valyuta məzənnəsi) sistemi* - Tarixən tədiyyə (ödəniş) balanslan qızıl standartı əsasında təsbit olunmuş valyuta raəzəımələriıin köməyi ilə tənzimlənirdi. Bu sistemdə milli valyutanın dəyəri qızılın çəki vahidi əsasında müəyyən edilirdi və mölıkəm təsbit olunurdu. Belə sistem, XIX əsrin axırlarında qəti olaraq formalaşdı və Almaniya, İtaliya, Fransa, Norveç, Hollandiya, Danimarka və İsveçdə hakim sistemə çevrildi. Keçən əsrin 90-cı illərində ABŞ, Yaponiya və Rusiya da həmin sistemə birləşdi. Həmin ölkələrdə kağız banknotlar sərbəst şəkildə qızıla dəyişdirilirdi.

Qızıl standartında ingilis funt sterlinqi 113,0016 qram xalis qızıl məzmuna malik idi. ABŞ dollan isə 23. 22 qrama bərabər idi. Bu hesabla bir funt 4,87 dollai' təşkil edirdi. Bir sıra Qərb iqtisadçılan bu sistemə qayıdılması zəruriliyini sübut etməyə çalışdıqlan üçün həmin sistemin üstün və mənfi cəhətlərini aydınlaşdırmaq lazundır.

Aşağıdakı şərtləri gözləyən ölkələrdə qızıl standartı qəbul edilmiş hesab olunurdu:

1. Milli pul vahidinin müəyyən qızıl məzmunu müyyən edilməli idi;

2. Öz qızıl ehtiyatlan ilə pulun daxili təklifi arasında sərt nisbət təmin edilməli idi;

3. Qızıl idxalı və ixracı sərbəst olmalı idi.

Hər bir ölkə öz pul vahidinin qızıl məzmununu müəyyən etdiyi üçün müxtəlif milli valyutalar öz aralarında təsbit olunmuş müəyyən nisbətə malik idilər və "qızd nöqtələri" adlanan məzənnə hüdudlan içində sabit qalırdılar.

Qızıl standartı sisteminin üstünlükləri:

1. Sabit valyuta məzənnəsi beynəkalq kommersiya əməliyyatlannda qe>'ri-müəyyənliyi və risqi azaldır və bununla da beynəlxalq ticarətin genişlənməsini təşvdq edir.

2, QIZIL standartı ödəniş balansı kəsirləri və aktivlərini avtomatik olaraq tənzimləyir.

Birinçi dünya müharibəsi başlayana qədər qml standartı sistemi müvəffəqiyyətlə tətbiq olunurdu (baxmayaıaq ki, ödəniş balansı mövazinətmı tənzimləmə mexanizmi heç də nəzəriyyədə olduğu kimi həyata keçirilmirdi).

Əksər dünya dövlətlərinin valyuta siyasəti 1918-ci il-dən sonra iki mühüm sarsıntının: birinci dünya müharibəsi və 1929-1933-cü illərin BöyüJk depressiyanın təsiri altında fornıalaşdı.

Avropa ölkələrində hərbi xərclərin aılması nəticəsində pul kütləsinin kəskin çoxalması milli hökumətləri məcbur etdi ki, milli valyutamn qızıla dəyişdirilməsini dayandu'sm.

30-cu illərdə bütün dünyam əhatə etmiş “Böylik depressiya” qızıl standartı sistaninin iflasa uğramasmı daha da sürətləndirdi, İstehsal və məşğulluq üzrə göstəricilər pisləşdkcə hər bir ölkə tədiyyə balansı kəsirlərinin daha da artmasmdan qorxaraq, geniş himayəçiUk tədbirləri həyata keçirirdi. Çünki tədiyyə balansı kəsirinin artması qızılm xaricə axmasına və müvafiq olaraq işgüzar aktivliyin azalmasma səbəb olurdu. Ona görə də qızıl standartı sistemini tətbiq edən müxtəlif ölkələr ixracı təşviq etmək və idxalı azaltmaq üçun öz milli valyutalanm qızıla nisbətən devalvasiya etməyə çalışırdılai'. Bu devalvasiyalar qızıl standaitı sisteminin əsaslanın sarsıtdı və sistem iflasa uğradı.

Qızıl standartı sisteminin başbca nöqsam ölkə iqtisadiyyatında xarici müvazinətm təmin olunması mexanizmi ilə əlaqədardır. Bu müvazinət nəzəriyyədə nəzərdə tutulduğu kimi qiymət səviyyəsi, milli gəlir və pul miqdarında özünü göstərən dəyişmələr ilə təmhı oluna bihnirdi. Və bu standartı qəbul edən ölkələr bii' tərəfdən işsizliyin artması və gəliıiərin azalması, digər tərəfdən isə inflyasiya kimi heç də xoşagəlməyən makroiqtisadi prosesə məniz qalüdılar. Onlar eyni zamanda müstəqil pul siyasəti yeritmək imkanmdan məhnraı idilər. Ölkənin pul siyasəti əsimdə xarici valyutaya olan tələb və təklifdə özünü göstərən dəyişikliklər ilə müəyyən edilirdi. Nöqsanlardan biri də o idi ki, həmin sistem üzvlərdən birinin qızıl ehtiyatı qurtai’ana qədər mövcud ola bilərdi. Çünki, rəsmi ehtiyat rolunu qızıl oynadığı üçün, yalmz bu ehtiyatlar olduqda həmin dövlətlər öz təəhhüdlərini yerinə yetirə bilərdilər.

*Bretton-Vuds (tənzimlənən valyuta məzənnəsi) sistemi-* 30-cu illərin “Böyük iqtisadi böhranı”, bu böhranla əlaqədar ayn-ayn dövlətlərin beynəlxalq ticarətə qoyduqlan səddlər və sonralar isə ikinci dünya müharibəsi dünya ticarəti və dünya pul sistemini kökündən sarsıdıb tamamilə alt-üst etdi.

1944-cü ildə yeni dünya valyuta sisteminin osaslamu işləyib hazırlamaq üçun ABŞ-ın Bretton-Vuds şəhərində müvafiq dövlətlər beynəlxalq konJfrans çağudilar. Konfransda Bretton-Vuds sistemi adlanan idarə olunan qarşılıqlı əlaqədar valyuta məzənnələri sisteminin yaradılması haqqında razılığa gəlindi. Yeni sistem köhnə qızıl standartı sisteminin üstünlüklərini - təsbit olunmuş val>mta məzənnələrini qoruyub saxlamalı, onun nöqsanlarını (ağır daxili makroiqtisadi uyğunlaşmaln) aradan qaldırmalı idi. Konfransda yeni valyuta sistemi üçün işgüzar mühit formalaşdırmaq üçün Beynəlxalq Valyuta Fovdu (BVF) yaradılması hac]qında qərar qəbul edildi.

İdarə ohman qarşılıqlı əlaqədar valyuta məzənnələri sisteminin əsasını o təşkil edirdi ki, BVF üzvləri qızıl standartı ənənəsinə sadiq qalaraq öz pul vahidinin qızıl (yaxud dollar) məzmununu müəyyən edir. Bununla da 0 öz valyutası ilə digər üzv ölkələrin valyutaları arasmda valyuta pariteti müəyyən etmiş olurdu. Soma, hər bir ölkə öz valyutasımn məzənnəsini digər valyutaya nisbətən dəyişməz saxlamalı idi. Bu sistemi qəbul edən ölkələr milli valyutalanm sabit məzəımə ilə ABŞ dollamıa bağlaytrdılar. ABŞ isə dollann dəyərini qızılla (1 unsiya qızıl=35 dollar) təsbit etmiş və belə mübadilə nisbətini öz öhdəsinə götürmüşdür. Milli val>oıta dollann pariteti əüafmda yalnız +1% (1971-d ilin dekabrmdan - 2.25?^) dalğalana bilərdi. Dollarm qızıl pariteti dəyişə bilərdi. Bütün digər kənarlaşmalar və paritetin özünün rəsmən dəyişdirilməsi (devalvasiya və ya revalvasiya yolu ilə) yalmz BVF-nun razılığı ilə ola bilərdi.

Bretton-Vuds beynəlxalq valyuta sisteminin əsas prinsipləri:

a) Beynəlxalq təşkilatlar sahəsində: Valyuta üzrə beynəlxalq əməkdaşlığın artması məlum funksiyalara malik olan beynəlxalq təşkilatlann (Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Bərpa və inkişaf bankı- Dünya bankının) yaradılmasını zəruri etmişdir,

b) Valyuta məzənnəsinin rejimləri sahəsində: Valyuta məzənnələri qısa müddət ərzində dövlətlər arasmda sabit qalmah, lakin "struktur qeyri-tarazlığı" yarandığı halda tənzimlənməli idi. Ona görə də bu sistem sabit lakin idarə oluna bilən valyuta məzənnəsi sistemi adlamrdı.

v) Beynəlxalq valyuta ehtiyatlan sahəsində: sabit, lakin tənzimlənə bilən valyuta məzənnəsmio sarsılmadan işləyə bilməsi üçün ölkələrin kifayət qədər be>nıəlxalq nəqdiyyə (likvid) ehtiyatlanna ehtiyaçı vardır. Ona görə də belə ehtiyatlann yaradılması qərarlaşdınlmışdır.

q) Milli valyutaiann dönərlüik prinsipi qəbul edilmişdir. Çünki, dünyada rifah səviyj'əsinin yüksəldilməsnin mühüm şərti olan beynəlxalq ticarətin sərbəstləşdirilməsi və milli valyutaların dövrü vəziyyətinə

gətirilməsi vacibdir. BVF sistemin yuxandakı prinsiplər əsasında işlənməsini təmin etməyə məsul hesab edilmişdir. Fondun üzvləri tədi>'>'ə balansında “sti'uktur pozuntusu” özünü göstərdiyi halda BVF- nun icazəsi ilə milli valyutaların paritetini 10%-dən çox dəyişdirə bilərdilər. 10%-dən az dəyişikliklər üçün fondun içazəsi tələb olunmurdu.

BVF-nun Bretton-Vuds sistemində üç əsas vəzifəsi vardır:

1. Milli valyutalar arasında sistemli əlaqələri təmin etmək və valyuta bazaında yaranan problemlərin həlli yolunu tapmaq;

2. Tədiyyə balansının cari əməliyyatlar bölməsindəki maddələr üzrə tətbiq edilən valyuta nəzarətini aradan qaldıraraq, bütün milli valyutaların bir-birinə sərbəst çevrilməsini təmin edən bir iqtisadi sistem yaradıhnasmı təmin etmək;

3. Tədiyyə balansı müvəqqəti kəsirlə bağlanan üzv dövlətlərə nəqdiyyə mənbələri taparaq, kəsirləri aradan qaldırmaq üçün tədbirlər gönnək, balans kəsirləri müvəqqəti olmayıb "struktur-pozuntusu" mahiyyəti daşıyan ölkələrə valyuta mozənələrini dəyişmək haqqmda tövsiyyələr vennək.

Bretton-Vuds sistemi beynəlxalq ehtiyat şəklində qızıl və dollardan istifadə olunmasım nəzərdə tuturdu. Qızılın beynəlxalq ehtiyat kimi istifadə olunması onım qızıl standartı dövründə oynadığı rol ilə əlaqədar idi. Dollar isə belə bir rola iki səbəbə görə layiq görülmüşdür:

1. ABŞ ikinci dünya müliaribəsindən ən güçlü iqtisadiyyatla çıxmışdır;

2. ABŞ külli miqdarda qızıl ehtiyatı (1947-ci ildə dünya rəsmi qızıl ehtiyatının 70%-ni) toplamışdır və 1934-1971-ci illərdə xarici maliyyə təşkilatlan ilə təsbit olunmuş sabit qiymətlə (1 unsiya-35 oll.) qızıl alış və satışı siyasəti yeridirdi. Bununla da dollar təqdim olunanda qızıla çevrilirdi. Ona görə də dollar qızılm əvəzedicisi hesab edilirdi. Bu sistem bəzən dollar standartı da adlanırdı. Lakin, dollann dünya valyuta ehtiyatınm tərkib hissəsi kimi istifadə olımması beynəlxalq valyuta əməliyyatlannm iştirakçılarını dilemma qarşısmda qoyurdu. Bunu 50-60- cı illərdə yaranmış vəziyyət bütün aydmiığı ilə izah edir. Ölkələrdə qızıl problemi onun miqdan ilə əlaqədar özünü göstərirdi. Məlum olduğu kimi dünya qızıl ehtiyatımn aıtımı çıxanlan qızılm həcmindən ashdu. Lakin, qızıl ehtiyatınm artmu bir qayda olaraq beynəlxalq ticarətin və maliyyə münasibətlərinin genişlənməsindən geri qalırdı. Ona görə də dollai’ dünya valyuta ehtiyatı kimi getdikcə daha böyük rol oynayırdı. Onda belə bir sual ortaya çıxırdı: dövlətlər ehtiyat valyutası kimi dollan necə əldə edirlər? Cavab isə aydm idi: ABŞ-m tədiyyə balansmm kəsirləri hesabma. Əcnəbilərin əlində olan dollarlar artdıqca və buna

müvafiq olaraq AJfŞ-m qızıl ehtiyatı azaldıqca dolların beynəlxalq qızıl ehtiyatı roluna şübhələr artırdı. ABŞ dolların dünya valyutası statusunu qomyıib saxlamaq üçün tədiyyə balansı kəsirlərini azaldıb, aradan qaldırmalı idi. Lakin, əgər baş tutsa idi, bu beynəlxalq ehtiyatların azalmasına və müvafiq olaıaq b^nəlxalq ticarətin və maliyyə əraəliyyatlanmn məhdudlaşmasına səbəb olardı.

Bu məsələlər 70-ci illərin əv\'əllərində olduqca kəskinləşdi. 15 avqust 1971-ci ildə ABŞ prezidenti R.Nikson tədiyyə balansmm durmadan artan kəsirlərinin təsiri altında dollaım qızıla konvertasiyası prosesini (1 unsiya ~35 dol. dəyişdirilməsi qaydasmı) dayandırdı. Bununla da qızıl ilə dollann beynəlmiləl dəyəri arasında olan əlaqə qmldı. Bretton-Vuds sistemi ABŞ-ın dəstəyindən məhrum oldu və iflasa uğradı.

*İdarə olunaraq dəyişkən valyuta məzənnəsi sistemi* - Molum olduğu kimi, bir tərəfdən, ölkələr arasında dəyişən iqtisadi münasibətlər ödəniş balanslan kəsiri və müsbət qaiıqhmn qarşısını almaq üçün valyuta məzənnələrinin çevik dəyişdirilməsini tələb edir. Ona görə də valyuta məzənnəsi "üzə" bilməlidir. Digər tərəfdən isə, valyuta mölitəkirliyi əməliyyatlan vasitəsilə sürətləndirilən valyuta məzənnələrində qısamüddətli dəyişmələr ticarət və maliyyə axımnın pozulmasına səbəb olurdu. Ona görə də BVF-nun üzvləri 1976-cı ildə Yamaykada toplanaraq beynəlxalq valyuta sistemində və BVF-u haqqında əsas sazişdə prinsipial dəyişikliklər edilməsi haqqmda razılığa gəldilər. Bu dəyişikliklərin əsas mahiyyəti ondan ibarətdir ki, üzv ölkələr qəbul edilmiş prinsiplər daxilində "sabit" və ya "dəyişkən" məzənnə sistemindən sərbəst olaraq lazun bildiklərini seçə bilərlər. Lakin, hansı sistemi seçdikləri və valyuta məzənnəsi sahəsində edəcəkləri dəyişikliklər haqqmda müəyyən müddət ərzində fonda məlumat verməlidirlər. BVF haqqmda əsas sazişdə edilən dəyişikliklərə görə fond üzv ölkələrin məzənnə siyasətini müşahidə altında saxlamaq və onlann bu siyasətinə istiqamət verən “prinsiplər” müəyyən etmək səlahiyyətini əldə etdi. Bu baxımdan Fond tərəfindən müəyyən edilmiş və 1 aprel 1978 -ci ildən qüwoyə minmiş əsas prinsiplər aşağıdakılardır:

a) üzvlər tədiyyə balansı kəsirlərinin aradan qalchniraasına mane ola bilən və ya digər üzvlərə zərər verə bilən şəkildə valyuta məzənnəsinə və ya beynəlxalq valyuta sisteminə müdaxilə edə bilməzlər;

b) müdaxilə zəruı əti yarandıqda, xüsusən hər hansı digər üzv ölkənin valyutasma müdaxilə edildikdə bu üzvün də mənafei nəzərə alınmahdır;

v) üzvlər valyuta möhtəldrliyinin qarşısım almaq məqsədilə valyuta bazarlanna müdaxilə edərək, sabitliyi təmin edən tədbirlər görməlidirlər.

Yamayka razılaşmasına görə müxtəlif ölkələrin mərkəzi banklan val>mta məzənnələrinin dalğalanmasımn qarşısını almaq üçün xarici val)nıtanı alıb satmalıdırlar. Başqa sözlə mərkəzi banklar öz ölkələrinin valyutasının qısamüddətli möhtəkir dalğalanma!aıım "idaıə elməli", yaxud onu sabitləşdirməlidirlər. Ona görə də yeni sistem valyuta məzənnələrinə uzunmüvdətli planda çeviklik xassəsi verməklə, onlan qısamüvdətli möhtəkirlik dalğalanmalarmdan qoruyur.

Əsimdə yeni sistem xeyli mürəkkəbdir. Dünyamn aparıcı valyutalan (ABŞ və Kanada dolları. Yapon ieni, funt sterlinq) tələb və təklifin dəyişən şərtlərino uyqun olaraq “üzdü>nj” halda, Avropa iqtisadi Birliyi ölkələrinin çoxu öz valyutalarını bir-birinə “bağlamağa” çalışnlar. Bundan başqa bir çox zəif inkişaf etmiş ölkələr öz valyutalannı hər hansı bir apançı val>mtaya bağlayırlar. Bəziləri isə öz valyutasmı kollektiv valyuta “səbətinə” bağlayırlai'.

*Sistemin işləmi mexanizmi* - Sistemin təməl şərti valyuta məzənnəsinin bazarda gündəlik sərbəst foımal aşması və bu prosesə dövlətin məhdudlaşdmcı tədbirlərlə müdaxilə etməməsidir. Sistem belə bir ideya üzərində qurulmuşdur ki, ölkədə pula olan tələb və təklifi valyuta məzəiməsi tarazlayır. Valyuta məzənnəsindəki dəyişmələr ödəmələrdə olan kəsirləri idxaiat və ixı*açat malları, xidmətlər və qısamüddətli kapital hərəktlərində dəyişiklik yaradaraq tənzimləyir.

İdarə olunaıaq üzən valyuta məzənnəsi sisteminin ideal olaraq neçə işlədiyini şəkil 6-dan əyani şəkildə görmək olar. Şəkildə Azərbaycanın Y^on ieni ilə əlaqədar valyuta bazanmn vəziy>'əti öz əksini tapmışdır.

Fərz edək ki, bu sistem respublikamızda xalis şəkildə tətbiq edilir. Bu zaman Azərbaycamn valyuta gəlirlərinin E nöqtəsindən başlayaraq artması nətiçəsində tutaq ki, Yapon mallarma tələb çoxalmışdır. Bu isə müvafiq olaraq İenə olan tələbi To-dan Tiqədər yüksəltmişdir. Əwəlcə ienə olan tələb və təklif arasmda tarazlığın pozulmağa başlama meyli özünü göstərirdi. Çünki, 0.40 İon=lmanat olduğu hadda Azərbaycana ienə olan tələbi 10 miliyard manatdan çox idi. Lakin, Azərbaycan istehlakçıları idxaiat tələbini təmin etmək üçün ien satın almağa başlayırlar. Bu isə ienə satılan ixracat mallarmm qiymətinin azalmasına səbəb olacaqdır. Belə vəziyyət isə Azərbaycanın Yaponiyaya ixracatını təşviq edəcəkdir.

İdxalm da manatla qiyməti artır. Bu da öz növbəsində daxili istehlakın azalmasına səbəb olur. Heç bir məhdudiyyət qoyuhnadığı və valyuta məzənnəsi lazunı elastiklik göstərdiyi halda ienin öz dəyərini itirməsi idxaiat məsrəfləiinə nisbətən ixıaçat gəlirlərini çoxaldır. Bu isə tədiyyə

baJansmda özünü göstərən qcyri-tarazhğın qarşısını alır. Belə vəziyyət şəkil 6-da 1 manat-0.40 iendən 1 man^O.45 ienə qədər enərək öz dəyərini itirdiyi R nöqqəsindəki tarazlıqda öz əksini tapmışdır.

İdarə olunaraq üzən valyuta məzənnəsi sisteminin lehinə və əleyhinə gətirilən arqumentlər.

Adı çəkilən valyuta sistemi sərbəst bazar iqtisadiyyatının vacib şərtlərindən biridir.

Hesab edilir ki, bu sistem ən az məsrəflə mənbələrin ən səmərəli bölgüsünü təmin edir. Onun lehmə aşağıdakı arqumentlər irəli sürülür:

1. Sistemin sadəliyi - Hesab edilir ki, tələb və təklifin şərtlərinə həssas olduğu üçun sərbəst dəyişən valyuta məzənnəsi bazarın amillərinə çox çevik şəkildə uyğunlaşır. Bu yolla hər hansı bir ölkə valyutasımn bazarda ifi*at çoxluğu ya da çatışmazlığı asanlıqla aradan qalxır. Valyuta məzəmıəsi mərkəzi banklann bürokratlan tərəfindən süni olaraq deyil, bazar tərəfindən asan və məsrəfsiz müəyyən edilir.

2. Mütəmadi tənzimləmə - Sərbəst valyuta məzənnəsi bazar şərtlətindəki dəyişmələrə həssas olduğu üçün üzən valyuta məzənnəsi də mütəmadi olaıaq tənzimlənməlidir. Bazarda valyuta məzənnəsinin gündəlik tənzimlənməsi iqtisadiyyatı, yarana biləçək üzünmüddətli müvazinətsizliyin ağır nəticələrindən xilas edir. Bretton-Vuds sistemi belə bir etibarlı mexanizm yarada bilməmişdir. Ona görə də valyuta məzənnəsinin tənzimlənməsi ehtiyacı birdən-birə və böyük miqyasda qarşıya çıxırdı. Bu isə çox vaxt iqtisadiyyatda şok vəziyyəti yaradırdı. Valyuta məzənnəsinin bazai' şərtləıinin təsiri altmda gündəlik və mütəmadi tənzimləməsi iqtisadiyatı belə risklərdən azad edü.

3. Müstəqil ölkədaxili siyasət aparılması - Adı çəkilən sistemi müdafiə edənlər “üzən” məzənnənin ölkə iqtisadiyyatım xarici amillərdən ayırdığı fikrini də irəli sürürlər. Çünki, bu sistemi tətbiq edən dövlətlər inflyasiya və ya deflyasiya kimi amillərə əl atmadan ödəmələrdə müvazinət yarada bilirlər.




Şəkil 10. Manat vo ien arasındakı məzənnə

Bu sistemdə müvazinət yaratmaq üçün olduqca çox variantlı imkanlar mövcuddur. Tədiyyə balansında müvazinət yai'adılması üçün inflyasiya və deflyasiya kimi tədbirlərdən istifadə olunması çox vaxt ölkəni xarici amilləri də nəzərə almağa məcbur edir və müstəqil siyasət yeridilməsinə xələl gətirə bilir.

4. Pul siyasətinin rolunun artması - Sistemin digər bir faydası da ölkədaxili iqtisadi sabitliyin təmin olunmasında pul siyasətinin rolunun artmasıdır. Çünki, üzən valyuta məzənnəsi sistemində, pul siyasəti əmtəə və xidmət hərəkətlərinə, ölkədaxili məsrəf səviyyəsinə təsir göstərir. Fərz edək ki, durğunluqla mübarizə apamıaq üçün faiz səviyyəsi aşağı salınmışdu. Bretton-Vuds sistemində iqtisadi genişlənməyə yol açan belə bir tədbir kapital qoyuluşlamım artması ilə nəticələnəcəkdir. Üzən valyuta məzənnəsi sistemində isə belə pul siyasəti əmtəə və xidmət axınlaıım da hərəkətə gətüir və ölkə iqtisadiyyatınm sağlamlaşmasma xidmət edir.

*Sistemin əleyhinə gətirUən arqumentlər* - Elmi dairələr bu sistemin faydalannm hələ yaxşı öyrənilməli olduğu fikrini irəli sürürlər.

Praktiklər isə hesab edirlər ki, onun faydalılıq dərəcəsi məhduddur. Bu barədə aşağıdakı arqumentlər irəli sürülür:

1. Elastiklik pessimizmi - Üzən məzənnələrin iqtisadiyyatı sabitləşdiriçi rolu qəbul edilir. Çünki, valyuta bazannda kifayət qədər rəqabət var. Əsas tələb və təklif amilləri qiymət dəyişmələrinə həssasdır. Belə elastiklik çərçivəsində valyuta məzənnəsində baş verən çox az nisbi azalıb-çoxalma ticarət obyekti olan mallann miqdarında əhəmiyyətli dəyişikliyə səbəb ola bilir. Lakin, elastiklik zəif olduqda valyuta məzənnəsindəki dəyişikliyə mallann miqdar dəyişmələri çox az olur. Ona görə də ticarət axınında əhəmiyyətli dəyişikliyə nail olmaq üçün valyuta məzənnəsində də əhəmiyyətli dəyişiklik tələb olunur.

2. Nizamsız valyuta bazarı - Sistemin əleyhidarlan onun xarici ticarəti və kapital qoyluşlarmı təşviq edə bilmədiyini ən ciddi nöqsanı hesab ediilər. Bu halda üzən məzənnələrin qiymət və gəlirlərdə qeyri- müəyyənlik yaladaraq maliyyə risklərini daha da artdığı arqumenti irəli sürülür. Üzən məzənnə sistemi va]>aıta möhtəkirliyinə də yaşıl işıq yaiıdınr. İqtisadi durğunluğun yaranması, yaxud siy^i qe>Tİ-sabitlik "çılğınlığının" meydana gəbnəsinə və kapitalın xaricə axmasma yol aça bibr. Bunlar isə valyuta məzənnəsini nonnal səviyyədən aşağı salır. Milli valyutanm dəyərini itirməyə başlaması möhtəkirlərdə belə bir fikir yarada bilər ki, yaxın gələcəkdə devalvasiya olaçaqdır. Bu da milli valyutadan "qaçmaq" meyli yaratmaqla, onun daha da qiymətdən düşməsini sürətləndirə bilər. Belə dalğalanma isə öz növbəsində ticarətə və kapital hərəkətinə ciddi maneçilik təşkil edə bilər.

Valyuta məzərnıəsi sistemləri (VTVfS) təcrübədə - Bu və ya digər valyuta məzəiməsi sisteminin seçibnəsi ölkə qarşısmda duran mühüm problemlərdən bhidir. 70-ci illərin əwələrində Bretton-Vuds sistembıin verdiyi hüquqdan soma BVF-na üzv olan ölkələr Öz ölkələrinin ehtiyaclarma uyğun olaıaq VMS-ni sərbəst olaraq seçirlər.
Bu zaman yuxanda gördüyümüz kimi bir çox alternativlər vardır.

VMS-ni seçərkən ölkə iki alternativdən birini seçir: 1, Öz valyutasının sərbəst üzməsi, yaxud da; 2. Onun hər hansı bir valyutaya "bağlamııası" haqqmda qərar qəbul edir, hər iki alternativin də öz növbəsində bir neçə alternativi mövcuddur. Məsələn, ölkə üzən valyuta sisteminə üstünlük verərsə aşağıdakı üç variantdan birini seçməlidir: i) valyuta məzənnəsinin müstəqil tənzimləyir; 2) öz valyutasını digər ölkələrin valyutalan ilə birlikdə tənzimləyir və ya; 3) valyuta məzənnəsini nisbi inflyasiya dərəcələri əsasında müəyyən edilmiş formulalar ilə tənzimləyir. Ölkə öz vaJyutasım "bağlamaq" siyasətini

qəbu] edirsə onu hər hansı tək bir valyutaya, yaxud bir neçə valyutadan ibarət valyuta “səbətinə”, ya da qızıla (bu variant keçmişdə mövcud idi) bağlanması kimi altemativlərdəıı biıtni seçməlidir.

BVF-nım üzvlərităin bir çoxunun öz valyutalanıu bu və ya digər valyutalara “bağlamasına” baxmayaraq əsas sənaye ölkələrinin valyutaları 1973-cü üdən bu yana nəzarətli (mərkəzi banklann valyuta bazanna müdaxiləsi ilə) üzən VMS-i əsasında fəaliyyət göstərirlər.

VMS seçilərkən əsas götürülən meyarlai' aşağıdakılardır: 1. Ölkə iqtisadiyyatımn xaricə açıqlıq dərəcəsi. VMS-i seçilərkən bu amil çox mühüm rol oynayır. Xaricə açıqlıq dərəcəsi bir qayda olaraq ixracın məcmuu milli məhsula nisbəti ilə müəyyən edilir. Nisbətən qapalı hesab edilən “xuda” ticarətçi ölkələr adətən üzən valyuta məzənnəsi sisteminə, xaricə cox açıq olan “böyük” ticaıətçi Ölkələr adətən sabit məzənnəyə üstünlük verirlər. Çünki, sabit məzənnə sistemində xarici ticarət kəsirinin aradan qaldmhnası məcmuu tələbdə zidiyyətli tənzimləmələri şərtləndirə bilər. Məlumdur ki, müvazinət yaradan tənzimləmə dərəcəsi ölkənin idxalat həcmi ilə tərs mütənasibdir. Az idxalatı olan nisbətən qapalı ölkələr ticarət balansı kəsirini bağlamaq üçün ölkə daxilində məcmuu tələbi ciddi tənzimləmək məcburiyyəti qai-şısmdadır. Əlbəttə yüksək idxal həçminin malik olan “açıq” ölkələrdə belə məcburiyyət yoxdur. ABŞ kimi xarici ticarət bölməsi nisbətən “kiçik” olan ölkələr sabit valyuta məzənnəsi sistemini seçmirlər. Çünki, bu halda xarici ticarət kəsirini ləğv etmək üçün böyük miqyasda ölkə daxili tənzimləmələr apanimahdu'.

2. Ölkədə ixrac mallannm çox və ya az çeşidli olması VMS-nin seçilməsinə təsir edən mülıüm amillərdəndh. Adətən ixracat mallan çox çeşidli olan ölkələr üzən məzənnə sistemini seçirlər. Çünki, ixrac mallannm növlərinin çox olması ölkənin hər hansı bir əmtəə ixracmdan asılılığım azaldır. Bu əmtəələrin qiymətləri və miqdannm artıb azalması bir-birini qarşılıqılı olaraq neytrallaşdırır və valyuta məzənnəsində baş verə biləcək dalğalanmalarla əlaqədar itkilərin də qaışısmı ala bilər. Bunun əksinə, ixracı məhdud saylı əmtəədən ibarət olan ölkələr ixrac gəlirlərinin iqtisadiyyata mənfi təsirini azaltmaq və valyuta ehtiyatlarmı sabitləşdirmək üçün sabit valyuta məzənnəsi sisteminə üstünlük verirlər.

3. Digər amillər - Ölkələr arasında qısamüddətli kapital hərəkətlərinin rolu sabit və ya üzən məzənnə sistemlərinin seçilməsinə təsir edən amillərdəndir. Kapital hərəkəti nisbətən çox olan ölkələrdə sabit məzənnələri müdafiə etmək üçün dövlət müdaxdəsiıii həyata keçirmək çətindir. Bununla əlaqədar olaraq, məsələn. Belçika, tədiyyə balansına

mənfi təsiri aradan qaldırmaq məqsədilə kapital hərəkəti əməliyyatlarma üzən məzənnə, əmtəə və xidmət əməliyyatlan üçün isə sabit məzənnə tətbiq edir. Ölkələr arasında inflyasiya səviyyəsi xeyli fərqlidirsə adətən üzən məzənnə siyasəti tətbiq edilir. Burada şübhəsiz ölkənin böyük ticarət partnyorlan olan ölkələrdəki inflyasiya səviyyəsi nəzərdə tutulur. Əksinə, inflyasiya səviyyəsi az-çox bir-birinə yaxm olan ölkələr sabit məzənnə sistemini seçirlər. İnflyasiya səviyyəsi əgər bir ölkədə partnyor ölkələrə nisbətən aşağıdırsa, bu zaman sabit məzənnə, əks halda isə üzən məzənnə siyasəti tətbiq edilir.

*Valyuta məzənnəsinin proqnozlaşdırılması* - Valyuta məzənnəsinin ifrat dərəcədə artması və ya azalmasmın qarşısmm alınması üçün valyuta proqnozlaşdırılmasımn apaniması mühüm əhəmiyyətə malikdn. Valyuta siyasəti saliəsində mövcud olan beynəlxalq təcrübə göstərir ki, çox mürəkkəb və çox vaxt da etibai sız olan valyuta məzənnəsinin proqııozlaşdı- nhıiası zamam aşağıdakı amillər nəzərə alınmalıdır:

1. Pul kütləsində gözlənilən də>işikliklər - Valjoıta alıcıları valyuta almaq istəyərkən özJəri üçün aydmiaşdınılar ki, həmin valyutanın məxsus olduğu ölkədə mərkəzi bankların pul kütləsinin artırılması üzrə siyasəti necə olacaqdır. Pul kütləsinin ifrat artırmasına işarə edən hər hansı bir əlamət həmin ölkə valyutasımn təklifinin artacağı və müvafiq olaraq onun dəyərinin aşağı düşəcəyi haqqında fikir oyadır. Ona görə də Mərkəzi Bank rəhbərləri və siyasi liderlər pul siyasəti haqqmda fikirlərini ehtiyatla söylə>oılər.

2. Özəl aktivlər üzrə gözlənilən hökümət siyasəti - Nəğd şəkildə və yaxud faiz gətirən qiymətli kağızlar formasında hər hansı bir milli valyutaya salıib olanlar dövlətin bu sahədə hər hansı bir məhdudiyyət və vergi qoyması məsələsini diqqətlə izləyirlər. Özəl mülkiyyətin gələcəkdə müsadirə ediləcəyi istiqamətində ölkədə siyasi meyl yaı*anırsa, bu proses adətən valyutaya tələbi artır və onun məzənnəsinin düşməsinə səbəb olur. Maliyyə aktivlərinə yeni vergilər qo>mlması və yaxud valyuta məhdudiyyətinin tətbiqi də eyni nəticə doğurur.

3. Valyuta bazarına rəsmi müdaxilənin nəticələri - Valyuta məzənnəsinə təsir göstənnək üçün rəsmi orqanlar özləri valyutanı alıb satmaqla valyuta bazaiına mülaxilə edə bilərlər. Onlann zəifləyən valyutanı müdafiə etmək üçün bazara müdaxiləsi adətən izafi təklifi aradan qaldırmaqla onun vəziyyətini möhkəmləndirir. Lakin, müdaxilənin son nəticəsi valyuta möhtəkirləıinin realcsiy asın dan asılıdır. Əgər onlar əmin olsalar ki, rəsmi orqanlar həqiqətən valyuta məzənnəsinin sabitləşdiımək istəyir və bunun üçün kifayət qədər

ehtiyatlan vardır, o zaman möhtəkirlorin özləri məzəımənin möhkəmlənməsinə kömək edəcəklər. Yox əgər, rəsmi orqanlann cəhdləri onları inandırmasa, möhtəkirləriu valyuta əleyhinə əməliyyatlan daha da artacaqchr.

Milli valyutanm məzənnəsini dövlətin siyasi və maliyyə rəhbərləri də diqqətlə izləyir və bu məzənnədə ifrat dəyişikliklər meydana gəlməsini vaxtında bilib qarşısmı almağa çalışu-lar. Bu məqsədlə valyuta məzənnəsinin uzun müddət üçün müvazinət dəyərinin hesablanması mühum əhəmiyyət kəsb cdii-. Bu müvazinat dəyəri ilə onun həqiqi dəyəri arasındakı fərq həmişə diqqət mərkəzində saxlanılır və fərq yarandıqda ciddi narahatlıq meydana gəlir.

Uzun müddət üçün məzənnənin müvazinət dəyəri səviyyəsi proqnoz-laşdmlarkən iki üsuldan istifadə edilir: a) alıcılıq qabiliyyəti pariteti və b) tədiyyə balansı baxımından araşdırma

Alıcılıq qabiliyyəti paritetinin yuxanda göstərilən formulu əsasında valyutanm uzun müddət üçün müvazinət dəyəri səviyyəsi və bunun da əsasmda məzənnənin həqiqi dəyərinin düzgün müəyyən edilib, edilmədiyi hesablan u. Lakin təcılibədə alıcılıq qabiliyyəti paıitetinin bir çox çatışmazhqiarı özünü göstərir. Məsələn, uzun dövr dedikdə onun başlanğıcı nə zaman olmalıdn*? Bazar iqtisadiyyatı şəraitində bir çox qiymət indeksi hesablann. Hesablamalarda bu indekslərdən hansı nəzərə almmalıdır? Qiymət fərqindən əlavə dünya ticarətində mühüm rol oynayan nəqliyyat məsrəfləri, zövq və gəlir fərqləri və s. hesablamalarda necə nəzəri alınmalıdır? Ona görə də alıcılıq qabiliyyəti pariteti məzənnənin proqnozJaşdınImasmdə çox təxmini bir göstərici kimi istifadə edilir.

Həqiqi valyuta məzənnəsinnn müəyyənləşdiriİməsində siyasətçiləıin istifadə etdikləri digər üsul tədiyyə balansıdır. Bu üsulun əsasmı belə bir ideya təşkil edir ki, hər hansı bir ölkənin beynəlxalq ödəmələrinin vəziyyəti ilə valyuta məzənnəsi arasmda qarşılıqb asılılıq mövcuddur. Əgər ölkədə xaricdən gəlirlər xaricə ödəmələrdən azdırsa, valyuta bazannda bu ölkənin pul təklifi tələbdən çox olacaq və milli pul öz dəyərini itirəcəkdir. Əks halda isə məzənnə yüksəlir. Məzənnələrin tənzimlədiyi Bretton-Vuds sistemində tədiyyə balansı doktrinasmdan geniş istifadə olunuıdu. Valyuta məzənnəsinin tənzimlənməsi adətən tədiyyə balansımn vəziyyətindən asılı olaraq həyata keçirilirdi.

Ptoqnozlaşdırmamn hər Üd üsulu ciddi çatışmazhqlai’a malikdir. Ona görə də iqtisadçılann çoxu üzən valyuta məzənnəsi sisteminə üstünlük verirlər.

Dəyişkən (üzən, dalğalanan) valyuta məzənnəsi siyasəti təcrübəsi - bu siyasətin iki növü ən çox yayılmışdır: a) birgə "dalğalanma": b) tənzimlənən "dalğalı" valyuta məzənnəsi.

Birgə “dalğalanan” valyuta məzənnəsi - Müxtəlif ölkələrin valyutalan müstəqil dalğalanmaqla yanaşı beynəlxalq valyuta sistemində bəzən dövlətlər qarşılıqlı tənzimləmə şərtləri qəbul edərək, öz valyutalarını birgə dalğadandmnağa çalışırlar. Bunun bariz nümunəsi ABŞ ölkələrinin təcrübəsidir. Avropada valyuta birliyinin yaradılmasına doğru ilk addım hələ 1970-ci ildə elan edilmiş və birliyin üzvləri bu haqda saziş bağlamışlar. Valyuta birliyi valyuta məzənnələri sahəsində iş birliyinin yaradılmasım, kapital hərəkəti üzrə mövcud olan bütün məhdudiyyətlərin lazımi, üzv ölkələrin hamısında valyutalarm dönərlyinin təmini, bu dönərliyin qorunmasmda tam qaışıhqh inam yaradılmasım və milli valyutalarm bir-birinə çevıilməsi zamanı hər növ bank məsrəfləmin aradan qaldırılmasım nəzərdə tutur.

Valyuta biiiiyi yaradılmasımn ən başlıca şərti valyuta məzəiməsi sahəsində birliyin təmin edilməsidir. Mütəxəssislər çox vaxt bu birliyi valyuta məzənnəsi birliyi adlandınrlar. Birliyə daxil olan milli valyutalaı* sabit bir paritetlə bii’-birinə bağlammşdır. Üzv ölkələrinin qarşılıqlı razılaşmasma əsasən milli valyutalai' dollar pariteti əti'afinda maksimum / minimum 2.25% dalğalamnasına imkan verilirdi ki, buna “ilan tuneldə” adı verilmişdir. Bunu təmin etmək üçün qarşıhqb tədbirlər görülməsi nəzərdə tutulurdu. Avropa valyuta bhliyinin yaradıhnasmda bu birinci mərhələnin həyata keçirilməsində bir sıra çətinliklər özünü göstərdi. Bu çətinliklər üzv ölkələrin yeritdiyi iqtisadi siyasətdəki müxtəlifliklər ilə əlaqədar idi.

Əgər AFR-da makroiqtisadi siyasətin əsas məqsədi inflyasiya ilə mübarizə idisə, İtaliya və Fransa işsizliyin artmasma yol vennəməyə çalışaraq dövlət məsrəflərinin artırılması yolu ilə getdilər. Ona görə də üz\' ölkələr qruplara bölündülər: “güclü” valyutası olan ölkələr (AFR,Benilyuks ölkələri), “zəif” valyutası olan ölkələr (İtaliya, Böyük Britaniya) və orta vəziyyətdə olan ölkələr (Fransa).

1972-ci ildən həyata keçirilməyə başlayan sistem müvəfəqiyyətsizliyə uğradı və 1973-cü ilin martmdan məhdudiyyətlər götürüldü və üzv' ölkələıin valyutalan müstəqil dalğalanmağa başladı. Avropada valyuta birliyinin yaradılması illər sonialar da davam etdirildi. 1979-cu ildə Avropa ölkələri (Qərbi Almaniya, Belçika, Danimarka, Fransa, İrlandiya İtaliya, Lüksemburq və Hollandiya) A\Topa Valyuta sistemi yaradılması

haqqında qərar qəbul etdilər. Sonralar bütün AİB üz\'^ləri (İnkiltərə 1990- cı ildə) bu sistemə qoşuldular.

Avropada valyuta sabitbyinin yaradılması üçün .Avropa Valyuta sistemi qarşısında iki əsas məqsəd qoyulmuşdur: 1) Avropa valyutalanm sabit məzənnələr ilə bir-birinə bağlamaq; 2) Avropa Valyuta Fondu adlı bir fond yaradaıaq AlB-nin üzvlərinin tədiyyə balansı problemlərinə yardım etmək. Avropa Valyuta sisteminin əsasını Bretton Vuds sistemində olduğu kimi “sä?it, lakin idarə olunan” valyuta məzənnəsi sistemi təşkil edir. Sistemə daxil edilmiş ölkələrin milli valyutalanmn əsas məzənnəsi EKYU ilə ifadə olunmuşdur. Milli valyutalar bu əsas məzənnə ətrafinda ± 2,25% (İtaliya lirəsi üçün +6%) dalğalana bilər.

Avropa Valyuta sisteminin digər əsas cəhətləri aşağıdakılardır:

1) Sistem AB-dən kənar ölkələr üçün açıqdır;

2) Valyuta əməliyyatları EKYU ilə aparılır;

3) Birliyə üzv olan hər bir Ölkənin vəziyyəti (xüsusiyyəti) ayrılıqda nəzərə almn;

4) Üzv ölkələrin mərkəzi banklardakı valyuta ehiyatlarmm bir hissəsi birgə istifadə üçün aynimışdır. Bununla da maliyyə imkanJan xeyli genişləndirilmişdij*.

AS üzvləri valyutalarmm bir-birinə bağhlığım gücləndirməyə çalışan Avropa Valyuta sisteminin son məqsədi Avropa pul vahidinin yaradılması olmuşdur. Avropa pul vahidi- EKYÜ (European Currency Unit :ESI) Avropa valyutalarından yaradılımş bir *‘səbətə” əsaslanan və Birlik tərəfindən ‘‘ödəmə vasitəsi” və “hesab vahidi” (piteqeq) kimi qəbul edilən rəsmi və süni pul valiididir.

Tənzimlənən dalğalı (üzən) valyuta məzənnələri -1973-cü ildə “Neft böhranı” və dünyam bürüyən infliyasiya dalğalan inkişaf etmiş sənaye ölkələrini tənzimlənən dalğalı valyuta məzənnələri sisteminin qeyri- müəyyən vaxtda tətbiq etməyə vadar etdi. Bu sistemdə BVF milli valyuta siyasətinin qeyri-rəsmi tənzimləyicisi rolunu oynayır.

İnkişaf etmiş sənaye ölkələri öz Valyutalarmm dalğalanmasına imkan verməklə bu dalğalanmamn müxtəlif tənzimləmə tədbirləri ilə müəyyən istiqamətə yönəltməyə çalışırlar. Belə "istiqamətləndirmə" iki səbəblə əlaqədardır. 1) ölkələr dünya bazarmda özlərinin rəqabət gücünü poza bilən valyuta məzənnəsi dəyişmələrinin qarşısım almağa çalışırlar. Məsələn, ABŞ 70-ci illərin əwələrində məhz bu məqsədlə dollann məzənnəsini dalğalandırmağa başladı; 2) Tam sərbəst dalğalanma sistemində valyuta məzənnəsi iqtisadiyyatda optimal

olmayan hərəkət tərzi göstərir. Başqa sözlə sistemsiz valynta bazan şərtləri çox vaxt valyuta məzənnolərixım sabitli>a pozmaq istiqamətində hərəkət etməsinə yol açır. Bu səbəblərlə əlaqədar olaraq dövlətlərin çoxu tənzimlənən, nəzarətli dalğalanan valyuta məzənnələri sistemini tətbiq edirlər. Bu sistem BVF tərəfindən qəbul edilmişdir. Bu zaman nəzərə almaq lazımdu- ki, tənzimləmə tədbirləri məcburedici deyil, istiqamətvericidir. İstiqamətləndirmə üç əsas fonnada həyata keçirilir; a) günlük və ya həftəlik tənzimləmə; b) bii’ və ya bir neçə aylıq tənzimləmə; v) todiyyə balansının vəziyyətindən asılı olai'aq həyata keçiiTİən tənzimləmə.

Valyuta məzənnələrinin günlük və ya həftəlik tənzimlənməsində başlıca məqsəd bu məzənnələrin təhlükəli istiqamətdə getməsinin qarşısım almaqdır. Bunun üçün lazımi tədbirlər həyata keçirilir. Bti və ya bir neçə aylıq tənzimləmə də birinci ilə eyni prinsiplərə əsaslamr və valyuta məzənnəsində qeyri-normal dalğalanma özünü göstərdiklə tətbiq edilir. Bu tədbirlərlə az-çox uzun müddət ərzində valyuta məzənnələrinin bazar güclərinin qeyri-normal təsirindən xilas edilməsi və valyuta məzənnəsini sabiti əşdirilməsi məqsədi güdülür. Bu tədbirlər hazırlamb həyata keçirilərkən qətiyyən tələsikİiyə və düşünülməmiş addmılara yol veımək olmaz.

Tənzimləmə tədbirləri həyata keçirilərkən nəzərə almaq lazımdır ki, valyuta məzənnəsinin dalğalanması perspektiv planda kapital hərəkətlərini şərtləndirən və iqtisadiyyatda rəqabəti müəyyən edən amillərdən asıbdır. Uzun müddət ərzində kapital hərəkətinə istehsal xərclərinin nisbi səviyyəsi, məhsuldar qüvvələrin yerləşdirihnəsi, həyata keçirilən pul-kredit siyasəti kimi amillər təsir göstərir. Ölkədə rəqabət gücünü isə istehsal amillərinin mövcudluğu, zövqlər və s. kimi şərtlər müəyən edir. Bu gün isə onlar perspektiv planda valyuta məzənnələrində öz əksini tapdıqlan üçün tənzimləmə tədbirləiində nəzərə alınmalıdır.

### 8.2. **Valyuta və valyuta bazarları haqqında ümumi anlayış**

Valyuta nədiı*? - beynəlxalq iqtisadi əməiiyyatlan həyata keçirmək üçün istifadə edilən ödəmə vasitəsinə valyuta deyilir. Başqa sözlə hər hansı bir milli pul vahidi beynəlxalq hesablaşma və iqtisadi münasibətlərin iştıı akçısı kimi çıxış etdikdə vaJ>utaya çevrilir. Valyuta rolunu yalnız müxtəlif ölkələrin pul vahidləri (məs. ABŞ dollan, Alman raaıkası və s.) deyil, həmçinnn beynəlxalq ödəmə vasitəsi kimi pul əvəzinə qəbul edilən çek, xəzinə bonsları, pay sənədləri, istiqraz və s.

kimi digər qiymətli kağızlar da oynayır. Ona görə də valyuta deyildikdə onlaıın hamısı başa düşülməlidir. Lakin, nəzərə almaq lazımdır ki, heç də hər ölkənin milli pul vahidləri beynəlxalq ödəmə vasitəsi kimi qəbul edilmir. Tədiyyə balansı xroniki kəsir verən, borçunu ödəməkdə çətinlik çəkən, iqtisadi>'yatı zəif olan ölkələrin pul vahidləri eyni zamanda valyuta olmaqla bərabər beynəlxalq ödəmələrdə ödəmə vasitəsi kimi qəbul edilmirlər. Çünki, həmin pul ilə o pulu buraxan ölkədən lazımı mal və xidmət əldə etmək çox vaxt mümkün ohnur

*Valyutanın dönərliliyi* - bir valyutanın digər bir valyutaya dəyişdirilməsində hər hansı bir çətinlik valyutaınn dönərlilik (conveıtibibility) dərəcəsi ilə əlaqədar olur. Məsələn, Sovet (İttifaqı dövründə dollan sovet mblu ilə asan dəyişdirməsi mümkün idisə, mblu dollara çevirmək, əslində, mümkün deyildi.

}leç bir məhdudiyyət qoyulmadan digər valyutalara dərhal çevrilə bilən və beynəlxalq ödəmə vasitəsi kimi qəbul edilən milli pul vahidlərinə dönərli valyuta deyilir. Milli valyutaların dönərliliyi tam və ya qismən ola bilər. Hal-haznda ölkələrin əksəriyyətində qeyri-rezident, yaxud xaıici dönərlilik mövcuddur. Məsələn, fiansız banklannda əmanəti olan və Fransanm vətəndaşı olmayan (qeyıi-rezidentlər) bütün şəxslər frank hesabmdakı əmanətlərini istədikləri vaxt və istədikləri ölkənin valyutasma tam və ya qismən dəyişdirə bilərlər. Başqa sözlə, ABŞ ixracatçısı ixı*ac etdiyi malın dəyərini frankla ala bilər. Çünki, həmin frankı o istədiyi vaxt başqa valyutaya dəyişə bilər.

Tam dönərlilik (full conveıtibilily) o deməkdir ki, dövlət bütün ölkə sakinlərinə (rezidentlərinə) və habelə qeyri-rezidentlərinə milli valyutanı istənilən digər valyutaya məhdudiyyət qoyulmadan dəyişdiiməsinə imkan verir.

Möhkəm valyutalar (hapd currencies) adətən tam dönərli və nisbətən sabit dəyərli olurlar. Onlar, ölkələrin toplayıb saxlamağa çalışdıqlan ehtiyat aktivləri rolunu oynayırlar. Tam dönərlilik olmadığı hallarda adətən rəsmi bazarla yanaşı, dövlət nəzarətindən kənar qara bazar (black market) meydana gəlir.

Ölkələrin milli valyutalarmın nə dərəcədə dönərli olması Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən aşağıdakı (meyaıiarm) məhdudiyyətlərin mövcud olub-olmaması dərəcəsindən asılı olaraq müəyyən edilir:

- tədi>^ə balansmm cari əməliyyatlar hissəsində məhdudiyyətin olub-olmaması;
- ixraca tətbiq edilən valyuta məzənnəsinin idxala aid valyuta məzən-

nəsijıdon fərqli olub-olmaması;

- ixrac və idxal əməliyyatlan üçün bir çox valyuta məzənnəsinin tətbiqi;
- kapital hərəkətləri ilə gömrıməyən maddələrə fərqli məzənnənin tətbiqi;
- kapitalın hərəkətinə məhdudiyyət qoyulması;
- xarici ödəmələrdə istifadə olunan valyutalara fərq qoyulması;
- BVF-na üzv olan və üzv olmayan ölkələr ai'asında ikitərəfli ödəmə müqavilələrinin olması;
- idxalat üçün təminat verilməsi;
- idxalda dəyər (ingiliscə: suroharge) ödəmələrinin olması;
- ixaracat gəlirlərinin milli mərkəzi banklarda toplanması zənıriliyi.

Göstərilən on məhdudiy>'ətdən heç birinin tətbiq edilməməsi milli valyutanın tam dönərli valyuta olması üçün şərtdir. Bu məhdudiyyətlərin olmaması ilə yanaşı ölkənin tədiyyə balansı xroniki kəsir verməməli, ölkə açıq iqtisadiyyat modeli əsasında inkişaf etməli, dünya bazannda özünü göstərə biləcək hər hansı böhranlı vəziyyətdən çıxmaq üçün zəruri olan qızıl və valyuta ehtiyatına malik olmalı, ölkədə inflyasiya səviyyəsi ticarət əlaqələrinin mövcud olduğu ölkələrdən yüksək olmamalıdır.

Hər hansı bir ölkə valyutasını dönərli valyutaya çevirmək üçün aşağıdakı tədbirlər görməlidir:

- xarici ticarət və tədiyyə balansımn az-çox müvazinətim təmin etməli;
- lazımi valyuta ehtiyatları yaratmalı və onu qoruyub saxlamalı;
- müstəqil valyuta bazarmı yaratmalı;
- real valyuta məzənnəsi siyasətini həyata keçirməli;
- milli pul və kapital bazanm mümkün qədər beynəlxalq bazaılar ilə bütünləşdirməli;
- idxal məhdudiyyətləri və kömrük tariflərini minimum endirməklə xarici dünyaya açılmanı təmin etməlidir.

*Valyuta məhdudiyyəti* - bir sıra dövlətlər xarici valyuta sahəsində bəzi məhdudiyyətlər qoyurlaı. Bu məqsədlə idxaluı lisenziyalaşdınknası, bir neçə (çoxsaylı) mübadilə məzənnəsinin tətbiqi, idxal depozitlərinə qoyulan tələb və miqdar nəzarəti kimi vasitələrdən istifadə olunur.

Liseuziyalaşduma (histnces) ilə hökümət mübadilə məzənnəsini təsbit edir və məcbur edir ki, xarici valyuta əldə etmiş ixracatçı yaxud başqa pxslər bu valyutam rəsmi məzənnə ilə Mərkəzi Banka satsınlar. Ölkənin pul siyasətini həyata keçirmək səlahiyyətinə malik olan Mərkəzi bank bu yolla əldə etdiyi valyutam xaricdən zəruri mallann alınması üçün ehtiyacı olanlara təsbit olumnuş məzənnə ilə satmaqla

bölgüsünü toşkil edir. Xaricdən alman omtəəlann zəruriliyini dövlət və ya onun adından fəaliyyət göstərən digər orqanlar müəyyən edir. Bu zaman idxalçı xarici valyutanı yalnız müvafiq malm idxalı üçün lisenziyası olduqda ala bilər.

Çoxsayb valyuta məzənnəsi - xarici valyutanm qorunub saxlanmasının digər yolu bir neçə valyuta məzənnəsinin tətbiq olunmasıdır. Bu çoxsaylı valyuta məzənnəsi (multiple exchange rates) sistemi adlanır. Bu sistemin mahiyyəti ondan ibarətdir ki, hökumət müxtəlif əməliyyatlai' üçün müxtəlif mübadüə raəzəimələri tətbiq edir. Onu da qeyd etmək lazımdır ki, keçmişdə bu sistem geniş yayılmışdır. Məsələn BVF-nun məlmnatlanna görə 1989-cu ildə birdən çox valyuta məzənnəsi; idxalda -28 ölkədə və ixracda-32 ölkədə tətbiq olunurdu. Əgər hökumət idxalı məhdudlaşdırmaq istəyirsə arzu olunmaz idxal mallan üçün yüksək valyuta məzənnəsi tətbiq edir ki, bu da həmin malları bahalaşdırır və idxalını məhdudlaşdmr,

*İdxal depozitlərinə qoyulan tələb* - İdxal depozitinin köçüıülraəsi üzrə tələb o zaman qoyulur ki, hökumət depozitin köçüıühnəsini xarici valyutanm istifadə olunması haqqmda qərar qəbul edilənə qədər təmin olunmasım tələb edii'. İdxal depozitinin vaxtında köçürülməsi üzrə tələb valyuta nəzai'ətinin biı* forması olmaqla çoxlu sayda ölkələrdə tətbiq olunur. İdxal depozitinin avans olaraq köçürülməsi tələbi ilə hökumət şirkətləri məçbur edir ki, mallan idxal edərkən onlann məqsədə uyğmıJuğunu ətraflı götüı-qoy etsinlər. Bu zaman hökumət həmçinin xarici valyutanın hərəkətini planlaşdırmaq üçün vaxt da qazammş olur.

*Miqdar nəzarəti* - Hökumət həmçinin hər hansı konkret məqsəd üçün aynlan valyutamn miqdamu da məhdudlaşdıra bilir. Belə nəzarət forması turizm sahəsində tətbiq olunur. Bəzi ölkələr turistlərin xaıicə apardıqlan valyuta məbləğini məhdudlaşdınrlar.

*Valyuta bazarı* - Valyuta alqı-satqısmm həyata keçirildiyi bazara valyuta bazan deyilir. Valyuta bazarının bəlli bir məkanı yoxdur və bu əməliyyatlar üzrə hər hansı bir “yer aynlması” məcburi deyildir. Valyuta alıcı və satıcıları və ya onlann vasitəçilərinin telefon, faks və tekekslə bir-biri ilə əlaqə yarada bilmələri valyuta bazarmm mövcudluğu üçün kifayətdir.

Bazar valyuta alqı-satqısı ilə məşğul olan kommersiya banklan, valyuta komissionçulan və mərkəzi milli banklardan ibarətdir. Kommersiya banklan müştərilərin valyutalarını satın alır, onlara istədikləri valyutam satn. Valyuta ilə kredit verir və valyuta qoyuluşlarmı daxili və xarici bazarlarda işlədir. Valyuta komisionçulan dünyanın

tanınmış maliyyə mərkəzləri ilə sıx informasiya əlaqəsində olduğu üçün arbitraj funksiyasını yerinə yetirir, maliyyə təşkilatlarına vasitəçilik edir.

Mərkəzi milli banklai' valyuta bazannda ölkənin pul avtoritetini forma-iaşdınr və zəıııui hallarda bazara müdaxilə edir. Həmin banklar bazarda valyutaya tələb çox olduqda bu tələbi öz etiyatları hesabuıa ödəyir, təklif çox olduqda isə onu bazardan sonıb yığu'. Açıq bazai' maliyyatlan həyata keçirərək valyuta - məzəiməsinin sabitliyini yai'adu, onu qoruyub saxlayır, eləcə də kommersiya banklan və valyuta komisiyonçulannm fəaliyyətinə nəzarət edir.

Val>nıta bazarmda əsas fəaliyyət dünyaımı apancı maliyyə mərkəzlərində kommersiya banklan tərəfindən aparılan banklaıarası əməliyyatlardan ibarətdir. Hal-hazırda dünyada kommunikasiya şəbəkələri olduqca inkişaf etmiş və dünya ölkələrinin çoxu məhdudiyət qoyulmadan fəaliyyət göstərən valyuta bazanna malikdir. Bu isə dünyada vahid valyuta bazanmn mövcud olduğunu göstərir. Bu nəhəng bazai' hər səhər öz fəaliyyətnin kiçnk miqyasda Yeni Zenlandiyada yeı li vaxtla saat 9-da başlayır. Bu elə vaxtdır ki, Nyu-York bazannda ə\^əlki axşamın nəticələrini kommunikasiya vasitələri ilə artıq əldə etmək olar. İki yaxud üç saatdan sonra bazar Tokioda, daha yanm saat sonra Sinqapurda açılır. Bu zaman uzaq şərq bazan tam gücü ilə işləyir və diqqət yavaş-yavaş Orta və Yaxın Şərqə yönəlir. Bombeydə bazar Sinqapurdan iki saat sonra açılır. Saat yanm sonra isə estaieti Abu-Dabi, ondan iki saat sonra Cədda, bir saat sonra-Afrika və Beyrut qəbul edir. Bu mərhələdə ticarət Uzaq və Yaxuı Şərqə yavaş-yavaş sönür, lakin, bir qədər əsəbilik şəraitində keçir. Çünki, tacirlər hadisənin Avropada neçə inkişaf edəcəyini izləyirlər. Paris və Frankfiırtda bazar London bazanna nisbətən bir saat əvvəl açılır. Bu zaman bazar Tokioda bağlanmağa hazırlaşır. Ona görə də Avropa bazarı Tokio bazarmda əvvəlki gün olan vəziyyət haqqında tam təsəvvür əldə edə bilir. Londonda günorta fasiləsi olanda Nyu-York bazan açılır və Avropada vəziyyət səngiməyə doğru gedəndə Nyu-Yorkda bazar tam kü cü ilə işləməyə başlayır. Burada da fasilədən sonra vəziyyət səngiməyə başlayn. Estafeti verməyə daha yer qalmır. Çünki, Yeni ZenJandiya bazan kiçik miqyaslı bazardır.

Valyuta bazan aşağıdakı dörd əsas funksiyanı yerinə yetiıir;

1. Əmtəə və xidmət satın alındıqda onlann dəyərinin transfer edilməsi (köçürülməsi);

2. Xarici ticarədə məşğul olan fərd və qummlara kıedit təmin edilməsi.;

S.Valyuta riskJərinijı minimuma endirilməsi üçün lazım olan tədbirlərin görülməsi;

4. Xarici ticarətdə müvazinətin yaradılmasma yardnn edilməsi.

Valyuta bazan tam rəqabətin hökm sürdüyü bazar tipinə ən yaxın olan baz.ardır. Dünyanın ən məşhur maliyyə və valyuta bazan mərkəzləri London, Nyu-York, Toronto, Paris, Frankfurt, Syıırix, Amsterdam, Brüssel, Çene\TƏ və Tokiodiu*. 1915-ci ilə qədər dünyanın ən böyük mali>7Ə mərkəzi London idi. Həmin il ABŞ-da Federal Rezerv Sistemi yarandıqdan sonra Nyu-York dünyamn ən güclü maliyyə mərkəzinə çevrilmişdir.

## 8.3. **Valyuta məzənnəsi**

Valyuta bazarları öz fımksiyalanm yerinə yetirərkən ölkənin milli pulu ilə xarici valyuta arasında müəyyən qiymət fomıalaşır. Bu qiymətə valyuta yaxud mübadilə məzənnəsi (exshane rare) deyilir. Başqa sözlə valyuta məzənnəsini digər bir ölkə valyutasını əldə etmək üçün tələb olunan milli valyuta vahidinin miqdan kimi də xarakterizə etmək olar.

Dünyamn dövrü informasiya vasitələri hər gün gündəlik valyuta məzənnələrini dərc edirlər. Məsələn, Azərbaycanda idxalçı xaricdən mal almaq üçün 1 dollara 81 manat verirsə, onda valyuta məzənnəsi 1 dollar = 81 manatdu- (fevral 2009-cu il vəziyyətinə). Valyuta məzənnəsi iki üsulla ifadə olunur; Birincisi, milli pul vahidini neçə əcnəbi valyutaya bərabər olduğu göstərilir. Məs lman= 1/81 dollar; 1 man=..frank və s. İkincisi isə bir vahid əcnəbi valyutanın neçə milli valyutaya bərabər olduğu ifadə edilir. Məs. 1 dollar = 81 manat. Burada qiymət cütlüyü tərs mütənasibdir. Valyuta məzənnəsi valyutaıun "qiyməti” olmaqla yanaşı hər hansı bir malm qiymətindən fərqlidir. Çünld, valyuta məzənnəsindəki dəyişiklik hər hansı bir əmtəənin qiymətində baş verən dəyişiklikdən çox fərqli təsir mexanizminə malikdir. Məsələn, buğdanın qiymətində özünü göstərən dəyişiklik yalmz buğda cinsinə oxşaı* mallann (məs. qarğıdalı, arpa, çovdar) və onlardan hazırlanan məmulatlarm qiymətlərinə təsir göstərir. Valyuta məzənnəsində baş verən dəyişikliWər isə, əwəlcə beynəlxalq əlaqələrdə iştirak edən bütün nıal və xidmətlərin bazai' və qiymətlərinə, sonra isə bunlar vasitəsilə digər bazarlara təsir göstərərək iqtisadi>yatda qlobal dəyişikliklərə yol açn.

Valyuta məzənnəsi valyuta bazannda formalaşır. Valyuta bazarlannda valyutaların alımb-satıldığı və hər gün qəzetlərdə dərc olunan

məzonnolor “cari” və ya “həqiqi” məzənnə adlanır. Rəsmi məzənnə tətbiq edən ölkələrdə rəsmi məzənnə də mövcuddur. Ona görə də sərbəst “cari” məzənnə ilə yanaşı rəsmi alqı-satqıda tətbiq edilən rəsmi məzənnə də ola bilir. Əgər rəsmi məzənnə ilə cari məzənnə arasında fərq varsa bu fərqin azaldılması məqsədi ilə valyuta nəzarəti tətbiq edilir və valyuta xərcləmələri üçün “əvvəlcədən icazə” verilmə qaydası qəbul edilir.

Valyuta məzənnəsinin yüksəlməsi bir vahid xarici valyuta almaq üçün daha çox milli pul vermək deməkdir ki, bunun nəticəsində milli pul vahidi öz dəyərini itirir. Valyuta məzənnəsinin azalması isə əks nəticə doğurur.

Milli pul vahidi məzənnəsinin xarici valyutada təsbit olunmasma valyuta kotirovkası deyilir. Bu zaman milli pul vahidinin məzənnəsi həm düz kotirovka (1,10,100 vahid xarici valyuta= x vahid milli val^mtaya), həm də əks kotirovka (1,10,100 vanid milli valyuta=^x vahid xarici valyutaya) formasında müəyyən edilə bilər. Əksər ölkələrdə valyuta məzənnəsi müəyyən edildikdə düz, Böyük Britaniyada isə əks kotirovkadan istifadə edilir. ABŞ-da hər ikisi tətbiq edilir.

Ölkəmizin gömrük siyasəti müvafiq beynəlxalq əməkdaşlığm genişləndirilməsinə yönəldilmişdir. Respubükamızda gömrük işi hamıbqla qəbul edilmiş beynəlxalq norma və təcrübə ilə uyğunlaşdırma və eyniləşdinnə istiqamətində inkişaf etdirilir. 20 iyun 1995-ci ildə "Götmük tarifi haqqmda Azərbaycan Respublikasmm Qanunu” qəbul edilmişdir. Lakin Qanun yalnız Azərbaycan Respublikasmm Gömrük Məcəlləsi qəbul edildikdən sonra qüvvəyə minmişdir. Gömıük tarifi haqqmda qanunda göstərilir ki, gömrük tarifi Azərbaycan Respublikasmm gönutik sərhəd- dindən keçirilən əmtəələrə tətbiq edilir və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur.

İdxal və ixrac gömrük ılisumlarmın dəmcələri və həmçinin əlverişli ticarət rejimi tətbiq olmıan ölkələrin siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Əlverişli Ticarət rejimi tətbiq olunmayan ölkələrin əmtəələrinə və mənşə ölkəsi müəyyənləşdirilməyən əmtəələrə idxal gömrük rüsumlanmn dərəcələri iki dəfə artuilır.

Qanuna əsasən Azərbaycanda aşağıdakı gömrük rüsumları tətbiq edilir:

- advalorem - əmtəələrin gömrük dəyərinə görə faizlə hesablanan gömrük rüsumu;
- spesifik- əmtəə vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan gömrük rüsumu;
- kombinə edilmiş - hər iki növü birləşdinnəklə hesablanan gömrük rüsumu.

Əmtəələrin ixracını və idxalım operativ tənzimləmək üçün bəzi əmtəələrə mövsümi rüsumların (6 ay müddətində) tətbiq olunmasma icazə verilir.

Himayəçilik məq.sədilə idxal edilən əmtəələrə a.şağıdakı müvəqqəti rii-sumlarm tətbiqinə də icazə verilmişdir: xüsusi rüsumlar, antidempinq rüsumlan və kompensasiya rüsumlan.

Xüsusi rüsmnlar aşağıdakı hallarda tətbiq olunur:

- əmtəələr Azərbaycan Respublikasmm gömrük ərazisində bu qəbildən

olan əmtəələnn yerli istehsalçılarına ziyan vura biləcək kəmiyyətdə və şərtlə gətirildiyi təqdirdə;

- digər dövlətlərin və onların ittifaqlarının Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrıseçkilİk və digər hərəkətlərinə cavab tədbiri kimi.

Antidempinq rüsumlan idxal olunan əmtəələrin qiyməti Azərbaycan Respublikasmm gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda; belə bir idxal bu qəbildən olan əmtəələrin yerli istehsalçılara ziyan vurduqda, və ya bu hal istisna edilmədikdə; Azərbaycan Respublikasında onların istetealının təşkilinə və ya genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

Kompensasiya rüsumları Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən əmtəələrin istehsalı və ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan əmtəələrin yerli istehsalçılanna ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu əmtəələrin istehsalınm təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

Gömrük tarifi haqqmda qanunda xarici ticarətdə iştirak edən əmtəənin və gömrük dəyərinin və bu ərатəənm mənşə ölkəsinin müəyyən edilməsi qaydası müəyyənləşdirilmişdir.

Qanunda həmçinin əmtəələrin idxalı və ixracı zamanı bir sıra gömrük tarifi güzəştlərinin tətbiqi nəzərdə tutulur. Tarif güzəştləri (tarif preferen- siyaları) dedikdə, ölkənin ticarət siyasəti həyata keçirilərkən qarşılıqlı və ya birtərəfli qaydada gömrük sərhəddindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsumdan azadetmə, onun dərəcələrini aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür. Gömrük güzəştləri verilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Fərmanda gömrük rüsumlarından azadetmə, gömrük dərəcələrinin aşağı salınması halları konkret olaraq göstərilmişdir.

Azərbaycan Respublikasmm gömrük əsasnaməsi öz struktur və tərkibinə görə bir sıra Avropa ölkələrinin gömrük kodeksinə yaxınlaşsa da, onların göstərdiyi fəaliyyət sferasmm səviyyəsinə görə onlardan geri qalar.

Qeyd etmək lazımdır ki, xarici ticarətin beynəlxalq tənzimlənməsi gömrük vergiləri siyasəti dünya miqyasmda beynəlxalq təşkilat olan ÜTf tərəfindən həyata keçirilir.

Dünyanm əksər ölkələri bu təşkilatm üzvləridir və bu təşkilat gömrük vergilərini tənzimləyir. Azərbaycanın da, bu təşkilata üzv olması və gələcəkdə öz XtƏ-in tənzimlənməsində gömrük mexanizmindən istifadə

etmok ən vacib məqsədlərdən biri hesab edilir. Bildiyimiz kimi dünyada əmtəələrin hərəkətinə gömrük vergilərinin təyin olunması ÜTT tərəfindən təsdiq olunmuş harmonik kod sisteminə uyğun olaraq həyata keçirilir. Harmonik kod sistemi 9999 çeşiddə məhsulu özündə əks etdirir.

Ümumiyyətlə, xaınci ticarət və gömrük tənzimlənməsini təkmilləşdirmək üçün bir sıra ciddi tədbirlər toplusu elmi əsaslara uyğun işlənib hazırlanmalıdır. Xarici ticarətin tənzimlənməsində qcyri-taiif tənzimləmə mexanizmindən geniş istifadə olımmalıdır. Respublikada bu fonnadan çox təssüf ki, kifayət qədər geniş istifadə olunmur. Bunun nəticəsi olaraq Respublikaya bəzi dünya ölkələrindən bir sıra texniki və s. dünya standartlarma uyğun olmayan məhsullai' daxil olui'. Respublikada daxili bazarm qorunması da diqqət mərkəzindədir.

Dünya iqtisadiyyatımn müasir inkişaf mərhələsində və ölkələr arasında qai'şılıqlı aslılığın dalıa aydm təzahür etdiyi bir zamanda hər bir ölkənin və regionun müvəffəqiyyəti onun XİF-nin həyata keçirilməsilə əlaqədar gömilik tənzimləmə mexanizmin tətbiqindən çox-çox asılıdu.

Respublikamızda xarici ticarət əməliyyatlan «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlanmn tənzimləmnəsi qaydalan» haqquıda 24 iyun 1997-ci il taıixli fərnıam ilə həy'ata keçüilir.

Xarici iqtisadi əlaqələr saliəsində apanlan struktur islahatlan özünün yeni mərhələsinə 2001-ci ilin birinci yarısında İqtisadi İnkişaf Nazirliyinin yaradılması ilə qədəm qoydu. Çox geniş funksiya və səlahiyyətlər verilmiş həmin nazirlik eyni zamanda Azərbaycan Respubli- kasımn beynəlxalq əməkdaşlığı sahəsində dövlət siyasətini formalaşdıran və həyata keçirən mərkəzi icra hakimiyy'əti orqanıdu*. 11 iyun 2001-ci il tarixli Prezident Formam ilə təsdiq edilmiş Əsasnaməyə əsasən Nazirlik beynəlxalq əməkdaşlıq sahəsində aşağıdakı çoxprofilli funksiyaları həyata keçirir:

- xarici iqtisadi fəaliyyət sahəsinin vəziyyətini araşdıru' və inkişafinm proqnoz göstəricilərini hazulayır;
- nəqliyyat, əmtəələrin tianziti, habelə xarici ticarət daşınmalanmn hüququ, tarif və digər tədbirləri sahəsində beynəlxalq müqavilələri hazırlayır, razılaşdınimasında və həyata keçirilməsində iştirak edir;
- Azərbaycanda istehsal edilən əmtəə və xidmətləiin xarici bazarlara çıxanlması, ixraca həmçinin artınıması üçün əlverişli şəraitin yaradılması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunması və s. İdmi məsələləri təmin etmək üçün tədbirlər işləyib hazırlayır və həyata keçirir;
- sənaye, ticaıət və ictimai iaşə təşkilatlaımda mövcud norma və

qaydalara, dövlət tərəfindən tənzimlənən qiymətlərə, əmtəələrin (qiymətli metallardan və ya qiymətli, yanmqiymotli daş-qaşlardan və onlardan hazırlanmış məmulatlar istisna olmaqla) keyfiyyət və təhlükəsizliyinə riayət edilməsinə nəzarət edir;

- daxili və xarici ticarət ilə bağlı elmi tədqiqatların aparılmasını təşkil edir, o cümlədən xarici iqtisadi fəaliyyət iştirakçılarını zəruri elmi- texniki, iqtisadi, hüquqi informasiya ilə təmin edir, xarici iqtisadi fəaliyyət məsələləri üzrə informasiya sistemlərini və baza göstəricilərini yaradır;
- dünya əmtəə və xidmət bazarlarının konyuktrunu təhlil edir;
- xarici ticarət fəaliyyətinin qeyri-tarif tənzimləmə tədbirlərini müəyyən edilmiş qaydada tətbiq edir, o cümlədən qanunvericiliklə nəzərdə tutulmuş hallarda və müəyyən edilmiş qaydada ixrac və idxal üzrə əməliyyatların həyata keçirilməsi üçün lisenziyalar verir. Azərbaycan Respublikasmın gömrük ərazisində əmtəə çıxarılarkən zəruri olduqda və bu müvafiq müqavilələrdə (sazişlərdə), normativ hüquqi aktlarda və ya Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində (sazişlərində) nəzərdə tutulduqda əmtəənin mənşəyi haqqında sertifikat verir;
- Azərbaycan Respublikasında daxili bazarın qorunması üzrə müvafiq tədbirlər işləyib hazırlayır;
- ticarətdə rüsum və vergilərin dərəcələri ilə bağlı təkliflər verir;
- xarici dövlətlərdə, eləcə də beynəlxalq iqtisadi və ticarət təşkilatlan yanında Azərbaycan Respublikasının ticarət-iqtisadi nümayəndəliklərini qanımvericiliklə müəyyən edilmiş qaydada yaradır və onlarm operativ fəaliyyətinə rəhbərliyi həyata keçirir;
- Ümumdünya 'i’icarət Təşkilatı və digər beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı təşkil edir, onlarm keçirdiyi tədbirlərdə Azərbaycan Respublikasını təmsil edir;
- Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə mütəmadi əsasda işgüzar əlaqələr yaradır, onlarm maliyyə vəsaitlərinin ölkənin iqtisadiyyatma cəlb olunması üçün məqsədyönlü iş aparır;
- xarici ölkələrin, beynəlxalq iqtisadi və mali>7Ə təşkilatlannm keçirdiyi tədbirlərdə iştirak edir və Azərbaycan Respublikasma investisiya qo>niluşu ilə bağlı onlarla danışıqlar aparır;
- Azərbaycan Respublikasmda yerli və xarici şirkətlərin sərgilərini və yarmarkalarmı, eləcə də xarici ölkələrdə Azərbaycanın təsərrüfat subyektlərinin iştirakı ilə beynəbcalq sərgiləri və yarmarkaları təşkil edir;
- i.stehlak bazarını keyfiyyətsiz əmtəələrin idxalından mühafizə etmək

məqsədilə aidiyyəti dövlət orqarılarımn cəlb etməklə müvafiq tədbirlər görür;

- əmtəələrin idxalı barədə mühafizə tədbirlərinə dair təkliflərin hazırlanması məqsədi ilə tədqiqat, o cümlədən xarici dövlətlərin müvafiq orqanlan ilə məsləhətləşmələr aparır və bu işin nəticələri üzrə müvafiq tədbirlər həyata keçirir;
- əmtəələrin, işlərin və xidmətlərin ixracının və idxalmm tənzijıiləmnəsi sahəsində müvəqqəti texniki tədbirlərin (standartlai", təhlükəsizlik noımalan, keyfiyyətə uyğunluq sistemləri, əmtəələrin qablaşdırılması qaydalan, əmtəəyə qoşulan sənədlərin formalan, yükləmə qabağı inspeksiya tələbləri, ekoloji, baytarlıq, sanitar və fitosanitar normaları, milli təhlükəsizliyin təmin olunması tədbirləri, əmtəələrin, işlərin və xidmətlərin göstərilən normalara uyğunluğunun təmin edihnəsi raetodlan) tətbiqi məqsədi də digər mərkəzi icra hakimiyyəti orqanlan ilə qarşılıqlı fəaliyyət göstərir;
- ticarət sahəsində Azərbaycan Respublikasına qarşı a>Ti-seçkilik siyasəti yürüdən dövlətlərə qaışı müvafiq sanksiyalannm tətbiq edilməsinə daii’ təkliflər verir və s.

Beləliklə xarici iqtisadi fəaliyyət kimi çoxtərəfli dövlət siyasətinin çoxpilləli idai'ə sistemindən təkpilləli idarə sisteminə keçirihnəsi sahəsində uzun müddətdir ki, apanlan iş İqtisadi inkişaf Nazirliyinin yaı adılması ilə başa çatmış oldu.

Məlum olduğu kimi, /\zərbaycan Respublikasıma ÜlT-nin üzvlüyünə qəbul olunma prosesi 1997-ci ilin i>om ayından Azərbaycan Respublikası Hökumətinin ÜTf-yə üzvolma niyyətinin bildirilməsi ilə başlayıb və bu tarixdən ÜTT-yə müşahidəçi kimi dəvət olunub.

Bundan somu «Xarici Ticarət Rejimi haqqında Memorandum» ÜTT- nin Cenevrədəki Katibliyinə təqdim etmiş və ÜTT-nin qaydalan na uyğmı olaraq, bu təşkilata üzvolma prosesində Azərbaycan üzıə müvafiq işçi Qrupu yaradılmışdır. Hal-hazırda Azərbaycan Respublikasında CTT üzvlüyünə qəbul olunma prosesinin son mərhələsi başa çatma ərəfəsindədir.

### 1.3. Azərbaycan Respublikasında xarici ticarətin inkişaf dinamikası

Müstəqillik elan edildiyi ilk günlərdən həyata keçiıibnəyə başlanan tədbirlər ölkənin xaıici iqtisadi əlaqələr sahəsində "açıq qapı" siyasətinin yeridildiyini göstərir. Müstəqillik illərində respublikamızm beynəlxalq əlaqələrinin xarakteri, forma və miqyası, xaıici ticarət dövriyyəsinin

quruluş tərkibi və coğrafi istiqamətləri ciddi dəyişikliklərə məruz qalmışdır. Re^ublika BMT-niıı üzvü və beynəlxalq münasibətlərin müstəqil subyekti kimi dünyamn bütün ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələr yaradılması üçün ciddi cəhdlər göstərir. Ölkəmiz dünyamn aparıcı və regional təşkilatlannm bərabərhüquqlu üzvü kimi be>'nəlxalq əmək bölgüsündə öz yerini tutmağa başlamış, beynəlxalq əlaqələrin bütün formalarını müstəqil sürətdə həyata keçirir, ölkənin iqtisadi inkişafı üçün xarici investisiya və kreditlərdən istifadə edir. Xarici ticarət əlaqələrinin yaradılması və qarşıhqh tənzimlənməsi üçün yaxm və uzaq dövlətlərin çoxu ilə ikitərəfli və çoxtərəfli müqavilələr bağlambdu'.

Statistik məlumatlar göstərir ki, 1991-ci ildə SSRİ xalq təsəiTüfaü kompleksinin, mərkəzdən planlaşdmlan "hazu*", "nomenklatura” bazanmn dağılması, ənənəvi iqtisadi əlaqələrin qıniması bütün keçmiş sovet respublikalan kimi Azərbaycanda da istehsal və ticarətin iflic vəziyyətinə düşməsinə səbəb oldu. Yalnız bir il - 1992-ci il ərzində ölkəmizin xarici ticarət dö\TİyyəSi 40% azaldı. Süni sürətdə yaradılmış nəqliyyat blokadası da daxil olmaqla müxtəlif obyektiv və subyektiv amillərin təsiri altmda xarici ticarət dövriyyəsi 1995-ci ilə qədər süi'ətli azalma meyli göstərdi. İxiacın və xüsusən ilkin tələbat mallan idxalımn kəskin azalması ölkədə ciddi sosial-iqtisadi böhranı daha da dərinləşdirdi.

Qapalı və birtərəfli inkişaf etmiş iqtisadi struktur "hazır" bazar əlaqələri pozulduqdan sonra dünya bazan ilə ilk təmasdan iflasa uğradı və tökülən qanlar hesabma nail olunmuş müstəqilliyi də ciddi təhlükə altmda qoydu. Əhalinin ilkin tələbatım ödəmək üçün həyati əhəmiyyət kəsb edən ixrac hər il azalaraq 1996-cı ildə 1992-ci ilə nisbətən 42,5% təşkil etmiş, idxal da bir il ərzində (1992-ci ilə nisbətən 1993-cü ildə) 40%-dən çox azal- mışdu:. Xarici ticarət dövriyyəsi isə 1996-cı ildə 1992-ci ilə nisbətən 65,6% təşkil etmişdir. Əhalinin ən zəruri istehlak mallanna tələbatımn nəyin bahasma olursa olsun Ödənilməsi zərurəti bütün qtiv\'ələri bu məqsədə yönəlmıəyə vadar etmişdir. Təsadüfi deyildir ki, 1992-1996-cı illər ərzində ixrac 2,3 dəfə azaldığı halda, idxal 1996-cı ildə 1992-ci il səviyyəsini ötüb keçmişdir, sonrakı illərdə xarici ticarət dövriyyəsi daha da süitələ artmışdır. Belə ki, 2005-ci ildə bu amm 2000-ci ilə nisbətən 2,9 dəfə, 2007-ci ildə 2005-ci ilə nisbətən 1,4 dəfə, 2008-ci ildə isə 2007- ci ilə nisbətən 4,7 dəfə olmuşdur. Göründüyü kimi, 2000-ci ildə başlayaraq xarici ticarət dövriyyəsində dinamik amm əldə edilmişdir.

Altıq Azərbaycan dünya iqtisadiyyatınm qloballaşması və beynəlmiləl-

loşmosi, BƏB-nün dorinloşnıosi şəraitində öz qapılarını beynəlxalq aləmə daha çox açan, xarici ölkələrlə və beynəlxalq təşkilatlarla aktiv iqtisadi, siyasi, elmi-texniki, mədəni və s. əlaqələr (münasibətlər) yaradan bir ölkəyə çevrilmişdir. Bu əlaqələr içərisində xaıici ticarət daha önəmli yer tutur. Ölkəmiz dünya ölkələri ilə ikitərəfli və çox tərəfli müqavilələr bağlayaraq, qaışılıqlı faydalı ticarət əlaqələri yaradn, ölkənin inkişafı üçün xarici texnika və texnologiya idxal edir və BƏB-də öz yerini tutmağa ciddi cəhdlər göstərir.

Bu baxımdan, respubbkanuzm xarici ticarət əlaqələrinin formalaşması və inkişafi müstəqilliyimizin ilk on ili ərzində mürəkkəb və ağrılı bir şəraitdə reallaşırdı. Təsadüfi deyildir ki, yuxanda qeyd edildiyi kimi, ümumi ticai'ət dövıiyyəsi 1991-ci il səviyyəsini yalnız 2000-ci ildə ötüb keçmişdir.Makıoiqtisadi təhlil nöqteyi nəzərindən xarici ticarət göstəricilərinin respublikanın ÜDM-i və ya milli gəliri ilə müqayisə edilməsi böyük əhəmiyyət kəsb edir. Çünki bu göstəricilər arasmda birbaşa və sıx əlaqə mövcuddur.

**Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin ÜDM-ə nisbəti (%-lə)**

Cədvəl 2.1.3.

| İLLƏR | Xarici ticarətin ümumi həcmi min. S | ÜDM mln. S | Xarici ticarətin ÜDM-a nisbəti %-İD |
|---|---|---|---|
| 1995 | 1304, 9 | 2415 | 54 |
| 20Ö0 | 2917, 3 | 5273 | 55 |
| 2001 | 3749, 3 | 5707, 7 | 66 |
| 2002 | 3832,9 | 6235,9 | 61,5 |
| 2003 | 5216,6 | 7276,0 | 71,7 |
| 2004 | 7131,4 | 8680,4 | 82,2 |
| 2005 | 8558,4 | 13238,6 | 64,7 |
| 2006 | 11639,8 | 20983,0 | 55,5 |
| 2007 | 11766,9 | 31249,4 | 37,7 |
| 2008 | 54922,8 | 46921 | 117,1 |
| 2009 | 20824,5 | 44297,0 | 47,0 |
| 2010 | 27960,8 | 51799,9 | 54,0 |

2010-cu il ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən 147 ölkə ilə aparılmış xaric ticarət əməliyyatlanmn həcmi 28,0 milyard ABŞ dollan olmuşdur. Bu müddət ərzində 21,4 milyard ABŞ

dollan məbləğindo ixrac, 6,6 milyard A13Ş doUan dəyərində idxaJ olunmuş, ixrac-idxal əməliyyatları üzrə müsbət saldo 14,8 mlrd. ABŞ dollan təşkil etmişdir. Xaıici ticarətin inkişaf dinamikasının və meyllərinin kompleks tədqiqində idxal-ixıac əməliyyaüanmn coğrafi strukturunun araşdmiması xüsusi maraq doğurui’. Xarici ticai’otin, xüsusilə ixracın coğrafıyasma əsasən xaıici ticarət əlaqələrinin prioritet (üstün) istiqamətləri, dövlətin digər ölkələrlə siyasi-iqtisadi münasibətləri və xarici iqtisadi siyasəti haqqmda mülahizə iıəli sürmək mümkün olur.

Müstəqilliyimizin elə ilk illəıindən başlayaraq Azərbaycanın xarici ticarət əlaqələrinin ənənəvi coğrafiyasmda dərin dəyişikliklər baş verdi. Ölkənin xarici ticarət əlaqələrinin istiqaməti dərin böhrana məruz qalmış ənənəvi ticarət-iqtisadi partnyorlardan, yeni xarici bazarlara - yaxın xaıicdən uzaq xarici ölkələrə yönəldi. Bu proses Qərb dövlətləri ilə inteqrasiyanın Azərbaycanın xarici iqtisadi əlaqələrində dönməz və prioritet xarakter daşıdığının təzalıürüdür.

Uznq xarici ölkələrin Azərbaycamn idxalında xüsusi çəkisi 1992-ci ildə 35%-dən 2000-ci ildə 63%-ə qədər artmış və 2010-cu ildə 64% olmuşdur. İxracda isə müvafiq olaraq 51%-dən 2007-ci ildə 82%-ə, 2010-cu ildə isə 84%-ə qədər yüksəlmişdir. Bu rəqəmlər uzaq xaıici ölkələrin respublikamızm idxal-ixrac əraəliyyatlannda xüsusi çəkisinin yüksək səviyy’ədo sabitləşdiyini və Azərbaycanın 90-cı illərdə xarici ticarətinin inkişafının xarakterik meyimi nümayiş etdirir.

Respublikanın idxal və ixiacmda son illər AB üzvü olan ölkələrin payı xeyli artmışdır. 2010-ci ildə Azərbaycamn xarici ticarət dövriyyəsinin 39,7%-i bu Ölkələrin payma düşmüşdür. Burada əsas amil yeni neft yataqlannm işlənməsi ilə əlaqədar neft və neft məhsullannın ixracı və neft avadanbqlai'inın idxalıdır. Eyni zamanda, ölkəmizin əsas ixrac bazan İtaliya, ABŞ, İsrail, Hindistan və Fransadır ki, idxalda da ən yüksək xüsusi çəki bu dövlətlərə məxsusdur.

Açıq iqtisadi inkişaf modelini dinamik şəkildə inkişaf etdirən Azərbaycan Respublikası AvTopaya inteqrasiya etmək üçün AB ilə ticarət-iqtisadi əlaqələrini genişləndirməyə çalışır.

Məlum olduğu kimi Azərbaycanın AB ilə yalnız az miqdai'da ticarət və turizm əlaqələri mövcud idi. Məlumat üçün göstərmək lazımdır ki, 1991- ci ildə Azərbaycanm ticaıət dövriyyəsində AB ölkələrinin payı cəmisi 0, 8% təşkil edirdi. Som-akı illərdə Azərbaycanm AB ölkələri ticarət- iqtisadı əlaqələri dinamik şəkildə inkişaf etməyə başladı. Məlum olduğu kimi, AB-nin Ümumi xarici siyasət və Təhlükəsizlik siyasəti çərçivəsində xarici iqtisadi və xarici siyasi prioritetlərindən biri Av

ropada regional əməkdaşlığın genişləndirilməsidir. AB ölkələri keçmiş SSRİ-nin ərazisində yaıaımuş müstəqil dövlətlər ilə də əməkdaşlığı hərtərəfli genişləndinııəyə çalışırlar. Regional əməkdaşlığı Şərqə doğru genişləndirmək və “sabitlik və çiçəkləımıə zonası” yaratmaq məqsədilə AB 1996-cı ilin aprel aymda Cənubi Qafqaz və Orta Asiya ölkələrinin çoxu ilə Tərəfdaşlıq və Əməkdaşlıq haqqında saziş imzaladı. Azərbaycanla belə bir saziş 22 aprel 1996-cı ildə Lükscnburqda imzalandı. Həmin saziş ilə razılaşdmlmışdır ki, Əməkdaşhğın əsas istiqamətlərini müəyyən etmək üçün hər il Əməkdaşlıq Şurası çərçivəsində görüşlər keçirilsin. Habelə Ticarət və İqtisadi Əməkdaşlıq Yanmkomitəsi yaradılmışdır.

Azərbaycanın AB ölkələri ilə ticaıət dövriyyəsi illər üzrə aşağıdakı rəqəmlərlə xarakterizə edilir (mln. ABŞ dolları). 1991- 3,7, 1992- 326.3, 1993- 105.9, 1994- 163.3, 1996- 178.2, 1996- 194.7, 1997- 189.9, 1998- 366.4, 1999- 613.5, 2000 - 1280.8. 2001- 1862.6. 2002- 1856.9, 2005- 3277.0, 2006- 5267.6, 2007- 3347.5, 2008-ci ildə 32553.4 mln. dol., 2009-cu ildə 11095,6 mln. dollar, 2010-cu ildə isə 16134,1 mln. dollar həcmindədir.

Bu ölkələrdən Azərbaycana əsasən neft sektoru üçün mallar (avadanlıq, metal məmulatlaıı və neft sektoru üçün yardımçı konstnıksiyalar) və digər avadanhq və maşmlar idxal edilh.

Azərbaycamn xarici ticarət dövriyyəsində regional iqtisadi inteqrasiya birlikləri arasmda birinci yer İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) məxsusdur. Belə ki, 2010-cu ildə idxalm 49.4%-i, ixracm isə 72.4%-i bu Təşkilata daxil olan ölkələrlə ^anlmışdır.

Azərbaycan Respublikası MDB ölkələri ilə çoxtərəfli və ikitərəfli səviy-yədə bütün sahələrdə əməkdaşlıq edir, onlarla 350-yə yaxm dövlət-lərarası, hökumətlərarası və idarələrarası müqavilə, saziş və digər ikitərəfli sənədlər imzalanmışdır. Bunlardan 100-dən aıtığı ölkələr arasında ticarət-iqtisadi əlaqələri tənzimləyir. MDB ölkələrinin yeddisi ilə sərbəst ticarət haqqında ikitərəfli Sazişlər imzalanmışdır. Azərbaycan Respublikasmdau dörd MDB ölkəsinə (Rusiya Federasiyası, Gürcüstan Respublikası, Qazaxıstan Respublikası və Ukrayna) məhsullann idxahn- dan rüsum tutulmur.

MDB dövlətləri arasında iqtisadi səmərəli əməkdaşlıq mexanizminin yaradıla bilməməsi və hər bir sıra digər siyasi və iqtisadi amillərlə əlaqədai' olaraq, həmin dövlətlərin Azərbaycanm xarici ticarətində paymın getdikcə azalması ilə nəticələnmişdir. Belə ki, onların xüsusi çəkisi Azərbaycanın əmtəə dövri>yəsində 1993-cü ildə 50%-dən 1998-ci

ildə 37,8%-ə, 2002-ci ildə isə 31,1%-ə, 2007-cı ildə 25,5%-ə qədər azalmışdır. Eyni zamanda, mütləq formada, MDB ilə xarici ticarət dövri>/yəsi 2008-ci ildə 3417,8, 2009-cu ildə 2964,6, 2010-cıı ildə isə
4035.0 mln, dollar təşkil etmişdir.

Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələrində GUAJVl amili bir növ MDB-yə alternativ kimi getdikcə mühüm rol oynamağa başlamışdır. ABŞ və AB ölkələrinin Azərbaycanda və onun yerləşdiyi geosiyasi məkanda maraqlannin reallaşdınıması işində bu təşkilata xüsusi əhəmiyyət verilii'.

2011- ci ildə ölkənin dövlət və qeyri-dövlət təşkilatlan və ayn-ayn fiziki şəxsləri 147 xarici dövlətlə 29,8 milyard ABŞ dollan məbləğində ticarət əməliyyadan aparmışlar. Əmtəə mübadiləsinin 4,6 milyard dollan MDB üzvü dövlətləri, 25,2 milyard dollan digər ölkələrlə həyata keçirilmişdir. 2010-cu illə müqayisədə ölkə üzrə xarici ticarət dövriyyəsinin həcmi müqayisəli qiymətlərlə 9,0 faiz, o cümlədən MDB üzvü dövlətləri üzrə
34.0 faiz, digər dövlətlər üzrə isə 6,8 faiz çox olmuşdur. Xarici ticarət dövriy>'əsinin 22,2 milyard dollarmı Azərbaycandan ixrac olunmuş mallar, 7,6 milyard dollannı Ölkəmizə idxal edilmiş məhsullar təşkil etmiş, 14,6 milyard dollarlıq müsbət xarici ticarət saldosu yaranmıştür. Xarici ticarət əməliyyatlarmın beşdə dörd hissəsindən çoxu (81,8 faizi) İtaliya, Fransa, Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, Türkiyə, Ukrayna, Almaniya, İndoneziya, İsrail, Malayziya, Koreya Respublikası, Belarus, Çin və Gürcüstan dövlətləri ilə apanlraışdır.

**2010-cu ildə Azərbaycan Respublikasmın əsas ticarət tərəfdaşları**

Cədvəl 2.1.4.

| **İxracda** | | | **İdxalda** | | |
|---|---|---|---|---|---|
| **Ölkələr** | **Milyon** ABŞ **dollan ilə** | **Ümumi ixracda xüsusi çəkisi, %** | **Ölkələr** | **Milyon** ABŞ **dollan ilə** | **Umumi idxalda xüsusi çəkisi,%** |
| İtaliya | 7 [illegible] | 33,28 | Rusiya | 1144,86 | 17,35 |
| Fransa | 1 [illegible] | 8,71 | Türkiyə | 771,19 | 11,69 |
| İsrail | 1 [illegible] | 8,18 | Almaniya | 607,18 | 9,20 |
| ABŞ | 1 [illegible] | 7,21 | Çin | 587,19 | 8,90 |
| Ukrayna | 888,64 | 4,17 | Ukrayna | 465,45 | 7,05 |
| Xorvatiya | 787,17 | 3,69 | B.Britaniya | 302,75 | 4,59 |
| İndoneziya | 782,16 | 3,67 | Qazaxıstan | 293,43 | 4,45 |
| Rusiya | 773,53 | 3,63 | ABŞ | 206,27 | 3,13 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Malayziya | 740,78 | 3,47 | Sinqapur | 173,89 | 2,63 |
| Sinqapur | 510,88 | 2,40 | Braziliya | 161,62 | '2,45 " |
| Digər | 4 604,48 | 21,59 | Digər | 1 885,52 | 28,57 |
| **Cəmi** | **21 324,78** | **100,00** | **Cəmi** | **6 [illegible]** | **100,00** |

http:/A»"W'w.economy **jiov.a7yindc\.php?optjon==com_content&\iew=anicle&ıd"255&Iteınıd=91**

2010-cu üdə xarici ticarət dövriyyəsində AB, MDB və digər ölkələrin payı




Xarici ticarətin əmtəə strukturu olduqca mühüm əhəmiyyət kəsb edir. Belə ki, strukturun təhlili zamanı iqtisadiyyatm daha çox inkişaf etmiş sahələri aşkar edilir, həmin sahənin məhsullamım rəqabət qabiliyyəti nöqteyi-nəzərindən dünya bazanna çıxanhnasmm potensial imkanlan və üstünlüklərinə real qiymət verilir, xarici ticarət nəzərə alınaraq iqtisadiyyatın inkişafının prioritet istiqamətləri müəyyənləşdirilir. İxrac və idxalın strukturmum dinamikasında iqtisadiyyatdakı mənfi və müsbət meyllər öz əksini tapn.

Azərbaycamn xarici ticarətinin əmtəə stmkturu təhlili göstərir ki, ölkəmizin xarici ticarətinin qınuluş tərkibi müstəqilliyin ilk illərində mürəkkəb bir şəraitdə formalaşmışdır.

Hər şeydən əwəl diqqəti belə bir cəhət cəlb edir ki, Azərbaycanın xaıı- ci ticarəti başlıca olaraq sənaye məhsulları ilə təmsil olunmuşdur. Milli gəlirin bir hissəsinin yaradıldığı kənd təsərrüfatı isə öz qapalı xarakterini müəyyən qədər davam etdirir. Respublikaraızm malik olduğu təbii üstünlüyə uyğun olaraq neft və neft məhsullan ixracatın apancı sahəsinə çevrihnişdir. Ölkəmiz beynəlxalq əmək bölgüsündə bu sahədə öz yerini

tapmağa başlamışdır. Emal olunmaq üçün gətirilən neftin miqdan ciddi sürətdə azaldığı halda (digər mineral məhsullarla birlikdə) neft və neft məhsullannm ixracı 1996-cı ildə cəmd ixi'acatın 66,7?^-nə qədər yüksəlmişdir. Hazirda isə bu rəqəm 94,8%-ə bərabərdir. Ölkəmiz beynəlxalq əmək bölgüsündə bu sahədə özünün müvafiq yerini tutmağa başlamışdır.

Beynəlxalq Standart Ticaıət Təsnifatı (BSTT) üzrə Azərbaycanda ixra- cm stnıkturu haqqında statistik göstəricilərin təhlilindən məlum olur ki, 2008-ci ildə cəmi ixracm tərkibində mineral yanacaq, sürtgü yağlan və anoloji materiallar- 97,1%, yeyinti niəhsullan və diri heyvanlar-0,8%, kimya sənaye məhsullan- 0,4%, alüminium və ondan hazırlanan məmulatlar- 0,9%, bitki və heyvan mənşəli yağlar-0,2%, qara metallar və onlardan hazırlanan məmulatlar-0,4% və s. təşkil etmişdir.

İdxalın strukturu iqtisadiyyatın ümumi tənəzzül, durğunluq və inkişaf meyllərinə uyğun olaraq dəyişmişdir. Respublikamızm iftixan olan maşınqayırma sənayesinin tənəzzül vəziyyətinə uyğun şəkildə 1991-
1994- cü illərdə idxalatın tərkibində maşınqayırma və metal emalı, əlvan metallurgiya sənayesi məhsıdlannm xüsusi çəkisi 31, 4%-dən 14, 2%-ə qədər azaldı. Sonrakı illərdə neft kontraktlannm işləməyə başlaması nəticəsində idxalatm tərkibində maşın və avadanlıqlann pa>a artmağa başladı. Son dörd ildə, o cümlədən 2008-ci ildə (47,5%) raaşm, mexanizm elektrotexniki avadanlıqlan idxalı öz həcminə görə Respublika idxalmda ardıcıl olaıaq birinci yeri tutui’.

Respublikama hal-hazırda mövcud valyuta gəlirlərinin istehsaİm maddi-texniki bazasının yeniləşdirilməsi və məhsullann rəqabət gücünün artmiması üçün kənardan yeni texnika və texnologiya alınmasına sərf edilməsi bu gün həyati əhəmiyyət kəsb edir.

Respublikamızda uzun illər boyu istehsal ilə istehlak, tələblə təklif aıa- smda ciddi fərq mövcud olmuşdur. Əmtəə qıtlığı hələ durğunluq dövründən ictimai həyatın ən başlıca xarakterik xüsusiyyətlərindən biri olmuşdur. İsthesahn böhran keçirdiyi dövrlərdə göstərilən dərin uçurumun xarici əmtəələr hesabma Ödənilməsi zərurəti respublikamızm milli bazanmn 90-cı illərin birinci yansmda xarici və daxili iş adamları üçün olduqca əlverişli "yaşıl adaya" çevirmişdir. Xaricdən idxal olunan bir çox əmteələr, o cümlədən ilkin tələbat əmtəələri milli bazarda dünya bazar qiymətlərindən uzun müddət yüksək qiymətə satılırdı. Məsələn, 90-cı illərin əwəllərində un və taxıl məhsullanmn daxili bazar qiyməti orta dünya qiymətlərindən xeyli yüksək idi. Bitki yağlannm l tonu xaricdə 900-1000 dollar olduğu halda onlai' respublika əhalisinə 1400-1500 dollara satılırdı.

Sonrakı illərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölko> nili ərzaqla təminatında ciddi müsbət dəyişikliklər özünü göstərdi. İdxalın stnıktunmda ərzaq mallarmın xüsusi çəkisi kəskin azaldı.

2010-cu ildə idxalın strukturu; yeyinti məhsulları və diri he>'\'anlar - 14,6 %, nəqli>7at vasitələri və onların lıissələri-52,3%, içkilər və tütün- 1,8%, qeyri-ərzaq (yanacaqdan başqa)- 3,7%, mü.xtəlif sənaye məmulatlan 11,4% və s. təşkil edir.

Ölkə başçısı İlham Əliye\in 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilən “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proq- ramı”nda ölkənin ərzağa olan tələbatının əsas etiban ilə yerli istehsal hesabına ödənilməsi məqsədi qarşıya qoyuhnuşdur. Proqramda ölkədəki makroiqtisadi göstəri-cilərin mövcud vəziyyəti və artun dinamikası, torpaq, su və s. kimi təbii resurslardan istifadənin müasir vəziyyəti, bitkiçilik və heyvandarlıq məhsulla-nnın istehsal və anal edilməsi imkanları, aqrar sektor üçün kadr hazırlığı və bu sahədə fəaliyyət göstərən elmi müəssisələrin mövcud vəziyyəti, ərzaq məhsulları istehsalının infrastruktur təminatı və s. məsələlər ətraflı təhlil edilmişdir. Təh-lihn nəticələri belə qənaətə gəlməyə əsas verir ki, bu sahədə mövcud potensialdan tam və səmərəli istifadəyə hələ nail olunmamışdır. Başqa sözlə de-sək, inkişaf üçün potensial tükənməmişdir, sadəcə bu sahədə müəyyən tək-milləşdirici tədbirlər həyata keçirməklə mövcud potensialı hərəkələ gotinnək lazmıdır ki, bu istiqamətdə də görülməsi zəruri olan bütün tədbirlər öz əksini ttqımışdır.

# FƏSİL II
## Azərbaycan Respublikasının kapital və maliyyənin beynəlxalq hərəkətində iştirakı
### 2.1. Xarici investisiya sahəsində dövlət siyasəti

Bazar münasibətlərinin inkişafına və iqtisadi tərəqqiyə təkan verən mühiün amillərdən biri Azərbaycanın qısa müddət ərzində beynəlxalq kapital hərəkətində ləal iştirak etməyə başlamasıdır. Kapitahn beynəlxalq miqrasiyası dövıümüzün xarakterik xüsusiyyətini təşkil etməklə, təsərrüfat həyatının beynəlmiləlləşməsinin dərinləşməsində və istehsalın səmərəliliyinin yüksəldilməsində mühüm ünsür olmasına baxmayaraq, ölkəmiz inzibati-amirlik sistemi dövründə bu prosesdən tamamilə kənarda qalmışdır.

Məlum olduğu kimi müasir mərhələdə qlobal təsərrüfata qoşulmanm səmərəliliyi əhəmiyyətli dərəcədə ölkənin beynəlxalq rəqabət qabiliyyətinə nə dərəcədə malik olmasmdan asılıdır. Amerikan iqtisadçısı M. Porierin təklif etdiyi sxemdən istifadə etsək, aydın olar ki, uzun müddət Azərbaycım iqtisadiyyatmın beynəlxalq rəqabət gücü əsas etibaıilə istehsal amillərindən istifadəyə əsaslanmışdır.

Azərbaycan ixıacımn 9/10-nım uzım müddət yanacaq-energetika kompleksi məhsullanndan ibarət olması o deməkdir ki, ölkəmizin dünya bazarında tutduğu birtərəfli mövqe yerli istehsalçılarm təbii ehtiyatlannm verdiyi üstünlüklərdən istifadə etməsindən irəli gəlir. Dünya dövlətlərinin təcrübəsi isə göstərir ki, belə bir üstünlük daimi deyildir. Dünya bazıulannda ölkənin zəmanətli üstimlüyünü isə investisiya və innovasiyalar əsasmda təmin etmək mümkündür. Bu yol inkişaf etmiş sənaye ölkələrinin lider vəziyyətinə gəlməsində, postsənaye cəmiyyətinin yaıanmasmda əsas rol oynamışdu. İnvestisiya yolu ilə rəqabət gücünün inkişaf etdirilməsi milli firmalan müasir texnika və texnologiya, lisenziyalann əldə edibnəsi və müştərək müəssisələrin yaradıbnası üçün investisiya qoyuluşlanna vadar edir. Firma və müəssisələr texnika və texnologiyam idxal etməklə onlarm yerli şəraitə uyğunlaşdınlmasma çalışmalıdmlar. Lakin inkişaf etmiş ölkələrdə bu proses artıq arxada qabmş bir mərhələdir. Həyat bütün kəskinliyi ilə yeni texnikamn yalnız idxalım deyil, öz qüvvəsi ilə yaradılmasım da tələb edir.

l'əbiidir ki, müstəqillik əldə edildikdən somakı ilk illərdə ağu* texniki-iqtisadi və maliyyə vəziyyətində olan Azərbaycan müəssisələri yüksək kapitaltutumlu həmin məsələlərin həllini öz qarşısına qoymaq üçün kifayət qədər potensiala malik de>aldilər. Lakin investisiya və innovasiyalar hesabına rəqabət üstünlüyünə keçmək üçün onlann belə bir

şoraildo xarici tərəfdaşlann fəaliyyətinin bu və ya digər ünsürlərindən faydalanmaİan olduqca vacibdii'. Neft gəlirləri ilə yanaşı bu ünsürlərdən ən mühümü xarici investisiyalamı cəlb olunmasıdır.

Hər şeydən əwəl Azərbaycanın geopolitik mövqeyi, onun Avropa və Asiya qovşağmda beynəlxalq biznesə qoşulmaq baxınmıdan cəlbedicidir. Avropa-Asiya hanzit nəqliyyat yoUanmn Azərbaycan ərazismdən keçməsi, Xəzər dənizinə yaxınlıq, ölkədə və regionda səmərəli və perspektivli bazarların olması istər istehsal olunan, istərsə də ölkəyə gətirilən əmtəələrin satış imkanlarını genişləndirir. TRACECA proqramı çərçivəsində qədim İpək Yolunun bərpası istiqamətində işləiıı sürətlənməsi nəhəng xarici investorlann, kredit təşkilatlanam ölkəyə marağmı artırır.

Məlum olduğu kimi, Azərbaycan zəngin təbii xammal ehtiyatlarma malikdir. Təsadüfi deyil ki, son illərdə kai'bohidrogen yataqlannın kəşfiyyatı, işlənilməsi və istismarı üzıə 15 ölkənin 33 şirkətinin iştirakı ilə 23 beynəlxalq müqavilə ünzalanraışdır. Bu müqavilələr üzrə 1997- 2007-ci illər ərzində neft sektormıa 24413.1 milyon ABŞ dollan investisiya qoyulub və bütövlükdə 60 milyard dollann qoyulması nəzərdə tutulur. Lakin neft Azərbaycamn malik olduğu yeganə təbii ehtiyat de- >dldir. Ölkəmiz digər mineral resurslarla da zəngindir. Kifayət qədər inkişaf etmiş sənaye potensialma, ucuz və keyfiyyətli əmək ehtiyatlarma malikdir.

Xarici investisiyalarm cəlb edilməsi yolu üə beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi, xüsusən Azərbaycan kimi keçid iqtisadiyyatı ölkələrində müstəqillik əldə edildikdən sonrakı ilk illərdə onsuz da ağır maliyyə vəziyyətində olan təsərrüfat subyektləri tərəfindən müstəqil olaraq həll edilə bilməzdi. Bu prosesin həyata keçməsi və sürətlənməsinə dövlətin ciddi müdaxiləsi neft gəlirlərinin ilk növbədə bu məqsədə yönəldilməsi və təşkilatçılıq tədbirlərini əhatə edən məqsədyönlü hökumət siyasəti tələb olunur.

Keçid iqtisadiyyatı ölkələrində dövlət orqanlan qarşısmda bu sahədə duran başlıca vəzifə milli və xaıici investorlar qarşısında milli maraqlara uyğun əlverişli investisiya mühitinin yaradılmasmdan və bu yolla elmi- texniki potensialın dəstəklənməsi və inkişafına yardım edilməsindən ibarətdir.

Məlumdur ki, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formalan intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatınm inkişafında qlobal dönüş mümkün deyildir. Xarici kapital, texnika, texnologiya və

digər istehsal amillərinin respublikaya gəlirilməsi bu məsələdə müstəsna əhəmiyyət kəsb edir.

Respublika istiqlaliy>'ət əldə etdikdən dərhal sonra müstəqil sürətdə xarici kapital cəlb oluıunası üçün geniş tədbirlər həyata keçinnəyə başlamışdır. 15 yanvar 1992-ci ildə qəbul edilmiş "Xarici investisiyanın qorunması" haqqmda Azərbaycan Respublikasınm Qanunu ilə Respublika ərazisində xarici investisiya qoyuluşumm hüququ və iqtisadi prinsipləri müəyyən edilmişdir. Qanun iqtisadiyyatda xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikamn və texnologiyamn idarəetmə təcrübəsinin cəlb olumnasma, bunlardan səmərəli istifadə olunmasma yönəldilmişdir və xaıici investisiyalarm hüquqlarınm müdafiəsinə təminat verir.

Azərbaycan Respublikası ərazisində xarici investisiya hüquqi cəhətdən tam və qeyd-şərtsiz müdafiə olunur. Belə müdafiə müvafiq qanunvericilik aktlan ilə təmin olunur. Eyni zamanda xarici investisiya Respublikada qanunvericiliyin dəyişdirilməsi ilə bağlı hallarda da bəzi təminatlar alır. Belə ki, somakı qanunvericiliklər investisiya qoyuluşu şəraitini pisləşdirərsə on il ərzində xaıici investora investisiyanın qoyulduğu zaman qüw'ədə olmuş qanunvericilik tətbiq edilir. Qanunda milliləşdirmə və regvizisiya ilə bağlı təminatiaı* da müəj'yən edilir. Qorai'a alınmışdır ki, xaıici investisiya xalqa və dövlət mənafeyinə zərər vuran hallar istisna olmaqla, rekvizisiya edilmir. Milliləşdirmə və rekvizisiya tədbiiləri görüldükdə xarici investora dərhal müqabil və səmərəli kompensasiya ödənilir. Kompensasiya xarici valyuta ilə ödənilir və investorun arzusu ilə xaricə köçürülə bilər.

Qanunla xaıici investisiyalar, həm müştərək müəssisələrin, həm də 100% xaıici kapitala malik müəssisələrin yaradılması üçün cəlb edilə bilər. Xarici fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasınm ərazisində mövcud olan bütün müəssisələrin səhm və digər qiymətli kağızlanm satin ala bilər, dövlət və bələdiyyə müəssisələrinin özəlləşdirihnəsindo iştirak edə bilər, xarici banklaım təsisçisi ola bilər. Belə banklaım fəaliyyətinin hsenziyalaşdınlması qaydası müəyyən edilmişdir. Onlar birləşib assosiasiyalar, konsernlər, konsorsiumlar və başqa birliklər yarada bilərlər.

Xarici kapitalın iştirakı ilə yaradılmış müştərək müəssisələrə öz fəaliy-yə-tini həyata keçirmək üçün “Azərbaycan Respublikasınm Torpaq məcəlləsi”(12 fevral 1992-ci il) əsasında torpaq daimi istifadəyə verilə bilər. Xarici investorlar təbii ehtiyatlardan istifadə etmək hüququnu konsessiya əsasmda əldə edə bilərlər.

"Xarici İnvestisiyanın Qomnması" haqqında Qanunla müvafiq vergi və rüsumlar ödənildikdən sonra xarici investorlann investisiya ilə əlaqədar qanuni əsaslaıla xarici valyuta şəkilində əldə etdikləri gəlir və başqa məbləğləri, o cümlədən kompensasiya və zərərin ödənilməsi məbləğlərinin xaricə köçürülməsinə təminat verilir. Azərbaycan Respublikası ərazisində xarici investorlaıın götürdükləri mənfəət həmin pul vahidi şəklində yenidən investisiya kimi qoya bilər (reinvestisiya), Azərbaycan Respublikasının banklannda saxlana bilər. Mərkəzi Bankın müəyyən etdiyi qaydada xarici valyuta almaq üçün səıf edilə bilər.

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula (işlərə, xidmətlərə) qiymət qoymaq, ölkənin daxili bazanıda onun satışı şərtlərini müəyyən etmək, bu bazardan məhsul (işlərə, xidmətlərə) göndərənləri seçmək ixtiyarma malikdir. Tamamilə xarici investora məxsus müəssisələr və nizamnamə fondunun 30 faizindən çoxu xarici investisiyadan ibarət olan müəssisələr öz istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilərlər.

Birgə müəssisənin niz^anmamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Respublikaya gətirilən əmlak gömıük rüsumundan azad edilir. Xarici investisiyalı müəssisəni əcnəbi işçiləıinin öz ehtiyaclan üçün gətirdikləri əmlak gömrük rüsumundan azad edilir.

Beləüklə, xarici investisiyalar haqqında qanunvericilik bazasımn təhlili göstərir İd, ölkədə müstəqillik əldə edildikdən sonra geniş normativ baza yaradılmışdır. İnvestisiya fəaliyyəti aşağıdakı mühüm zəmanətlər verilməsi yolu ilə təşviq edilir:

- əmlakm milliləşdirilməsi və müsadirəsi əleyhinə zəmanətlər;
- qanunvericilikdə dəyişikliyə qarşı zəmanət;

• ölkəyə əmtəələrin rüsumsuz idxaL üzrə zəmanət;

> əsassız yoxlamalaıa qarşı zəmanət;

- əldə edilmiş mənfəətin xaricə azad çıxarılması haqqmda zəmanət;
- investorun şəxsiyyətinin və onun əmlakımn təhlükəsizliyinə zəmanət;
- ikiqat vergitutmaya yol veıilməyəcəyi haqqmda zəmanət.

Qanunun 5-ci maddəsi ilə müəyyən edilmişdir ki, investisiya qoyuluşu sahəsində xarici investorlann fəaliyyətinin hüquqi rejimi Azərbaycan Respublikasınm hüquqi şəxslərinin və vətəndaşlanmn əmlakı, əmlak hüquqlan, habelə investisiya fəaliyyəti üçün yaıadılraış rejimdən az əlverişli ola bilməz.

Azərbaycan Respublikasınm Prezidenti İlham Əliyev 20 fevral 2008-ci ildə Macanstanda səfərdə olarkən qeyd etmişdir: “ Xarici sərmayənin

həcmiinə göro Azərbaycan bölgədə birinci sıralardadır. Azərbaycanda bütün investisiyalar, o cümlədən xarici investisiyalar çox etibarlı şəkildə qorunur. Bizim üçün strateji olan layihələr, hətta qanım kimi qəbul edilii' və beləliklə, həm investorlarda, həm də yerli qurumlarda tam əminlik var ki, bu sazişlərə, layihələrə, razılaşmalara heç kim müdaxilə etməyəcəkdir. Biz xarici investisiyaları maksimum dərəcədə qorumaq üçün əlimizdən gələni edirik və bu günə qədər bu saliədə heç bir narahatçılıq olmamışdır. Biz bu etibaiı qazanmışıq və yüksək qiymətləndiririk. Azərbaycan bu yaxınlarda Dövlət İnvestisiya Şirkətini yaratmışdır. Şirkətin əsas məqsədi ondan ibarətdir ki, dövlət xarici investisiyaları cəlb etmək üçün özü müəyyən layihələrdə səhmdar kimi iştirak edə bilər, edir və edəcəkdir".

Azərbaycan iqtisadiyyatmda xarici investisiyalann rolu 1995-ci ildən sonra sürətlə artmışdır.

1995- ci ildə ölkəmizə 78.7 mln. manat xarici investisiya qoyulduğu hal-
da, 2008-ci ildə onun məbləği 2225,4 mln. manata çatmış və ya illik məbləği 28,3 dəfə artmışdır. Cəmi investisiyalarda xarici investisiyalann xüsusi çəkisi 2008-ci ildə 24,5% təşkil etmişdir. Sonrakı illərdə yerli sahibkarlığm maddi-texniki bazasımn möhkəmlənməsi daxili investisiyaların durmadan artmasma və xaıici və daxili investisiyalar arasmdakı nisbətüı ikincinin xeyrinə dəyişməsinə səbəb olmuşdur. Neft müqavilələrinin icrası ilə əlaqədar olaraq respublikaya cəlb olunmuş birbaşa xaıici investisiyalann böyük əksəriyyəti neft sektoruna yönəldilmişdü. 1995-2010-cu illər ərzində xarici investisiyalann ayrı-ayn sahələr üzrə strukturu aşağıdakı kimi olmuşdur;

**Azərbaycan iqtisadiyyatma yönəldilmiş xarici investisiyalar**

**(mln. ABS dollan)**

| | 1995 | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 1995-2010 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi Xarici investisiyalar | 375,1 | 927,0 | 4893,2 | 6674,3 | 6847,4 | 5468,6 | 8247,8 | 54250,3 |
| Malh'və kreditləri | 220,4 | 262,9 | 698,4 | 1576.6 | 2357,9 | 1438,3 | 3405,9 | 12644,2 |
| ***Ondan neft sektonma kredlthr*** | **0,0** | 0,0 | 287,9 | 160,4 | 4.8 | 0,0 | 0,0 | 7273 |
| Birbaşa investisiyalar | 154.7 | 564,1 | 4030,4 | 4442,4 | 3844,8 | 3037,1 | 3614,9 | 374373 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Neft bonusu** | | | 1,0 | 68,2 | 3,5 | 1,0 | 2,0 | **172,9** |
| **Portfel investisiyalar** | | | 78,4 | 156,4 | 152,4 | 305,8 | 0,0 | **781,7** |
| **Digər investisiyalar** | 0,0 | 0,0 | 85,0 | 430,7 | 488,8 | 686,4 | 1225,0 | **3213,7** |

http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1710&Itemid=15

Ümumilikdə 1995-2010-cu illər ərzində cəmi xarici investisiyaların 69,0%-ni birbaşa xarici investisiyalar, 23,0%-ni maliyyə kreditləri, 2,0%-ni portfel investisiyalar, 6,0%-ni isə digər investisiyalar təşkil etmişdir. Eyni zamanda, qeyd olunduğu kimi, xarici investisiya qoyuluşlarında Türkiyə, ABŞ, Almaniya, Hollandiya, BƏƏ, Rusiya və s. daha çox üstünlüyə malikdir. Bu sahədə, ümumi vəziyyət aşağıdakı kimidir.

1995-2010-cu illər ərzində xarici ölkələr üzrə ölkə iqtisadiyyatının qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyalar (mln. ABŞ dolları)



Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmə prosesidir. Yeni sahələrin, o cümlədən xarici sərmayəçilər üçün xüsusilə cəlbedici olan metallurgiya, kimya, energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirilməyə açılması xarici sərmayə axınına güclü təkan vermişdir.

Yeyinti, yüngül sənaye məhsullarının, inşaat materiallarının və digər məhsulların istehsalı ilə məşğul olan müəssisələrin xarici şirkətlər tərəfindən özəlləşdirilməsi, energetika, metallurgiya müəssisələrinin uzunmüddətli idarə etməyə verilməsi həyata keçirilən tədbirlərin uğurundan xəbər verir.

Bütün bunlan nozorə alaraq inveslisiyalarm ölkəyə cəlb edilməsi ilə bağlı aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab edilir:

1. .Azərbaycan Respublikasında xarici investisiya qoyuluşlan təcrübəsi ümumiləşdirilərək və ölkənin inkişaf perspektivləri nəzərə alınmaqla uzunmüddətli dövlət investisiya proqramı tərtib edilməli və bu sahədə dövlət siyasətinin daha da təkmilləşdirilməsi üçün kompleks tədbirlər görülməlidir.

2. Ölkəyə xarici inveslisiyalarm cəlb olunmasmın daha da libcrallaş-dınlması istiqamətində işlərin sürətləndirilməsi, "Xarici investisiyalann qorunması haqqında" və "İnvestisiya fəaliyyəti haqqında" qanunların təkmilləşdirilməsi sürətləndirilməlidir.

3. Qeyri-neft sektoruna investisiya axuunın sürətləndirilməsi işinə xüsusi qayğı göstərilməlidü. Bu zaman Azərbaycamn maşınqayıima, yüngül və yeyinti sənaye kimi ənənəvi emaledici sənaye sahələri, kənd təsərrüfatmm inkişafı xüsusi əhəmiyyət kəsb etməlidir.

Xüsusi ixrac zonalarmm yaradılması, neft sahəsində olduğu İdmi iqtisadiyyatın digər saliələrində də xaıici şirkətlərlə konsorsiumun yaradılması, məhsulun pay bölgüsü üzrə sazişlərin imzalanması və bu sazişlərə qanun statusunun verilməsi də qeyri-neft sektorunda xarici sərmayələrin əhəmiyyətli dərəcədə aıtmlmasmda səmərəli mexanizm ola bilər.

Sərmayələrin sahələr və regionlar üzrə tarazlığmm təmin edilməsi baxı-mmdan, regionlarda infi-astruktur, ilk növbədə elektrik enerjisi, qaz, su ilə təminatm yaxşılaşdırılması, təşviq tədbirlərinin həyata keçirilməsi zəruıidir.

5. Kiçik və orta sahibkarüğm inkişaf etdirilməsi məqsədilə bu sahəyə əmtəəiyyə yardımı göstərilməsi üçün dövlət proqrammm real həyala keçirilməsi mexanizm hazırlanmasıdır. Eyni zamanda beynəlxalq təşkilatlardan qeyd edilən strukturlann inkişafı üçün aynimış kreditlərin və yardımlann istifadəsində pərakəndəliyin aradan qaldınlması və bu işlərin bir mərkəzdən idarə olunması üçün tədbirlər görülməsi.

6. Azərbaycan Respublikası vətəndaşlarmın xarici ölkələrdə sahibkarlıq fəaliyyəti nəticəsində əldə etdikləri əmlak, pul və s. varidat sənnayə şəklində Azərbaycana gətirilərsə bunlara da xarici sərmayə üçün nəzərdə tutulmuş qaydalar və təminatlar tətbiq olunəmtəəıdır.

7. Azərbaycan Respublikasının xarici investisiyaların cəlb olunması ilə bağlı reytinqinin yüksəldiyi nəzərə alınmaqla ölkəyə hökumət zəmanəti tələb olunmayan investisiyalarm cəlb edilməsi praktikasından geniş istifadə edilməlidir.

Respublikamızda müştərək müəssisələr 1988-ci ildən yaradılmağa baş

lanmışdır. Lakiıı onlanıı sayı yalnız 1992-ci ildə "Xarici invesrisiyalann qorunması" haqqında qamın qəbul edildikdən sonra sürətlə artmışdu'. Azərbaycanda 2008~ci ildə xarici investisiyalı müəssisələrin və onlann fəaliyyətinin əsas göstəriciləri aşağıdakı cədvəldə verilmiş məlumatlar ilə xarakterizə edilir. Cədvəldən göründüyü kimi xarici investisiyalı müəssisələrin sayı 1.01.2009-cu ildə 551 olmuşduj'. Onlann buraxdıqlan məhsuUann həcmi 1,24 mlrd, manat təşkil etmişdir. Xarici investisiyalı müəssisələrin mənşəyi ölkələr üzrə araşdırıldıqda məlum olur ki, say etiban ilə bu sahədə 'I'iirkiyə birinci yeri qomyub saxlayn. Lakin onlann çoxu kiçik və orta müəssisələrdir. Ona görə də Türkiyə fırmalannın ya- ratdıqlan xaıici investisiyalı müəssisələr analoji müəssisələrin 35,5%-ıü təşkil etdiyi halda, istehsal etdikləri əmtəə və xidmətlər cəmisi 8,7%-dir.

Ölkəmizdəki xarici investisiyalı müəssisələrin 95,6%-i, onlann istehsal etdikləri əmtəə və xidmətlərin isə 99,7%-i həmin ölkələri təmsil edən firmalara məxsusdur. Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin cəmi 54-ü MDB ölkələrinə, onlann isə 40-ı Rusiyaya aiddir. Bu sahədə uzaq xaıici ölkələr getdikcə mütləq hegemonluğu ələ keçirirlər.

Statistik araşdırmalardan da göründüyü kimi, xarici və müştərək müəssisələrin əksər hissəsi ticarət və xidmət sahələrini əhatə edir. Əvvəlki illərlə müqayisədə, bu müəssisələıin fəaliyyətində xidmət sferası istehsalı üstələyir.

Statistik məlumatlann təhlili göstərir ki, 2008-ci ildə Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək müəssisələrin cəmisi 19,8%-i sənaye sahəsində fəaliyyət göstərdi. Lakin onlar əsas etibarilə iri həcmli və böyük kapitala malik müəssisələr olduqlan üçün xarici və müştərək müəssisələrdə istehsal edilən məhsulun (iş və xidmətlərin) 76,3%-i sənaye məhsullarmm payına düşür. Ölkəmizdə sənaye məhsulunun 30,0%-ə yaxını həmin müəssisələrdə istehsal edilir. Tikinti, topdan və pərakəndə satış, daşınmaz əmlakla əlaqədar əməliy>'atlar, nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsində də xarici və müştərək müssisələr müəyyən mövqeyə malikdirlər.

Müştərək müəssisələr məşğulluq probleminin həll olunmasında müsbət rol oyna>ırlar. Bu müəssisələrdə çalışan işçilərin orta aylıq əmək haqqı 2010-cu ildə 1008,0 manat təşkil etmişdir. Aşağıdakı cədvəldə verilən rəqəmlər xarici və müştərək müəssisələrin fəaliyyətini daha aydın xarakterizə edir.

## Xarici və müştərək müəssisələrin fəaliyyəti (2010-cu il)

**Cədvəl 2.2.2.**

| Sahələr | Fəaliyyət göstərən müəssisələrin sayı | kşləyənlərin orta siyahı sayı, nəfər | Orta aylıq əmək haqqı, manat | Məhsulun (işlərin və xidmətlərin) həcmi, min man |
|---|---|---|---|---|
| CƏMİ | 1091 | 55936 | 1008.0 | 24011939. |
| Sənaye | 218 | 21859 | 1128.8 | 19767854. |
| Tikinti | 111 | 7479 | 918.6 | 1225239.3 |
| Kənd təsərrüfatı | 6 | 286 | 161.9 | 5802.3 |
| Topdan və pərakəndə satış; avtomobillərin. məişət mallannın təmiri | 311 | 7397 | 399.1 | 123973.3 |
| Mehmanxanalar və j restoranlar \| 23 | | 1647 | 530.5 | 48742.4 j |
| Nəqliyyat anbar təsər. və rabitə | 96 | 7439 | 977.0 | 2422617.7 |
| Daşmmaz əmlakla əlaqədar əməliyyatlar, icarə fəaliwəti | 9 | 211 | 679.0 | 8800.6 |
| Təhsil | 32 | 1298 | 233.3 | 14923.1 |
| Səhiyyə və sosial xidmətlər | 21 | 582 | 358.4 | 5217.9 |
| Digər | 264 | 7738 | 1233.Ö | 388768.9 |

Mənbə; ■v\Trv';,i)Z3'uOi'%

Statistik göstəricilərdən, eyni zamanda aydm olur ki, Azərbaycan sənayesində fəaliyyət göstərən xarici və müştərək müəssisələrin böyük əksəriy}'əti hasilat sənayesində cəmlənmişdir. Başlıca olaraq xarici mülkiyyətə məxsus olan bu müəssisələr əsas etiban ilə mineral ehtiyatlann ixracı üzrə ixtisaslaşmışlar. Emaledici sənayedə də bütünlüklə xarici mülkiyyətə məxsus olan müəssisələrin xüsusi çəkisi yüksəkdir. Bu sahədə fəaliyyət göstərən müştərək müəssisələr əsas etiban ilə daxili bazarda pərakəndə əmtəə dövriyyəsi ilə məşğul olurlar və ixracda onlann payı azdır.

Xarici investisiyalı müəssisələrin fəaliyyəti regionlar üzrə təhbi edildikdə isə aydm olur ki, onlann böyük əksəriyyəti (2008-ci üdə müəssisələrin 89.4%-i, əmtəə və xidmətlərin isə 92%-i) Bakı şəhərində cəmlənmişdir.

Onlann qeyri-neft sektorunda və Azərbaycamn bütün regionlarmda

cı ildə Venesiyada keçirildi. İştirakçı dövlətlərin təkliflərinə əsasən görüşdə razılığa gəlindi ki, Ukrayna və Monqolustan ilə əlaqələri inkişaf etdinnək lazımdır. Həmçinin razılaşduildı ki, la>dholərin sıx əlaqələndirilməsinə böyük ehtiyac vardır. Bu isə regionda yerli və Avropa ekspertləri strukturlarımn yaradılmasını tələb edir. Verilən təkliflər 10 mln. ekyü dəyərində olan 5 yeni layihədə İşçi Qumpunun dördüncü iclası 1996-cı ilin oktyabrında Afinada toplandı. Burada rRACHCA anlayışı cəlbedici multimodel nəqliyyat marşrutu kimi dalıa da inkişaf etdirildi və bütün cari layihələr bütünlüklə dəyərləndirildi. Komissiya təsdiq etdi ki, üçüncü İşçi Qrupunun təklif etdiyi beş layiliə (10 MEKYU) (dördü texniki yardım üzrə araşdırma və bir investisiya layihəsi) 1997-ci ildə həyata keçirilməlidir. Bu belə də oldu.

TRACECA marşurutunun Qara dəniz regionu və Avropa Nəqli>^at Şəbəkəsi (ANŞ) ilə birləşdirihnəsi inıkanlanmn aıaşdmlması üçün AB
1997- ci ilin aprel ayında Tbilisi şəhərində Nazirlər səviyyəsində Nəqliyyat konfransı çağırdı. Konfrans bütün Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) ölkələrini və TRACECA proqramında iştirak edən MDB dövlətlərini bir stol ətrafında topladı. 16 iştirakçı dövlətlərin nazirləri TRACECA proqramının və Qai'adəniz regionu ölkələrinin Transavropa Şəbəkəsi ilə birləşdirihnəsi üzrə öz arzularım bildirdilər. Bəzi ölkələr (Bolqariya, Rumıniya və Ukraina) nəqliyyat üzrə Güıcüstan, Azərbaycan, Türkmənistan və Özbəkistan arasında ümumi siyasət müəyyən edilməsi (Saraksk razılaşması) haqqmda gəldikləri razılaşmaya qoşulmaq istədiklərini bildirdilər. Konfrans konkret layhələrin inkişafi üçün Nazirlər Komitəsinin yaradıhnası ilə başa çatdı və 16 ölkənin Pan A\Topa Nəqh>**7**at Konfransmda (iyun 1997-ci il, Helsinki) iştirak etməsinə şərait yaratdı. Nəticədə Helsinki Konfransı Qara dəniz regionunu Transa\Topa Şəbəkəsini Şərqə inkişaf etdiıəcək Pan Avropa Nəqliyyat regionu kimi müəyyən etdi.

Qara dəniz regionunu Pan Avropa Nəqbyyat regionu kimi müəy>'ən edən ideyanı dəstəkləmək üçün AB Poti şəhərində Ro-Ro gəmi tenninalımn bərpa edilməsini maliyyələşdirməyə razıhq verdi. Bu layihələr (15 mb. ekyü) 1999-cu ilin əwəlmdə tamamlanmışdır.

1998-ci ilin may ayında Tbilisidə İşçi Qurupunuıı beşinci görüşü keçirildi və TRACECA proqrarannn gələcək üikişaf məsələlərini müzakirə etdi. 7-8 sentyabr 1998-ci ildə Bakı şəhərində Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq konfrans keçirildi. Zirvə görüşü adlandmlan bu konfransda 32 ölkənin dövlət və hökumət başçıları, nazirlər və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər. Konf

rans nümayəndələrinin imzaladıqlan <(Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş», onun texniki əlavələri və Bakı bəyannaməsi Böyük İpək yoluiıım bərpası üzrə tarixi proqram sənədləri hesab edilir və region dövlətlərinin dünya birliyi ilə həılərəfli inteqrasiyası yolunda geniş perspektivlər açır.

Böyük ipək yolu layihəsi öz orbitinə yeni-yeni ölkələri cəlb edir. Bu yolun nəhəng iqtisadi derjavası olan Çin və Yaponiyaya qədər uzadılması dünyanın daha sürətli inkişafına öz əhəmiyyətli təsirini göstərəcəkdir.

'FRACEC.A proqramının həyata keçirilməsi Bakı qovşağımn nəqli^'yat kommunikasiyalarının yeniləşməsinə də ciddi təkan verir. Xəzərin Şərq və Qərb salülləri arasmda Azərbaycana məxsus xüsusi donanma Bərə keçidi aıtıq fəaliy7ət göstərir. Bu mövqe>d saxlamaq məqsədi ilə dövlətin ərazisində böyük nəqliyyat mərkəzinin fəaliyyətinin təşkil edilməsi üzrə kompleks proqramın yaradılması və reallaşdı nlması üzrə işlərə başlaımşdır. Bakı Magistral layihənin həyata keçirilməsi üzrə yalnız müzakirələr aparılan yer de>il, həmçinin nəqliyyat arteriyasımn qlobal mərkəzinə və Şərq ilə Qərb arasmda mühüm əlaqələndirici körpüyə çevrilir. Bütün bunlar bizim dövlətin üzəiinə böyük öhdəliklər qoyur, regionda Azərbaycanın siyasi və iqtisadi təsirini gücləndirir, onu lider dövlətə çevirir.

Tamamilə aydındır ki, Böyük İpək yolu ilə yük dövriyyəsi son illər Asiya ölkələrində istehsalın, ixracm və idxalın artmasına müvafiq olaraq daha da böyüyəcək. Bu ölkələrin gələcək inkişafi Avropanm inkişaf etmiş sənaye ölkələri ilə əlaqələr yaratmağı və inkişaf etdiıməyi zəruri edir. Bu magistral üzrə Asiya ölkələrinin məhsullan Avropaya yönələcəkdir. Misal üçün, hazırda Yaponiya ixracının 60%-i Avropaya göndərir. Eyni zamanda Çin və Cənubi Koreyada da Avropaya öz ixracım artırmağa çalışır.

Qərbi-Sibir Dəmiıyolu və yeni İpək yolu arasındakı rəqabət nəqli>yat xərclərinin və tariflərin azahnasma, daşımalarm keyfiyyəti və təhlükəsizliyinin artmasına səbəb olur. BİY Layihəsinin həyata keçirihnəsi istifadəçilər üçün hazırkı işləyən marşrut ilə müqayisədə böyük üstünlüklər verir.

Layiliənin iqtisadi məqsədə uyğunluğu şübhəsizdir, çünki o, yolu 2000 m azaldır və bu təbii ki, dövriyyə vəsaitlərinin çatdmima zamanım azaldır və dövr etməsini artınr. AB ekspertlərinin rəyinə görə, BİY-in həyata keçirilməsi yükün 2 dəfə tez və 30% ucuz çatdırılmasmı təmin edəcək. Misal üçün, bir ton Özbək pambığmm Qazaxıstandan və Rusiyadan keçərək Ukrayna limanlanna qədər daşınması 100 dollardan

baha başa gəlir. Lakin TRACECA dəlüizi üzrə Azərbaycandan aparılması isə cəmi 55 dollara, yəni 2 dəfə ucuz başa gəlir.

Qərb-Şərq Avropa-Asiya oxu üzrə nəqlij^at dəhlizi perspektivdə nəinki dayanıqlı olaraq aıtan gəlir təmin edir və yeni iş yerləri açır, həmçinin ticarət şərtlərinin yaxşılaşması üçün şərait yaradır. Bütün bunlar ölkənin inkişafi üçün böyük təkan verəcəkdir. Yolun Avropa nəqliyyat şəbəkəsinə inteqrasiyası elmi və mədəni əlaqələrin, turizmin inkişafi və az zaman və vəsait xərcləri ilo dövlətlərarası yük və sərnişin daşmmalarmın artınhıasma zəmin təşkil edir.

BİY-nun trası üzrə - ümumi uzunluğu 27 min km. Olan TAE (Trans-Asiya-Avropa) optik kabel şəbəkəsi keçəcəkdir.

Perspektivdə avtomobil, aviasiya, telekommunikasiya nəqliyyat dəhlizləri Avropanın vahid bazar məkamna daxil olacaq. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasını Suveyş və Panama kanalları kimi dünya səviyyəli layihələri ilə müqayisə etmək olar.

### **3.2.** Şimal-Cənub nəqliyyat dəhlizi

Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyası, milli nəqliyyat sisteminin və iqtisadiyj^atm inkişafinda mühüm əhəmiyyət kəsb edən layihələrdən biri də Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması istiqamətində həyata keçirilən layihədir. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi haqqmda ilkin razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrm 12-də Sankt- Peterburq şəhərində bağlanılmışdır. Razılaşmanm əsas məqsədi yük və sərnişin daşımalamun təşkilində nəqliyyat əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, üzv-ölkələrin dəmir yolu, avtomobil, dəniz, çay və hava nəqliyyatı xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq nəqliyyat xidmətləri bazanna girişi üçün şəraitin yaradılması, beynəlxalq daşımalarm həcminin artınlmasına yardım göstərilməsi, nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin və daşıma sifaıişlərin operativliyinin təmin olunması, eləcə də razılaşdınimış nəqliyyat siyasətinin həyata keçirilməsidir. Şimal-Cənub nəqliyyat dəhlizi də bütün nəqliyyat növlərini - dəmir yolu, dəniz, avtomobil yolları, çay və hava nəqliyyatım, eləcə də bu nəqliyyat növlərinə aid infrastmktur sahələri də əhatə edir. Razılaşmanın üz\dəri arasmda Hindistan istisna təşkil edir Belə ki, bu ölkənin Şimal-Cənub dəhlizinin işində yalnız dəniz marşrutlan ilə iştirakı nəzərdə tutului'.

Nəqliyyat dəhlizi haqqında razılaşma 21 may 2002-ci il tarixində qüvvəyə minmişdir. Həmin tarixdə Sankt-Peterburq şəhərində əldə edilən razılaşmaya üzv-ölkələrin nəqliyyat nazirlərinin görüşündə Koordinasiya Şurasımn yaradılması barədə Protokol imzalanmış, eləcə də dəhlizin Katibliyinin Tehran şəhərində yerləşməsi qərai'a alınmışdır.

Razılaşmadan keçən dövr ərzində Şimal-Cənub be>məlxalq nəqliy>'at dəhlizi bir çox ölkələrin marağma səbəb oldu. Ötən illər ərzində bu razılaşmaya Belarus Respublikası, Ermənistan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Oman və Suriya qoşulmuşdur. Azərbaycan Respublikası isə 2001-ci il 21 dekabr tarixində həmin Razılaşmaya qoşulması üçün müraciət etmiş və 2005-ci ildə müsbət cavab almışdır. 2005-ci il sentyabım 20-də imzalanmış 984-IIQ nömrəli Azərbaycan Res- publikasmın Qanunu ilə respublikamız "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi haqqmda" Sazişə qoşulmuşdur.

Bu layihədə Rusiya Federasiyasmm Voronej şəhəri ilə İran İslam Respublikasıma Tehran şəhəri və daha sonra Bəndər-Abbas limanı aıasında dəraii' yolu əlaqəsinin iki variantı təklif olımur. Birinci vaıiantda marşrut Xəzər dənizinin qərb sahili və dalıa sonra Azərbaycan ərazisi üzərindən keçməklə təklif edilir. İkinci variant isə Rusiya Federasiyası ərazisi ilə dəmir yolu, Rusiyamn Xəzər limanlan, xüsusən Həştərxan yaxınlığmda inşa edilən Olya limamndan İranm Bəndər-Ənzəli və hazuda genişləndirilən Əmirabad, Nouşəhər, Bəndər-Abbas limanlarına, oradan isə ümumi marşrut üzrə hərəkəti nəzərdə tutur. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşnnalann Azərbaycan ərazisindən keçməsi variantına da alternativ marşrut təklif olunmuşdur. Bu təklifə görə dəhlizin Mərkəzi Asiya ölkələrindən (Qazaxıstan, Özbəkistan, Türkmənistan) keçməklə Türkmənistaıun Seraxs şəhərinə, daha sonra İran ərazisi xətti ilə yaıadılması nəzərdə tutulur. Təbii ki, təklifr edilən alternativlər içərisindən ən səmərəlisi seçiləcəkdir. Dəhlizə aid edilən bu marşrutlarda daşunalarm hə(xtni son nəticədə ən sərfəli texniki, istismar, tarif və digər şərtlərdən asılı olacaqdır. Araşdırmalardan aydın olur ki, istənilən halda, Şimal-Cənub dəhlizinin Azərbaycan ərazisindən keçməsi variantı daha cəlbedici görünür. Burada məsafənin qısalığı, daşımalara daha az vaxt sərf olunması, mövcud nəqliyyat infi astrukturu və bir tranzit ölkə faktoru əsas rol oynayır.

Qeyd etmək lazımdır ki, Şimal-Cənub nəqliyyat dəhlizi də. Öz növbəsində ölkəmizin nəqliyyat əlaqələrinin genişləndirilməsi, tarazit ölkə kimi bu sahədən böyük həcmdə gəlirlər əldə etməyə və s. imkan verəcəkdir ki, bu da Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyətə

malikdir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin siyasi əhəmiyyəti də danılmazdır. Başcja sözlə desək, bu dəhliz həm do Rusiya Federasiyası ilə balanslaşdmlmış siyasətin bir nümunəsi kimi do qəbul edilə bilər.

Azərbaycan Respublikasmm bu layihədə iştirakmm ölkəmiz üçün əhəmiyyətli olduğu üçün respublikamızın coğrafi və potensial tranzit ölkə kimi imkanlan nəzərə ahnaraq, mövcud nəqliyyat infi-astrukturunun bərpası və inkişaf etdirilməsi işlərinə başlanılmışdır. Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan üzərindən yüklərin böyük əksəriyyətinin daşınmasmda dəmir yolunun iştirakı nəzərdə tutulur ki, burada da əsas amil kimi, yüklərin bir nəqliyyat növü ilə böyük həcmdə, tez bil' zamanda, daha uzaq məsafəyə daşınması əsas götürülür. Dəhliz vasitəsilə yük daşunalarına Azərbaycan Respublikasmm yol-nəqliyyat kompleksinin daha geniş cəlb edilməsi, xüsusən avtomobil nəqliyyatının və Xəzər Dəniz Gəmiçiliyinin imkanlanndan tam və səmərəli istifadə olmıması üçün şərait yaradılması istiqamətində tədbirlər göıülməkdədir.

Konkret olaraq, dəhlizin Azərbaycan ərazisindən keçən dəmir yolu hissəsinin uzunluğu 511 km-dir. Bakı-Yalama sahəsində dəmir yolu üdxətlidir, elektrikləşdirihniş və avtomatik rabitə və işarəverraə sistemi ilə tam təchiz olunmuşdur. Sahənin buraxıhş qabiliyyəti sutkada 60 cüt qatardn. Bakı-Astara dəmir yolu sahəsinin Osmanlı stansiyasına qədər olan 140 km-hk hissəsi ikixətlidir, elektrikləşdirmiş, avtomatik işarəvermə sistemi ilə təchiz olunmuşdur. Sahənin buraxılış qabiliy>'əti sutkada 53 cüt qatardır. Bakı-Astara dəmir yol sahəsinin Osmanlı stansi- yasmdan Astara stansiyasma qədər olan 188 km-lik hissəsi biryolludui', elektrikləşdirilməmişdir, avtomatik işaroveımə sistemi ilə təchiz olunmuşdur. Sahənin buraxıhş qabiliyyəti sutkada 20 cüt qatai'du.

Apanimış təhlillərə görə dəhlizin Azərbaycan ərazisi üzərindən keçən lüssəsində gözlənilən yük daşıma həcmi birinci üç il ərzində 2 milyon tona qədər, ikinci mərhələdə 5-6 milyon ton, üçüncü mərhələdə isə, yəni birbaşa dəmir yolu əlaqəsi yaradıldıqdan sonra 15 milyon tona qədər artacağı gözlənilir ki, bunun da tam həcmdə təmin olunması və təhlükəsizlik nonnalannm qorunması üçün bii' sua texniki tədbirlərin görülməsi zəruridir. Bu istiqamətdə 2001-ci ildən başlayaraq, müəyyən işlər görülmüş və hazırda da davam etdirilir. Dəmir yolunun Yalama- Bakı sahəsində 96 km, Bakı-Astara sahəsində 60 km dəmir yolu xətti əsaslı təmir olunmah, 36 km sahilbərkitmə işləri göıühnəHdir. Eyni zamanda, göstərilən sahədə stansiya yollarımn sağlamlaşdmİması, elektrik təchizatının yaxşılaşdırılması, lokomotiv parkının genişləndirilməsi

və s. kimi texniki tədbirlər də bu istiqamətdə görülən işlərin siyahısına daxildir.

.^.ərbaycan dəmir yolunun İran dəmir yollan şəbəkəsi ilə birləşdiıihnəsi üçün Astara (Azərbaycan) - Astara (İran) dəmir yolu xəttinin və Astaraçay üzərindən dəmir yolu körpüsünün inşası nəzərdə tutulur, Azərbaycan tərəfi 8,4 km dəmir yolu xəttinin çəkilməsini, hər biri 1050 m olan 4 stansiya yolunun tikintisini aparacaqdır. İran tərəfi isə Astaraçay üzərində 85 metr uzunluğunda dəmir yolu körpüsünün tikintisini layihələndirmiş və Azərbaycan tərəfi ilə razılaşdırmışdır. Burada tərəflərin 50% payla iştirakı nəzərdə tutulur. İran tərəfi göstərilən körpüdən Astaıaya (İran) qədər dəmir yolu tikintisini həyata keçirməlidir. Dəhliz üzərində İran-Azərbaycan-Rusiya dəmir yolu şəbəkəsinin birləşdirilməsi üçün İran ərazisində uzunluğu 350 km olan Qəzvin-Rəşt-Ənzəli-Astara yeni dəmir yolu xətti inşa edilməlidiı*. Məlumata görə tianda bu yeni dəmir yolu xəttinin tikintisi İran dəmir yolları şəbəkəsinin inkişaf plamna daxil edilmiş və ilkin texniki əsaslandırma işləri görülmüşdür.

Qeyd olunduğu kimi, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin əhatə etdiyi nəqliyyat növlərindən biri də avtomobil nəqİi>’yatıdır. Araşdırmalardan aydın olur ki, dəhlizdən dalıa səmərəli istifadə etmək üçün, dəhliz boyunca Azərbaycan ərazisindən keçən avtomobil yollanmn reabilitasiyası üzrə aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur:

- Bakı-Quba-Rusiya sərhədi - 208 km (67 km dördzolaqlı, 141 km ikizolaqlj) yolmı müasir standartlara uyğun yenidən qıu'ulması;
- Bakı dairəvi avtomobil yolu -- 21,5 km - bu yolun tikintisi, xüsusilə daşuna sifarişlərinin opei'ativ icrasmm təşldli, eləcə də müəyyən ərazilərdə yaranan öxaclann aradan qaldmlması məqsədi güdüi';
- Bakı-Ələt yolunun 47 km hissəsinin tikintisi - artıq bu işlər başa çatmaq üzrədir. Çünki bu hissə BİY ilə kəsişən hissədir və bu yolun tikintisinə əvvəlcədən başlanılmışdır.
- Ələt-Astara-İıan sərhədi yolu - 243 km, dörd zolaqlı, müasir standarüaıa uyğun avtoyolun tikintisi;
- Araz çayı üzərində Şahtaxtı-Poldəşt və Culfa körpülərinin tikintisi - bu tikinti İran və Azərbaycan tərəfindən 50/50 şərti ilə maliyyələşdiriləcəkdir.

Dəhliz boyunca xüsusi əhəmiyyətə malik olan avtomobil yolu lıissələlindən, eləcə də Azərbaycanla İranı birləşdirən avtomobil yollarının bir istiqaməti də Biləsuvar - İran sərhədi avtomobil yoludur. 19,5 km-lik bu yolun tikintisinin maliyyələşdirilməsi Azərbaycan tərəfinin hesabma

həyata keçirilir ki, bu istiqamətdə do hal-hazırda tikinti-tamamlama işləri gömlür.

Beləliklə yekun olaraq bu nəticəyə gəlinir ki, Azərbaycan Respublikasının Şimal-Cənub nəqliyyat dəlilizinə qoşulması və dəhlizlə yük və sərnişin daşımalarında fəal iştirakı respublikamızın iqtisadi maraqlanna uyğun olaraq yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb olun- masma, yük həcminin çoxalmasına və gəlirlərinin artmasına, tianzit xidmətlərini büdcənin əsas gəlir mənbələrindən birinə çevirməyə, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına və digər problemlərin həllinə şərait yaradacaqdır.

## **3.3.** Bakı-Tbilisi-Ceyhan neft kəməri

Məlumdur ki, 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycana aid sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarmın birgə istismarı ilə bağlı nefl hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfııza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şııkəti arasmda beynəlxalq müqavilə imzalammşdır ki, bununla da "Yeni neft strategiyası" uğurla həyata keçirilməsinin əsası qoyulmuşdur. Bağlanmış müqavilələr Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüw'əyə mindi.

Ölkəmizin iqtisadi inkişafinda əvəzsiz rol oynayan və sonradan "Əsrin müqaviləsi" adlandınlan bu iri layihə üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasü edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxm təbii qaz ehtiyatma malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ doUarma yaxm investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi.

"Əsrin müqaviləsi" üzrə hasil edilən Azərbaycan neftinm dünya bazarlarına ixracı üçün ilkin dövrlərdə buraxıcılıq qabiliyyətləri ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa neft bora kəmərlərindən istifadə olunurdu. Lakin yaxm illərdə müqaviləj'ə daxil olan yataqlar üzrə illik hasilatm 50 milyon tona çatdırılacağım nəzərə alan Azərbaycan Prezidenti ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkamna malik ixrac marşratlan araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac bora kəməri seçildi. Məhz buna görə də la>'ihənin həyata keçirilməsində dahi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçılan 2004-cü ildə BTC əsas ixıac

boru kəmərinə Heydər Əliyevin admın verilməsi barədə qərar qəbul etdilər.

Artıq Bakı-Tbilisi-Ceyhan layihəsi üzrə işlər tamamlanmış, eyni zamanda 2005-ci ilin mayında Bakıda kəmərə ilk neft vurulmuş və bu neft 2006-cı ilin I rübündə Ceyhan limanma çatmışdır. Təbii ki, bütün bu işlərin başlıca məqsədi SSRİ-nin süqutundan sonra böhran vəziyyətinə düşmüş Azərbaycan iqtisadiyyatını dirçəltmək, dünya iqtisadiyyatına daha geniş inteqrasiya etməklə beynəkalq aləmdə ölkənin nüftızunu artumaq və döğma Azərbaycan dövlətini dünyəvi bir dövlətə çevirməkdən ibarət idi.

Hal-hazırda bu kəmər Azərbaycan neftinin dünya bazarlarma çı.xarılmasına imkan verməklə yanaşı, həm də "İpək yolu"nun və türkdilli ölkələrin əsas magistral kəməri statusunu qazanmışdır. Ümummilli liderin kristal siyasi iradəsinin təmtərağı olan Bakı-Tbilisi-Ceyhan kəməri neft kəmərləri sisteminə dünya *‘arteriya”sı kimi daxil olmuşdur. Onu da qeyd edək ki, min bir əziyyətlə başa gələn bu “əsas ixrac neft kəməri”nin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da damimazdır. Belə ki, bu neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin yaranmasma, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasma təkan verərək, Azərbaycan dövlətinin xarici siyasətinin güclənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, eləcə də onun siyasi və iqtisadi baxımdan inkişaf etməsinə səbəb olmuşdur.

Ümumi>7ətlə BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihədir. Azərbaycan dövlətinə qarşı olan bir çoxlarmm qeyri-real, ehtimal kimi yanaşdığı bu layihə artıq bütün dünyanın qəbul etdiyi əzəmətli bir gerçəklikdir.

Yeni neft strategiyası bir daha Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu bəyan etdi. Neft müqavilələrini imzalamaqla Azərbaycan Respublikası suveren hüquqlarmm bərqərar olduğunu, tam müstəqil dövlət olduğunu bütün dünyaya bəyan etdi. Son dövrlər isə BTC-nin tam gücü ilə fəaliyyətə başlaması ölkəmizin inkişafında daha önəmli rol oynamışdır. Bu gün ölkədə mühüm qlobal proqramlar, irimiqyaslı layihələr, müxtəlif sahələri əhatə edən çoxsaylı Dövlət Proqramları həyata keçirilməkdədir ki, bütün bunlar da ən ümdə məqsədə - Azərbaycan dövlətinin iqtisadi qüdrətinin, nüfuzunun artmasına və beynəlxalq aləmdə ədalətli mövqeyinin təmin olunmasına xidmət edir. Bu da ondan irəli gəlir ki, hər bir Ölkənin nəqli>7at sisteminin

vəziyyəti, coğrafi mövqejT və tranzit imkanlan onun dünyaya inteqrasiyasında və iqtisadi inkişafında ınühünı rol oynayır.

Məlumdur ki, bu gün milli iqtisadiyyatın təşəkkülündə və formalaşmasında respublikamızın vahid nəqliyyat sisteminin bir qolu olan boru kəmər nəqliyyatı prioritet əhəmiyyət kəsb edir. Təbii ki, burada əsas səbəb ölkəmizin ixrac potensialmın əsasım neft və neft məhsullanmn təşkil etməsidir. Neft respublikamızın ən zəngin təbii səi'vətidir və onun ölkə iqtisadiyyatmm inkişafında əvəzsiz rolu vardır. Eyni zamanda, nəzərə alsaq ki, əsas ixrac neft kəməri olan BTC özünün >mksək rəqabətqabiliyyətliliyi, səmərəliliyi, təhlükəsizliyi və s. kimi cəlbedici xüsusiyyətləri ilə neft ixıac edən digər dövlətlərin də diqqətini cəlb etməkdədir, onda bu kəmərin əhəmiyyəti bir daha aydm olaı\ Artıq Qazaxıstan dövləti də öz neftinin bu kəmərlə nəql edilməsi barədə müqavilə imzalanmışdır ki, bu da bir daha sübut edh ki, Azərbaycan Respublikası BTC əsas ixrac neft kəmərindən həm hasil edilən neftin dünya ba- zarlanna çıxaniması ilə, həm də tranzit xidmətləri göstərməklə bəlırələ- nəcəkdir.

Göründüyü kimi, bütün dünya B'l'C-yə böyük əhəmiyyət verir. Həqiqətən də Şərq-Qərb enerji dəhlizinin vacib tərkib hissəsi olan bu layihə bölgədə təhlükəsizliyin və sülhün qarantı, iqtisadi inkişafin təminatçısı kimi həyati əhəmiyyət kəsb edəcəkdir.

Mütəxəssislərin hesablamalanna görə bu kəmər 20 ildə .Azərbaycana 140 mlrd, dollar gəlir gətirəcək. Bu gəlirlər isə təbii ki, qeyri-neft sektorunun təşəkkülünə, ölkəmizin sosial-iqtisadi inkişafına və eyni zamanda hərbi qüdrətinin arünlmasma xidmət edəcəkdir. Deməli, “Üç dənizin əfsanəsi” adlanan BTC əsas ixıac neft kəməri ölkəmizin müqəddəratmı həll edən və xalqımızın xoşbəxt gələcəyinin təminatçısı olan strateji layihədir.

## 3.4. Azərbaycanda nəqliyyat sisteminin inkişafı

Azərbaycan Respublikasında SSRİ-nin vahid nəqliy>'at sisteminin tərkib hissəsi kimi nəqliyyat kompleksi müəyyən inkişaf mərhələsi keçmişdir. Ölkədə nəqliyyat sisteminin bütün müasir növləri formalaşmış və inkişaf etmişdü. Bu sistemdə dəmiryolu, dəniz, avtomobil, boru- kəmər nəqliyyatı apancı rol oynayır. Elektrik enerjisi istelısahnm ölkədə sürətli inkişafı nəticəsində respublikanın bütün ərazisini əhatə edən vahid elektron nəqliy>'at sistemi inkişaf etmişdir.

1990-cı ildə Azərbaycan SSR-in nəqliyyat sistenunin ümümi >ük döv

riyyəsi 277.7 mln. ton/km təşkil edirdi. Nəqliyyat sektorunda ümümi yük dövriy>'əsinin 29%-i dəmiıyol, 7%-i dəniz, 55%-i avtomobil və 10%-i neft və neff məhsullan daşınan boru-kəmər nəqliyyatınm payma düşmdü. SSRİ dağıldıqdan sonra iqtisadiyyatın digər sahələri kimi nəqliyyat sektonmda da ciddi böhran özünü göstərmişdir. Belə ki, 1990-1994 cü illər ərzində nəqliyyat sektonmda ümumi yük dövriyyəsi 6 dəfə azalmışdır. Milli nəqliyyat sistemində vəziyyət yalnız 1995-ci ildən sabitləşməyə başlamışdır. 2000-ci ildən etibarən isə bu sektorda canlanma və dinamik inkişaf özünü göstərməyə başlamışdn. 2006-cı ildə Azərbaycanın nəqliyyat sektonmda dövriyyəsi 1995-ci ilə ni.sbətən 6 dəfə artaraq, 43294 mln ton/km təşkil etmişdir. 2007-ci ildə isə yük dövriyyəsi daha 80% artai'aq, 77943 mln t4an-ə çatmışdır. Cəmi yük dövıiyyəsinin 13,2%-i dəmiryol, 7,7%-i dəniz, 67,1%-i boru kəməri və 11, 7%-i avtomobil nəqliyyatı vasitəsilə daşınmışdır. Son 5 ildə nəqliyyat sektonmda yükdaşuna həcmi 1,6 dəfə artmışdu. Həmin dövrdə yük dövriyyəsinin həcmi 3,5 dəfə aılımşdır. Nəqliyyatın bütün sahələrində 2007-cı ildə 999,0 milyon manat əlavə dəyər yaradılmışdır. Ölkə iqtisadiyyatmda nəqliyyatın xüsusi çəkisi 60% təşkil etmişdir. Nəqliy>'at sektonmda çahşanlann sayı 93,2 min nəfərə çatmışdır. Ölkənin əlverişli siyasi-coği'Ä mövqeyi Azərbaycanm ərazisində nəqliyyatm bütün növləiinin mövcud olması ilə xarakterizə edilir. Respublikada güclü in- frastnıktura malik dəmiryolu, a\4omobil, şəhər sərnişin nəqliyyatı, eləcə də dəniz, neft və qaz boru kəməri, hava nəqliyyatı fəaliyyət göstərir. Dəmir yollannm istismar uzunluğu 2122 km, onlardan 815 km ikixətlidir və 1270 km yol elektrikləşdirilmişdir. Ümumi isitfadədə olan nəqliyyat yollarının uzunluğu 18823 km, onlardan 11 km-i sement-beton, 6926 km-i asfalt-beton, 8467 km-i çmqıl, 3224 km-i isə qara örtüklü yollar təşkil edir. Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinə məxsus ticarət donanmasında ümümi dedveyti (gücü) 436 min ton olan 75 gəmi istimar edilir, onlardan bir hissəsi Xəzər dənizindən kənai’a qitənin müxtəlif limanlaimda işləyir. Daşımalar əsasən neft və neft məhsullan daşıyan tankerlərlə Aktau-Abşeron-Bakı, Türkmənbaşı-Bakı, Okaıera-Bakı- Abşeron, Türkmənbaşı-Okarem-İran limanlan marşmtlan, eləcə də Dəmiryolu vaqonlan, avtomobilləri və sər-nişinləri daşıyan gəmi-bərələrlə Türkmənbaşı-Bakı, Bakı-Aktau, marşmtlan ilə həyata keçirilir. Azərbaycana məxsus dövlət və özəl aviaşirkətiərin TU-154, TU-134B, İL-76, Aerobus və Boinq tipli təyyarələri MDB, Avropa, Asiya, Yaxm Şərq Ölkələrinə, eləcə də ölkə daxilində hava limanları arasında uçuşlan yerinə yetirir.

Nəqliyyat sektom sənaye, daxili və xarici ticarət, turizm və ümümiyyətlə iqtisadiyyat və əhali üçün mühüm əhəmiyyət kəsb edir.

Belə ki, sənaye məhsullarının istehsalı üçün xammal və digər maddələrin sənaye obyektlərinə və hazır məhsulun istehlakçıya səmərəli şəkildə çatdırılması üçün nəqliyyat infrastrukturunun inkişsrf etdirilməsi vacibdir.

Yaxın gələcəkdə nəqliy>'at sektonınun inkişafının prioritetleri aşağıdakı kimi müəyyən edilmişdir;

milli iqtisadiyyatın infraslruktunı olan nəqliyyatın öncül inkişafı;

yol-nəqli>7at kompleksinə aid olan müxtəlif nəqliyyat növlərinin tarazlı və ardıcıl inkişafı;

təsərrüfatlararası əmtəə mübadiləsini gerçəkləşdirən yükdaşmıa nəqliyyatınm və əhalinin əsas sosial tələbatlanndan birini təmin edən sərnişin nəqliyyatmm bərabər inkişafı;

ölkə ərazisində byenəlxalq və tranzit dəlıliz yollaıımn, eləcə də ölkənin regionlaraıası, şəhər və rayondaxili nəqliyyat infrastruktiulanmn tarazlı inkişafı;

Azərbaycan ərazisindən keçən nəqliyyat-kommunikasiya trafıkinin və əsas nəqliyyat vasitələrinin dünya standartlanna uyğun modernləşdirilməsi və müasiıləşdiıilməsi əsasında milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına siüətli inteqrasiya.sı;

Xəzər regionlarında istehsal olunan karbolıidrogenlərin dünya ba-zaıianna çatdınlması zamam enerjidaşıyıcılann beynəlxalq və tranzit nəql edilməsində Azərbaycaıun tutduğu apancı mövqeyinin saxlamiması və gücləndirilməsi;

Azərbaycanda beynəlxalq nəqliyyat sisteminin gücləndirilməsi zamam I’RASECA, Şimal-Cənub, İNOGEYT Proqramlarının operativ həyata keçirilməsi;

Azərbaycanda hasil olunan neft və qazm ixıac marşrutlanmn geniş diversifikasiyası və digər Xəzəryanı istehsalçı ölkələrin iştirakı ilə yeni transregional eneıji dəhlizlərinin yaradılması və birgə inkişafi;

Azəıbaycanuı nəqbyyat sisteminin gələcək inkişaftmn mərkəzində Avropa-Qafqaz-Asiya TRASECA beynəlxalq dəhlizinin. Şimali AvTOpa-Rusiya-Xəzər dənizi-Azərbaycan-İran körfəzi-Hindistan marşrutunu əhatə edən Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin, eləcə də transkontinental ixrac enerji dəhlizlərinin sürətli inkişafi durur. Eyni zamanda Avropa-Qafqaz-Asiya dəmiryol nəqliyyat dəhlizində nəqliyyatın fəaliyyəti durmadan genişlənir.

Dəmiryol nəqliyyatı. Neft sənayesinin sürətli inkişafi və kapitalist münasibətlərinin genişlənməyə başlaması Azərbaycanda hələ XIX əsrin ikinci yansmdan kütləvi yük daşıma qabiliyyətinə malik olan dəmiryol nəqliyyatının yaradılmasını sürətiəndirmişdfr.

Azərbaycanda uzunluğu 20 km olan ilk dəmiıyolu 1878-1880-ci illərdə tikilmişdir. Bu Bakım Sabunçu və Suraxanı qəsəbələri ilə birləşdirirdi.

1883- cü ildə Baki-Tbüisi magistral dəmiryolu (500 km) istismara verilmiş və bu xətt Azərbaycan neftinin Avropa bazarma çıxanimasım təmin etmişdir. 1890-cı ildə domiıy'olu Bakım Dərbənd ilə (211 km) birləşdirmişdir ki, bu da digər ölkələrlə iqtisadi əlaqələrin təşkil edilməsinə imkan yaratmışdır. Sovet hakimiyyəti yarandıqdan sonra mövcud dəmir yollan bərpa edilib, yenidən quruldu, yeni xətlərin çəkilişinə başlandı. SSRİ-də ilk dəfə J926-cı ildə Bakı-Sabunçu arasında uzunluğu 20 km olan elektrikləşdiıilmiş dəmiryolu işə salındı. 1941- 1945-ci illərdə Bakı-Culfa dəmiryolunun (628 km) tikintisi başa çatmışdır. Bu yol Azərbaycam Naxçıvan Muxtar Respublikası və İranla bii ləşdirmişdir. Bundan başqa bir neçə dəmiıyolu qollan da tikilmişdir.

1990-cı ildə magistral dəmir yollarmm uzunluğu 2.12 min km. olmuşdur ki, bu da 1913-cü ildəkindən 2.5, 1940-cı ildəkindən isə 1,6 dəfə çox idi. Dəmir yollarmm yarıdan çoxu elektrikləşdirilmişdir.

SSRİ dağıldıqdan sonra Azərbaycan dəmiryolmıım çətinlikləri əsas vaqon təmiri zavodlannm və ehtiyat hissələri buraxan müəssisələrin Rusiyada yerləşməsi ucbatmdan daha da artmışdır. Ayn-ayn sahələrdə vəziyyət bir sna təbii hadisələrlə də ağırlaşırdı.

1988- ci ildə Ermənistan Azərbaycanla mühaıibəyə başladıqdan sonra Naxçıvana gedən dəmiryolu sahəsi bağlanmışdır. 1994-cü ildə Rusiya Çeçenistan döyüşlərinə silah göndərilməsinin qarşısım almaq bəhanəsi ilə sərhədi bağlamışdır. Bu isə Şimal istiqamətində yük dövriyyəsini sarsıdıcı zərbə vurmuşdıu. Cənub istiqamətində də vəziyyət o qədər yaxşı deyildi. Belə ki, 1990-cı ilə qədər Azərbaycan əmtəələrinin Avropadan İrana daşınması yolunda mühüm yükləmə-boşaltma məntəqəsi sayılırdı. Yüklər bu ölkəyə dəmiryolu vasitəsilə bir çox ölkələrdən (Almaniyadan, Rumuniyadan, MDB ölkələrindən) gedirdi. İrana hər gün müvafiq olaraq 25O-yə qədər vaqon yola salmırdı. Azərbaycan Culfa stansiyasmdan yüklərin daşmması üçün gündə 60 mindən 130 min dollaıadək qazanc götürürdü.

1992-1994-cü illərdə baş verən dərin iqtisadi böhran Dəmiryolu nəqliyyatının işini də iflic vəziyyətinə salmışdır. Belə ki, 1990-1994-cü illər ərzində dəmiryolu ilə yük dövriyyəsi 80,3 min ton/km-dən 13,0 min ton/km-ə qədər azalnuşchr.

Azərbaycan iqtisadiyyatında xüsusi yeri olan dövlət dəmiryolu son illər özünün inkişaf dövrünü yaşayn. Bu sahədə aparılan islahatlar nəticəsində dəmiryolu ilə daşman >11^0140 həcmi artmış, sərnişinlərə göstərilən xidmətin səviyyəsi xeyli yaxşılaşmışdu’. Müstəqillik əldə etdikdən sonra dəmiryolunun inkişaf strategiyası hazırlandı. İllcin mərhələdə çoxpilləli idarəetmə sistemi ləğ\' olundu və yerində çevik strukturlar yaradıldı. Lokomotivlərin və müxtəlif təmayüllü vaqonların əsaslı təmiri

texnologiyası Azərbaycanda ilk dəfə olaraq mənimsənildi və təcrübəyə tətbiq edildi, nəticədə dəmiryolu ilə yük daşımaJannm həcmi 1995-2007- ci illərdə 4 dəfə artmışdır. Azərbaycanm özünün olduqca əlverişli coğrafi vəziyyətinə görə valyuta qazanmaq imkanlan var. Astara stansiyasından İran ərazisinə uzunluğu 5 kilometrdən çox olmayan dəmiıyolunun tikilməsi ilə həm külli miqdarda əlavə gəlir əldə edilə bilər, həm iqtisadi inkişafa təsir göstərər.

Azərbaycan təkcə neft-qaz kəmərlərinin keçdiyi oanzit ölkə deynl. Ölkəmiz, həmçinin dünyanın müxtəlif regionlarını birləşdirən ticarət yollarının kəsişdiyi mühüm strateji müvqeyə malikdir. Bu səbəbdən ötən əsrin qlobal layihələrindən biri olan Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhhziıin yaradılmasmda .^Lzərbaycan xüsusi rol oynamışdır. Dəhlizin istifadəyə verilməsi bir-birlərindən uzaqda yerləşən müxtəlif ölkələrə ticarət əlaqələrini genişləndirməyə böyük imkanlar yaratmış, Azərbaycan isə regionun ən böyük tranzit ölkəsinə çevrilmişdir. Həmin mövqenin möhkəmləndirilməsində artıq reallaşmağa başlayan Bakı- fbiİisi-Qars dəmüyolu büyük əhəmiyyətə malikdir. Bakı-l'bilisi-Qars dəmiıyolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazmdan dəmiryol tunelinin inşası Trans-Avropa və Trans-Asiya dəmiiy'ol şəbəkələrinin birləşdirilməsini, >1lk və səmişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çatdırılmasım təmin etməklə yanaşı, region ölkələrinin tianzit potensialımn artmasma, Avropaya inteqrasiya proseslərinin sürətləndirilməsinə, Avropa qonşuluq siyasəti çərziçəsində əməkdaşhğın daha da inkişafma, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişləndirilməsinə xidmət edir. Layihənin həyata keçirilməsi, həm də iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxmımdan böyük əhəmiyyət kəsb edir. Gələcəkdə Avi'opa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmiryoluna cəlb edilməsi eyni zamanda hər iki istiqamətdə intermodal və konteyner daşımalanmn həcmini artıracaq.

“Dəmir İpək Yolu” adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı-Tbüisi-Qars dəmiryolunun işə düşməsi ilə həm də Ermənistamn Azərbaycana hərbi təcavüzü ilə bağlı
1993- cü ildə Türkiyə ilə Orta Asiya arasmda kəsilmiş dəmiryolu yenidən bərpa olımacaqdır.

2007-ci il Noyabnn 21-də Gürcüstanm Tetro-Skaro rayonunda - Marabda stansiyasında Bakı-Tblisi-Qars dəmiryolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasma həsr olunmuş mərasimdə Azərbaycan Respublikasmm Prezidenti İlham Əliyev demişdir: “Bu yolun tikintisi bütün bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edir və mən

əmİDəm ki Bakı-'l'bilisi-Qars dəmiıyolunım işə düşməsi bölgəyə daha da çox təhlükəsizlik, daha da çox əməkdaşlıq gətirəcək və bu imkanlardan istifadə edən ölkələr, əlbəttə ki, regiond əməkdaşhq baxımmdan da bir- birinə yaxm olacaqlar. Mən hesab edirəm ki, bu layihə bölgədə nəqliyyat təhlükəsizliyinə də öz müsbət təsirini göstərəcəkdir. Bu gün enerji məsələlərinin ön plana çıxması nəticəsində daha çox enerji təhlükəsizliyi haqqında danışılır. Ancaq nəqliyyat təhlükəsizliyi ondan az əhəmiyyət daşımır. Biz bu yolun yaradılması ilə nəqliyyat təhlükəsizliyi məsələsinə öz töhfəmizi veririk".

Dəmiryolu nəqliyyatı infrastrukturunun gücləndirilməsi və bərpası üçün yeni lokomotivlərin, manevrli teplovozlann və onlann ehtiyat hissələrinin aimmasına, dəmiryolu sahələrində sahilbərkitmə işlərinin apanimasma və körpülərin yenidənqurulmasına 2008-ci ilin dövlət büdcəsindən 15,3 milyon manat həcmində dövlət vəsaiti ayrılmışdır.

Dəniz nəqliy^'atı. Su nəqliyyatı öz ucuzluğuna görə həmişə böyük üstünlüyə malik nolmuşdur. Azərbaycanm Volqaboyu, iran. Mərkəzi Asiya ölkələri ilə nəqhyyat əlaqələrində Xəzər dənizi tarixən mühüm rol oynamışdu-. XIX əsrin ikinci yansmdan başlayaraq Abşeron yanmadasmda neft sənayesinin sürətli inkişafi bu nəqliyyat növünün əhəmiyyətini hədsiz dərəcədə artmmşdır. 1913-cü ildə Xəzər dənizi ilə
6.6 mln, tdan >öik dövn'yyəsi həyata keçirilmişdir ki, bunun da 80%-ə qədəri neft məhsullan idi. Tarixi məlumatlar göstərir ki, o zamanki dəniz donanması kiçik gəmilərdən ibarət idi. 1902-ci ildə isə Bakı Beynəlxalq Dəniz Ticarəti limanımn əsası qoyulmuşdur.

Sovet hakimiyyəti illərində ölkəmizdə dəniz nəqliyyatı tamamilə yenidən qurulmuşdur. 1937-ci ildə müasir Bakı limamnın birinci hissəsi işə düşmüşdür. Xəzər hövzəsi SSRİ-nin ən mühüm nəqliyyat arteriyalarmdan biıi kimi 1956-cı ilə qədər ölkə dənizləri arasında yük dövriyyəsinə görə birinci yeri tuturdu. 1962-ci ildə işə salınmış Bakı- Krasnovodsk və 80-cı illərdə istifadəyə verilmiş Bakı-Bekdaş bərə xəttləri dəniz yük daşıraalannda mühüm yer tuturdu. 1990-cı ildə dəniz nəqliyyatı ilə 17. 8 mln. ton yük daşmmışdır. Onun 65%-i bərə xətləri ilə daşınmışdır. Müstəqillik əldə etdikdən sonrakı ilk illərdə bütün sahələrdə olduğu kimi nəqliyyat sektom da ciddi sarsıntilara məruz qaldı. 1990-
1994- cü illər ərzində dəniz nəqliyyatı ilə yük dövriyyəsi 17,8 mln. tondan 6.6 mhı. tona qədər azalımşchr. Ümumi siyasi-iqtisadi sabitliyin təmin olunması bu sahənin işinədə müsbət təsir göstərmişdir. 1995-2008-ci illər ərzində bu sahədə yük dövriyyəsi 2 dəfəyə qədər artmışdir. Xəzər hövzəsində gəmilərə sahib olan Xəzər Dəniz Gəmiçiliyinin rəsmi yaran

ma tarixi 1858-ci il may aymın 21 -i sayılır. Məlız bu tarixdə Rusiya senatımn fərmanı ilə «Qafqaz və Merkuri» Səhmdar Dənizçilik Cəmiyyəti yaradılmışdır. Xəzər Dəniz Gəmiçiliyi 1992-ci ilə qədər SSRİ Dəniz Donanması Nazirliyinin tərkibindəki 17 gəmiçilik idarəsindən biri idi. SSRİ dağıldıqdan sonra 15 Sovet Rcspublikalarmdan 7-si SSRİ dəniz donanmasına vaıis oldu. Onlardan biri də Xəzər Dəniz Gəmiçilijd oldu ki, onun da strukturuna aşağıdakılar daxildir:

- Donanma;
- Gəmi təmiri istehsalat birliyi ‘‘Xəzordənizgəmitənıiri”;
- Texniki xidmət və təmir bazası;
- Dəniz yollarıun hövzə idaıəçiliyi “Xəzərdənizyol”;
- “Xəzərdənizlayihə” elmi-tədqiqat institutu;
- informasiya hesablama mərkəzi;
- Ticarət, təchizat və agentlik təşkilatları və s.

Nəqliyyat donanması 71 nəqliyyat gəmisindən və 1 ədəd sudaşıyan gəmidən ibarətdir. Bunlardan 36-sı maye yük daşıyan gəmi-tankerlərdir, 7 ədədi gəmi-bərələr, 2 ədədi RO-RO tipli universal gəmi, 26 ədədi quru yükdaşıyan gəmilər ohnaqla cəmi 375 min tondur.

Nəqliyyat donanmasma 23 qum yükdaşıyan gəmisi Qaıa və Aralıq dənizlərində taym-çarter müqaviləsi əsasında kommersiya reysləri icra edir, qalan gəmilər Xəzər hövzəsində istismar olunui’. Gəmiçilik Xəzərdə Avropa-Qafqaz-Asiya (TOASECA) nəqliyyat dəhlizində bağlayıcı rolu oynayır. Transxəzər istiqamətində yüklərin daşınması üçün hazırda dəmir yol vaqonları, avtomaşınlar və sərnişin daşıyan gəmi-bərələrindən və tankerlərdən istifadə olunur. Onu da qeyd etmək lazımdır ki, Xəzər Dəniz Gəmiçiliyinin tanker donanması Xəzərdə ən güclüdür.

Avrasiya dəhlizi Çinin Lyanyunqan limanmdan başlayaraq Avstriyamn paytaxtı Vena şəhərinədək uzann. Bu təxminən 11-12 min km məsafədir. Yüklər müxtəlif növ nəqliy>'at vasitələri ilə fərqli qanunvericiliklərə, gömrük və sərhəd prosedurlarına malik olan bir çox ölkələrdən keçirilməklə daşınır. Avrasiya dəhlizi Xəzər Dəniz Gəmiçiliyi üçün Xəzərdə əsas yük bazasıdır.

Daşınmalar Xəzər Dəniz Gəmiçiliyinin tankerləri ilə Aktau-Abşeron, Alaca-Abşeron, Alaca-Bakı, Okarem-Abşeron, Okarem-Bakı, Aktau-Bakı və l'ürkmənbaşı-Bakı marşmtlan üzıə icra edilir.

Tankerlərin >üiklənib-boşalmasını sürətləndirmək məqsədi ilə Sanqaçalda neft terminah istismaıa verilmişdir. Gəmiçiliyin nəzdində fəaliyyət göstərən “Xəzərdəniz>'or’ İdarəsinin əsası 1928-ci qoyulub. Yaranmasının əsas səbəbi isə limanlann tikilməsi, hövzədə yük

axınlanmn artması ilə əlaqədar olaraq tutumu və suya oturma dərəcəsi böyük olan mövcud gəmilərin rekonstruksiyası zərurəti idi.

“Xozordoniz>'Oİ” dibdərinləşdiimə işlərini, gəmiçiliyin təhlükəsizliyindən ötrü naviqasiya vasitələrinin qoyulmasını və onlara xidmətin göstərilməsini, yeni dəniz yollanmn, kanallarm salumıasmı, yeni ərazilərin yuyulmasını və başqa bu kimi işləri həyata keçirir.

Bütün keçən illər ərzində “Xəzərdənizyol” idarəsi Xəzər dənizinin bütün limanlarında dibdərinləşdinnə işləri aparılmışdır.

Bakı Dəniz Ticarət Limanı. Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra, 1992-ci ildə yanvar ayımn 1-dən etibarən Bakı Dəniz Ticarət Limam Xəzər Dəniz Gəmiçiliyinin strukturundan çıxaraq müstəqil müəssisə olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 28 noyabr tarixli 407 saylı qərarı ilə Bakı Beynəlxalq Dəniz Ticarəti Limanmm ıizanmaməsi təsdiq edilmişdir. Bu nizamnaməyə əsasən liman, hüquqi şəxs olaraq tam təsərrüfat hesablı və özünü maliyyələşdirmə prinsipləri əsamda fəaliyyət göstərir.

Liman il boyu günün 24 saatı ərzində fasiləsiz iş cədvəli əsasmda işləyir. Liman 5 teraıinaldan ibarətdir:

1. əsas yük terminalı;
2. konteyner terminalı;
3. bərə terminalı;
4. dübəndi neft terminalı;
5. sərnişin temıiıtalı.

<u>Əsas vük terminalı</u> ümumi uzunluğu 858 m-ə bərabər olan 7 körpüdən ibarətdir. Bu körpülərdən biri xüsusi olaraq «RO-Ro» tipli gəmilərin qəbulu üçün nəzərdə tutulub. Körpüdə suyun dərinliyi 7 metrə bərabərdir. Texniki bazasmda yük qaldnma qabiliyyəti 5 tondan 40 tona kimi olan 16 portal kranlan, 1. 5 tondan 10 tona kimi müxtəlif növ avto>^kIəyiciləri, 100 ədəd roltre>derlər və «Sisu» markalı dartıcı traktorlan vardu.

Terminalm Dəmiryolu xətlərinin uzunluğu 8 km-dir. Manevr işləri üçün 4 ədəd teplovozu, lokomotiv briqadası, deposu, Dəmiryolu və avtomaşm tərəziləri vardır.

Konteyner terminalı ildə 15000 ədəd konteyner qəbul etmək gücünə malikdir.

Bərə terminalı hər birinin uzunluğu 87 metrə bərabər olan 2 qaldırıcı körpüyə malikdii'. Körpülərin yanmda suyun dərinliyi 8-10 metrə bərabərdir. Bərə hər reys üçün 28 vaqon və ya 45 treyler yük maşını, 202

nəfər sərnişin və 50 ədəd minik maşını götürə bilər. Terminal ildə 8 milyon ton yük aşırma gücünə malikdir.

Neft terminalı ümumi uzunluğu 582 metr olan 4 körpüyə malikdir. Onlardan ikisi istismardadır. Eyni zamanda 5000 tondan 12000 tona qədər ağırlıqda 4 tankerə xidmət göstərilə bilər. Körpülərin yaıunda suyun dərinliyi 9,6 meddn. Neft terminalı ildə 10 milyon ton yük aşırma gücünə malikdir.

Sənişin teıminalında uzunluğu 130 metr olan körpü vaıdır. Teıminalda gəzinti gəmiləri Bakı əhalisi və şəhərimizin qonaqlanna xidmət edir. Bakı Dəniz Lhnanmda həmçinin Liman Donanması fəaliyyət göstərir. Donanmaya 20 gəmi daxildir.

Xəzər dənizində beynəlxalq daşımalann, xüsusən xam neftin tranzit nəqlinin kəskin sürətdə artınıması, digər Xəzəıyam dövlətlətin regionda apanlan rəqabətliliyinin sərtləşdirilməsi şəraitində Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin hövzədə, xüsusilə Şərq-Qərb dəhlizində neft yüklərinin apancı daşıyıcı mövqeyinin saxlanması və güclondiiilməsi ölkənin dəniz nəqli>'yatının əsas vəzifələrini təşkil edir.

Bu vəzifələrə nail olmaq məqsədilə 2008-2011-ci illərdə Gəmiçiliyin ticarət donanmasının yeniləşdirilməsi və modernləşdirilməsi, xüsusən neft yükləri daşıyan tankerlərin və bərə gəmilərin təzələnməsi və ümumi yükgötürmə qabiliyyətinin artırılması nəzərdə tutulur.

Proqnozlaşdırılan dövrdə Xəzər dənizinin Abşeron akvatoriyasında liman intrastruktuıunun yenidənqurulması, yeni limanlann, neft teıminallarmın inşası Bakı liman rayonunun regionda neft və digər ixrac yüklərin aşırılması, ötürühnəsi və sonrakı istehsalı üçün toplanması, işlənilməsi üzrə mərkəzi qovşağa çevrilməsinə imkan yaradacaqdır.

Avtomobil nəqliyyatı. Azərbaycanda avtomobil nəqliyyatmm tarixi 20-ci əsrin əvvəllərinə təsadüf edir. 1911-ci üdə Azərbaycanda cəmi 36 ədəd avtomobil olmuşdur. Bərk örtüklü yollann uzunluğu isə cəmi 210 km idi. 1918-ci ilə qədər Çar Rusiyasmm tərkib hissəsində olan Azərbaycamn inkişafma uyğun yol quruluşu və yol təsərrüfatı inkişaf etdirilirdi. Bu dövrdə yol təsərrüfatımn inkişaft əsasən qubemiyalaruı daxili ərazilərində aparılırdı.

1918-ci ilə doğru avtomaşınlarm sayı artsa da, yol texnikası çox az artmışdı. Avtomobil yollarmm tikinti bazası yaradılmış, ona maşın və mexanizmlər aynimışdır. Artıq 10 ədəd tımllı traktor, 15 ədəd yük maşuu, 4 qr^der, 12 vərdənə və mexanian var idi.

1918-ci ildə Azərbaycamn ümumi avtomobil yollarmm uzunluğu 3850 km-ə çatmışdır. Bu artım əsasən təbii yollann hesabına olmuşdur.

28 may 1918-ci üdə Azərbaycan Demokratüc Respublikasının (ADR) yaranması ilə əlaqədar Milli Şuranın tərkibində Yol, Poçt və Teleqraf Nazirli>d təşkü edüdi. ADR-nin süqutundan sonra 1920-ci ildə Xalq Komisarlan Sovetinin İşlər İdarəsi yanmda Şosse və Torpaq Yollan şöbəsi yaradıldı. 1920-ci ildə həmin şöbə Şosse-Su Təsərrüfatı İdarəsinə, 1924-cü ildə Şosse və Torpaq Yollan İdarəsinə, 1928-ci ildə Şosse- Torpaq Yollan və A\1omobil Nəqliyyatı Baş İdarəsinə (“r\zbaşyolnəqliyyat”), 1937-ci ildə yenidən Şosse Yollan şöbəsinə çevrilmişdir.

1920-1930-cu illərdə əsasən neft sənayesində texnoloji və xüsusi məqsədlər üçün ixtisaslaşdınimış avtomobil paıkı yaranmağa başlamışdı.

1926-cı ildə respublikada 896 ədəd avtomobil olmuşdur ki, onlardanda 275 ədədi ininik, 518 ədədi yük və 103 ədədi ixtisaslaşdırılmış avtomobillər idi. Yük avtomobillərinin 400-dən bir qədər çoxu “Azneftin” sərəncammda idi.

Avtomobil parkmm artması şosse yollarmm uzunluğunun artmasına səbəb oldu. Həmin dövrdə şosse yoUannın uzunluğu 6500 km, o cümlədən 2300 km ittifaq və respublika əhəmiyyətli yollar təşkil edirdi.

Avtomobil daşmmasımn inkişafmda mövcud avtomobil yoUanmu vəziyyəti mühüm rol oynayır. Şəbəkənin yaxşüaşdınlması, genişləndirilməsi, öıtüyün keyfiyyətinin yüksəldilməsi, şəhərlərdə və kənd yaşa>nş məntəqələrində yollann işıqlandmlması üzrə konkret tədbirlər həyata keçirmək lazmıdır.

Avtomobil və yol - vahid kompleksdir, bunlar bir-birilə qarşıhqh əlaqədədir. Yollar insanların estetik və intelektual tələblərinə cavab verməli, onlarla “münasibəf’də lazımi ekoloji, bədii və əxlaqi təsirə malik olmalıdır. Ən başlıcası da odur ki, yollar yüklərin və adamlann tez və təhlükəsiz mənzil başma çatdınlması üçün yüksək keyfiyyətli olmalıdır.

Sovet hakimiyyəti illərində şose yoUanmn çəkilişinə xüsusi diqqət verilmişdir. 1940-cı illədək Bakı-Şamaxı, Bakı-Qusar, Lənkəran-Lerük, Yevlax-Gəncə, Masallı-Lənkəran, Bakı-Salyan-Cəlilabad, Salyan-Qazıməmməd, Lənkəran-Astara şose yolları çəkilmişdir. Bu yollann ümumi uzunluğu 2550 km-dən artıq idi. Böyük Vətən müharibəsi illərində Bakı-Astara, Culfa-Şərur, Uzuntala-Qazax-Qırmızı körpü, Bakı- Şamaxı arasmdakı 919 km uzımluğunda olan yeni şose yollannm yenidən qurulması işləri daha da sürətləndi.

1985-ci üdə respublikada 24,2 min km avtomobü yolu olmuşdur ki, bunun da 22,4 min km-i bərk örtüyə malik idi. Bərk örtüklü yollann 9,3

min km-i asfalt-beton döşənmiş qara şose olmuşdur. Halbuki, 1940-cı ildə respublikada cəmi 60 km bu cür yol var idi. 1940-cı ilə nisbətən 1985-ci ildə .Azərbaycan SSRİ-də avtomobil yollarının uzunluğu 2,2 dəfə, bərk örtüklü yolların uzunluğu isə 7,5 dəfə artmışdn'. Eyni zamanda həmin döwdə respublikanın av'tomobil nəqliyyatmda yük daşınması 29 mln. tondan 437,2 mln. tona çataıaq 15 dəfə artmışdır.

Keçmiş SSRİ-də nəqlyyatda disproporsiyala!' yaranmışdır: uzun müddət avtomobil daşımalarınuı, yük və minik avtomobillərinin buraxıl- masmnı artun sürətləri yol tikintisinin və yol istisman xidmətlərinin inkişafıım artımmı qabaqlamışdır. Bu yollarda qəzalann saymm artması nəticəsində böyük itkilərə və sosial ziyana yol verilmişdir.

Qeyd edildiyi kimi Ölkəmizin bütün nəqliyyat növləri dəmir yol, dəniz, hava, boru və avtomobil nəqliyyatı ilə təmsil olunması, eləcə də onlann hər birinin ayn-aynlıqda milli NXB-mn tərkib hissəsini təşkil etməsi ümumi halda dövlətimizdə, .sahəvi bazar kompleksinin tam formalaşmasma imkan vem. Milli nəqliyyat xidmətləri bazannda nəqliyyat xidmətlərinin ümumi səmərəlilik meyarlarına aşağıdakıları aid etmək mümkündür:

- nəqliyyat xidmətlərindən istifadə edənlər üçün (əsasən ümumi nəqliyy^at xərclərinin, o cümlədən məhsulun nəqletmədə itkisiz saxlaml- ması, korlanmaması və oğurlanmaması məqsədləri üçün minimal xərclərin olmasım) nisbətən yüksək çatdırılma sürəti, fasiləsizlik, daşınmaların əlverişli dəyəri;
- cəmiyyət üçün - ətraf mühütin, ekologiyamn mühafizəsi, cəmiyyətin ayn-ayn sosial təbəqələrinin təlabatmm təmin edilməsi və s.

Təqdirəlayiq haldır ki, son illər ölkəmizdə bütün dünyada olduğu kimi, nəqliyyat kompleksinin fəaliyyətinin tənzimlənməsi istiqa-mətində onun hüquqi-iqtisadi və təşkilati əsaslarmı müəyyənləşdirən “Nəqliyyat haqqmda” Azərbaycan Respublikasımn qanunu (1999-cu il) qəbul edilmişdir. Həmin qanun “Nəqliyyatın iqtisadi fəaliyyətinin əsaslan” adlı III fəslin, 8-ci maddəsində “Nəqliyyatın iqtisadi fəaliyyətinin əsaslan” başlığı altmda nəqliyyat xidmətlərinin mahiyyəti daha dolğun şəkildə təsvir olunmuşdur:

- Nəqliyyatda iqtisadi münasibətlərin əsasım nəqliyyat xidmətlərinə tələb və təkliflər bazan formalaşdmr;
- Nəqliyyat müəssisələri və daşıyıcılar öz fəaliyyətlərini kommersiya və təsənüfat prinsipləri əsasmda həyata keçirə bilərlər;

- Nəqliyyat müəssisələri və daşıyıcıları nəqliyyat xidmətlərini qanunvericiliyə uyğun bağlanmış müqavilələr əsasında həyata keçirmək imkanma malikdirlər və s.

İndi isə, Azərbaycan RespubliJcasında son illər ərzində, avtomobil nəqliyyatı üzrə nəqliyyat xidmətləri bazarının formalaşması xüsusiyyətlərini nəzərdən keçiı ək.

